BÜDCƏ SİSTEMİ

(DƏRSLİK)

BAKI - 2003

MÜNDƏRİCAT

downloaded from KitabYurdu.az

GİRİŞ……7

I BÖLMƏ. AZƏRBAYCAN RESPUBLİKASININ BÜDCƏ QURULUŞU VƏ BÜDCƏ SİSTEMİ

I fəsil. Büdcə, büdcə quruluşu və büdcə sistemi ……..…..11
1.1. Büdcənin iqtisadi mahiyyəti və rolu…… .11
1.2. Büdcə quruluşu və büdcə sistemi……15
1.3. Büdcələrarası münasibətlər, büdcələrin tənzimlənməsi ……...21

II fəsil. Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının büdcə hüquqları ……29
2.1. Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanlarının büdcə hüquqları.....29
2.2. Yerli özünüidarə orqanlarının büdcə hüquqları……..……36

III fəsil. Azərbaycan Respublikasının büdcə həlqələri…..40
3.1. Azərbaycan Respublikasının dövlət büdcəsi …40
3.2. Bələdiyyə (yerli) büdcələri ……...50

IV fəsil. Büdcə təsnifatı ……..58
4.1. Büdcə təsnifatının məzmunu…….58
4.2.Büdcə təsnifatının tərkib elementləri…….61

II BÖLMƏ. BÜDCƏNİN GƏLİRLƏRİ

V fəsil. Büdcənin vergili və qeyri-vergili gəlirləri ……..71
5.1. Vergilərin mahiyyəti və funksiyaları ..... ….71
5.2. Azərbaycanın vergi sisteminin təşəkkülü və inkişafı …… ……..77
5.3. Müasir vergi sistemi və vergilərin təsnifatı..88
5.4.Büdcənin qeyri-vergili gəlirləri …….94

VI fəsil. Hüquqi şəxslərin mənfəət vergisi ……95

downloaded from KitabYurdu.az

VII fəsil. Fiziki şəxslərin gəlir vergisi ……...104
VIII fəsil. Əlavə dəyər vergisi ……112
IX fəsil. Aksizlər ……..121
X fəsil. Əmlak vergisi ……..128
10.1.Hüquqi şəxslərin əmlak vergisi ……..128
10.2.Fiziki şəxslərin əmlak vergisi ……132
XI fəsil. Torpaq vergisi ……135
XII fəsil. Mədən vergisi ……...140
XIII fəsil. Yol vergisi ……...143
XIV fəsil. Sadələşdirilmiş vergi ……146
XV fəsil. Dövlət rüsumları ……..149
XVI fəsil. Gömrük rüsumları ……156

III BÖLMƏ. BÜDCƏNİN XƏRCLƏRİ

XVII fəsil. Büdcə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi……..165
17.1.Büdcə xərcləri sistemi……...165
17.2. Büdcə xərclərinin planlaşdırılmasının əsasları ……170
XVIII fəsil. Maddi istehsal sahələrinin inkişafına büdcə xərcləri……173
18.1. Müəssisələrin maliyyəsi və büdcə ……173
18.2. İstehsalın inkişafına büdcə xərcləri…. ……178
XIX fəsil. Qeyri-istehsal sahələri xərclərinin maliyyələşdirilməsi ……..182
XX fəsil. Ümumdövlət xidmətləri, məhkəmə hakimiyyəti, müdafiə xərcləri, hüquq-mühafizə, təhlükə-sizlik orqanlarının və prokurorluğun saxlan-ması xərcləri……..187
XXI fəsil. Mənzil-kommunal təsərrüfatının maliyyələşdirilməsi…… ……..199
XXII fəsil. Təhsil xərcləri……207

downloaded from KitabYurdu.az

22.1. Təhsil üzrə büdcə xərclərinin sosial mahiyyəti……..….209
22.2. Ümumtəhsil məktəblərinin saxlanması xərclərinin maliyyələşdirilməsi ……....211
22.3 Məktəb-internat və məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin xərclərinin maliyyələşdirilməsi……220
22.4.Kadr hazırlığı xərclərinin maliyyələşdirilməsi ……....224
XXIII fəsil. Səhiyyə xərcləri……..…..…229
23.1. Səhiyyə müəssisələrinin saxlanması xərclərinin tərkibi və quruluşu……..…229
23.2. Səhiyyə işçilərinin əmək haqqı xərclərinin planlaşdırılması……..233
23.3. Səhiyyə üzrə sair xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi……236
23.4. Əhalinin sağlamlığının qorunması tədbirlərinin maliyyələşdirilməsi….....242
XXIV fəsil. Sosial müdafiə və sosial tə' minat xərcləri ...246
XXV fəsil. Dövlət borcları və dövlət zəmanətləri ……261
25.1. Dövlət borclarının və dövlət zəmanətlərinin İqtisadi mahiyyəti, əsas anlayışlar ……..261
25.2. Azərbaycan Respublikasının daxili dövlət borcunun formaları və tərkibi.....266
25.3. Azərbaycan Respublikasının xarici borcunun formaları və tərkibi ……..…273
XXVI fəsil. Büdcədənkənar fondlar və onların sosial-iqtisadi mahiyyəti ……277

IV BÖLMƏ. BÜDCƏ PROSESİNİN TƏŞKİLİ ƏSASLARI

downloaded from KitabYurdu.az

XXVII fəsil. Büdcə proqnozlaşdırılması ……...283
27.1.Maliyyə-büdcə siyasəti ……283
27.2.Toplu maliyyə planlaşdırılması ……288
27.3.Büdcə proqnozlaşdırılması ……292
27.4.Büdcə layihəsinin tərtibi ……299
27.5. Büdcə layihəsinə baxılması və təsdiq edilməsi ……..305
XXVIII fəsil. Büdcənin icrasının təşkili ……315
28.1. Büdcənin icrasının əsas prinsirləri ……315
28.2. Büdcənin icrasında dövlət xəzinədarlığının rolu……..325
28.3. Dövlət büdcəsinin icrasına nəzarət ……333
28.4.Büdcənin icrasının təhlili ……...339
28.5. Büdcə kəsiri və onun idarə edilməsi ……345

V BÖLMƏ. MALİYYƏ VƏ VERGİ ORQANLARININ BÜDCƏNİN İCRASI ÜZRƏ NƏZARƏT İŞİ

XXIX fəsil. Büdcənin icrası üzrə maliyyə və vergi nəzarəti……353
29.1. Dövlət büdcəsinin icrasına maliyyənəzarəti…353
29.2. Vergi nəzarətinin təşkili formaları və yoxlama üsulları ……362
XXX fəsil. Büdcə sistemində informasiya axınının avtomatlaşdırılması ……370
30.1. Büdcə prosesində informasiya texnologiyasının rolu ……370
30.2. Maliyyənin idarə edilməsində informasiya sisteminin rolu ……374
30.3.Vergi sistemində proqressiv informasiya texnologiyaları ……378

downloaded from KitabYurdu.az

ƏLAVƏLƏR

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu ……385

ƏDƏBİYYAT

……416

GİRİŞ

Yeni iqtisadi sistemə keçid dövrünə daxil olan Azərbaycan Respublikasının maliyyə-kredit sistemində – o cümlədən, onun əsas həlqəsi olan büdcə sistemində əsaslı islahatlar aparılır. Demokratik prinsiplərə müvafiq olaraq mərkəzi hakimiyyət və yerli özünüidarə orqanlarının təsərrüfat və sosial-mədəni quruculuq fəaliyyətində mühüm dəyişikliklər baş verir və buna uyğun olaraq respublikanın maliyyə-büdcə-vergi qanunvericiliyi də yenidən qurulur və təkmilləşdirilir.

Respublikanın iqtisadi sisteminin sağlamlaşdırılması və inkişaf etdirilməsinin əsas şərtlərindən biri dövlətin təşkilatçılıq rolunun gücləndirilməsidir ki, bu da başlıca olaraq dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondu olan büdcə vasitəsilə həyata keçirilə bilər. Respublikanın ayrı-ayrı regionlarında məhsuldar qüvvələrin hərtərəfli inkişaf etdirilməsi və yerli özünüidarə orqanları ilə birlikdə kiçik və orta sahibkarlığın inkişafına maliyyə yardımı göstərilməsi üçün dövlət büdcəsi xüsusi rol oynayır.

Ona görə də Azərbaycanda dövlət maliyyəsinin, o cümlədən büdcə sisteminin nəzəri problemləri və praktiki məsələləri əsaslı surətdə tədqiq olunmalı, yeni şəraitə uyğun

downloaded from KitabYurdu.az

olaraq büdcə quruculuğu məsələləri hərtərəfli işıqlandırılmalıdır. Bu istiqamətdə qarşıya çıxan çətinlikləri həll etmək üçün maliyyə-büdcə sisteminin hüquqi bazası da paralel surətdə yenidən qurulmalı və təkmilləşdirilməlidir. Əks təqdirdə büdcə sisteminin və onun ayrı-ayrı həlqələrinin gəlirlərinin formalaşması və onların xərclərinin maliyyə təminatı sahəsində mövcud problemlərin həlli çətinləşərdi.

Azərbaycan Respublikası son illərdə iqtisadi-sosial inkişaf sahəsində əhəmiyyətli uğurlar qazansa da bu istiqamətdə bir sıra problemlər mövcuddur və həmin problemlərin həlli üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müdrik rəhbərliyi altında məqsədyönlü siyasi və iqtisadi-sosial islahatlar aparılır.

Azərbaycan Respublikasının büdcə sistemi və büdcə prosesinin əsasları Azərbaycan Respublikasının Konstitusiyası, «Vergi Məcəlləsi», «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə tənzimlənir. Lakin büdcə sisteminin formalaşması və fəaliyyət göstərməsinin bir sıra nəzəri və təcrübi məsələləri hüquqi və iqtisadi cəhətdən müəyyən uyğunsuzluqlarla qarşılaşır. Ona görə də Respublikada «Büdcə Məcəlləsi»nin işlənib hazırlanması və qəbul edilməsi də olduqca vacibdir.

Azərbaycan Respublikasının büdcə sisteminin qurulması prinsipləri, büdcənin gəlirləri və xərclərinin formalaşması, büdcənin tərtibi, müzakirəsi və icrasının təşkili məsələləri nəinki təkcə bu sahədə çalışan mütəxəssisləri, həm də çoxsaylı vergi ödəyicilərini və büdcə vəsaitini istifadə edən hüquqi və fiziki şəxsləri maraqlandırır. Bu baxımdan təqdim edilən dərslik nəzəri və təcrübi cəhətdən zəruri bilik əldə edilməsinə xidmət edir.

downloaded from KitabYurdu.az

Bütün səviyyələrdən olan büdcələrin formalaşması və istifadə edilməsi ilə bağlı problemlərin həlli ölkədə mövcüd sosial gərginliyin aradan qaldırılmasına bilavasitə xidmət edir. Ona görə də icra hakimiyyəti nümayəndələri, millət vəkilləri, müəssisə və təşkilatların rəhbərləri büdcələrin formalaşması və icrası məsələlərinin incəliklərindən, vergi mexanizminin fəaliyyətindən baş çıxarmalıdırlar. Digər tərəfdən, qlobollaşan dünyanın müasir mürəkkəb maliyyə-kredit sistemindən baş çıxara bilən yüksək ixtisaslı mütəxəssisələrə tələbat artmışdır. Təsadüfi deyildir ki, maliyyə-kredit ixtisası üzrə təhsil alan tələbələrin və aspirantların sayı xeyli artmışdır. Respublikamızda «Büdcə sistemi» dərsliyinin olmaması «Büdcə uçotu», «Büdcə təşkilatlarında maliyyə menecmenti», «Büdcənin icrasında xəzinədarlıq», «Yerli özünüidarə orqanlarının büdcələrinin formalaşması və icrası» və s. məsələlərin həllində ciddi metodiki çətinliklər meydana çıxır. Təqdim edilən dərsliyi dərc etməklə müəlliflər ümid edirlər ki, bu sahədə mövcud olan boşluğu qismən də olsa ödəyə biləcəklər.

Dərslikdə büdcə sisteminin formalaşması və icrası prosesinin həm nəzəri, həm də təcrübi məsələləri ardıcıl surətdə nəzərdən keçirilmişdir.

I bölmədə Azərbaycan Respublikasının büdcə quruluşu və büdcə sistemi nəzərdən keçirilmiş, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının büdcə hüquqları şərh edilmiş və büdcə təsnifatı verilmişdir.

II bölmə büdcənin gəlirlərinə həsr olunmuşdur. Büdcənin bütün həlqələrinin əsas gəlir mənbəyi vergili gəlirlərdən ibarət olduğuna görə müvafiq fəsillərdə vergili gəlirlərin hesablanması və büdcəyə ödənilməsi məsələlərinin işıqlandırılmasına geniş yer verilmişdir.

downloaded from KitabYurdu.az

III bölmə büdcə xərclərinə aid edilmişdir. Burada büdcə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsinin əsasları göstərilmiş, büdcənin xərclərinin tərkibi, quruluşu və dinamikası təhlil edilmiş, maddi-istehsal və sosial-mədəni sahələrin inkişafına büdcə xərclərinin planlaşdırılması və maliyyələşdirilməsi xüsusiyyətlərinə geniş yer verilmişdir.

IV bölmə büdcə prosesinin təşkilinə həsr edilmişdir. Burada, büdcənin tərtibi, müzakirəsi, təsdiqi, büdcənin icrasının təşkili məsələlərinin işıqlandırılmasına diqqət yetirilmiş, büdcənin icrasında dövlət xəzinədarlığının rolu göstərilmişdir. Bölmə büdcə kəsiri və onun idarə edilməsi fəsli ilə yekunlaşır.

V bölmə maliyyə və vergi orqanlarının büdcənin icrası üzrə nəzarət işinə həsr edilmiş, büdcənin icrası üzərində maliyyə nəzarətinin formaları ətraflı şərh edilmişdir. Bu bölmədə büdcənin informasiya sisteminin avtomatlaşdırılması, maliyyənin idarə edilməsində informasiya sisteminin rolu məsələsinə də əhəmiyyətli yer ayrılmışdır.

Təqdim edilmiş «Büdcə sistemi» dərsliyi «Maliyyə-kredit», «Vergilər və vergitutma», «Vergi işinin təşkili və idarə edilməsi», «Gömrük işinin təşkili və idarə edilməsi», «Sığorta işi» və digər ixtisaslar üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Kitab həm də iqtisad təmayüllü ixtisaslar üzrə təhsil alan tələbələr, aspirantlar və müəllimlər və eləcə də maliyyə-büdcə problemləri ilə məşğül olan mütəxəssislər üçün də faydalı olacaqdır.

Dərsliyin müəllifləri öz dəyərli məsləhətlərinə görə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Fərhad oğlu Musayevə öz minnətdarlıqlarını bildirirlər.

downloaded from KitabYurdu.az

Müəlliflər ilk dəfə nəşr olunmuş dərsliyin daha da təkmilləşdirilməsi məqsədilə oxucuların verəcəkləri faydalı təkliflərə və iradlara görə onlara əvvəlcədən öz təşəkkürünü bildirirlər.

I BÖLMƏ

AZƏRBAYCAN RESPUBLİKASININ BÜDCƏ QURULUŞU VƏ BÜDCƏ SİSTEMİ

I fəsil. BÜDCƏ, BÜDCƏ QURULUŞU VƏ BÜDCƏ SİSTEMİ

1.1. Büdcənin iqtisadi mahiyyəti və rolu

Cəmiyyətin iqtisadi-siyasi və sosial strukturunun formalaşması və inkişafının hər bir mərhələsində həyata keçirilən dövlət tənzimlənməsinin böyük rolu vardır. Dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsinin əsas mexanizmi maliyyə sistemi və onun tərkib hissəsi olan büdcə sistemidir. Büdcə vasitəsilə dövlətin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaranması və istifadəsi həyata keçirilir.

Tarixən "budget" məvhumu ingilis mənşəli söz olub çanta, torba mə'nasında işlənmişdir. XVIII əsrdən e'tibarən

downloaded from KitabYurdu.az

maliyyə kateqoriyası kimi leksikona daxil olmuş, mə'na e'tibarilə xəzinə sözünə yaxın olmuşdur.

Büdcə – Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

Büdcə vasitəsilə dövlət və bələdiyyə orqanları öz üzərilərinə düşən vəzifə və funksiyaları yerinə yetirir. Belə ki, dövlət büdcə vəsaiti hesabına idarəetmə apparatını və ordunu saxlayır, sosial-mədəni tədbirləri həyata keçirir, iqtisadiyyatı tənzimləyir və inkişaf etdirir.

Büdcə dövlətin və bələdiyyələrin əsas maliyyə planı olmaqla, dövlət hakimiyyəti və bələdiyyə orqanlarına onların fəaliyyətini yerinə yetirməyə imkan verir. Büdcə dövlətin maliyyə vəziyyətini əks etdirir və buna əsasən ölkədə vergi siyasətini müəyyən edir. Büdcə ölkədə milli gəlirin və ümumdaxili məhsulun (ÜDM) yenidən bölgüsünü həyata keçirir, pul vəsaitləri fondlarının xərc istiqamtlərini müəyyənləşdirir, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini həyata keçirir.

Büdcə maliyyə münasibətlərini əks etdirən tarixi iqtisadi kateqoriyadır. Onun yaranması və inkişafı dövlətin yaranması və formalaşması ilə bilavasitə əlaqədədir. Dövlət büdcədən özünün funksiyalarının həyata keçirmək üçün əsas iqtisadi alət kimi istifadə edərək, eyni zamanda iqtisadi və sosial siyasəti də həyata keçirir.

Büdcə iqtisadi kateqoriya kimi maliyyə sisteminin tərkib hissəsidir, pul münasibətlərini təzahür etdirir və maliyyənin funksiyalarını özündə əks etdirir.

Büdcə aşağıdakı funksiyaları həyata keçirir:

- ümumi daxili məhsulun yenidən bölüşdürülməsi;

downloaded from KitabYurdu.az

• iqtisadiyyatın dövlət tənzimlənməsi və həvəsləndirilməsi;

• dövlətin sosial siyasətinin həyata keçirilməsinin maliyyə təminatı;

• mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi üzərində nəzarət.

Büdcənin *bölüşdürücü funksiyası* dövlət və yerli özünüidarə orqanları səviyyəsində pul fondlarının yaradılması və istifadəsi formasında özünü biruzə verir. İnkişaf etmiş ölkələrdə müxtəlif səviyyəli büdcələr vasitəsilə ÜDM-un 30-50%-ə qədəri yenidən bölüşdürülür. Azərbaycan Respublikasının ÜDM-u 2001-ci ildə 24,6 trl. manat, dövlət büdcəsinin gəlirləri 3,9 trl. manat, xərcləri isə 4,0 trl. manat olmuşdur. Başqa sözlə, ÜDM-un bölgüsündə dövlət büdcəsi gəlirlərinin xüsusi çəkisi 16,0%, xərclərinin isə xüsusi çəkisi 16,4% olmuşdur. 2002-ci ildə ÜDM-un həcmi 29,9 trl. manat, dövlət büdcəsinin gəlirləri 4,8 trl. manat, xərcləri isə 5,1 trl. manat, gəlirlərin ÜDM-da xüsusi çəkisinin 16,1%, xərclərin xüsusi çəkisinin isə 17,1% olması proqnozlaşdırılır.

Dövlət büdcəsi vasitəsilə ölkənin sosial sahələrinin maliyyələşdirilməsi təmin edilir, iqtisadi rayonların və ayrı-ayrı sahələrin inkişafı tənzimlənir. Dövlət iqtisadi münasibətlərin bu cür tənzimlənməsi vasitəsilə ölkədə məhsuldar qüvvələrin inkişafını tənzimləyir.

Büdcə vasitəsilə ÜDM-un yenidən bölgüsü eyni vaxtda həyata keçirilən və bir-birilə sıx əlaqədə olan ikitərəfli prosesdir:

- büdcənin gəlirlərinin yaradılması;
- büdcə vəsaitlərinin istifadəsi (büdcənin xərcləri).

Büdcə gəlirləri - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə

downloaded from KitabYurdu.az

orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır.

Büdcə gəlirlərinin yaranması prosesində, ictimai istehsal prosesində yeni yaranan ÜDM-un bir hissəsinin dövlətin və bələdiyyələrin xeyrinə məcburi yenidən bölüşdürülməsi baş verir. Bununla dövlətlə və bələdiyyə orqanları ilə vergi ödəyiciləri arasında maliyyə münasibətləri yaranır.

Büdcənin gəlirləri vergi ödəyicilərinə, vergitutma obyektlərinə, alınması üsullarına, ödənişin müddətinə və digər xüsusiyyətlərinə görə fərqlənirlər. Lakin, bununla belə onların ümumi cəhətləri vardır ki, bu da müxtəlif səviyyəli büdcələrin gəlir hissəsinin təşkil edilməsidir. Həmin gəlirlərin pul formasında və nağdsız qaydada daxil olması bütün büdcə səviyyələri üçün xas olan ümumi cəhətdir.

Büdcə gəlirləri vergilərdən, vergi olmayan gəlirlərdən, əsaslı gəlirlərdən və rəsmi qaydada alınan vəsaitlərdən (transfertlərdən) ibarətdir. Vergi gəlirlərinin əsas mənbəyini yenidən bölgü nəticəsində alınan (mənfəət, əmək haqqı, əlavə dəyər, ssuda faizi, dividendlər və s.) yeni yaradılmış dəyər, gəlirlər və yığım təşkil edir.

Büdcənin gəlirləri, yəni vergilərdən daxilolmalar, əsaslı gəlirlər və rəsmi qaydada alınan vəsaitlər dövlətin iqtisadi fəaliyyəti nəticəsində, ya da büdcə sisteminin səviyyələri üzrə alınmış gəlirlərin yenidən bölgüsü nəticəsində yaranır. Büdcənin gəlirlərinin strukturunda vergilərdən daxilolmalar 1996-cı ildə 83,3%, 1997-ci ildə 81,6%, 1998-ci ildə 73,1%, 1999-cu ildə 69,3%, 2000-ci ildə 71,4%, 2001-ci ildə isə 73,9%, vergi olmayan gəlirlər isə müvafiq olaraq 15,4%, 9,8%, 8,9%, 14,4%, 17,3% və 5,0 %

downloaded from KitabYurdu.az

olmuşdur. 2002-ci ildə vergi daxilolmalarının xüsusi çəkisi 75,7% proqnozlaşdırılır.

Büdcə gəlirlərinin strukturu dəyişkəndir və konkret iqtisadi şəraitlə əlaqədardır. Məsələn, həyat səviyyəsi yüksək olan ölkələrdə büdcə gəlirlərinin əsas hissəsini fiziki şəxslərdən alınan vergilər, həyat səviyyəsi aşağı olan ölkələrdə isə dolayı vergilər və hüquqi şəxslərdən alınan vergilər təşkil edir.

Büdcə xərcləri – büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir.

Büdcə xərcləri «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununa və hər il qəbul olunmuş «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq ayrı-ayrı təşkilatlar üzrə təsdiq olunmuş smetaya əsasən dövlət xəzinədarlıq orqanları vasitəsilə istifadəsi formasıdır.

Büdcə xərcləri bir çox hallarda transfert xarakteri daşıyır. Büdcədə xərc maddələri üzrə büdcə xərclərinin məbləği müəyyənləşdirilir. Bundan başqa, büdcə xərcləri hesabına büdcə vəsaitlərinin dotasiya, subvensiya, subsidiya və büdcə ssudaları vasitəsilə büdcə sisteminin səviyyələri üzrə yenidən bölgüsü baş verir. Büdcə xərcləri bu halda əsasən qaytarılmamaq prinsipi üzrə maliyyələşdirilirr. Qaytarılmamaq şərtilə verilən vəsait eyni zamanda büdcə krediti və büdcə ssudaları da ola bilər.

Büdcə xərclərinin strukturu hər il növbəti il üçün «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir və büdcə gəlirlərində olduğu kimi ictimai, siyasi, iqtisadi və sosial vəziyyətdən asılı olur.

downloaded from KitabYurdu.az

Büdcənin nəzarət funksiyası bölgü funksiyası ilə birgə fəaliyyət göstərir və büdcə vəsaitlərinin daxil olması və istifadəsinə dövlət nəzarətinin mümkünlüyünü və vacibliyini şərtləndirir.

Büdcə vəsaitlərinin istifadəsinə nəzarət iki formada həyata keçirilir: parlament nəzarəti və inzibati nəzarət.

1.2. Büdcə quruluşu və büdcə sistemi

Büdcə quruluşu ölkənin dövlət büdcəsinin və büdcə sisteminin təşkilini, onların ayrı-ayrı həlqələri arasında qarşılıqlı münasibətləri, büdcə sisteminə daxil olan büdcələrin fəaliyyətinin hüquqi-təşkilati əsaslarını, büdcələrin tərkib və strukturunu, büdcə vəsaitlərinin yaradılması və istifadəsinin üsullarını müəyyən edir.

Büdcə quruluşunun tərkib hissəsini büdcə sistemi təşkil edir.

Ölkənin vahid büdcə sistemində birləşdirilən dövlət büdcəsinin, ayrı-ayrı müstəqil büdcələrin və dövlət fondlarının məcmusu həmin dövlətin **büdcə sistemini** təşkil edir. Büdcə sisteminin qurulması və onun ayrı-ayrı həlqələri arasındakı qarşılıqlı maliyyə münasibətlərinin təşkili **büdcə quruluşu** adlanır.

Dövlətin büdcə quruluşu mövcud mülkiyyət münasibətləri və dövlətin siyasi-inzibati təşkili ilə müəyyən edilir. Büdcə sisteminin təşkili əsasları, onun ayrı-ayrı həlqələri arasındakı maliyyə münasibətlərinin təşkili prinsipləri dövlətin ali qanunvericiliyi, - Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir

downloaded from KitabYurdu.az


Büdcə sisteminin təşkili prinsipləri müəyyən edilərkən dövlətin inzibati-siyasi təşkili, onun sosial-iqtisadi əsasları nəzərə alınır.

Konfederativ (ittifaq) dövlət - müəyyən siyasi və ya hərbi məqsədlərə nail olmaq üçün yaradılan suveren dövlətlərin ittifaqıdır. Belə dövlətin büdcəsi konfederasiyaya daxil oln dövlətlərin üzvlük haqqları əsasında formalaşır. Bu dövlətlərin - konfederasiya üzvlərinin öz büdcələri və vergi sistemi fəaliyyət göstərir.


Federativ (birləşmiş) dövlət - bir dövlətin tərkibinə daxil olan dövlət təşkilatı və ya inzibati - ərazi təşkilatının dövlət quruluşu formasıdır. Bu zaman onların mərkəzlə bölünmüş səlahiyyətləri çərçivəsində dövlətçiliyi mövcuddur. Federativ dövlətlərin büdcə sistemi üç həlqəlidir və federal büdcədən, federasiya üzvlərinin büdcələrindən və yerli büdcələrdən ibarətdir. Federativ dövlətin büdcə sisteminə misal olaraq ABŞ-ın, AFR-nın və Rusiya Federasiyasının büdcə sistemini göstərmək olar (şəkil 1).

Unitar (vahid) dövlətlərdə vahid konstitusiya, vahid hüquq sistemi və vahid idarəetmə orqanı, dövlətdə iqtisadi, sosial və siyasi proseslərin mərkəzləşdirilmiş idarəetmə sistemi fəaliyyət göstərir. Unitar dövlətlərdə (məsələn, Böyük Britaniya, Fransa və s.) büdcə sistemi dövlət büdcəsindən və yerli özünüidarə orqanlarının büdcəsindən ibarətdir.

Şəkil 1. Rusiya Federasiyasının birləşmiş büdcə sistemi



downloaded from KitabYurdu.az




Azərbaycan Respublikasında büdcə sistemini Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr təşkil edir. Bu büdcələr arasında münasibətlər, onların formalaşması, prinsipləri, tərtibi prosesi, təsdiqi, icrası və icrasına nəzarət «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Azərbaycan Respublikasının büdcə sisteminin quruluşunun sxemi şəkil 2-də göstərilir.

Şəkil 2. Azərbaycan Respublikasının büdcə sistemi

Azərbaycan Respublikasının büdcə sistemi

downloaded from KitabYurdu.az



Azərbaycan Respublikasının büdcə sisteminin fəaliyyət prinsipləri aşağıdakılardır:

- büdcə sisteminin vahidliyi;
- büdcə sistemi səviyyələri arasında gəlir və xərclərin bölgüsü;
- müxtəlif səviyyəli büdcələrin müstəqilliyi;
- büdcələrin gəlir və xərclərinin, dövlət büdcədənkənar fondlarının həmin büdcələrdə tam əks etdirilməsi;
- büdcənin balanslaşdırılması;
- büdcə vəsaitlərindən səmərəli və qənaətlə istifadə edilməsi;
- büdcələrin xərclərinin ödənilməsinin ümumiliyi;
- aşkarlıq;
- büdcənin həqiqiliyi;
- büdcə vəsaitlərindən istifadənin ünvanlığı və məqsədli xarakteri.

downloaded from KitabYurdu.az

1. *Büdcə sisteminin vahidliyi* ümumi hüquqi bazanın, pul sisteminin, büdcə sənədləşdirilməsi formalarının, büdcə prosesi prinsiplərinin eyni olmasını, büdcə qanunvericiliyinin pozulmasına görə cərimələrinin tətbiqinin, eyni zamanda büdcə sisteminin bütün səviyyələrində büdcə xərclərinin vahid sistemlə maliyyələşdirilməsini, dövlət büdcəsi və yerli büdcələrin vəsaitlərinin mühasibat uçotunun vahid qaydada aparılmasını nəzərdə tutur.

2. *Azərbaycan Respublikasının büdcə sistemi səviyyələri arasında gəlir və xərclərin bölgüsü* - mərkəzi icra orqanına və yerli idarəetmə orqanlarına müvafiq gəlir növlərinin və xərcələrinin həyata keçirilməsi üçün səlahiyyətlərinin (tam və ya qismət) verilməsidir.

3. Əsas prinsiplərdən biri *müxtəlif səviyyəli büdcələrin müstəqilliyidir.* Bura daxildir:

- dövlət hakimiyyət orqanlarının və yerli idarəetmə orqanlarının büdcə sisteminin hər bir səviyyəsində büdcə prosesinin müstəqil həyata keçirilməsi hüququ;
- Azərbaycan Respublikası qanunvericiliyinə əsasən müəyyən edilmiş bütün səviyyəli büdcə sistemlərinin xüsusi gəlir mənbələrinin mövcudluğu;
- qanunvericilik əsasında tənzimləyici büdcə gəlirlərinin olması, müvafiq büdcələrin gəlirlərinin yaradılması səlahiyyətləri;
- mərkəzi icra orqanının və yerli idarəetmə orqanlarının müvafiq büdcə vəsaitlərinin müstəqil olaraq xərclənməsi istiqamətinin müəyyən edilməsi;
- mərkəzi icra orqanının və yerli idarəetmə orqanlarının müvafiq büdcələrinin müstəqil olaraq büdcə kəsirinin maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsi;

downloaded from KitabYurdu.az

• maliyyə ilinin sonunda əmələ gəlmiş və büdcə xərclərinin qənaətlə istifadəsindən yaranmış gəlirlərin mərkəzi xəzinəyə tam məbləğdə köçürülməsi.

4. *Büdcələrin gəlir və xərclərinin, dövlət büdcədənkənar fondlarının tam əks etdirilməsi* o deməkdir ki, büdcələrin bütün gəlir və xərcləri, büdcədənkənar fondlar və digər daxilolmalar tam və dolğun büdcələrdə, büdcədənkənar fondlarda öz əksini tapmalıdır. Bütün dövlət və bələdiyyə xərcləri Azərbaycan Respublikasının büdcə sistemində cəmlənmiş büdcə vəsaitləri, büdcədənkənar fondlar hesabına maliyyələşdirilməlidir.

5. *Büdcənin balanslaşdırılması* - hər bir büdcə balanslaşdırılmalıdır, yə'ni büdcədə nəzərdə tutulmuş xərclərin həcmi büdcənin gəlirlərinin və büdcə kəsirinin maliyyələşdirilməsinə sərf edilən məbləğin həcminə uyğun olmalıdır.

6. *Büdcə vəsaitlərindən səmərəli və qənaətlə istifadə edilməsi* o deməkdir ki, büdcələrin tərtibi və icrası zamanı icra orqanları və büdcə vəsaiti alanlar müəyyən büdcə vəsaiti hesabına qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olmalıdırlar.

7. *Büdcə xərclərinin ödənilməsinin ümumiliyi* o deməkdir ki, büdcənin bütün xərcləri ümumi gəlirdən maliyyələşdirilməlidir.

8. *Aşkarlıq* - təsdiq edilmiş büdcənin və onun icrası haqqında hesabatın, büdcənin icrası zamanı informasiyanın dolğun verilməsi, eyni zamanda qanunverici və yerli idarəetmə orqanlarının qərarlarının və digər mə'lumatların açıq nəşri; büdcə layihəsinə baxılması və qərarın qəbul edilməsi üsulunun və digər məsələlərin cəmiyyət və kütləvi informasiya vasitələri üçün açıq-aşkar olması kimi başa düşülür.

downloaded from KitabYurdu.az

9. *Büdcənin həqiqiliyi* müvafiq bölgənin sosial-iqtisadi inkişaf göstəricilərinin və büdcənin gəlir və xərclərinin reallığını göstərir.

10. *Büdcə vəsaitlərindən istifadənin ünvanlığı və məqsədli xarakteri* - büdcə vəsaitləri konkret məqsədlərin maliyyələşdirilməsi üçün konkret ünvanların sərəncamına verilir.

Büdcənin tərtibi, müzakirəsi, təsdiqi və icrası zamanı yuxarıda qeyd edilən prinsiplərə riayət olunması gələcəkdə büdcənin fayda verəcək şəkildə real yerinə yetirilməsi üçün ilkin şərtlərdir. Bu prinsiplərdən kənarlaşdıqda büdcəyə nəzarət edilməsi və təhlili prosesini çətinləşdirir.

1.3. Büdcələrarası münasibətlər, büdcələrin tənzimlənməsi

Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan bütün səviyyəli büdcələr büdcələrarası münasibətlər çərçivəsində qarşılıqlı əlaqədədirlər.

Büdcələrarası münasibətlər - müvafiq büdcələrin formalaşması və icrası ilə əlaqədar Azərbaycan Respublikası dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə qarşılıqlı əlaqəsini ifadə edir.

Büdcələrarası münasibətlər aşağıdakı prinsiplərə əsaslanır:

- Azərbaycan Respublikasının büdcə sistemi səviyyəsində gəlirlərin bölgüsü;
- Azərbaycan Respublikasının büdcə sistemi səviyyəsində tənzimləyici gəlirlərin bölgüsü;
- Azərbaycan Respublikasının büdcə hüququnun, Naxçıvan Muxtar Respublikasının büdcə hüququnun və yerli (bələdiyyə) büdcələri hüquqlarının eyniliyi;

downloaded from KitabYurdu.az

▪ Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli (bələdiyyə) büdcələrin Azərbaycan Respublikasının dövlət büdcəsi ilə münasibətlərinin eyniliyi.

Bu prinsiplərə uyğun olaraq dövlət büdcəsindən xərclərin bə'zi hissəsinin yerli büdcələrə verilməsi mümkündür.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə qarşılıqlı əlaqəsi gəlir mənbələrinin bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Öz gəlir mənbələri çatışmadıqda ayrı-ayrı bölgələrin təxirəsalınmaz sosial-iqtisadi problemlərini həll etmək üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və digər büdcələrə dotasiya, subvensiya, subsidiya verilməsi nəzərdə tutula, onlara büdcə borcu (ssuda) ayrıla bilər.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsində nəzərdə tutulduğu kimi, yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiya ayrılması mümkündür.

Hər bir büdcənin xərcinin tə'min olunması üçün müvafiq gəlirləri olmalıdır. Büdcələrin gəlirləri xüsusi və tənzimləyici gəlirlərdən ibarətdir.

Büdcələrin xüsusi gəlirləri - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gəlir növlərinin tam və ya qismən müvafiq büdcələrə təhkim edilməsidir.

downloaded from KitabYurdu.az

Bu müvafiq büdcələrə, dövlət büdcədənkənar fondlarına Azərbaycan Respublikasının qanunvericiliyi əsasında təhkim olunmuş vergilər, gəlirlər, normativ aktlarla müəyyən edilmiş vergi olmayan gəlirlər, eyni zamanda əvəzsiz ödənişlər aiddir.

Büdcənin xüsusi gəlirlərinə qeyri-vergi gəlirləri aiddir:

- dövlət və ya bələdiyyə mülkiyyətində olan əmlakın satışından və ya əvəz edilməsindən gəlirlər;

-Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti, yerli özünüidarəetmə orqanları, həmçinin müvafiq orqanların tabeçiliyində olan büdcə təşkilatlarının göstərdikləri pullu xidmətlərdən gəlirlər, mülki-hüquqi, inzibati və cinayət məs'uliyyəti, o cümlədən cərimələr, müsadirələr, kompensasiyalar tətbiq edilməsi nəticəsində alınan vəsaitlər, həmçinin Azərbaycan Respublikasının bütün səviyyələrdə olan dövlət hakimiyyəti orqanlarına vurulmuş ziyanın ödənilməsindən alınan vəsaitlər və icbari qaydada götürülən məbləğlər;

- Azərbaycan Respublikasının büdcə sisteminin digər səviyyəli büdcələrindən maliyyə yardımı və büdcə ssudası kimi alınan gəlirlər;

- digər qeyri-vergi gəlirləri, həmçinin əvəzsiz köçürmələr.

Dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın satışından alınan vəsaitlər tam həcmdə müvafiq büdcəyə köçürülür.

Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinə dövlət və ya bələdiyyə mülkiyyətinin özəlləşdirməsi prosesində alınan vəsaitlərin köçürülməsi qaydası, müxtəlif səviyyəli büdcələr arasında onların bölünməsi normativləri, həmçinin özəlləşdirmənin təşkilinə

downloaded from KitabYurdu.az

məsrəflərin ölçüsü Azərbaycan Respublikasının özəlləşdirmə haqqında qanunu ilə müəyyən edilir.

Fiziki və hüquqi şəxslər, beynəlxalq təşkilatlar və xarici dövlətlərin hökumətləri tərəfindən əvəzsiz köçürülən vəsaitlər büdcənin gəlirlərinə hesaba götürülür.

Büdcənin gəlirlərinə həmçinin qarşılıqlı hesablaşmalar üzrə əvəzsiz köçürmələr hesaba götürülə bilər. Qarşılıqlı hesablaşmalar üzrə Azərbaycan Respublikası vergi və büdcə qanunvericiliklərində dəyişikliklər aparılması ilə əlaqədar Azərbaycan Respublikası büdcə sisteminin müxtəlif səviyyəli büdcələri arasında vəsaitlərin verilməsi, büdcə haqqında qanunda nəzərdə tutulmayan xərclərin maliyyələşməsi üzrə səlahiyyətlərin və ya gəlirlərin verilməsi üzrə əməliyyatlar başa düşülür.

Xüsusi gəlirlər yerli büdcələrin gəlirlərinin bir hissəsini təşkil edirlər. Yerli icra orqanlarının (bələdiyyələrin) üzərinə düşən funksiyaların yerinə yetirilməsi, bölgənin sosial-iqtisadi inkişafını, yerli büdcələrin tarazlaşdırılmasını həyata keçirmək üçün onlara dövlət büdcəsi (həmçinin Naxçıvan Muxtar Respublikasının büdcəsi) tərəfindən büdcə tənzimlənməsi qaydasında tənzimləyici gəlirlər verilir.

Büdcələrin tənzimləyici gəlirləri - bu dövlət büdcəsinin yerli (bələdiyyə) büdcələrə növbəti maliyyə ili üçün və ya uzun müddətə normativlər əsasında tə'yin olunmuş maliyyə vəsaitidir.

Büdcələrin tənzimləyici gəlirlərinə transfert ödənişləri də daxildir. Transfertlər dövlət büdcəsindən bölgələrin maliyyə problemini həyata keçirmək üçün xüsusi fondlara ayrılan vəsaitlərdir. Transfertlər 1996-cı ildə 41,0 mlrd. manat, 1997-ci ildə 13,0 mlrd. manat, 1998-ci ildə 13,0 mlrd. manat, 1999-cu ildə 61,0 mlrd. manat, 2000-ci ildə isə

downloaded from KitabYurdu.az

111,0 mlrd. manat təşkil etmişdir. Dövlət büdcəsinin gəlirlərində transfertlərin xüsusi çəkisi 1996-cı ildə 2,0%, 1997-ci ildə 0,5%, 1998-ci ildə 0,5%, 1999-cu ildə 2,1%, 2000-ci ildə isə 3,1% olmuşdur.

Ərazi büdcələrinin tarazlaşdırılması üçün dotasiya, subvensiya və subsidiyalardan geniş istifadə edilir.

Dotasiya - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə, onların gəlir və xərclərini tənzimləmək məqsədilə əvəzsiz verilən maliyyə vəsaitidir.

Subvensiya – məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir.

Subsidiya – dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaitidir.


Büdcə ssudası – dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaitidir.

Qeyd etmək lazımdır ki, yerli büdcələrə maliyyə yardımı kimi verilən dotasiya, subvensiya və subsidiya üsulları kifayət qədər təkmilləşdirilməyib. Büdcələrin bu mənbələri əslində həvəsləndirmə xarakterinə malik olmalıdır, lakin onlar yerli icra orqanlarında himayədarlıq əhval-ruhiyyəsi yaradır. Bu da əslində yerli (bələdiyyə) icra orqanlarının səlahiyyət və vəzifələrinin məhdudluğundan xəbər verir. Vəsaitlərin bu formada verilməsi təcrübəsi yerli icra orqanlarında təsərrüfat təcrübəsinin inkişafına imkan

downloaded from KitabYurdu.az

vermir, bölgədə baş verən iqtisadi və sosial proseslərə tə'sir etmə imkanlarını, büdcələrinin gəlir hissəsinin yerinə yetirilmə imkanlarını azaldır, maliyyə nəzarətini zəiflədir və son nəticədə maliyyə vəsaitlərindən büdcə ilində qeyri-səmərəli istifadə olunur. Bu çatışmazlığı aradan qaldırmaq üçün yerli (bələdiyyə) büdcələrin, yerli vergi, gəlir və sair daxilolmaların hesabına möhkəmləndirilməsi sahəsində konkret tədbirlər həyata keçirilməlidir.

Şəkil 3. Yerli büdcələrin xüsusi və tənzimləyici gəlirlərinin ümumi sxemi



downloaded from KitabYurdu.az

Respublikamızın müstəqillik əldə etdiyi dövrdən büdcələrarası münasibətlərdə gəlirlərin bölgüsü üsulları inkişaf edir və formalaşır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın büdcə sistemində gəlirlərin büdcələr arasında bölgüsü üfüqi şəkildə həyata keçirilirdi. Bu onunla xarakterizə olunurdu ki, dövlət büdcəsi və ya yerli büdcələr demək olar ki, eyni müstəvi üzərində idi və onların hər birinin gəlirləri, rüsumları mövcud idi. Ona görə də yerli büdcələrə maliyyə yardımı göstərmək çətin idi, çünki bu büdcələrin hər biri ayrılıqda fəaliyyət göstərirdi, onlara yardım üçün heç bir hüquqi əsas yox idi. Bu şəraitdə yerli büdcələrin formalaşması modeli aşağıdakı kimi idi:

$$G=G_X$$

burada, G - gəlirlərin həcmi;

G_X - xüsusi gəlirlərin həcmi.

Büdcə gəlirlərinin həcmi xərclərin ölçüsünü müəyyən edirdi.

Gəlirlərin bölgüsünün belə sistemi bir çox ölkələrdə XX əsrin ortalarınadək mövcud idi. Bu sistem bütün səviyyəsi büdcələrın maliyyə asılılığını aşağı salırdı, belə ki, büdcələr öz xüsusi vergiləri hesabına formalaşırdı. İctimai tələblərə (təhsil, səhiyyə, yaşayış yerlərinin abadlaşdırılması) büdcə xərclərinin artması ilə əlaqədar olaraq yerli büdcələrin gəlirləri bu xərcləri ödəmək qabiliyyətində deyildilər. Ərazilərə dövlət tərəfindən maliyyə yardımı üçün qanunvericiliklə müəyyən edilmiş mexanizm tam formalaşmamışdı. Bütün bunlar yerli büdcələrə, yerli təsərrüfata, cəmiyyətin sosial inkişafına mənfi tə'sir edirdi.

downloaded from KitabYurdu.az

Belə olduğu halda yerli büdcələrin (rayon, şəhər) öz gəlirləri ilə yanaşı, onlara tənzimləyici gəlirlər də daxil olmağa başladı. Yerli büdcələrin vəsaitlərinin artması ilə əlaqədar onların üzərinə əhalinin həyati tələbatı olan təhsil, səhiyyə, mənzil-kommunal təsərrüfatı, yerli və ərzaq sənayesi və başqa sahələrin maliyyələşdirilməsi vəzifələri qoyuldu. Bu da öz növbəsində yerli büdcələrin foramlaşdırılması prinsipini dəyişdi. Yerli büdcələrin həcmi yerli təsərrüfata çəkiləcək xərclərin həcmi ilə müəyyən olunurdu. Bu xərclərin tə'min edilməsi üçün yuxarı büdcədən lazım olan tənzimləyici gəlirlər ayrılırdı. Beləliklə, yerli büdcələr aşağıdakı model üzrə formalaşmağa başlandı.

$$X = G_X + G_t$$

burada, X- xərclərin həcmi;

G_X -xüsusi gəlirlərin həcmi;

G_t - tənzimləyici gəlirlərin həcmi.

Bu modelin üstünlüyü ondan ibarətdir ki, 1) bütün büdcələrin mənbələrinin vahidliyi əldə edilmiş; 2) bölgələrə maliyyə yardımının mexanizmi yaradılmış; 3) ölkə hakimiyyəti ərazinin iqtisadi və sosial inkişafını tənzimləmək üçün real vasitələr əldə edilmişdir.

Lakin, bununla belə büdcələr arasında vəsaitlərin bölgüsünün bu cür qaydasının bir sıra çatışmamazlıqları var idi: 1) yerli büdcələrin xüsusi gəlirlərinin səviyyəsi aşağı düşür; 2) belə bir sistem ayrı-ayrı bölgələrin dövlət büdcəsindən daha çox vəsait almağa sövq edir; 3) eyni zamanda vəsaitlərin dövlət büdcəsində mərkəzləşdirilməsinə, bölgələrin maliyyə vəsaitlərinə olan tələblərinin məhdudlaşdırılmasına, sosial sahədə yaranmış problemlərin

downloaded from KitabYurdu.az

həllində mərkəzlə bölgə arasındakı ziddiyyətlərin yaranmasına gətirib çıxarır.

Hal-hazırda yerli (bələdiyyə) büdcələrin maliyyə çatışmamazlığını nəzərə alaraq onların fəaliyyətini tə'min etmək məqsədilə dövlət büdcəsindən maliyyə vəsaiti ayrılır. Yerli özünüidarəetmə orqanlarının fəaliyyət dairəsinin geniş olmamasından bir çox vergi və vergi olmayan gəlirlər dövlət büdcəsinə ödənilir. Buna görə də təhsil, səhiyyə, mənzil-kommunal təsərrüfat xərcləri dövlət büdcəsinin yerli xərclərindən ayrılır.

II fəsil. DÖVLƏT HAKİMİYYƏTİ VƏ YERLİ ÖZÜNÜİDARƏ ORQANLARININ BÜDCƏ HÜQUQLARI

2.1. Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanlarının büdcə hüquqları

Hüquqi və iqtisadi ədəbiyyatlarda "büdcə" anlayışına müxtəlif aspektlərdə yanaşılır. İqtisadi kateqoriya kimi, büdcə dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondunun və bələdiyyələrin pul vəsaiti fondlarının yaradılması və istifadəsi prosesində əmələ gələn iqtisadi münasibətləri ifadə edir. Hüquqi kateqoriya kimi, büdcə dövlətin və ya bələdiyyələrin əsas maliyyə planını, gəlirlərin və xərclərin siyahısını təşkil edir.

Büdcə hüququ – büdcənin quruluşunu, büdcə prosesini, yəni gəlir mənbələrinin təyin edilməsi, gəlirlərin və xərclərin büdcə növləri arasında bölüşdürülməsi, büdcənin tərtibi, müzakirəsi, təsdiqi və icrası qaydalarını, habelə büdcənin icrasının təşkili sahəsində bütün dövlət hakimiyyəti orqanlarının

downloaded from KitabYurdu.az

səlahiyyətlərini müəyyən edən hüquqi normaların məcmusudur.

Büdcə hüququ maliyyə hüququnun tərkib hissəsi olmaqla dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaradılması və istifadə edilməsi ilə əlaqədar olaraq ayrı-ayrı dövlət orqanları arasında əmələ gələn təşkilati-maliyyə münasibətlərini tənzimləyir. Büdcə hüququ normaları maddi və prosesual normalara ayrılır.

Maddi normalar Respublikanın, inzibati ərazi vahidlərinin büdcə quruluşunu, büdcə hüquqlarını müəyyən edən normalardır. Dövlət büdcəsinin gəlirlərinin tərkibini, mənbələrini, büdcə xərclərinin təyinatını, gəlirlərin və xərclərin büdcə səviyyələri arasında bölüşdürülməsini müəyyən edən normalar maddi-hüquqi normalara aiddir.

Prosesual normalar dövlət büdcəsinin tərtibi, müzakirəsi, təsdiqi, icrası qaydalarını, habelə büdcənin icrası haqqında hesabatların müzakirəsi və təsdiqi qaydalarını tənzimləyir.

Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının, yerli hakimiyyət orqanlarının, o cümlədən bələdiyyələrin büdcə hüquqlarının ümumi əsasları Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikanın Konstitusiyasında təsbit edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətinə Azərbaycan Respublikasının vahid dövlət büdcəsini işləyib hazırlamaq, müzakirə etmək, təsdiq etmək və onun icrasına nəzarət etmək, büdcənin icrası haqqında hesabatı təsdiq etmək, dövlət büdcəsini formalaşdırmaq üçün vergi və gəlirləri müəyyən etmək aiddir.

Azərbaycan Respublikasının İqtisadi Siyasət Komissiyası büdcənin formalaşması və müzakirəsində fəal iştirak edir.

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsini təsdiq edir və onun icrasına nəzarət edir. Milli Məclis vergilər, rüsumlar və digər ödənişlər haqqında ümumi qaydaları müəyyən edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq təqdim edir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı olmaqla Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir, Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Naxçıvan Muxtar Respublikasının büdcəsini təsdiq edir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Muxtar Respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir, Muxtar Respublikasının büdcəsinin icrasını təmin edir.

Yerlərdə özünüidarənin təşkili Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Yerlərdə yerli özünüidarəni bələdiyyələr həyata keçirirlər. Bələdiyyələrin iclaslarında yerli vergilər və ödənişlər müəyyən edilir, yerli büdcələr və onun icrası haqqında hesabatlar təsdiq edilir.

Yerli vergilər və ödənişlərlə bağlı qərarlar bələdiyyə üzvlərinin 2/3 səs çoxluğu ilə qəbul edilir.

Dövlət büdcəsinin vəsaitləri hər il üzrə təsdiq olunmuş «Dövlət büdcəsi haqqında» Qanunla müəyyən edilmiş qaydada və müvafiq normalara uyğun istifadə olunur.

downloaded from KitabYurdu.az

Dövlət büdcəsi vəsaitlərinin baş sərəncamçısı - dövlət büdcəsinin xərclərinin təşkilatlar üzrə təsnifatı ilə müəyyən edilən, büdcə vəsaitlərini tabeçilikdə olan sərəncamçılara və büdcə vəsaitləri alanlara bölüşdürmə hüququ olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanı, Naxçıvan Muxtar Respublikası hakimiyyəti orqanı, yerli özünüidarəetmə orqanı və büdcə idarələridir. Məsələn, 2002-ci il üçün dövlət büdcəsinin vəsaitləri Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa və «Azərbaycan Respublikasının 2002-ci il üçün dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq bölmələrə və istiqamətlərə yönəldilir:

- ümumdövlət xidmətləri xərcləri;
- qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarətmə orqanlarının saxlanması xərcləri;
- beynəlxalq təşkilatlara üzvlük haqqı;
- xarici dövlətlərə iqtisadi yardım xərcləri;
- elm xərcləri;
- müdafiə xərcləri;
- məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanması xərcləri;
- təhsil xərcləri;
- səhiyyə xərcləri;
- sosial müdafiə və sosial tə'minat xərcləri;
- mədəniyyət, incəsənət, KİV, bədən tərbiyəsi və din sahəsində fəaliyyətin xərcləri;
- mənzil-kommunal təsərrüfatı xərcləri;
- yanacaq və enerci kompleksi xərcləri;
- kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq xərcləri;

downloaded from KitabYurdu.az

– digər kateqoriyalara aid edilməyən fəaliyyət və xidmətlərin xərcləri;
– sənaye və tikinti xərcləri;
– nəqliyyat və rabitə xərcləri;
– iqtisadi fəaliyyətlə bağlı digər xərclər;
– turizm xərcləri;
– çoxsahəli inkişaf layihələrinin xərcləri;
– əsas bölmələrə aid edilməyən xərclər və s.

Dövlət və yerli idarəetmə orqanları səviyyəsində büdcənin hüquq münasibətlərinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının səlahiyyətləri aşağıdakılardır:

– Azərbaycan Respublikasının büdcə sisteminin təşkilinin və fəaliyyətinin ümumi prinsiplərinin müəyyən edilməsi;

– büdcə sisteminin səviyyələri arasında vergilərin və digər gəlirlərin dürüst müəyyən edilməsi, həmçinin büdcələrarası tənzimlənmə qaydasında respublika büdcəsinin vergilərinin, rüsumlarının və digər gəlirlərinin Azərbaycan Respublikası büdcə sisteminin müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsi;

– Azərbaycan Respublikası büdcə sisteminin müxtəlif səviyyəli büdcələri arasında xərclərin həyata keçirilməsi səlahiyyətlərinin dürüst müəyyən edilməsi;

– Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinin layihələrinin tərtibi və baxılması, Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinin təsdiq edilməsi və icrası, büdcənin icrası haqqında hesabatın təsdiq edilməsi və onların icrasına nəzarətin həyata keçirilməsi əsaslarının müəyyən edilməsi;

– Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinin gəlirlərinin formalaşdırılması,

downloaded from KitabYurdu.az

büdcədən xərclərin həyata keçirilməsinin əsaslarının müəyyən edilməsi;

– dövlət və bələdiyyə qarşılıqlı büdcə əlaqələrinin həyata keçirilməsinin əsaslarının müəyyən edilməsi;

– dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası haqqında hesabatların tərtib və təsdiq edilməsi qaydalarının müəyyən edilməsi;

– Azərbaycan Respublikasının və yerli özünüidarəetmə orqanlarının qarşılıqlı münasibətlərinin, Azərbaycan Respublikasının və yerli özünüidarəetmə orqanlarının borclarının müəyyən edilməsi;

– Azərbaycan Respublikasının dövlət qarşılıqlı əlaqələrinin və xarici dövlətlərə kreditlərin verilməsinin, həmçinin Azərbaycan Respublikasının dövlət borcunun idarə edilməsinin həyata keçirilməsi;

– dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin gəlirlərinin formalaşdırılması qaydalarının müəyyən edilməsi;

– dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının xərclərinin həyata keçirilməsi;

– dövlət büdcəsindən yerli büdcələrə maliyyə yardımlarının, büdcə ssudalarının və dotasiyalarının verilməsi qaydalarının və şərtlərinin müəyyən edilməsi;

– minimum dövlət sosial standartlarını, dövlət və ya bələdiyyə xidmətləri üzrə vahid maliyyə məsrəflərinə norma və normativlərinin müəyyən edilməsi;

– Azərbaycan Respublikasının büdcə təsnifatının təsdiq edilməsi;

– Azərbaycan Respublikasının büdcə sisteminin bütün səviyyəli büdcələri üçün vahid formada büdcə sənədlərinin və hesabat formalarının müəyyən edilməsi;

downloaded from KitabYurdu.az

– xarici borcun formalaşdırılması, ödənilməsinin və ona xidmətin tə'min edilməsi, dövlət xarici qarşılıqlı əlaqələrin siyahısının və həyata keçirilməsinin qaydalarının müəyyən edilməsi;

– büdcədənkənar dövlət fondlarının siyahısının və büdcələrinin formalaşdırılması qaydalarının, onların fəaliyyətinin idarə edilməsinin müəyyən edilməsi;

– Azərbaycan Respublikası büdcə qanunvericiliyinin pozulmasına görə məs'uliyyətə cəlbedilmə qaydalarının və əsaslarının müəyyən edilməsi.

Büdcənin hüquq münasibətlərinin tənzimlənməsi sahəsində yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinə aşağıdakılar daxildir:

– yerli büdcələrin layihələrinin tərtib edilməsi və baxılması, yerli büdcələrin təsdiq edilməsi və icra edilməsi, onların icra edilməsinə nəzarətin həyata keçirilməsi və yerli büdcələrin icrası haqqında hesabatların təsdiq edilməsi qaydalarının müəyyən edilməsi;

– bələdiyyə mülkiyyətinin istifadəsindən gəlirlərin, yerli vergi və rüsumların, digər gəlirlərin yerli büdcələrə yönəldilməsi qaydalarının müəyyən edilməsi;

– yerli büdcələrdən maliyyə yardımının və büdcə ssudalarının verilməsi;

– bələdiyyə qarşılıqlı əlaqələrinin həyata keçirilməsi qaydalarının müəyyən edilməsi.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu büdcə gəlirlərini formalaşması və dövlət məqsədli büdcə fondları vəsaitlərinin formalaşması sahəsində dövlət icra orqanlarının səlahiyyətlərini tənzimləyir. Gəlirlərin yeni növləri, onların ləğvi və ya dəyişdirilməsi Azərbaycan Respublikasının vergi qanunvericiliyində dəyişiklik edilməsi yolu ilə mümkünlüyü

downloaded from KitabYurdu.az

müəyyən edilmişdir. Dövlət icra orqanı həmçinin yeni vergi olmayan gəlir növlərini tətbiq, ləğv və ya dəyişdirə bilər. Bu zaman Vergi Məcəlləsində müvafiq düzəlişlər edilməli və büdcə qanunvericiliyi toplusu olan Büdcə Məcəlləsi qəbul edilməlidir.

Vergi Məcəlləsi dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin və yerli büdcələrin gəlirlərini müəyyənləşdirmişdir. Burada büdcə sisteminin müxtəlif səviyyəli büdcələri arasında gəlirin və xərclərin bölgüsü tənzimlənir.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun V maddəsi məqsədli büdcə fondlarının yaradılmasını müəyyən edir. Məqsədli büdcə fondları dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin və yerli büdcələrin tərkib hissəsi kimi yaradıla bilər. Bu fondlar müstəqil mədaxil mənbələrinə malik ola bilərlər. Məqsədli büdcə fonları üzrə daxilolmalar və xərclər büdcələrin gəlir və xərc hissəsində ayrıca göstərilməklə müvafiq maliyyə əməliyyatları xəzinədarlıq vasitəsilə həyata keçirilir. Məqsədli büdcə fondlarının vəsaitləri başqa təyinat üçün xərclənə bilməz və ilin sonuna onun hesabında qalan qalıq məbləği büdcə nəfinə silinə bilməz.

2.2. Yerli özünüidarə orqanlarının büdcə hüquqları

Yerli büdcələrin fəaliyyətinin hüquqi əsasları bir sıra qanunvericilik aktlar ilə tənzimlənir. Bu qanunvericilik aktları aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Konstitusiyasını IV bölməsinə görə (maddə 144,145) bələdiyyələrin səlahiyyətinə yerli vergilərin və ödənişlərin müəyyən edilməsi, yerli

downloaded from KitabYurdu.az

büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi daxil edilir.

2. Azərbaycan Respublikasının «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu yerli büdcələrin tərtibi, müzakirəsi, təsdiqi və icrasının Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilməsi qaydalarını tənzimləyir.

3. Azərbaycan Respublikasnın Vergi Məcəlləsi Azərbaycan Respublikasının vergi sisteminə daxil edilən vergilərin qruplar üzrə tə`yinatını müəyyən etmişdir:

- dövlət vergiləri;
- muxtar respublika vergiləri;
- yerli vergilər (bələdiyyə vergiləri).

Eyni zamanda burada yerli vergilərin tərkibinə daxil olan vergilər, rüsumlar və ödənişlər müəyyən edilmişdir.

4. «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının Qanununun IV fəslinə görə, yerli özünüidarəetmənin Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşdirilmiş hüquqlarının məhdudlaşdırılması qadağan edilir.

Konstitusiya quruluşunun qorunması, ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin tə'min edilməsi məqsədilə vətəndaşların yerli özünüidarəni həyata keçirmək hüquqları yalnız qanuna əsasən və qanunda müəyyənləşdirilmiş müddətə məhdudlaşdırıla bilər (maddə 47).

Bu Qanuna əsasən, bələdiyyənin qəbul etdiyi qərarlar bələdiyyənin ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz (maddə 48).

5. «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Azərbaycan Respublikasının Qanununda (maddə 5) qeyd

downloaded from KitabYurdu.az

edildiyi kimi, yerli büdcənin müstəqilliyi öz mədaxil mənbələrinin olması və bələdiyyənin yerli büdcənin vəsaiti barədə sərəncam vermək müstəsna hüququ ilə tə'min edilir.

Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla yol verilmir.

Bələdiyyə yerli büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam verir.

Bələdiyyə yerli büdcənin iqtisadi qanunların tələblərinə uyğun müstəqil olaraq tərtib, müzakirə, təsdiq, icra və onun icrasına nəzarət edir.

Yerli büdcələrin gəlirləri xüsusi gəlirlər, dövlət və ərazi vergi və rüsumlarından ayrılan gəlirlər hesabına formalaşdırılır.

Yerli büdcələrə bələdiyyə mülkiyyətində olan əmlakın istifadəsində əldə olunan gəlirlər və yerli özünüidarəetmə orqanlarının, onların tabeliyində olan büdcə idarələrinin göstərdikləri pullu xidmətlərdən əldə olunan gəlirlər tam şəkildə daxil edilir.

Bələdiyyə mülkiyyətində olan əmlakın satışından əldə olunan gəlirlər tam şəkildə yerli büdcələrə daxil edilir.

Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrin xərclərinin formalaşdırılması vahid metodoloci əsaslara, minimum büdcə tə'minatı və Azərbaycan Respublikasının hökuməti tərəfindən müəyyən edilən dövlət xidməti göstərilməsi üzrə maliyyə məsrəfləri normativlərinə əsaslanır.

Azərbaycan Respublikası muxtar qurumunun dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları onlarda olan maliyyə imkanlarının uçotu ilə dövlət,

downloaded from KitabYurdu.az

bələdiyyə xidmətlərinin göstərilməsinə maliyyə məsrəfləri normativlərinin artırılması hüququna malikdirlər.

Azərbaycan Respublikasının büdcə qanunverciliyinə əsasən müxtəlif səviyyəli büdcə səlahiyyətləri müəyyən edilir. Qanunvericilik orqanı, yerli özünüidarəetmə orqanları büdcəyə baxıb, onu və icrası haqqında hesabatı təsdiq edir, büdcənin icrasına sonrakı nəzarəti həyata keçirir, Azərbaycan Respublikasının büdcə sisteminin müxtəlif səviyyəli büdcəsinin icrasına nəzarəti həyata keçirən orqanların hüquqi statusunu müəyyən edir və formalaşdırır, Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının büdcə qanunvericiliyinin digər hüquqi normativ aktlarına, yerli özünüidarəetmə orqanlarının aktlarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirirlər. Qanunvericilik orqanları analoci səlahiyyətləri büdcədənkənar dövlət fondlarına münasibətdə də həyata keçirirlər.

Azərbaycan Respublikasının büdcə qanunvericiliyinin pozulmasına görə məs'uliyyət növlərinin tətbiq edilir. Bu məs'uliyyət növləri aşağıdakılardır:

- büdcə haqqında qanuna (qərara) icra edilməməsi;
- büdcə vəsaitlərinin məqsədsiz istifadə edilməsi;
- büdcə vəsaitlərini alanlara büdcə vəsaitlərinin tam və vaxtında köçürülməməsi;
- büdcə vəsaitlərini alanlara büdcə vəsaitlərinin vaxtında hesaba götürülməməsi;
- büdcənin icrası ilə bağlı hesabatların və digər mə'lumatların vaxtında təqdim edilməməsi;
- büdcə vəsaitlərini alanlara büdcə öhdəlikləri haqqında bildirişlərin vaxtında çatdırılmaması;
- büdcə bölgüsünün büdcə haqqında qanuna (qərara) uyğun olmaması;

downloaded from KitabYurdu.az

- büdcə təxsisatları haqqında bildirişlərin, büdcə öhdəlikləri limitləri haqqında bildirişlərin təsdiq olunmuş xərclərə və büdcə bölgüsünə uyğun olmaması;
- büdcələrin gəlirlərinin, büdcədənkənar dövlət fondlarının gəlirlərinin və Azərbaycan Respublikası büdcə sisteminə digər daxilolmaların mütləq hesaba götürülməsinə riayət edilməməsi;
- büdcələrin və büdcədənkənar dövlət fondlarının hesabına götürüləcək vəsaitlərin ödəmə sənədlərinin vaxtında icra edilməməsi;
- büdcələrin layihələrinin və büdcələrin icrası haqqında hesabatların vaxtında təqdim edilməməsi;
- qəbul edilmiş büdcə öhdəliklərinin təsdiq edilməsindən imtina edilməsi;
- büdcə öhdəliklərinin vaxtında təsdiq edilməməsi, təsdiq edilmiş büdcə öhdəlikləri üzrə ödəmələrin vaxtında həyata keçirilməməsi;
- büdcə bölgüsünə daxil edilmiş və təsdiq edilmiş büdcə öhdəlikləri limiti ilə nəzərdə tutulmuş xərclərdən artıq xərclərin maliyyələşdirilməsi;
- dövlət və bələdiyyə xidmətinin göstərilməsinə maliyyə məsrəfləri normativlərinə riayət olunmaması;
- büdcə kəsirinin, dövlət və bələdiyyə borclarına, xidmət edilməsinə xərclərin həddlərinin ölçülərinə riayət olunmaması;
- mövcud qanunlara uyğun olan digər əsaslar.

Büdcə qanunvericiliyini pozanlara qarşı aşağıdakı tədbirlər həyata keçirilir:

- büdcənin icrası prosesinin lazımi qaydada olmaması haqqında xəbərdarlıq;
- xərclərin blokirovkası;
- büdcə vəsaitlərinin götürülməsi;

downloaded from KitabYurdu.az

- kredit təşkilatlarında hesablar üzrə əməliyyatların dayandırılması;
- cərimələrin tətbiq edilməsi;
- müamilələrin hesablanması;
- mövcud qanunlar çərçivəsində digər ölçülər.

Maliyyə orqanlarının vahid büdcə (xəzinə) hesablarından onların kateqoriyalar üzrə sərəncamları və ödəniş tapşırıqları olmadan vəsaitlərin silinməsi mümkün deyildir.

Göstərilən silinməni həyata keçirmək üçün vahid büdcə (xəzinə) hesabında vəsait çatışmadıqda onlar büdcə hesabına daxil olduqca və ya mərkəzi xəzinədən Xəzinəarası köçürmə sərəncamı (XAKS) ilə vəsait ayrıldıqda mümkündür.

Büdcə idarələrinin şəxsi hesablarından, onların sərəncamı olmadan vəsaitlərin işlənməsi mövcud qanunlar ilə müəyyən edilən hallarda həyata keçirilir. Bu silinmənin qaydasını Milli Bank Maliyyə Nazirliyi ilə razılaşdırılımaqla müəyyən edir.

III fəsil. AZƏRBAYCAN RESPUBLİKASININ BÜDCƏ HƏLQƏLƏRİ

3.1. Azərbaycan Respublikasının dövlət büdcəsi

downloaded from KitabYurdu.az

Bildiyimiz kimi, dövlətin idarəetmə funksiyasını hakimiyyət orqanları həyata keçirir. Onların vəzifələrinin yerinə yetirilməsi, ümumdövlət tədbirlərinin maliyyə tə'minatının həyata keçirilməsi üçün mərkəzləşdirilmiş maliyyə fondu - dövlət büdcəsi yaradılır.

Dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiya-sından, bu qanuna müvafiq olaraq hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunundan və digər qanunvericilik aktlarından ibarətdir.

Dövlət büdcəsinin məqsədi ölkənin iqtiladi, sosial və digər strateci proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Dövlət büdcəsi ümumdövlət hakimiyyət və idarəetmə orqanlarının, elm, təhsil, səhiyyə, sosial və digər sahələrin inkişafının maliyyələşdirilməsini həyata keçirir.

Eyni zamanda dövlət büdcəsi vəsaiti iqtisadiyyatın struktur dəyişikliklərinin maliyyələşdirilməsinə, istehsal sferasında perspektiv istiqamətlərinin inkişafına, yeni ərazi-istehsal komplekslərinin mənimsənilməsinə yönəldilir. Dövlət büdcəsi təhsilin, səhiyyənin, mədəniyyətin, incəsənətin, idmanın və kütləvi informasiya vasitələrinin inkişafında böyük rol oynayır.

Bütün bu problemlərin həlli üçün son dövrlərdə Azərbaycan Respublikasının Milli Məclisi bir sıra qanunlar və məcəllələr qəbul etmişdir. Bunların arasında 2001-ci ildən etibarən fəaliyyət göstərən «Vergi Məcəlləsi», 2002-ci ilin iyul ayından fəaliyyət göstərən «Büdcə sistemi haqqında»

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Qanunudur ki, Azərbaycan Respublikasının vergi və büdcə sistemi, dövlət büdcəsinin vergiləri, vergi olmayan gəlirləri və xərcləri təsnifləşdirilir.

Dövlət büdcəsinin gəlirləri ölkənin büdcə fondunun formalaşdrılıması prosesində dövlətin müəssisə, təşkilatlar və əhali arasında yaranan iqtisadi münasibətələrini əks etdirir.

Dövlət büdcəsinin gəlirləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar hesabına formalaşır.

Azərbaycan Respublikasının ərazisində qanunvericiliklə müəyyən olunmuş tədiyələr üzrə daxilolmaların dövlət büdcəsi ilə digər büdcələr arasında bölgüsü, bölgələrin inkişaf proqramları nəzərə alınmaqla hər il üzrə qəbul olunan dövlət büdcəsi haqqında qanunla tənzimlənir.

Dövlət büdcəsinin gəlirlərinin tərkibinə aşağıdakı *gəlir növləri* daxildir:

– «Vergi Məcəlləsi»ndə göstərilmiş dövlət vergiləri (fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, ƏDV, aksizlər, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, yol vergisi, mə'dən vergisi, sadələşdirilmiş vergi);

– gömrük rüsumları və digər gömrük ödənişləri;

– dövlət rüsumları və birdəfəlik rüsumlar.

Dövlət büdcəsinin ***vergi olmayan gəlirlərinə*** aşağıdakılar daxildir:

– dövlət mülkiyyətində olan əmlakın istifadəsindən alınan gəlir, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanlarının səlahiyyəti çərçivəsində olan büdcə təşkilatları tərəfindən göstərilən pullu xidmətlərdən gəlir;

downloaded from KitabYurdu.az

– mülkiyyətdən və sahibkarlıq fəaliyyətindən gəlir;
– inzibati tədiyələr və rüsumlar;
– cərimələr və sanksiyalar üzrə daxilolmalar;
– vergi olmayan sair daxilolmalar.

Cədvəl 1-dən göründüyü kimi, dövlət büdcəsinin gəlirlərinin əsas mənbəyiin bütün illərdə vergilərdən daxilolmalar təşkil edir. Gəlirlərin içərisində əsas yeri 2001-ci

downloaded from KitabYurdu.az

downloaded from KitabYurdu.az

ildə ƏDV –25,7%, mənfəət vergisi – 20,3%, aksizlər – 18,0%, fiziki şəxslərdən gəlir vergisi – 16,4% təşkil edir. Qeyd etmək lazımdır ki, büdcə gəlirlərində dolayı vergilərin xüsusi çəkisi artmaqda, fiziki şəxslərin gəlir vergisinin və mənfəət vergisinin xüsusi çəkisi azalmaqda davam edir.

Cədvəl 2-dən göründüyü kimi, vergilərdən daxilolmaların ÜDM-da xüsusi çəkisinin 1998-1999-cu illərdə azalmasına baxmayaraq növbəti illərdə artımı təmin edilmişdir. Belə ki, vergilərdən daxilolmaların ÜDM-da xüsusi çəkisi 1996-cı ildə 13,4%, 1997-ci ildə 14,3%, 1998-ci ildə 10,5%, 1999-cu ildə 10,6%, 2000-ci ildə artaraq 11,8%, 2001-ci ildə 11,8% təşkil etmiş, 2002-ci ildə 12,1% proqnozlaşdırılmışdır.

Azərbaycan Respublikasında dövlət büdcəsindən aşağıdakı xərclər maliyyələşdirilir:

- Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisinin, Hesablama Palatasının, Mərkəzi seçki komissiyasının, Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinin tə'min edilməsi;
- məhkəmə hakimiyyəti və prokurorluq orqanlarının fəaliyyətinin təmin edilməsi;
- dövlət əhəmiyyətli beynəlxalq fəaliyyətin həyata keçirilməsi;
- milli müdafiə və dövlətin milli təhlükəsizliyinin tə'min edilməsi, hərbi-sənaye kompleksinin fəaliyyətinin təminatı;
- dövlət mülkiyyətinin saxlanılması;
- Azərbaycan Respublikasının dövlət borcunun ləğv edilməsi;
- seçkilərin və referendumların keçirilməsi;
- dövlət investisiya proqramının həyata keçirilməsi;

downloaded from KitabYurdu.az

- sənaye sahələrinin dövlət tə'minatı;
- elmi-tədqiqat işlərinin aparılması;
- ətraf mühitin mühafizəsi;
- fövqəladə halların nəticələrinin aradan qaldırılması;

downloaded from KitabYurdu.az

- bazar infrastrukturunun inkişafı;
- kütləvi informasiya vasitələrinin işinin təşkili;
- yerli büdcələrə maliyyə yardımı;
- dövlət, bələdiyyə strukturularının səlahiyətləri çərçivəsində digər xərclər və s.

Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin tərkibi və quruluşu cədvəl 3-də göstərilmişdir.

Cədvəldən göründüyü kimi, büdcə vəsaitlərinin əsas hissəsi təhsil, sosial müdafiə və sisial təminat və müdafiə xərclərinə yönəldilmişdir. Belə ki, 1997-ci ildə təhsil xərcləri ümumi cərclərin 19,2%-ni, sosial müdafiə və sisial təminat xərcləri 17,8%-ni, müdafiə xərcləri 12,0%-ni təşkil edirdisə, 2001-ci ildə bu xərclər artaraq müvafiq olaraq 23,0%, 18,1%, 13,2% təşkil etmişdir. Ölkəmizin müharibə şəraitində olduğuna baxmayaraq müdafiə xərclərinin xüsusi çəkisinin 2002-ci ildə aşağı düşmə meylini görürük.

Təsərrüfat sahələrinin inkişafı ilə bağlı olan xərclər isə büdcə xərclərinin 4-5%-ni təşkil edir. Burada əsas yeri kənd təsərrüfatı, meşə təsərrüfatı və bağçılıq təsərrüfatı ilə bağlı çəkilən xərclər təşkil edir.

Əsas bölmələrə aid edilməyən xərclərin aşağı düşmə meyli görünür. 1996-ci ildə 11,2%-dən 2001-ci ildə 4,0%-dək enmişdir.

Dövlət büdcəsi xərclərinin ÜDM-da xüsusi çəkisi cədvəl 4-də göstərildiyi kimidir.

Cədvəldən göründüyü kimi, büdcə xərclərinin ÜDM-da xüsusi çəkisi sabit deyil. 2000-ci ildə xərclərin xüsusi

downloaded from KitabYurdu.az

çəkisi azalaraq 17,0%, 2001-ci ildə isə 16,4% təşkil etmiş, 2002-ci ildə isə 17,1% proqnozlaşdırılmışdır.

Ümumiyyətlə, büdcə xərclərinin təxminən 66,0%-i sosial məqsədlərə, o cümlədən 30,0%-i əmək haqqı fonduna, 7,8%-i əmək haqqına üstəlik xərclərə, 9,0% dərman və ərzaq

downloaded from KitabYurdu.az

downloaded from KitabYurdu.az

Cədvəl 4. Dövlət büdcəsi xərclərinin ÜDM-da xüsusi çəkisi[1]

Göstəricilər	***1996***	***1997***	***1998***	***1999***	***2000***	***2001***	***2002 (proq.)***
Xərclər, mlrd.man	2409,3	2943,5	2641,7	3257,2	3761,8	4037	5130
ÜDM-da xüsusi çəkisi	19,6	20,1	16,4	17,8	17,0	16.4	17,1

xərclərinə və 19,0%-i əhaliyə pensiya, müavinət, təqaüd və s. ödənişlərə yönəldilib.

3.2. Bələdiyyə (yerli) büdcələri

Yerli vətəndaş birliklərinin yaradılmasının hüquqi bazası «Yerli özünüidarəetmə haqqında Avropa xartiyası»nda, Azərbaycan Respublikasının yerli

[1] Azərbaycanın iqtisadi icmalı, 2001.

downloaded from KitabYurdu.az

özünüidarəetməyə dair sənədlər toplusunda öz əksini tapmışdır.

Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının qanun çərçivəsində, məs'uliyyəti öz üzərinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük bir hissəsini nizama salmaq və onu idarə etmək hüququ və real bacarığı başa düşülür.

Yerli özünüidarənin təşkili haqqında Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsində yerli özünüidarənin bələdiyyələr vasitəsilə həyata keçirilməsi təsbit olunub.

Bələdiyyə – qanunla müəyyən olunmuş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır.

«Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinə əsasən bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaitləri, bələdiyyələrin büdcədənkənar fondları daxil edilir.

«Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Azərbaycan Respublikasının Qanunu bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi prinsiplərini, yerli büdcə prosesinin əsaslarını və bu sahədə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərini ifadə edir.

Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiya ilə, «Büdcə sistemi haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında», «Bələdiyyələrin statusu haqqında», «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktlar ilə tənzimlənir.

downloaded from KitabYurdu.az

Bələdiyyələrin maliyyəsinin əsaslarını aşağıdakılar təşkil edir:

- yerli büdcə vəsaitləri;
- bələdiyyələrin büdcədənkənar fondları;
- yerli özünüidarəetmə orqanlarına mənsub dövlət və bələdiyyə qiymətli kağızları;
- bələdiyyə mülkiyyətində olan sair pul vəsaitləri.

Bələdiyyə maliyyəsinin əsasını yerli büdcələr təşkil edir. ***Yerli büdcə*** – bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan Respublikasının Konstitutiyası və qanunları ilə müəyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcələrin formalaşdırılmasını, tərtibi, müzakirəsi və təsdiqi, icrasına nəzarət «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu əsasında həyata keçirilir.

Yerli büdcələrin iqtisadi mahiyyəti onun tə'yinatında öz əksini tapır və aşağıdakı funksiyaları həyata keçirir:

- yerli bələdiyyə orqanlarının fəaliyyətinin maliyyə tə'minatı olan pul fondlarının yaradılması;
- bu fondların təsərrüfatın müxtəlif sahələri arasında bölgüsü və istifadə olunması;
- bu orqanların tabeçiliyində olan müəssisə, idarə və təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət.

Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur. Yerli büdcənin yerinə yetirilməsinə xidmət göstərmək və işi səmərəli təşkil etmək üçün bələdiyyələr Dövlət xəzinədarlığının ərazi (rayon)

downloaded from KitabYurdu.az

orqanları ilə müqavilələr bağlaya, yaxud da yerli büdcənin vəsaitləri hesabına bələdiyyə xəzinadarlığı yarada bilərlər.

Yerli büdcənin müstəqilliyi öz daxili mənbələrinin olması və bələdiyyənin yerli büdcə vəsaiti haqqında sərəncam verməк müstəsna hüququ ilə tə'min edilir. Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla yol verilmir. Bələdiyyə yerli büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam verir.

Qanun yerli büdcələrin möhkəmlənməsi üçün dövlət üzərinə aşağıdakı əlavə məsliyyətləri qoyur:

1) investisiya və pul-kredit siyasəti əsasında istehsal sferasının inkişafına şərait yaratmaq;

2) yerli sosial-iqtisad inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda yerli büdcə kəsirinin ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrini müəyyən etmək və ya dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq;

3) yerli büdcənin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə uyğun azalma və ya artma məbləğlərinin müvafiq qərar qəbul edən orqan tərəfindən kompensasiya edilməsi.

Büdcə ili yanvarın 1-də başlanır və dekabrın 31-də qurtarır.

Yerli büdcələrin gəlirləri aşağıdakı mənbələr hesabına formalaşır:

I.Yerli vergilər və ödənişlər, o cümlədən bələdiyyələrin öz ərazilərində yerləşən və orada hasil edilən təbii ehtiyatların istifadəçilərindən alınan haqq. Azərbaycan

downloaded from KitabYurdu.az

Respublikasının «Vergi Məcəlləsi»ndə nəzərdə tutulmuş yerli vergilər (bələdiyyə vergiləri) bunlardır:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mə'dən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

II. Yerli ödənişlərin tərkibi aşağıdakılardır:

1. Bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə (divar) reklamı yerləşdirilməsi və yayımı üçün ödəniş.

2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsi, kirayəyə və istifadəyə verilməsindən daxil olan ödəniş.

3. Bələdiyyə tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödəniş.

4. Bələdiyyə ərazisində mehmanxana, stasionar-kurort və turizm xidmətləri göstərən şəxslərdən alının ödəniş. Bu ödəniş hər bir şəxs üçün sutkada şərti maliyyə vahidinin 1 mislindən çox olmamaqla müəyyən edilir.

5. Bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş. Bu ödəniş hər bir nəqliyyat vasitəsi üçün sutkada şərti maliyyə vahidinin 0,1 mislindən çox olmamaqla müəyyən edilir.

Qanunvericilikdə nəzərdə tutulduğu kimi, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi həm bələdiyyələrin, həm də dövlət büdcəsinin

downloaded from KitabYurdu.az

təşkilində əsas və sabit mənbədir. Onun dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir.

«Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikası Qanununda yerli büdcənin minimum tə'min olunması zəruriliyi nəzərdə tutulur. Qanunun 41.2 maddəsində göstərilir ki, əgər minimum yerli büdcənin mədaxil hissəsi göstərilən (yə'ni, bələdiyyələrə təhkim olunan) gəlir mənbələrinin hesabına tə'min edilə bilmirsə, onda dövlət orqanları dövlət büdcəsinin digər gəlir mənbələrini bələdiyyələrə verə bilər və bu zaman yerli büdcələrin əvvəlki ildən keçən sərbəst qalıqları hesaba alınmır.

Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri büdcə təsnifatına uyğun olaraq bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

Yerli büdcənin xərclər hissəsini aşağıdakı maddələr təşkil edə bilər:

- yerli əhəmiyyətli məsələlərin həlli ilə əlaqədar xərclər, o cümlədən yerli sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanması xərcləri;

- sosial-müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekologiya proqramlarının maliyyələşdirilməsi üçün çəkilən xərclər;

- dövlət orqanları tərəfindən bələdiyyələrə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər və b.

downloaded from KitabYurdu.az

Xərclərinin öz gəlirləri hesabına tə'min olunmayan hissəsi (kəsir) dövlət büdcəsindən alınan dotasiya və subvensiya vasitəsilə örtülə bilər. Bələdiyyə Şuraları yuxarı dövlət təşkilatlarına subvensiyaların məqsədəuyğunluğunu sübut etməli və həmin vəsaitin alınmasına cəhd göstərməlidirlər.

Dövlət büdcəsindən dotasiya, subvensiya və ssuda alan yerli büdcənin xərclərinin hesablaşmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin hesablanması üçün tətbiq olunan xərc normativlərindən yüksək ola bilməz. Dotasiyanın maksimum həddinin hesablaşmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında xüsusi çəkisi və digər amillər nəzərə alınır.

Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyəti orqanları tərəfində ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcələrin məxaric hissəsində ayrıca sətirlə göstərilir.

«Azərbaycan Respublikasının 2001-ci il dövlət büdcəsinin icrası haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən yerli büdcələrə dotasiya 1484,5 mln. Manat həcmində ayrılmış dövlət büdcəsi xərclərində xüsusi çəkisi 0,3% olmuşdur, 2002-ci ildə 0,5% həcmində proqnozlaşdırılmışdır.

Bələdiyyələr dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcə layihəsini tərtib edərkən müvafiq icra hakimiyyəti orqanına[1] mayın 1-dək lazımi hesablamalar verirlər.

[1] Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

downloaded from KitabYurdu.az

Bələdiyyələr ölkə qanunvericiliyi ilə müəyyən edilmiş qaydada büdcədənkənar fondlar yarada bilər. Belə fondlar məqsədindən asılı olaraq müddətli və müddətsiz ola bilərlər. Müddətli büdcədənkənar fondlar, adətən, konkret problemin həlli başa çatdıqdan sonra fəaliyyəti dayandırılır. Müddətsiz büdcədənkənar fondlar isə, çox hallarda, yerli sosial-müdafiə və sosial inkişaf məsələlərinin müəyyən istiqaməti üçün nəzərdə tutulur. Bələdiyyələrin büdcədənkənar fondlarının yaradılması, onların gəlir mənbələrinin və xərclərinin müəyyənləşdirilməsi məsələləri, ölkə qanunvericiliyinə uyğun olaraq həll edilir.

Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən müəssisələrin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır.

Yerli büdcələrin layihəsinin müzakirəsi və təsdiqi qaydası qanunvericiliyə uyğun olaraq bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

Növbəti maliyyə ili üçün dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcənin layihəsi cari ilin dekabr ayının 25-dən gec olmayaraq bələdiyyənin qərarı şəklində təsdiq edilir.

Yerli büdcənin kassa icrası bələdiyyənin müraciəti əsasında dövlət xəzinədarlığı vasitəsi ilə və ya qanunvericiliklə müəyyən edilmiş digər üsullarla həyata keçirilir.

Bələdiyyələrin gəlir və xərc əməliyyatları onların müraciətləri əsasında dövlət xəzinədarlığı vasitəsilə həyata keçirildikdə uçot-hesabatın təşkili üzrə texniki xidməti dövlət xəzinədarlığı təmin edir. Bələdiyyələrin maliyyə əməliyyatları dövlət xəzinədarlığı vasitəsilə həyata keçirildiyi

downloaded from KitabYurdu.az

halda, belə əməliyyatlar üzrə ödəmə və uçot-hesabat işlərinin aparılması qaydaları qanunvericiliklə müəyyən edilir.

Bələdiyyələr büdcə ilindən sonrakı ilin birinci iş günü gəlir və xərclər üzrə əməliyyatların dövlət xəzinədarlığı vasitəlilə həyata keçirilməsindən imtina edə bilərlər.

Yerli büdcələrin icrası prosesində bələdiyyələr büdcənin dəqiqləşdirilməsi barədə qərar verə və dövlət büdcəsindən alınmış məqsədli vəsait istisna olmaqla, mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təxsisat həddində dəyişikliklər apara bilərlər.

Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqda başa çatır. Bu müddət ərzində istifadə olunmamış vəsait bələdiyyələrin sərəncamında qalır.

Bələdiyyələr Nizamnamədə müəyyən edilmiş qaydada büdcənin icrası haqqında hesabatı təsdiq edir və bu barədə bələdiyyənin ərazisində yaşayan əhaliyə məlumat verilir.

Əgər bələdiyyə büdcəsinin icrası prosesində mədaxil mənbələri üzrə daxil olan vəsait azalarsa və bu, kəsrin son həddi aşmasına gətirib çıxararsa, sekvestr mexanizmi tətbiq edilə bilər. Sekvestr müdafiə olunmuş maddələr istisna olunmaqla, büdcənin bütün yerdə qalan maddələri üzrə məxaricin mütənasib surətdə azaldılmasından ibarətdir.

Yerli büdcənin icrasına bələdiyyə nəzarət edir. Bələdiyyələr qanunvericilik və icra hakimiyyəti orqanlarının onlara verdikləri səlahiyyətlər çərçivəsində maliyyə vəsaitlərindən istifadəyə nəzarət edirlər.

Bələdiyyələrin regional inkişafının ən aktual problemlərinə şəhər, qəsəbə və kəndlərin abadlaşdırılması, regionun sosial-iqtisadi məsələləri və b. daxildir. Bunların həllinə büdcədən ayrılmış vəsaitlərin daha səmərəli istifadəsi

downloaded from KitabYurdu.az

tə'sir etməlidir. Şəhərlərdə mövcud olan inhisarçılıq bələdiyyələrin fəaliyyətində bir çox problemlər yaradırlar. Bələdiyyələrin Konstitusiya və mövcud qanunvericilik çərçivəsində fəaliyyəti problemlərin həllində mühüm rol oynayacaqdır.

IV fəsil. BÜDCƏ TƏSNİFATI

4.1. Büdcə təsnifatının məzmunu

Tərkibinə, mənbəyinə, istifadə istiqamətinə və digər təyinatlarına görə büdcənin gəlirləri və xərcləri müxtəlifdir.

Azərbaycvn Respublikasının büdcə sisteminə daxil olan büdcələr və büdcə təşkilatları, habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının (o cümlədən büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının) müqayisəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasında vahid büdcə təsnifatı tətbiq olunur.

Büdcə təsnifatı büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və sair prinsiplər əsasında tərtib olunmuş təsnifatından ibarətdir. Büdcə təsnifatının gəlirlər, funksional, iqtisadi, təşkilati və sair üzrə tərkibi qanunvericiliklə müəyyən edilir.

Büdcə təsnifatının strukturu və tərkibi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilir.

Qruplaşdırılmanın xarakteri və onların quruluş prinsipləri büdcə gəlirlərinin və xərclərinin sosial-iqtisadi məzmunu, təsərrüfatın strukturu və idarəetmə sistemi ilə müəyyən edilir. Gəlirlərin mənbələrinin reqlamentləşdirilməsi və büdcə xərclərinin məqsədlərinin müəyyən edilməsi bütün büdcə prossesinin fəaliyyətinin və səmərəliliyinin mühüm şərtləridir. Bu ilk növbədə, daxil olan

downloaded from KitabYurdu.az

vəsaitlər və sərf edilən xərclər üzərində maliyə nəzarətinin həyata keçirilməsinə şərait yaradır və büdəcə intizamının yerinə yetirilməsini tə'min edir.

Azərbaycan Respublikasının büdcə təsnifatı Azərbaycan Respublikasının büdcə sisteminin bütün səviyyəli büdcələrinin gəlirlərinin və xərclərinin, həmçinin bu büdcələrin kəsirlərinin maliyyələşdirmə mənbələrinin qruplaşdırılması ilə müəyyən edilir və Azərbaycan Respublikasının büdcə sisteminin bütün səviyyəli büdcələrinin tərtib edilməsində və icrasında, onun göstəricilərinin müqayisə edilməsində istifadə olunur.

Qruplaşdırmanın şəffaflığı və dəqiqliyi büdcə təsnifatı qarşısında qoyulan mühüm tələbdir.

1. Büdcə təsnifatı elementləri üzrə qruplaşdırılmış göstəricilərdən bacarıqla istifadə edilməsi büdcə vəsaitlərinin real hərəkətini görməyə imkan verir və bu iqtisadi və sosial proseslərin gedişinə fəal tə'sir göstərir.

2. Plan və hesabat göstəricilərinin müqayisəsi və təhlili büdcə fondlarının yaradılması və istifadəsi haqqında əsaslı nəticə çıxarmağa, təklif verməyə və pul vəsaitlərinin iqtisadi və sosial inkişafın əsas istiqamətlərinə yönəldilməsinə imkan verir.

3. Gəlirlərin və xərclərin detallaşdırılması, qruplaşdırılması büdcəyə daxil olan göstəricilərin yoxlanmasını asanlaşdırır, daxilolmaların dinamik inkişafını, müxtəlif gəlirlərin və xərclərin xüsusi çəkisini və ya hər hansı bir ehtiyacın tələbatının ödənilməsini müəyyən edir.

4. Təsnifat smetaların və büdcələrin məcmusuna şərait yaradır, onların iqtisadi təhlilini asanlaşdırır, vəsaitlərin vaxtında büdcədə cəmlənməsinə, onlardan məqsədli istifadəsinə nəzarəti sadələşdirir. Büdcənin icrası

downloaded from KitabYurdu.az

haqqında hesabat üzrə gəlir və xərclərin müqayisəsinə şərait yaradır, maliyyə intizamına riayət edilməsinə, vəsaitlərin qənaətlə istifadəsinə, maliyyə planlarının yerinə yetirilməsinə nəzarətə imkan verir.

5. Müxtəlif səviyyəli büdcə sistemlərinin müstəqilliyi şəraitində təsnifat bütün büdcə növlərinin tərtibi və icrasına vahid metodoloci baxımdan yanaşılmasına, büdcə göstəricilərinin sahələr və ərazilər üzrə müqayisəsinə əsas verir.

Büdcə təsnifatı bütün büdcə idarə və təşkilatları üçün ***vacibdir*** və Azərbaycan Respublikasının büdcə qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun qurulur.

1991-ci ilə qədər büdcə təcrübəsində iki cür təsnifləşdirmə mövcud idi:

- ittifaq büdcəsinin və müttəfiq respublikaların respublika büdcəsinin gəlir və xərclərinin təsnifatı;
- muxtar respublikaların respublika büdcəsinin və yerli büdcələrin gəlir və xərclərinin təsnifatı.

Büdcə gəlirlərinin və xərclərinin qruplaşdırılmasının eyniliyi onların vahid SSRİ Dövlət büdcəsində birləşməsinə imkan vermişdir.

İdarəetmə metodlarının inkişafı nəticəsində büdcə təsnifatı dəyişilir və təkmilləşdirilir.

Müstəqil Azərbaycan Respublikasının dövlət büdcəsi təsnifatının tərkibi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 5 avqust 1996-cı il tarixli İ-54 saylı əmri ilə təsdiq olunmuş, 17 sentyabr 1997-ci il tarixli İ-66 saylı və 3 avqust 1998-ci il tarixli İ-63 saylı əmrlərlə dəyişikliklər edilmiş Azərbaycan Respublikasının dövlət büdcəsinin təsnifatı ilə tənzimlənir. Mövcud təsnifatda maliyyə sistemində aparılan islahatlarla əlaqədar müvafiq dəyişikliklərin aparılması zərurəti yaranır.

downloaded from KitabYurdu.az

4.2. Büdcə təsnifatının tərkib elementləri

Büdcə təsnifatının tərkibi araşdırılmazdan əvvəl onun yaranma tarixinə nəzər salmaq lazımdır.

Hələ XIX əsrin əvvəllərində rus iqtisadçısı M.Speranskiy özünün "Maliyyə planı"nda xərclərin təsnifatını yaratmışdır.

Dövlət xərclərinin ixtisar edilməsi bu qaydalara əsaslanırdı: zəruri xərcləri saxlamaq, faydalıları sonraya saxlamaq, artıq xərcləri isə kənara qoymaq. Əlbəttə, bu prinsip I Aleksandrın hökmranlığı dövünrdə Rusiyada büdcə kəsirinin büdcə xərclərində 85%-ə çatdığı bir şərait üçün nəzərdə tutulmuşdur.

Xərclər təsnifatını yaradarkən M.Speranskiy bü bölgünü 5 meyara ayırmışdır:

Birinci meyar – *idarəetmə növünə görə.* Yə'ni burada idarəetmə orqanına xərclərin nəzərdə tutulduğu göstərilir. Belə bölgü inzibati mənsubiyyətinə uyğun olaraq maliyyə vəsaitlərinin bölgüsünü nəzərdə tutur.

İkinci meyar – *zərurilik səviyyəsinə görə.* Bu halda xərclər zəruri, faydalı, artıq, faydasız xərclərə bölünür. Faydalı xərclər o zaman zəruri olar ki, onlar xalq təsərrüfatı sahələrinin inkişafına sərf edilmiş olsun.

Üçüncü meyar – *xərclərin məkanlığına görə.* Burada xərclərin ümumdövlət və yerli əhəmiyyətli olması nəzərdə tutulur. Ümumdövlət xərcləri dövlət büdcəsindən, yerli əhəmiyyətli xərclər isə yerli büdcələrdən maliyyələşdirilməlidir.

Dördüncü meyar – *xərclərin müddətliyidir.* Bu xərclər adi və fövqəladə xərclərə bölünür. Heç bir adi xərc fövqəladə xərclərə kifayət edə bilməz. Fövqəladə hallar üçün

downloaded from KitabYurdu.az

nəzərdə tutulan vəsaitlər hazırda ehtiyat fondundan ödənilir.

Beşinci meyar – *sabitlik.* Xərclərin ümumi həcmi daimi və dəyişkən ola bilər.

Bu cür təsnifatı qəbul edib xərclər üzrə maddələrin növlərinə görə elə qruplaşdırmaq olar ki, hər bir xərc növünə görə onların idarə edilməsi, zəruriliyi, məkanlığı, müddətliliyi və sabitliyi tə'min edilmiş olsun.

Dövlət büdcəsinin mühüm funksiyalarının həyata keçirilməsi istifadə olunan büdcə və hesabların təsnifatları ilə sıx bağlıdır. Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən təsbit olunmuş dövlətin gəlirləri və xərclərinin ətraflı funksional və iqtisadi təsnifatı dövlət büdcəsi və hesabların müqayisəsini aparmaq üçün beynəlxalq standart kimi qəbul olunmuşdur. Büdcə təsnifatının hansı səviyyədə qəbul olunması dövlət büdcəsinin maliyyə intizamı və nəzarəti, səmərəli makroiqtisadi idarəetmə, dövlət vəsaitlərinin səmərəli istifadəsi vasitəsi kimi nə dərəcədə xidmət göstərməsi göstəricisidir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 1993-cü ildə büdcə gəlirləri və xərclərinin funksional, iqtisadi və inzibati (təşkilatlar üzrə) təsnifatını hazırlmışdır. Həmin dövrdə Azərbaycan Respublikasında qəbul edilmiş və hazırda fəaliyyətdə olan, üç növə bölünən xərclər üzrə büdcə təsnifatı müəyyənləşdirilmişdir:

– *funksional*, dövlətin əsas funksiyalarının həyata keçirilməsi üçün büdcə vəsaitlərinin səviyyələr üzrə qruplaşdırılmasıdır;

– *iqtisadi*, bütün səviyyəli büdcələrin iqtisadi məzmununa görə qruplaşdırılmasıdır;

downloaded from KitabYurdu.az

– *təşkilati*, dövlət büdcəsi vəsaitlərinin baş sərəncamçılar arasında bölüşdürülməsi üzrə qruplaşdırılmasıdır.

Vahid büdcə təsnifatının strukturu və tərkibi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Beynəlxalq Valyuta Fondunun Dövlət Maliyyə Statistikasının tərtibi qaydaları (A Manual on Goverment Finance Statistics) adlı sənədində əks edilən beynəlxalq standartlara əsasən müəyyən edilir.

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatı fəaliyyət göstərir və bu təsnifatın strukturuna aşağıdakılar daxildir:

1. Azərbaycan Respublikası dövlət büdcəsi gəlirlərinin təsnifatı;
2. Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatı;
3. Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatı;
4. Azərbaycan Respublikası dövlət büdcəsinin daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı;
5. Azərbaycan Respublikası dövlət daxili və xarici borcunun növləri üzrə maliyyələşdirmənin təsnifatı;
6. Azərbaycan Respublikası dövlət büdcəsi xərclərini təşkilatlar üzrə təsnifatı.

I. ***Azərbaycan Respublikası dövlət büdcəsi gəlirlərinin təsnifatı*** müxtəlif səviyyəli büdcələrin gəlirlərinin qruplaşmasını təşkil edir və müxtəlif səviyyəli büdcələrin gəlirlərinin formalaşması mənbəyini müəyyən edən Azərbaycan Respublikasının qanunvericilik aktlarına əsaslanır.

Gəlirlər bölməsi onların mənbələri və alınması qruplarına görə konkret gəlir növlərini birləşdirir.

downloaded from KitabYurdu.az

Gəlirlər 4 bölməyə bölünürlər:

1. "Vergilərdən daxilolmalar" bölməsinə (kod 1) aşağıdakı köməkçi bölmələr daxildir:

- gəlirlərdən (mənfəətdən) vergilər (kod 1.1);
- məcburi dövlət sosial sığorta haqları (kod 1.2);
- əmək haqqı fonduna və işçi qüvvəsinə vergilər (ehtiyat) (kod 1.3);
- mülkiyyətdən vergi (kod 1.4);
- mal və xidmətlərdən alınan daxili vergilər (kod 1.5);
- xarici iqtisadi fəaliyyətlə bağlı vergilər (gəlirlər) (kod 1.6).

Öz növbəsində köməkçi bölmələr konkret vergi növlərinə və rüsumlara bölünürlər. Məsələn, mülkiyyətdən vergilərə daxildir:

- torpaq vergisi (kod 1.4.1);
- əmlak vergisi (kod 1.4.2);
- hədiyyələrdən və vərəsə qalan əmlakdan vergi (kod 1.4.3);
- qiymətli kağızlarla əməliyyatlardan vergi (kod 1.4.4).

2. "Vergi olmayan gəlirlər" bölməsinə (kod 2) aşağıdakı köməkçi bölmələr daxildir:

- mülkiyyətdən və sahibkarlıq fəaliyyətindən gəlirlər (kod 2.8);
- inzibati tədiyələr və rüsumlar (kod 2.9);
- cərimə və sanksiyalar üzrə daxilolmalar (kod 2.10);
- dövlət idarəçiliyi daxilində dövlət qulluqçularının sosial tə'minata və təqaüd fondlarına ayırmalar (kod 2.11);
- vergi olmayan sair daxilolmalar (kod 2.12).

3. "Əsaslı gəlirlər" bölməsinə (kod 3) aşağıdakı köməkçi bölmələr daxildir:

- əsaslı vəsaitlərin özəlləşdirilməsi (kod 3.13);

downloaded from KitabYurdu.az

• dövlətin maddi ehtiyatlarının satışından daxilolmalar (kod 3.14);

• torpağın və qeyri-maddi aktivlərin satışından daxilolmalar (kod 3.15);

• qeyri-rəsmi mənbələrdən əsaslı ödənişlər (transfertlər) (kod 3.16).

4. "Rəsmi qaydada alınan vəsaitlər (transfertlər)" bölməsinə (kod 4) aşağıdakı köməkçi bölmələr daxildir:

• xaricdən alınan vəsaitlər (kod 4.17);

• digər səviyyəli büdcələrdə alınan vəsaitlər (kod 4.18).[1]

II. ***Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatı*** Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin funksional təsnifatı dövlətin əsas funksiyalarının yerinə yetirilməsinə istiqamətləndirilmiş maliyyəni əks etdirən müxtəlif səviyyələrdə büdcə xərclərinin qruplaşdırılmasıdır və dövlətin əsas funksiyalarının yerinə yetirilməsinə yönəldilən büdcə vəsaitlərini, o cümlədən Azərbaycan Respublikası dövlət hakimiyyəti və yerli icra hakimiyyəti və yerli icra hakimiyyəti orqanlarının qəbul etdikləri normativ hüquqi aktların həyata keçirilməsinin maliyyələşdirilməsini, hakimiyyətin digər səviyyələrinə verilən ayrı-ayrı dövlət səlahiyyətlərinin həyata keçirilməsinin maliyyələşdirilməsini özündə əks etdirir.

Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının birinci səviyyəsi dövlətin funksiyalarının yerinə yetirilməsinə büdcə vəsaitlərinin xərclənməsini müəyyən edən bölmə aid edilir.

---

[1] Qeyd: vergilərdən daxilolmalar (bölmə 1) + vergi olmayan gəlirlər (bölmə 2) = CARİ GƏLİRLƏR.
Cari gəlirlər + əsaslı gəlirlər (bölmə 3) + rəsmi qaydada alınan vəsaitlər (bölmə 4) = ÜMUMİ GƏLİRLƏR.

downloaded from KitabYurdu.az

Bu təsnifatın birinci səviyyəsi aşağıdakı bölmələri əhatə edir:

- ümumi dövlət xidmətləri xərcləri (kod 1);
- müdafiə xərcləri (kod 2);
- məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanması xərcləri (kod 3);
- təhsil xərcləri (kod 4);
- səhiyyə xərcləri (kod 5);
- sosial-müdafiə və sosial-tə'minat xərcləri (kod 6);
- mədəniyyət, incəsənət, KİV, bədən tərbiyəsi və din sahəsində fəaliyyətə çəkilən xərclər (kod 7);
- mənzil-kommunal təsərrüfatı xərcləri (kod 8);
- yanacaq və enerci kompleksi xərcləri (kod 9);
- kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı xərcləri (kod 10).

Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının ikinci səviyyəsinə bölmələr hüdudunda dövlətin funksiyalarının yerinə yetirilməsinə büdcə vəsaitlərinin istiqamətlərini konkretləşdirən köməkçi bölmələr daxildir.

Dövlət büdcəsinin məqsədli xərc maddələrinin təsnifatı Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksionla təsnifatının üçüncü səviyysini təşkil edir və Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının yarımbölmələrinin hüdudunda dövlət büdcəsi vəsaitlərinin baş sərəncamçısının konkret fəaliyyət istiqamətləri üzrə maliyyələşdirilməsini əks etdirir.

Büdcə xərcləri növlərinin təsnifatı Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının dördüncü səviyyəsini təşkil edir və büdcə

downloaded from KitabYurdu.az

xərclərinin məqsədli maddələr üzrə maliyyələşməsinin istiqamətlərini təfsilatı ilə göstərir.

Məsələn, "Mənzil-kommunal təsərrüfatı xərcləri" (kod 8) bölməsi aşağıdakı paraqraflara bölünür:

- mənzil-istismar idarələri (kod 8.0.1);
- mənzil-kommunal təsərrüfatının tikinti, tə'mir-tikinti təşkilatları (kod 8.0.2);
- mənzil-kommunal təsərrüfatı müəssisələri, kombinatları (kod 8.0.3);
- mehmanxanalar (kod 8.0.10);
- şəhərlərin abadlaşdırılması (kod 8.0.13) və s.

III. ***Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatı*** iqtisadi məzmununa görə bütün səviyyəli büdcələrin xərclərinin qruplaşdırılmasıdır.

Təsnifat aşağıdakı xərc maddələrini təşkil edir:


- əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi (kod 1);
- faizlər üzrə ödənişlər (kod 2);
- subsidiyalar və cari ödənişlər (kod 3);
- əsaslı fondlara əsaslı vəsait qoyuluşu (kod 4);
- dövlət ehtiyatlarının yaradılması (kod 5);
- torpaq və qeyri-maddi aktivlərin alınması (kod 6);
- əsaslı ödənişlər (kod 7);
- ölkə daxilində qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi (kod 8);
- xaricə qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi (kod 9).[1]

Öz növbəsində bölmələr xərc növlərinə və xərc maddələrinə bölünürlər.

[1] Qeyd: Ümumi xərclər, qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi = Ümumi xərclər + Qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi.
Ümumi xərclər = Cari xərclər + Əsaslı xərclər.

downloaded from KitabYurdu.az

Büdcə xərclərinin iqtisadi məzmununa görə bölgüsünü əsaslı xərclərdə göstərmək olar:



IV.*Azərbaycan Respublikası dövlət büdcəsinin daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı* bütün səviyyələrdə büdcələrin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası hökuməti tərəfindən borc və ya cəlb edilmiş vəsaitlərin qruplaşdırılmasıdır.

1. ***Daxili maliyyələşdirmə*** mənbələrinə aşağıdakılar daxildir:

- digər dövlət orqanlarından alınan vəsaitlər (kod 1);
- Azərbaycan Respublikasının Milli Bankından alınan vəsaitlər (kod 2);
- depozit banklarından alınan vəsaitlər (kod 3);
- sair daxili maliyyələşdirmə (kod 4);
- digər kateqoriyalara aid edilməyən sair daxili maliyyələşdirmə (kod 5).

2. ***Xarici maliyyələşdirmə*** mənbələrinə aşağıdakılar daxildir:

- beynəlxalq iqtisadi təşkilatlardan alınan vəsaitlər (kod 6);
- xarici dövlətlərdən alınan vəsaitlər (kod 7);
- sair xarici borclar (kod 8);

downloaded from KitabYurdu.az

• bank hesablarında vəsait qalıqlarının dəyişilməsi (xarici valyutada) (kod 9).

V. ***Azərbaycan Respublikası dövlət daxili və xarici borcunun növləri üzrə maliyyələşdirmənin təsnifatı***

Azərbaycan Respublikası hökumətinin daxili borc öhdəlikləri və xarici öhdəliklər üzrə borcların və xarici öhdəliklər üzrə borcların növlər üzrə qruplaşdırılmasıdır. Buraya daxildir:

1. Daxili maliyyələşdirmə mənbələrinə aşağıdakılar daxildir:

• uzunmüddətli dövlət daxili uduşlu istiqrazları (kod 1);

• qısamüddətli istiqrazlar və veksellər (kod 2);

• başqa kateqoriyalara aid olmayan uzunmüddətli ssudalar (kod 3);

• başqa kateqoriyalara aid olmayan qısamüddətli ssuda və avanslar (kod 4);

• sair öhdəliklər (kod 5);

• bank hesablarında vəsait qalıqlarının dəyişilməsi (kod 6).

2. Xarici maliyyələşdirmə mənbələrinə aşağıdakılar daxildir:

• uzunmüddətli istiqrazlar (kod 7);

• qısamüddətli istiqrazlar və veksellər (kod 8);

• başqa kateqoriyalara aid olmayan uzunmüddətli ssudalar (kod 9);

• başqa kateqoriyalara aid olmayan qısamüddətli ssuda və avanslar (kod 10);

• sair öhdəliklər (kod 11);

• bank hesablarında vəsait qalıqlarının dəyişilməsi (kod 12).

downloaded from KitabYurdu.az

VI.*Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə təsnifatı* dövlət büdcəsindən birbaşa büdcə vəsaitlərinin bölüşdürülməsini əks etdirən xərclərin qruplaşdırılmasıdır.

Bu təsnifatda konkret olaraq büdcə vəsaitləri alan təşkilatların fəsillər üzrə siyahısı qeyd olunur:

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (kod 005);
- Azərbaycan Dövlət Neft Şirkəti (kod 006);
- Hərbi Sənaye Kompleksi (kod 017);
- Azərbaycan Respublikası Səhiyyə Nazirliyi (kod 054);
- Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası (kod 074);
- Azərbaycan Respublikası Təhsil Nazirliyi (kod 075);
- Azərbaycan Respublikası Maliyyə Nazirliyi (kod 092);
- Azərbaycan Respublikası Vergilər Nazirliyi (kod 093);
- Azərbaycan Respublikası Milli Məclisi (kod 123);
- Azərbaycan Respublikası Prezident Aparatı (kod 124);
- Azərbaycan Respublikası Nazirlər Kabineti (kod 125);
- Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi (kod 128);
- Azərbaycan Respublikası Prokurorluğu (kod 129);
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (kod 131);
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (kod 152);
- Büdcədənkənar fondlar (kod 184) və s.

downloaded from KitabYurdu.az

Cəmi 199 fəsil.

Azərbaycan Respublikasının yerli özünüidarəetmə orqanlarının büdcələrinin təsnifatı ayrıca qruplaşdırılır, müvafiq büdcələr tərəfindən birbaşa alıcılar müəyyənləşdirilir və büdcə vəsaitlərinin bölüşdürülməsi birbaşa həyata keçirilir.

II BÖLMƏ

BÜDCƏNİN GƏLİRLƏRİ

V fəsil. BÜDCƏNİN VERGİLİ VƏ QEYRİ-VERGİLİ GƏLİRLƏRİ

5.1. Vergilərin mahiyyəti və funksiyaları

Büdcə gəlirləri dövlətin funksiyalarının yerinə yetirilməsi üçün mərkəzləşdirilmiş maliyyə vəsaitləridir. Onlar pul vəsaitləri fondlarının formalaşması prosesində yaranmış iqtisadi münasibətləri əks etdirir və müxtəlif səviyyəli hakimiyyət orqanlarının fəaliyyətinin həyata keçirilməsinə xidmət edir.

Ölkənən dövlət quruluşundan asılı olaraq büdcə gəlirləri unitar (vahid), mərkəzi (dövlət) büdcənin və yerli büdcələrin gəlirlərini təşkil edirlər.

Büdcə gəlirləri dövlət gəlirlərindən fərqli olaraq daha dar mə'na kəsb edir; bütün səviyyəli büdcələrin maliyyə vəsaitlərindən başqa buraya büdcədənkənar fondların və bütün dövlət sektorunun vəsaitləri də daxildir.

Büdcə gəlirlərinin əsas maddi mənbəyini milli gəlir təşkil edir. Əgər maliyyə tələbatının ödənilməsi üçün bu

downloaded from KitabYurdu.az

vəsait kifayət etməzsə, dövlət milli sərvəti maliyyələşdirməyə cəlb edir.

Milli gəlirin bölüşdürülməsinin əsas üsulunu büdcə gəlirlərində üstünlük təşkil edən vergilər təşkil edir. Dövlət büdcəsinin gəlirlərində vergilərdən daxilolmalar 9/10 hissəni təşkil edirlər.

Vergilər - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə tə'minatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişlərdir.

Vergilər insan sivilizasiyasının yarandığı vaxtdan mövcuddur. Dövlətin təşkilinin ilkin mərhələsində vergiqoymanın ilkin forması qurban gətirmə olmuşdur. Qurban verilməsi əslində könüllü olmasına baxmayaraq qeyri-rəsmi olaraq məcburi xarakter daşıyırdı.

İlk müstəqil vergi sistemlərindən biri Qədim Romanın vergi sistemidir. Roma vətəndaşları öz əmlaklarına və ailə vəziyyətinə görə təqdim etdiyi ərizəyə əsasən vergiyə cəlb olunurdular.verginin həcmi xüsusi olaraq seçilmiş mə'murlar tərəfindən beş ildən bir müəyyən edilirdi. E.ə. IV-III əsrlərdə vergi sisteminin inkişafı həm ümumdövlət, həm də yerli (kommunal) vergilərin yaranmasına səbəb oldu.

E.ə. IV və III əsrlərdə Roma dövləti inkişaf edirdi, yeni dövlətlər – müstəmləkələr yaradılırdı. Vergi sistemində də dəyişikliklər baş verirdi. Koloniyalarda kommunal vergilər və biyar vergiləri tətbiq edilirdi.

Roma dövlətinin maliyyə təsərrüfatının yenidən təşkili Avqust Oktavianın (e.ə. 63-cü il – eramızın 14-cü ili) əsas vəzifələrdən biri idi. O bütün əyalətlərdə vergiqoymanın həyata keçirilməsinə nəzarət məqsədilə maliyyə təşkilatlarını yaratdı.

downloaded from KitabYurdu.az

Roma əyalətlərində gəlirlərin əsas mənbəyini torpaq vergisi təşkil edirdi. Bu verginin dərəcəsi torpaq sahəsinin gəlirinin 1/10 hissəsini təşkil edirdi. Bundan başqa meyvə ağaclarına vergilər də mövcud idi.

Roma imperiyasında birbaşa vergilərlə yanaşı vasitəli vergilər də mövcud idi. Qədim Romada dolayı vergilər arasında ən mühümləri bunlar idi: 1%-li dövriyyə vergisi, 4% dərəcəsində qul satışından alınan xüsusi dövriyyə vergisi, bazar qiyməti ilə qulların azad olunmasından alınan 5% dərəcəli vergi. Eramızın IV əsrində imperator Avqust 5%-li varislik vergisi tətbiq etdi. Bu vergi növü ancaq Romanın özündə tətbiq edilirdi. Vergi məqsədli xarakter daşıyırdı. Alınan vəsait professional əsgərlərin pensiya tə'minatına yönəldilirdi.

Bir çox təsərrüfat ənənələri Qədim Romadan Vizantiyaya keçdi. VII əsrədək Vizantiyada 21 növ birbaşa vergi olmuşdur. Bunların arasında: torpaq vergisi, can vergisi (hər bir insana), ordunun tə'min edilməsinə vergi, atların alınmasına vergi, biyar vergisindən azad olmaq üçün əsgərlərdən alınan vergi, məhsulların satışına tətbiq olunan ödənişlər, dövlət aktlarının verilməsinə ödənişlər və s.

XVII əsrin sonu XVIII əsrin əvvəllərində Avropa ölkələrində inzibati dövlətlər yaranmağa başlandı. Bununla yanaşı mə'mur aparatı yarandı, birbaşa və vasitəli vergilərdən ibarət səmərəli vergi sistemi formalaşdı. Vasitəli vergilərin arasında aksizlər xüsusi rol oynayırdılar. Bu vergi adətən şəhərə daxil olan və xaric olan məhsullara, alkoqollu içkilərə və tütün mə'mulatına tətbiq olunurdu. Aksizin dərəcəsi 5-25% arasında olurdu.

Birbaşa vergilərin əsasını can vergisi və gəlir vergisi təşkil edirdi. Bu vergilərdən zadəganlar və keşişlər azad edilirdi.

downloaded from KitabYurdu.az

«Əmək dəyər nəzəriyyəsi»nin müəllifi ingilis iqtisadçısı U.Petti (1623-1687) «Vergilər və yığımlar haqqında» elmi əsərində vasitəli vergiqoymanın üstünlükləri haqqında qeyd edir. O sübut edirdi ki: «Gəlirlərin yığımında aksizlərin rolu böyükdür. Birincisi, ona görə ki, hər bir şəxs istehlak etdiyi qədər aksiz vergisi ödəməlidir. Bu vergini heç kimə məcburi ödətmək mümkün deyil, çünki ilkin tələbat mallarını çox istehlak edənlər bu vergini asanlıqla ödəyirlər.

İkincisi, heç kim ikinci dəfə eyni şeyə görə vergi ödəmir.

Üçüncüsü, ödənişin belə formasında ölkənin inkişafı, sənayesi barədə mə'lumat əldə etmək olar».

İlk vergi nəzəriyyələrindən biri mübadilə nəzəriyyəsidir. Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, vətəndaşlar asayişin gözlənməsi, xarici müdaxilənin qarşısının alınması və s. ilə bağlı xidmətləri vergilər vasitəsilə dövlətdən alırlar. Bu nəzəriyyənin nümayəndələri fransız iqtisadçıları Sebastyen Le Pretr de Voban (1633-1707) və Şarl Lui Monteksye (1689-1755) olmuşlar.

Həmin illər vergiqoymanın elmi nəzəriyyəsi işlənib hazırlanmışdı. Bu nəzəriyyənin banisi şotlandiya iqtisadçısı və filosofu Adam Smit (1772-1823) olmuşdur. O F.Akvinskinin məşhur mülahizəsini inkar edərək qeyd edirdi ki, «vergilər onun üçündür ki, o ödənsin – bu azadlığın əlamətidir. Hər bir vergi ödəyicinin onun imkanı olduğu zaman və müəyyən edilmiş qaydada ödəməsi məqsədəuyğundur. Hər bir vergi elə tərtib edilməlidir ki, o əhalidən ancaq müəyyən məbləğdə və az miqdarda alınsın».

M.Keyns (1883-1946) vergiqoymada proqressivliyin tərəfdarı olmuşdur. O belə hesab edirdi ki, proqressiv vergi sistemi kapital qoyuluşunun həvəsləndi-rilməsinə xidmət edir. M.Keynsin nəzəriyyəsinə əsasən, vergilər iqtisadi

downloaded from KitabYurdu.az

sistemdə «elastik» hərəkət edir. Yüksək (proqressiv) vergilər onun fikrincə müsbət rol oynayırlar. Büdcənin tərkib hissəsi olmaqla bu iqtisadi kateqoriya iqtisadiyatda balanslaşdırma rolu oynayır.

XX əsrin 50-ci illərində Çikaqo Universitetinin iqtisadiyyat professoru Milton Fridman tərəfindən sürülən monetarizm vergi nəzəriyyəsi pulun kəmiyyət nəzəriyyəsinə əsaslanırdı. Onun fikrinə görə, iqtisadiyyatın tənzimlənməsini pul dövriyyəsi vasitəsilə həyata keçirmək olar. Bu zaman vergilər pul dövriyyəsinə tə'sir göstərirlər. Vergilər vasitəsilə artıq pul kütləsi dövriyyədən çıxarılır.

A.Laffer nəzəriyyəsinə görə gizli iqtisadiyyatın inkişafı vergi sistemi ilə əks əlaqədədir, yə'ni vergilərin artımı gizli iqtisadiyyatın artımına, vergilərdən leqal və qeyri-leqal yayınmalara gətirib çıxarır.

A.Laffer büdcəyə vergi ödənişlərinin ümumi gəlirin 30% həcmində tə'yin olunması tərəfdarı idi. Büdcəyə gəlirin 40-50%-i həcmində vergi alınması əhalinin əmanətlərinin azalmasına gətirib çıxarır, bu da iqtisadiyyatın bu və ya digər sahələrinə investisiya qoyuluşunun və vergilərin azaldılmasına gətirib çıxarır.

Neoklassik nəzəriyyə vergi problemlərinə xüsusi olaraq yer ayırmışdır. Belə ki, ingilis iqtisadçıları İ.Fişer və N.Kaldor vergiləri obyektlərə bölərək istehlaka əsasən tətbiq edilməsinin tərəfdarı idilər. Buradan da istehlaka görə verginin tətbiqi ideyası yarandı.

A.Smitin nəzəriyyəsinə əsaslanan müasir iqtisadi nəzəriyyə vergi sisteminin quruluşunun 5 əsas prinsipini işləyib hazırlamışdır:

1. *Ədalət prinsipi.* Bu prinsipə görə vergilər ödəyicilərin maddi imkanları nəzərə alınmaqla ödənilməli və əhalinin gəlirləri bərabər qaydada vergiyə cəlb edilməlidir.

downloaded from KitabYurdu.az

2. *Müəyyənlik prinsipi.* Verginin məbləği, ödəmə müddəti, ödəmə qaydası və faiz dərəcəsi aydın olmalıdır.

3. *Münasiblik, uyğunluq prinsipi.* Vergi ödəyiciləri vergi borcunu ona münasib vaxtda və uyğun formada ödəməlidir.

4. *Səmərəlilik prinsipi.* Vergiqoymada bu prinsip iqtisadi artıma və sahibkarlığın inkişafına xidmət etməlidir.

5. *Sadəlik prinsipi.* Vergilərin hesablanması asan və sadə olmalıdır.

Beləliklə, vergilər bir iqtisadi kateqoriya olmaqla tarixi xarakter daşıyır. Onlar cəmiyyətin tarixi inkişafı ilə əlaqədar dəyişmişlər. Bazar münasibətlərinə əsaslanan ölkə iqtisadiyyatı cəmiyyətin o maraqlarını tə'min etməlidir ki, onlar bazarla az tənzimlənmiş olsun və ya bazar münasibətlərindən kənarda mövcud olmuş olsun.

Vergi elementləri vergilərin ödənilməsində istifadə olunan anlayışlardır. Vergi o halda müəyyən edilmiş hesab olunur ki, bu zaman vergi ödəyicisi və vergitutma elementləri müəyyən edilmiş olsun.

Verginin subyekti – vergitutma obyektlərindən vergi ödəyən istənilən hüquqi və ya fiziki şəxsdir, yəni ödəyicisidir.

Vergitutma obyekti – gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri və ya Vergi Məcəlləsi ilə müəyyənləşdirilən digər vergitutma obyektləridir.

Vergitutma bazası – vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsidir.

Vergi dövrü – vergi ödəyiciləri tərəfindən ödənilən vergilərin təqvim ilinin və ya müəyyən vaxtın bitdiyi dövrdür.

downloaded from KitabYurdu.az

Vergi dərəcəsi – vergitutma bazasının ölçü vahidinə hesablanan vergilərin həcmidir.

Vergi güzəşti – mövcud qanunvericiliyə uyğun olaraq subyektlərin vergi ödəməkdən qismən və ya tam azad etmə və ya möhlət verilməsidir;

Vergi sanksiyası – vergi qanunverigiliyinin pozulması faktı müəyyən edilərkən vergi yükünün artırılmasıdır.

Vergilərin funksiyaları – onun mahiyyətinin hərəkətdə əks etdirilməsi kimi başa düşülür. Funksiya bu iqtisadi kateqoriyanın ictimai tə'yinatının gəlirlərin dəyər e'tibarilə bölgüsünün və yenidən bölgüsünün həyata keçirilməsini göstərir. Buradan vergilərin *bölgü funksiyası* meydana gəlir ki, bu da mərkəzləşdirilmiş bölgü münasibətlərini əks etdirir.

Fiskal funksiyası vasitəsilə vergilərin ən əsas ictimai tə'yinatı həyata keçirilir – büdcə sistemi və büdcədənkənar fondlarda dövlətin mərkəzləşdirilmiş maliyyə ehtiyatları yaranır.

Nəzarət funksiyası vasitəsilə vergi mexanizminin səmərəliliyi qiymətlən-dirilir, maliyyə ehtiyatlarının hərəkətinə nəzarət tə'min edilir, vergi sistemi və büdcə siyasətində dəyişikliklərin edilməsinin vacibliyi aydınlaşdırılır.

Vergi-maliyyə münasibətlərinin nəzarət funksiyası bölgü funksiyasının fəaliyyəti şəraitində baş verir. Vergilərin bölgü funksiyasının bir sıra xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər ondan ibarətdir ki, əvvəllər vergilərin bölgü funksiyası fiskal xarakter daşıyırdı. Ölkənin təsərrüfat həyatına aktiv müdaxiləsi bu funksiyada tənzimləyici xüsusiyyəti yaratdı və bu da vergi mexanizmi vasitəsilə həyata keçirilir.

Tənzimləyici funksiya vergi mexanizmləri vasitəsilə dövlətin qarşıya qoyduğu müəyyən məqsədlərə nail

downloaded from KitabYurdu.az

olunmasına xidmət edir. Bu funksiya vasitəsi ilə vergilər, təkrar istehsal prosesinə onun sürətini stimullaşdırmaq və ya ləngitməklə əhəmiyyətli təsir göstərir, kapital yığımını gücləndirir, və ya zəiflədir, ödəniş qabiliyyətli tələbi artırır və ya azaldır.bu funksiyanın stimullaşdırıcı məqsədi bu və ya digər iqtisadi proseslərin inkişafının müəyyən edilməsinə yönəldilib.

Vergi tənzimləyicilərində *həvəsləndirmə funksiyası* fəaliyyət göstərir. Həvəsləndirici funksiya imtiyazlar, güzəştlər vasitəsilə həyata keçirilir. Bu ödəniş obyektinin, vergiqoyma bazasının azaldılmasında, vergi dərəcəsinin aşağı salınmasında əks olunur.

5.2. Azərbaycanın vergi sisteminin təşəkkülü və inkişafı

Vergilər dövlətin yarandığı gündən cəmiyyətdə iqtisadi münasibətlərin zəruri həlqəsini təşkil edir. Dövlət quruluşunun inkişafı və dəyişməsi ilə əlaqədar olaraq vergi sistemində də dəyişikliklər baş verir.

Vergi və mükəlləfiyyətlər içərisində ən mühümü ***qazidağ***, ***maraq*** və ***xarq*** idi. I Xosrovun vergi islahatından sonra qazidağ termini "can vergisi" mə'nasında işlənib. Əvvəllər ümumiyyətlə, vergi mə'nasında olan "xaraq" termini də elə həmin dövrdə (III-IV əsrələr) torpaq vergisinə aid edilib.

I Xosrovun dövründə üzərinə vergi qoyulmuş torpaqlar siyahıya alınırdı. Torpaq siyahısı hələ Kavadın dövründə tutulmağa başlanmış, oğlu I Xosrovun zamanında başa çatdırılmışdır. Vergi vahidi 1/10 hektara bərabər olan

downloaded from KitabYurdu.az

qarib sayılmağa başladı. Torpaq vergisinin miqdarı əkilən bitkinin xarakterindən asılı olaraq müxtəlif idi.

I Xosrovun dövründə əmlakın qədərindən asılı olaraq 20-50 yaşlı kişilərdən 12, 8, 6 və 4 drahma ***can vergisi*** müəyyən edilmişdi. Kubar nəsillər, ə'yanlar, döyüşçülər, katiblər, kahinlər və mə'murlar can vergisindən azad idilər. Vergilərin ödənilməsi çətin olduğundan dörd aydan bir, ildə üç dəfə alınırdı. Torpaq və can vergisi ilə yanaşı əhalidən başqa vergilər də tutulurdu.

VIII əsrdə müsəlman qanunvericiliyinə – şəriətə görə ***cizyə*** hər il ancaq kişilərdən, özü də onların sənət və ya ticarətdən əldə etdikləri qazancdan asılı olaraq alınırdı. Varlılar 48, ortabablar 24, yoxsullar isə 12 dirhəm ödəyirdilər. Əgər can vergisi – cizyə ancaq qeyri-müsəlmanlardan alınırdısa, torpaq vergisi – xərac həm müsəlmanlardan, həm də başqa dinlərə e'tiqad edənlərdən alınırdı, ancaq qeyri-müsəlmanlar bu vergini ikiqat həcmdə ödəyirdilər.

Əgər Əməvilər dövründə natura ilə ödənc vergilərin mühüm hissəsini təşkil edirdisə, Abbasilər dövründə vergilərin ancaq bir hissəsi natura ilə ödənilirdi. Özü də bu natura içərisində zinət şeyləri və ərəblərdə az tapılan mallar üstünlük təşkil edirdi. Bu sistem II Abbasi xəlifəsi əl-Mənsurun dövründə (754-775) xüsusən geniş tətbiq edilməyə başlanmışdı.

Əl-Mənsurun varisi xəlifə əl-Mehdinin dövründə (775-785), onun sərəncamına görə xəracalma sistemi dəyişildi. Misahə xəracı – torpağın sahəsinə görə alınan vergi əvəzinə ***müqəsəmə*** xəracı – məhsula görə alınan vergi qoyuldu; özü də suvarılan torpaqlardan məhsulun yarısı, *dəliyə* və *kirbə* ilə suvarılan torpaqlardan məhsulun 1/3-i, *duləblə* suvarılan torpaqlardan məhsulun 1/4-i alınırdı. Lakin əl-Mehdinin

downloaded from KitabYurdu.az

dövründə meyvə ağaclarına, zeytun və üzüm bağlarına xərac qoyuldu.

Torpaq vergisi və can vergisindən əlavə aşağıdakı vergilər alınırdı**:** ***xüms*** – mülkiyyətdən və əmlakdan alınan, gəlirin 1/5 bərabər olan vergi**;** ***zəkat*** – yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan vergi; ***zəkat əl-fitr*** – orucluğun başa çatması münasibətilə verilən pay – fitrə; ***sədəqə*** **–** yoxsullara verilən ianə; ***uşr*** – məhsulun 1/10 bərabər vergi.

Xüms – pul və ya natura şəklində dinc yolla ələ keçirilmiş əmlakdan, əmək haqqından, mə'dən və dəfinələrdən, kafir və ya zimminin müsəlmandan satın aldığı torpaqdan, əsirlər də daxil olmaqla hərbi qənimətlərdən alınırdı. Dəyəri ailənin illik xərcindən artıq olan əmlak satın alındıqda və ya müxtəlif peşə sahiblərinin gəlirləri illik məxaricdən çox olanda xüms ödənilməli idi.

Zəkat – ildə bir dəfə alınırdı; bu vergi dənli bitkilər (düyü və lobyadan başqa), giləmeyvələr, daş-qaş və ev heyvanları üzərinə qoyulurdu. Buğda və arpadan zəkat yetişəndən sonra alınır, üzüm üçün isə qora dövründə müəyyənləşdirilirdi.

Zəkat əl-fitrə – ildə bir dəfə, orucluq ayının başa çatması münasibətilə varlı müsəlman ailəsinin yetkinlik yaşına çatmış hər bir üzvünə görə ödənilirdi. Fitrə məhsul və ya pulla ödənilə bilərdi. Onun qədəri 3 kq buğdaya, arpaya və ya çəltiyə, xurmaya, kişmişə, qarğıdalıya və başqa məhsullara bərabər idi.

Uşr – hər il əkinçilik, heyvandarlıq, balıqçılıq məhsullarından satış üçün nəzərdə tutulan və qiyməti 200 dirhəmdən artıq olan başqa məhsullardan natura ilə alınan onda bir vergisi idi.

downloaded from KitabYurdu.az

Şirvanda (Bakıda) bunlardan başqa neft və duz mənbələri üzərinə də vergi qoyulmuşdu.

IX-XI əsrlərdə Azərbaycanda feodal münasibətləri inkişaf etmişdi. Torpaq mülkiyyəti forması olan mülk (və ya əmlak torpaqları) xüsusi mülkiyyət olub, onu almaq, satmaq, irs vermək, bağışlamaq, girov qoymaq olurdu. Mülk sahibi (malik) və ya mülkədar dövlətə xərac, yə'ni yeni ***torpaq vergisi*** verirdi.

Torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi ***uşr*** və ya ***üşur*** (onda bir), sonralar isə xərac adlanırdı. Xərac toplamaq üçün ayrı-ayrı adamlara verilən icazə kağızına qəbalə deyilirdi. Xərac əvvəllər əsasən məhsulla alınırdı. Azərbaycan kəndliləri X-XI əsrlərdə xəracın müəyyən hissəsini pulla ödəyirdilər. Bu, hələ o zaman Azərbaycanda əmtəə-pul münasi-bətlərinin inkişaf etdiyini göstərir. IX əsr tarixçiləri Azərbaycandan ildə 4-4,5 milyon dirhəm xərac toplandıqlarını qeyd edirlər.

Xəracdan başqa müsəlman ailəsi öz əmlakına görə nəzir verirdi ki, buna da zəkat və ya sədəqə deyilirdi. Müsəlman olmayan əhalidən can vergisi – ***cizyə*** alınırdı.

Əhalidən ən'ənəvi vergilərdən əlavə səlcuq döyüşçüləri üçün silah və şərab tədarük etmək, onların atlarını nallamaq üçün mal-üs-silah, şərab bahası, nal bahası kimi vergi, şəhər sənətkarlarından isə onların hazırladığı sənət məhsullarından pay alınmağa başlandı. Ümumiyyətlə, XI-XIII əsrin əvvəllərində əhalinin müxtəlif təbəqələrinin ***xərac, üşr, cizyə, haqq, alaf, nüzl, avariz, qismət, təyyarət, dəraib*** və bir çox başqa vergi, rüsum və mükəlləfiyyətlər ödədiyi mə'lumdur.

Monqol zülmü altında olan əhali dövlətə və feodallara 40 cür vergi və rüsum verirdi. Torpaq vergisi "xərac" natura ilə alınırdı və ilk Hülakülər dövründə taxıl

downloaded from KitabYurdu.az

məhsulunun 70%-ni təşkil edirdi. Can vergisi "qopçur" adlanırdı. Oturaq əhali bu vergini 1-7 dinaradək pulla, köçərilər isə mal-qara ilə verirdilər. Monqol qoşunlarının saxlanması üçün əhali üzərinə xüsusi vergi – ***tacar*** qoyulmuşdu.

Hökmdarlar əhalidən bazar qiymətindən aşağı qiymətə müxtəlif istehlak malları alır və ya tacirləri bazar qiymətlərindən yuxarı qiymətə məhsul almağa məcbur edirdilər. Gömrükxanalarda ***bac*** alınırdı. Mövcud vergilər zəhmətkeşlərin gəlirinin 3/4 hissəsini aparırdı.

Vergi toplamaqla ayrıca idarə - divan məşğul olurdu. Divan vergiləri ya dövlət darğaları vasitəsilə, ya da vergi yığmaq hüququnu icarəyə vermək (müqatiə) yolu ilə toplanırdı. Azərbaycanın cənub vilayətlərində toplanan vergi 210 tümənə (1 tümən - 10 min dinar), şimal vilayətlərində toplanan vergi isə 54 tümənə çatırdı. Vergi verə bilməyənlərə icbari əmək müəyyən edilirdi.

XV əsrdə Azərbaycanda Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin mövcud olduğu bir dövrdə otuzdan çox adda vergi və mükəlləfiyyət mövcud idi və bu ağır vergi sitemi əhalini əzirdi. ***Malcəhət*** (və ya bəhrə) əsas vergi olmuşdur. Uzun Həsənin "Qanunnamə"sinə əsasən bəhrə əldə edilən məhsulun 1/5 hissəsini təşkil etmişdir. Kəndlilər istifadə olunmuş suyun müqabilində də bəhrə vergisi ödəyirdilər. Hərbiçilərin, mülki və ruhani vəzifələr tutan şəxslərin xeyrinə toplanan vergilərin məcmusu ***ixracat*** adlanırdı. Qeyri-qanuni surətdə, özbaşına toplanan vergilər ***şiltaqat*** arlanırdı. Kəndlilər feodal ziyafətlərinin təşkilinin ağırlığını çəkirdilər *(**şilənbəha**, **süfəbəha*** və b. mükəlləfiyyətlər). Yerli inzibati-polis mə'murunun *(**dərucəki***), vergiyığan mə'murların (***ümayizamne***), ruhani başçıların *(**rəsm əl-vüzarə***) xeyrinə toplanan vergilər mövcud idi. Maldarlardan

downloaded from KitabYurdu.az

çobanbəyi vergisi alınırdı. Məcburi bəxşişlər sistemi də mövcud idi. Bu bəxşişlər torpaq sahiblərinə, şahın mə'murlarına, xidmətçilərinə verilirdi (***düşüllük***, ***novruzi***, ***peşkəş***, ***eydi*** və s.). Dövlətin və feodalların xeyrinə toplanan vergilər yerinə yetirilməli olan mükəlləfiyyətlər (***çərik, tərh, ulaq, ulam, biyar*** və s.) əhalini müflisləşdirdi.

XVI-XVII əsrlərdə Azərbaycan kəndlisi aşağıdakı vergiləri və mükəlləfiyyətləri ödəyirdi: ***torpaq və gəlir vergisini*** – malcəhət, bəhrə, xərac - natura ilə ümumi məhsulun 1/5, 1/3 hissəsini təşkil edirdi. Bu vergi sahibkar ilə dövlət arasında bölünürdü. Birinciyə 1/10, ikinciyə 2/10 hissə çatırdı. ***Bağbaşı*** – məhsulun 1/10-nə bərabər idi. ***Çobanbəyi, çöl pulu*** – örüşdə heyvanları otarmaq üçün alınırdı. ***Dəh-yek*** (onda bir) – iri feodal torpaqlarından götürülən gəlirlərin 10 faizi alınırdı. ***Cüftbaşı*** – torpağı əkib-becərmək üçün bir cüt qoşqu vasitəsi olanlardan alınırdı. ***Dəzgahbaşı*** – hər bir toxucu dəzgahından istehsal edilən məhsuldan alınan vergi idi. ***İxracat*** – XVI əsrdə ümumi və müxtəlif vergilərin məcmusu mə'nasında işlənirdi: dövlət canişinləri, hərbi xidmətdə olanların və ə'yanların tələbatını ödəmək üçün alınırdı.

Ot-alafa **-** yük heyvanları, atlar üçün alınırdı. ***Ulafa*** (ərzaq) - bir nəfərin (hərbçi, canişin və s.) yaşaması üçün alınan vergi idi. Bu iki vergi bə'zən pulla da alınırdı. ***Konalqa*** **-** ə'yanların kəndlinin evində düşərgə salmaq hüququ idi. Kəndli ə'yanı, onu müşaiyət edənləri yataqla tə'min etməli, yedirtməli, atlarını yemləməli idi. ***Tə'yin*** isə şəhər və kəndlərdə xarici dövlətlərin səfirlərinə və onları müşaiyət edənlərə qulluq etmək üçün əhalidən alınan məbləğ idi. ***Ulaq və ulam*** **-** kəndli şah çaparlarının ixtiyarına minik, yük, qoşqu atları verməli idi. I Şah Abbasın əmri ilə alafa, ulafa, biyar, ulaq, peşkəş, salami, şiltaqat kimi əvvəlcədən nəzərdə

downloaded from KitabYurdu.az

tutulmamış, təsadüfi səciyyə daşıyan bütün töycü növləri «ixracat» və «əvazirat»a daxil edilmişdi. ***Rüsum*** **-** dövlət canişinləri və ruhanilər üçün natura ilə alınan vergi idi. ***Səvari*** **-** əhalinin hakim sülalənin üzvlərinə - sərkərdələrə, yeni fəth edilmiş yerlərə gələn tanınmış adamlara (Novruz bayramı münasibətilə) verdiyi hədiyyə idi. O, bə'zən novruzi adlanırdı. ***Tərh*** **-** dövlətə və feodala məxsus olan malın bazar qiymətindən yuxarı zorla kəndliyə satılması və yaxud, dövlətə və feodala lazımi olan malın bazar qiymətindən aşağı qiymətə alınması idi. ***Dəstəndaz*** - aşağı səviyyəli dövlət icraedici şəxslərin xidmətinə görə verilən vergi idi. ***Başpulu*** **-** yetkin kişi cinsinə mənsub şəxslərdən alınırdı. ***Otaqxərci (***həmçinin ***yurtanə)*** **-** hər evdən, hər ailədən alınan vergi idi. ***Cizyə*** **-** xristianlardan alınırdı. ***Biyar*** - kəndlinin feodal və ya dövlət üçün zorla, pulsuz işləməsi idi. Bütün ailə üzvləri növbə ilə 2 gündən 6 günə qədər biyara getməli idi. ***Çərik*** – döyüşən orduya kənar vilayətlərdən göndərilənlərdən alınırdı. Bunlardan başqa ***tüstü pulu, alaçıq pulu*** və s. alınırdı.

1699-1702-ci illərdə əhalinin yeni siyahıyaalınması keçirildi. Bu siyahıyaalınma zamanı vergilər 3 dəfə artırıldı.

XVIII əsrin I yarısında vergi və mükəlləfiyyətlərin ağırlığı rəiyyət və elatların boynuna düşürdü. İranda mövcud olan vergilər Azərbaycanda da tətbiq olunurdu: torpaq vergiləri *(**malcəhət, uşr, çobanbəyi***), adambaşına alının vergi *(**sərşomari, cizyə***), qoşunları saxlamaq üçün *(**ulufa, sursat, əsb-e çapar***), hərbi qulluq mükəlləfiyyəti (**çərik**), şah və dövlət mə'murlarının xeyrinə toplanan vergi (***ruşmat, təhzilat, peşkəş, xərc-e tə'yin mütərəddin****),* dövlət və feodallar üçün görüləcək işlər (**bikar və əvazir**), torpaqbasdı vergisi (***rahdari***) və s.

downloaded from KitabYurdu.az

XVIII əsrin II yarısında Azərbaycanda xanlıqlar dövründə əsas vergini ***malcəhət*** (Naxçıvan və Şirvan xanlıqlarında bu vergi ***bəhrə*** adlanırdı) təşkil edirdi. Müxtəlif xanlıqlarda onun həcmi 1/10-lə 1/3 arasında tərəddüd edirdi. Feodallar otlaqlardan istifadə müqabilində rəiyyətdən ***çopbaşı*** adlı əlavə vergi alırdılar. Kəndli bağlarından toplanan ***bağbaşı*** adlı vergi məhsulun 1/10-ni təşkil edirdi. Kəndlilərdən ***toypulu*** da alınırdı. Əgər toy kəndlinin ailəsində olurdusa, onda o bəyə toyxərci verməli idi. Toy bəyin ailəsində olurdusa, onda bəy kəndlidən toypulu tələb edirdi. Hər bir kəndli həyətindən ***otaqxərci*** deyilən vergi də yığılırdı.

Mirzə Camal Qarabağ xanlığında vergi və mükəlləfiyyətlər haqqında maraqlı mə'lumatlar verir. O yazır ki, hər il Novruz bayramında sərkərdələrə xanın adından müxtəlif hədiyyələr - xələtlər, atlar, silahlar bağışlanırdı. Feodallar da bunun müqabilində xana öz adlarına layiq hədiyyələr gətirirdilər. İbrahimxəlil xan səfərdə olarkən və ya hər hansı yerdə düşərgə qurarkən minbaşıların, yüzbaşıların, bəylərin, ağaların əksəriyyəti, bə'zi döyüşçülər, katiblər, eşik-ağası, darğalar və yolçular xanın mətbəxindən yemək alırdılar. Çox vaxt xanın mətbəxinin bir günlük xərci onlarla qoyundan, qırx puddan artıq düyüdən və s. ibarət olurdu. Bütün bunlar çoxlu xərc tələb edirdi və əsasən istehsalçıların istismarı hesabına ödənilirdi.

Vergi sistemində ən mühüm dəyişiklik 1819-cu ildə Şəki əyalətində həyata keçirilmişdi. Natural vergilərin yerinə pul vergiləri qoyulmuşdu. Ərzaqla toplanan vergi çoxluq təşkil edirdi.

Vergilərin bölünməsi sistemi və yığılması üsulu bir-birindən fərqlənirdi. Məsələn, Şirvan əyalətində vergilər hər

downloaded from KitabYurdu.az

kənd, Qarabağ əyalətində hər kəndli həyəti, Lənkəran əyalətində isə mahallar üzrə tə'yin olunurdu. Çar hökuməti əvvəlki vergi sistemində də dəyişikliklər və əlavələr etdi. Natural vergiləri pul vergiləri əvəz etməyə başladı. Qarabağ və Talış əyalətlərində pul rentasının xüsusi çəkisi artdı. Quba əyalətində ərzaq vergisi üstünlük təşkil edirdi. Bakı əyalətində də kəndlilərin vergiləri xeyli artmışdı.

XIX əsrin əvvəllərində Şimali Azərbaycanda bəy rəiyyətlərinin vergi və mükəlləfiyyətlərinin sayı 35-ə çatırdı. Bu mükəlləfiyyətlərin içərisində ən ağır və zəhmətlisi işləyib ödəmə idi.

Sahibkar rəiyyətlərinin ən geniş yayılmış vergi forması ***malcəhət, salyana, darğalıq, at arpası*** və s. idi. Bütün bu mükəlləfiyyətlər natural xarakter daşıyırdı.

Malcəhət kənd təsərrüfatı bitkisi məhsulundan torpaq sahibkarının xeyrinə ayrılan hissədən ibarət idi. O, adətən dənli bitkilər məhsulunun 1/10, pambıq və ipək məhsulunun isə 1/5 hissəsi həcmində toplanırdı.

Darğalığın həcmi çox vaxt məhsulun 20%-dək artırdı.

Sahibkar kəndliləri bəy atlarının yemlənməsi üçün feodallara "at arpası" deyilən daha bir natural mükəlləfiyyət icra etməyə borclu idi. Rəiyyətlərin məhsulunun 20%-ə qədəri at arpasının ödənilməsinə gedirdi.

Rəiyyətlərin pul mükəlləfiyyətləri də (***cütbaşı, bağbaşı, toy pulu və bayramlıq***) rəngarəng idi. Cütbaşı - cütə qoşulan öküzlər üçün alınırdı: bağbaşı - meyvə, üzüm və tut bağları üçün yığılan vergi idi; toy pulu - hər toya görə müxtəlif məbləğlərdə alınırdı (məsələn, Şirvan əyalətində hər toydan gümüş pulla 3 manat), bayramlıq - novruz və qurban bayramları günü alyığılırdı.

XIX əsrin 40-cı illərində hər sahibkar rəiyyəti həyətinin sahibkarın xeyrinə ödədiyi vergi və

downloaded from KitabYurdu.az

mükəlləfiyyətlər pul hesabı ilə ildə Qarabağ qəzasında 25 manata, Nuxa qəzasında 5 manat 31 qəpiyə çatırdı.

Dövlət xəzinəsinə müxtəlif növ rüsumlar da ödənilirdi. Həmin rüsumlar aşağıdakılardan ibarət idi:

- gerb rüsumu;
- əvəzsiz yolla mülkiyyətə keçən əmlakdan rüsumlar;
- dövlət qulluğunda olan mə'murların maaşlarından tutulan rüsumlar;
- diplomlar və qramotalardan rüsumlar;
- makler və notariat kitablardan rüsumlar;
- ixtiralar üçün patent alınmasına görə rüsumlar;
- əmlakın sığorta olunmasına görə rüsumlar;
- yüksək sür'ətli qatarlarla daşınan sərnişinlərdən və onların yüklərindən rüsumlar.

Gerb rüsumunun xəzinəyə ödənilməsi gerb rüsumu haqqında nizamnamə ilə tənzimlənirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda toplanılan vergilərin əsas hissəsini dövlət ***torpaq vergisi*** və ***əsgəri vergi*** təşkil edirdi. Sonra isə ***ticarət və sənaye fəaliyyətindən vergilər*** və ***aksiz vergiləri*** gəlirdi. Vətəndaşların gəlirlərindən tutulan vergilər isə həmin məbləğin çox az hissəsini təşkil edirdi. Həmin dövrdə mövcud olmuş rüsumların bə'ziləri isə (məsələn, gerb rüsumu) zaman keçdikcə aradan çıxmışdır.

XX əsrin əvvəllərində vergilər üç istiqamətdə müəyyənləşdiril-mişdir: birbaşa vergilər, dolayı vergilər və rüsumlar. Bunların arasında mə'dən vergisi, torpaq vergisi, əmlak vergisi xüsusilə fərqlənirdi və büdcə gəlirlərinin çox hissəsini təşkil edirdi.

1919-cu ilin aprelində sonralar dövlət vergi siyasətinin formalaşmasında əsas rol oynamış ən mühüm qanun da

downloaded from KitabYurdu.az

Maliyyə Nazirliyindən daxil olmuşdur. Qanun cəmi 2 bənddən ibarət olsa da onun böyük əhəmiyyəti var idi, çünki ilk dəfə olaraq bu qanunla kapital vergisinin müstəqil vergilərdən qəti tə'yin olunmuş vaxt və tarif dərəcəsi müəyyən edilirdi. Kapital vergisi hər 100 manata 30 manat olmaqla ilin başlanğıcında ancaq fevralın 1-dən gec olmayaraq ödənilirdi, gəlir vergisi isə ilin sonunda, gəlirin həcmi aydınlaşdıqdan sonra ödənilirdi.

Qanun martın 15-də qəbul olundu, iyulun 23-də isə parlament öz qanunu ilə gəlirin yaşayış minimumunun dövlət vergisinə cəlb olunmayan hissəsini 1000 rubldan 5000 rubladək artırdı.

Yeni iqtisadi siyasət dövründə (1921) aşağıdakı vergi növləri mövcud idi: ***kənd təsərrüfatı vergisi, mə'dən vergisi, gəlir vergisi, təsərrüfat dövriyyəsindən alınan torpaq rentası, varislik rüsumu, aksizlər, gömrük rüsumları*** və b.

1923-25-ci illərdə aşağıdakı vergilər fəaliyyətdə idi: birbaşa vergilər – kənd təsərrüfatı vergisi, istehsal vergisi, gəlir-əmlak vergisi, renta vergisi, gerb rüsumu, vərəsəliklə keçən əmlakdan vergi. Vasitəli vergilər – aksizlər və gömrük vergisi.

Azərbaycanda SSRİ tərkibində olduğu dövrdə bir sıra vergilər mövcud olmuşdu: ***əhalidən alınan gəlir vergisi*** (1943), ***subaylardan, tək adamlardan, kiçik ailələrdən alınan vergilər*** (1944), ***kənd təsərrüfatı vergisi*** (1953), ***tikililərdən alınan vergi, torpaq vergisi, nəqliyyat vasitələri sahiblərindən vergilər, kolxoz bazarlarından birdəfəlik rüsum, gömrük və dövlət rüsumu*** və s.

Müharibədən sonra əhalidən tutulan vergilər nisbətən azaldılmışdı. Hərbi vergi (1946) ləğv edildi və subaylardan alınan vergi azaldıldı.

downloaded from KitabYurdu.az

Dövlət büdcəsinə 1979-cu ildən e'tibarən aşağıdakı vergilər daxil edilmişdir: ***dövriyyə vergisi, dövlət müəssisələrinin mənfəətindən vergi, əsas vəsaitlərdən və dövriyyə fondlarından ödənişlər, renta ödənişləri, mənfəətin sərbəst qalığı, kinofilmlərin baxışından alınan gəlirdən vergi, kolxoz və kooperativ təşkilatlarından gəlir vergisi, meşə vergisi, dövlət əmlakının satışından alınan gəlirdən vergi, digər vergilər və rüsumlar.***

1991-ci ildən Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra öz müstəqil büdcə və vergi siyasətini həyata keçirməyə başlamışdır. Bu dövr ərzində, mə'lum olduğu kimi, bir çox qanunlar qəbul edilmiş, vergilərin növləri və dərəcələri, dövlət rüsumları müəyyən edilmişdir. Bazar iqtisadiyyatı münasibətlərinin formalşması ilə əlaqədar olaraq qanunlarda dəyişikliklər edilmiş və son nəticədə, 2001-ci ildə **«Vergi Məcəlləsi»** qüvvəyə minmişdir.

5.3. Müasir vergi sistemi və vergilərin təsnifatı

Azərbaycan Respublikasının müasir vergi sistemi 2001-ci ildən qüvvədə olan «Vergi Məcəlləsi» ilə müəyyən edilir və dövlət və yerli vergilərin, onların prinsiplərinin, formalarının tətbiqi üsullarının dəyişdirilməsi, ləğvi, ödənilməsinin tə'min edilməsi üsullarının, vergi nəzarətinin həyata keçirilməsinin, vergi qanunvericiliyinin pozulmasına görə məs'uliyyətə cəlb edilməsi yollarının məcmusudur. Qısaca desək, müəyyən edilmiş qaydada tutulan vergi, yığım, rüsum və digər ödənişlərin məcmusu vergi sistemini təşkil edir.

Müasir vergi sistemi sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla bazar münasibətləri tələblərinə əsaslanır.

downloaded from KitabYurdu.az

Vergi sistemi:

1) büdcə gəlirlərinin yığılmasını tə'min edir;

2) əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin formalaşması və yenidən bölgüsü xüsusiyyətləri nəzərə alınmaqla bütövlükdə və təsərrüfatın ayrı-ayrı sahələrində istehsalın və istehlakın tənzimlənməsi üçün şərait yaradır.

Müasir vergi sisteminin əsas prinsipləri müəyyən edilmişdir və bunlardır:

1. Hər bir hüquqi və fiziki şəxs mövcud qanunvericilik çərçivəsində vergi ödəməlidir;

2. Vergilər cəmiyyətin və dövlətin inkişafının maliyyə tə'minatı məqsədilə tətbiq edilir;

3. Vergilər siyasi, ideoloci, etnik, konfessional və bu kimi digər kriteriyalardan asılı olmayaraq tətbiq edilir;

4. Vahid iqtisadi məkana və Azərbaycan Respublikasının vergi sisteminə zidd olan vergilər tətbiq edilə bilməz.

Müxtəlif səviyyəli büdcələrə daxil olan vergiləri vergitutma obyektinə, vergi dərəcələrinin quruluşu xarakterinə və istifadəsinə görə müxtəlif əlamətlərə görə təsnifləndirmək olar.

Vergitutma obyektinə görə vergilər birbaşa və vasitəli vergilərə bölünür.

Birbaşa vergilər – vergi ödəyicilərinin bilavasitə gəlirlərindən və əmlaklarından müvafiq dərəcələrlə dövlət tərəfindən alınan vergilərdir. Məsələn, fiziki şəxslərdən gəlir vergisi, mənfəət vergisi, torpaq vergisi və b.

Birbaşa vergilər real və xüsusi vergilərə bölünür.

Real vergilər vergi ödəyicilərinin maliyyə vəziyyətindən asılı olmayaraq əmlakın, məhsulların və ya fəaliyyətin ayrı-ayrı növlərinə görə ödənilir.

downloaded from KitabYurdu.az

Xüsusi vergilər vergi ödəyicilərinin maliyyə vəziyyətindən asılıdır və gəlir mənbəyindən və ya bəyannaməyə görə ödənilir.

Vasitəli vergilər – məhsulların qiymətinə, məhsul satışı dövriyyəsinə, iş və xidmətlərə əlavə kimi tətbiq edilir. Bunlara aksizlər, ƏDV, fiskal inhisar, gömrük rüsumları aiddir.

Universal vasitəli vergiyə ƏDV aiddir. Bu vergi Vergi Məcəlləsində qoyulmuş məhdudiyyətlər istisna olmaqla bütün məhsullara, iş və xidmətlərə tətbiq edilir.

Fərdi vasitəli vergiyə aksizlər aiddir. Bu istehsalın müəyyən mərhələsindəki dövriyyəsinə, ayrı-ayrı mal növlərinə və xidmətlərinə tətbiq edilir.

Fiskal inhisar – bilavasitə dövlət inhisarında olan mallara, istehsala və ya satışa qoyulan vasitəli verginin bir növüdür. Bir qayda olaraq, dövlət kütləvi istehlak mallarının istehsalını, satışını öz inhisarında saxlayır. Fiskal inhisar tam və ya qismən ola bilər. ***Tam*** inhisarçılıq şəraitində dövlət istehsalı və müəyyən növ satışı inhisarda saxlayır, ***qismən*** inhisarçılıq şəraitində isə dövlət ya təkcə istehsalı, ya da hər hansı bir məhsulun satışını öz inhisarında saxlayır. Dövlət fiskal inhisarı ağır vasitəli vergidir, belə ki, onun tətbiqi nəticəsində kütləvi istehlak malları bahalaşa bilər və onda əhalinin həyat səviyyəsinə tə'sir edə bilər. Ona görə də verginin bu növü Azərbaycan Respublikasında tətbiq edilmir.

Gömrük rüsumları – Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə malların idxalı və ixracı zamanı alının ödənişlərdir.

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasında bazar münasibətlərinin formalaşması müxtəlif səviyyəli büdcələrin gəlirlərinin yaranmasında köklü dəyişiklik etdi.

Büdcənin vergi gəlirlərinin əsas xüsusiyyətləri aşağıdakılarda özünü biruzə verir:

1. Vergi gəlirləri hüquqi əsaslara arxalanır.
2. Vergi qanunvericiliyi vergilərin ***dövlət strukturu səviyyəsi*** üzrə bölgüsünü nəzərdə tutur.
3. Vergi qanunvericiliyi müxtəlif səviyyəli büdcələrdə vergi daxilolmalarını möhkəmləndirir və tənzimləyici səviyyələrdə bölgüsünü nəzərdə tutur.
4. Vergi sistemi vergi yığımının vahid prinsip, vahid mexanizm əsasında qurur. Vergilərin düzgün hesablanması, vaxtında və tam ödənilməsi üzrə nəzarəti vergi orqanları həyata keçirir.
5. Dövlət büdcəsi ilə yerli büdcələr arasında vergi qanunvericiliyi əsasında səlahiyyətlərin bölgü ***vahid yanaşma prinsipi*** əsasında həyata keçirilir.

Azərbaycan Respublikasında 2001-ci ildən fəaliyyətdə olan Vergi Məcəlləsi vergi sisteminin təşkilati - hüquqi əsaslarını müəyyən edir, ölkəmizin iqtisadi maraqlarının qorunmasına, vergi hüquqlarının müdafiəsinin tə'min olunmasına, vergi sistemi sahəsində münasibətlərin tənzimlənməsinə xidmət edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergilərin sayının azaldılmasını, səmərəsiz vergilərin ləğv edilməsini nəzərdə tutur. Dövlət və yerli vergilər üzrə vergiqoyma prosesində yaranmış hüquq pozuntuları Vergi Məcəlləsi və Məcəlləyə uyğun vergi qanunvericiliyinin normativ aktları ilə tənzimlənir.

downloaded from KitabYurdu.az

Vergi Məcəlləsi dövlət strukturunun səviyyələri üzrə büdcə gəlirlərinin bölgüsünü həyata keçirir və aşkarlıq, vahidlik, ədalətli vergi sistemi prinsiplərini nəzərdə tutur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergi və rüsumların müəyyən büdcələrə yığılmasından asılı olaraq, onları dövlət vergilərinə, muxtar respublika vergilərinə və yerli (bələdiyyə) vergilərə ayırır. Belə bölgü Azərbaycanın unitar dövlət quruluşundan irəli gəlir.

Dövlət vergiləri – vergi sisteminin əsasını təşkil edir və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergiləri nəzərdə tutur. Dövlət vergilərinin siyahısı, vergiqoyma obyektləri, imtiyazların növləri və dərəcələri, vergi ödəyiciləri, vergilərin ödənilməsi qaydaları və onların büdcə yə və büdcədənkənar fondlara hesablanması dövlət icra strukturlarının müvafiq aktlarına əsasən tətbiq edilir. Normativ qanunvericilik aktlarına qərarlar, əmrlər, sərəncamlar, qaydalar, tə'limatlar və əsasnamələr daxildir.

Onlar dövlət reyestrinin normativ aktlarına daxil edilir və müvafiq olaraq fərdi nömrəyə və dövlət qeydiyyatına malik olurlar.

Dövlət vergilərinə aşağıdakılar daxildir:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- hüquqi şəxslərin əmlak vergisi;
- əlavə dəyər vergisi;
- aksizlər;
- mə'dən vergisi;
- yol vergisi;
- sadələşdirilmiş vergi.

Dövlət vergiləri mütləq qaydada həyata keçirilir və Azərbaycan Respublikasının bütün ərazisində ödənilir.

downloaded from KitabYurdu.az

Dövlət vergilərinin bir çoxu tənzimləyici büdcə gəlirlərinə aid edilir.

Yerli vergilər və rüsumlar hüquqi və fiziki şəxslərin yerli büdcələrə mütləq qaydada ödədikləri ödənişlərdir.

Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir.

Yerli büdcələrin gəlirləri xüsusi gəlirlər, dövlət və ərazi tənzimləyici vergi və rüsumlarından ayrılan vergilər hesabına formalaşdırılır.

Yerli büdcələrə bələdiyyə mülkiyyətində olan əmlakın istifadəsindən əldə olunan gəlirlər və yerli özünüidarəetmə orqanlarının, onların tabeliyində olan büdcə idarələrinin göstərdikləri pullu xidmətlərdən əldə olunan gəlirlər, bələdiyyə mülkiyyətində olan əmlakın satışından əldə olunan gəlirlər daxildir.

Yerli büdcələrin gəlirlərinə aşağıdakı yerli vergilər, rüsumlar, haqqlar və ödənişlər daxildir:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mə'dən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi;
- reklam haqqı;
- kurort, mehmanxana, avtomobillərin dayanacaqları üçün rüsumlar;
- pul, şey lotereyalarının satışından daxilolmalar;
- digər rüsumlar və ödənişlər.

downloaded from KitabYurdu.az

Növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun ilə müəyyən edilən normativlər üzrə dövlət büdcəsinin xüsusi gəlirləri muxtar qurumun büdcələrinə və yerli büdcələrə verilə bilər.

Azərbaycan Respublikasının muxtar qurumun büdcəsinin xüsusi gəlirləri yerli büdcələrə faiz payı ilə tam və qismən verilə bilər. Faiz payı muxtar qurumun qanunvericilik orqanı tərəfindən təsdiq edilir.

Yerli özünüidarəetmə orqanlarının hüquqi aktları ilə müəyyən edilmiş dərəcələr (normativlər) üzrə yerli büdcələrin gəlirləri digər səviyyəli büdcələrə verilə bilər.

Yerli özünüidarəetmə orqanları yerli vergi və rüsumlar tətbiq edir, Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə verilən hüquqlar çərçivəsində yerli özünüidarəetmənin nümayəndəli orqanlarının vergi qanunvericiliyinə dəyişikliklər və əlavələr edilməsi haqqında hüquqi aktları növbəti maliyyə ilinə yerli büdcə təsdiq edilənədək qəbul edilir.

Cari maliyyə ilində qüvvəyə mindirilməsi nəzərdə tutulan özünüidarəetmə orqanlarının yerli vergi və rüsumlara dəyişikliklər və əlavələr edilməsi haqqında hüquqi aktların qəbul edilməsinə, yalnız müvafiq büdcənin təsdiq edilməsi haqqında hüquqi akta dəyişikliklər və əlavələr edildikdən sonra yol verilir.

5.4. Büdcənin qeyri-vergili gəlirləri

Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında vergilərdən daxilolmalarla yanaşı vergi olmayan gəlirlər də xüsusi yer tutur.

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirlərinin təsnifatında vergi olmayan gəlirlərin növləri öz əksini tapmışdır.

Vergi olmayan gəlirləri aşağıdakılar daxildir:

I. Mülkiyyətdən və sahibkarlıq fəaliyyətindən gəlirlər:

Büdcə təşkilatlarının xüsusi vəsaitlərinin daxilolması.

Maliyyə və qeyri-maliyyə müəssisə və idarələrindən vergi olmayan daxilolmalar:

Qeyri-maliyyə dövlət müəssisələrindən gəlirlər;

Qeyri-maliyyə dövlət müəssisə və təşkilatları tərəfindən alınmış büdcə ssudaları üzrə faizlərin ödənilməsi;

Qeyri- maliyyə dövlət müəssisələrindən alınan dividendlər;

Pul-şey lotereyaları üzrə daxilolmalar;

Qeyri-maliyyə dövlət müəssisələrindən sair gəlirlər.

Maliyyə təşkilatlarından gəlirlər:

Azərbaycan Respublikası Milli Bankının mənfəətindən daxilolmalar;

Maliyyə təşkilatları tərəfindən alınmış büdcə ssudaları üzrə faizlərin ödənilməsi;

Maliyyə təşkilatlarından alınan dividendlər;

Maliyyə təşkilatlarından sair gəlirlər.

II. Xarici dövlətlərdən mülkiyyətlə bağlı gəlirlər:

Xarici qeyri-dövlət strukturlarından mülkiyyətlə bağlı gəlirlər;

Daxili xüsusi sektordan daxil olan mülkiyyətlə bağlı gəlirlər;

Mülkiyyətdən daxil olan sair gəlirlər.

III. İnzibati tədiyələr və rüsumlar (dövlət rüsumları, birdəfəlik rüsumlar, yol polisinin aldığı rüsumlar və s.).

downloaded from KitabYurdu.az

IV. Cərimə və sanksiyalar üzrə daxilolmalar.

«Azərbaycan Respublikasının 2001-ci il dövlət büdcəsinin icrası haqqında» Azərbaycan Respublikasının Qanununa əasasən dövlət rüsumlarının dövlət büdcəsinin gəlirlərində xüsusi çəkisi 2,0%, birdəfəlik rüsumların - 0,1%, vergi olmayan sair gəlirlərin - 3,1%, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar – 0,3%, banklardan alınan dividendlər – 0,03% olmuşdur. 2002-ci il üçün dövlət rüsumlarının həcmi 115 mlrd. manat, vergi olmayan sair gəlirlər isə 202 mlrd. manat, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar 10 mlrd. manat, banklardan alınan dividendlər 6,6 mlrd. manat proqnozlaşdırılmışdır.

VI fəsil. HÜQUQİ ŞƏXSLƏRİN MƏNFƏƏT VERGİSİ

Mənfəət vergisi – hər bir dövlətin vergi siyasətinin mühüm elementidir. Mənfəət vergisi büdcənin gəlir hissəsinin formalaşmasının mühüm hissəsini təşkil edir. Dövlət büdcəsinin gəlirlərində mənfəət vergisi öz həcminə görə ƏDV-dən sonra ikinci yeri tutur. 2001-ci ildə dövlət büdcəsinə 588,2 mlrd. manat mənfəət vergisi daxil olmuşdur ki, bunun da ÜDM-da xüsusi çəkisi 2,4% olmuşdur. 2001-ci ildə vergi daxilolmalarında mənfəət vergisinin xüsusi çəkisi 20,3% təşkil etmiş, 2002-ci ildə 14,6%-dək, 2003-cü ildə 12,6%-dək azaldılması nəzərdə tutulmuşdur. Bu cür azalmanın başlıca səbəbi vergi ödəyicilərinin 95%-ə qədərinin sadələşdirilmiş sistem üzrə vergi ödəyiciləri kimi fəaliyyəi gəstərməsindən ibarətdir. Vergi dərəcəsinin aşağı salınması bu vergi növü üzrə daxilolmaların 60 milyard manata yaxın azalması ilə nəticələnəcəkdir.

downloaded from KitabYurdu.az

Hüquqi şəxslərin mənfəət vergisinin ÜDM-da xüsusi çəkisi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

Cədvəl 5. Mənfəət vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstə-ricilər	***1996***	***1997***	***1998***	***1999***	***2000***	***2001***	***2002***	***2003***
Vergilər-dən daxil -olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
Mənfəət vergisi	4,3	2,9	2,1	1,9	2,7	2,4	2,8	2,3

Mənfəət vergisi 1992-ci ildə keçirilmiş vergi islahatı nəticəsində tətbiq edilmişdir. Ona qədər büdcənin gəlir hissəsinin formalaşması fondlara görə haqq, renta ödənişləri, mənfəətin sərbəst qalığı və mənfəətdən ödəmələr formasında həyata keçirilirdi.

Azərbaycan Respublikasında hüquqi şəxslərin mənfəət vergisi Vergi Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ***ödəyiciləridir.***

Fiziki şəxs olmayan hər hansı xarici şəxs Vergi Məcəlləsinin 137-ci maddəsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin obyekti kimi baxılmalı olmadığını sübut etməyincə, ona müəssisə kimi baxılır (maddə 137: «Hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olan

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

şəxslər, həmin fəaliyyətdən əldə etdikləri birgə gəliri (bu fəaliyyətlə bağlı birgə xərci çıxmaqla) hesabladıqdan sonra, birgə sahibkarlıq fəaliyyətlərinə dair razılığa uyğun olaraq, vergiyə cəlb edilən gəliri bu fəaliyyətin iştirakçıları arasında bölürlər»).

Rezident müəssisə üçün ***vergitutma obyekti*** onun mənfəətidir. Vergi ödəyicisinin gəliri (vergidən azad edilən gəlirdən başqa) ilə Vergi Məcəlləsinin 108-ci maddəsində göstərilən, gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir (maddə 108: «Gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər gəlirdən çıxılır»).

Azərbaycan Respublikasında daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisələri bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yə'ni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

Azərbaycan Respublikasındakı nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən əldə edilən qeyri-rezident müəssisənin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur.

Vergi ödəyicisi vergi ili ərzində vergilərin uçotunu kassa metodu və ya hesablama metodu ilə apara bilər.

Kassa metodu ilə uçot aparan vergi ödəyicisi gəliri əldə edəndə gəlir onun sərəncamına veriləndə, bu gəliri nəzərə almalı və gəlirdən öz xərclərini yalnız bu xərcləri çəkdiyi zaman çıxmalıdır.

Vergi ödəyicisinin nağd pul vəsaitinin aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti

downloaded from KitabYurdu.az

almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt gəlirin əldə edildiyi vaxt sayılır.

Vergi uçotunun məqsədləri üçün vergi ödəyicisi kassa metodundan istifadə etdikdə, xərcin çəkilməsi vaxtı, xərcin faktiki çəkildiyi vaxt sayılır.

Hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə etdiyi və ya xərcinin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır.

Müvafiq məbləğ vergi ödəyicisinə qeyd-şərtsiz ödənilməlidirsə, yaxud vergi ödəyicisi əqd və ya müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdirsə, bu vaxt gəliri almaq hüququ əldə edilmiş hesab edilir.

Vergi ödəyicisi vergi uçotunun aparılması məqsədilə hesablama metodundan istifadə etdikdə, əqdlə bağlı olan xərcin çəkilməsi vaxtı aşağıdakı şərtlərin hamısına əməl edildiyi vaxt sayılır:

- vergi ödəyicisi birmənalı olaraq maliyyə öhdəliklərini qəbul edir;
- maliyyə öhdəliklərinin məbləği dəqiq qiymətləndirilir;
- əqddə və ya müqavilədə iştirak edən bütün tərəflər əqd və ya müqavilə üzrə özlərinin bütün öhdəliklərini şərtsiz yerinə yetirmişlər, yaxud müvafiq məbləğlər qeyd-şərtsiz ödənilməlidir.

Mənfəət vergisindən aşağıdakı müəssisə və təşkilatlar ***azaddırlar:***

– xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa);

– qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;

downloaded from KitabYurdu.az

– beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri (sahibkarlıq fəaliyyətindən ələd etdikləri gəlirdən başqa);

– dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri;

– Azərbaycan Respublikasının Milli Bankının və onun qurumlarının və Azərbaycan Respublikası Dövlət Neft Fondunun (Fondun vəsaitlərinin yerləşdirilməsindən əldə edilən gəlir istisna olmaqla) gəlirləri;

– alınmış sığorta ödənişləri;

– sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəliri (sahibkalıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa).

Aşağıdakı hallarda ***güzəştlər*** edilir:

– əlillərin ictimai təşkilatlarına məxsus olan işçilərin ümumi sayının azı 50 faizi əlillərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır;

– vergi tutulan məbləğ istehsal tə'yinatlı kapital qoyuluşunun maliyyələşdirilməsinə və ya bu məqsədlər üçün alınmış və istifadə edilmiş bank kreditlərinin ödənilməsinə müəssisənin faktiki çəkdiyi xərclər məbləğində azaldılır.

Hal-hazırda müəssisələrin mənfəətindən ***25% dərəcəsi*** ilə vergi tutulur.

Azərbaycan Respublikasının regionları üzrə müəssisələr 25% dərəcəsi ilə hesablanmış mənfəət vergisini aşağıdakı miqdarda ödəyirlər:

- Gəncə, Sumqayıt, Mingəçevir və Əli Bayramlı şəhərlərində (həmin şəhərlərin tabeliyində olan qəsəbələr də daxil olmaqla) – 80%;
- dağ rayonlarında və Naxçıvan Muxtar Respublikasında – 40%;

downloaded from KitabYurdu.az

- digər rayonlarda (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla) – 60%.

Qeyri-rezidentin daimi nümayəndəliyinin fəaliyyəti ilə bağlı olmayan, lakin Azərbaycan mənbəyindən əldə edilən ümumi gəlirdən (ƏDV və aksizlər çıxılmaqla) aşağıdakı dərəcələrlə vergi tutulur:

– rezident müəssisənin və ya sahibkarın lizinq, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödəmələri, habelə riskin sığortasına və ya təkrar sığortasına dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri – 4%;

– Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin və ya sahibkarın ödəmələri - 6%;

– rezident müəssisə tərəfindən ödənilən dividenddən - ödəmə mənbəyindən 10%;

– rezident banklarına və ya qeyri-rezident bankların Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyindən 10%;

– muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla, işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər - 10%;

– daşınan və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin ödədiyi və ya onun adından ödənilən royaltidə gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyindən 10% dərəcəsi ilə vergi tutulur.

downloaded from KitabYurdu.az

Xaricdən alınmış borclar üzrə, habelə qarşılıqlı surətdə asılı olan şəxslərin bir-birinə ödədiklərin faizlərin faktiki məbləğləri (hemablamalar metodundan istifadə edildikdə – ödənilməli faizlərin məbləği) faizləri aid olduğu dövrdə eyni valyuta ilə, oxşar müddətə verilmiş banklararası kredit hərracında olan və ya hərraclar keçirilmədiyi təqdirdə Azərbaycan Respublikası Milli Bankının dərc etdiyi banklararası kreditlər üzrə faizlərin orta səviyyəsinin 125 faizdən artıq olmamaqla gəlirdən çıxılır.

Qeyri-rezidentin daimi nümayəndəliyinin mənfəət vergisindən əlavə olaraq bu nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentin xeyrinə köçürdüyü (verdiyi) hər hansı məbləğdən 10% vergi tutulur.

Rezidentin daimi nümayəndəliyinin hüdudlarından kənarda Azərbaycan mənbəyindən olmayan gəlirindən ödənilmiş gəlir vergisinin və ya mənfəət vergisinin məbləğləri Azərbaycanda vergi ödənilərkən nəzərə alınır.

Rezident güzəştli vergi tutulan ölkədə gəlir əldə edən qeyri-rezidentin nizamnamə fondunun 20%-dən çoxuna bilavasitə və ya dolayısı ilə sahibdirsə, yaxud öz növbəsində onun səsvermə hüququ verən səhmlərinin 20%-dən çoxunun sahibidirsə, rezidentin həmin gəliri onun vergi tutulan gəlirinə daxil edilir.

Azərbaycan Respublikasında, həm də onun hüdudlarından kənarda fəaliyyət göstərən xarici hüquqi şəxsin Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi fəaliyyətdən əldə etdiyi mənfəətinin müəyyən edilməsinə imkan verən ayrıca uçotun aparılmadığı hallarda, xarici hüquqi şəxsin mənfəətinin Vergilər Nazirliyinin rə'yi əsasında vergi ödəyicisi ilə müvafiq vergi orqanı arasında razılaşdırılmış ümumi üsul

downloaded from KitabYurdu.az

əsasında müəyyən edilə bilər. Bu məqsəd üçün aşağıdakı me'yarlardan biri qəbul edilir:

– Azərbaycan Respublikasında məhsul (iş, xidmət) satışından gəlirin məbləği;

– Azərbaycan Respublikasında fəaliyyətlə əlaqədar olaraq xərclərin məbləği;

– Azərbaycan Respublikasındakı daimi nümayəndəliyin işçilərinin sayı;

Xarici hüquqi şəxsin Azərbaycan Respublikasında fəaliyyəti ilə əlaqədar əldə etdiyi mənfəətini birbaşa müəyyən etmək mümkün olmadıqda vergi orqanı şərti rentabellik norması əsasında onun mənfəətini aşağıdakı şərti üsullardan biri ilə müəyyən edir:

Xarici hüquqi şəxsin belə fəaliyyətlə əlaqədar əldə etdiyi gəliri (ƏDV nəzərə alınmadan) əsasında:

$$M = \frac{G}{100 + R} \times R$$

burada,

M – xarici hüquqi şəxsin mənfəəti;

G – xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı fəaliyyətindən əldə etdiyi gəlir;

R – şərti rentabellik normasıdır.

Xarici hüquqi şəxsin belə fəaliyyətlə əlaqədar xərcləri əsasında:

$$M = \frac{X}{100} \times R$$

burada,

downloaded from KitabYurdu.az

X – xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı fəaliyyəti ilə bağlı xərcləridir.

Vergi orqanı xarici hüquqi şəxsin mənfəətini həmin xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı nümayəndəliyinin işçilərinin sayının onun ümumi işçilərinin sayında xüsusi çəkisi göstəricisi əsasında xarici hüquqi şəxsin məcmu mənfəətinin bölüşdürülməsi üsulu ilə aşağıdakı qaydada müəyyən edir:

$$M = M_m \times \frac{N_1}{N_2}$$

burada,

M_m - xarici hüquqi şəxsin məcmu mənfəəti;

N_1 - daimi nümayəndəliyin işçilərinin sayı;

N_2 - xarici hüquqi şəxsin ümumi işçilərinin sayı.

Xarici hüquqi şəxsin mənfəəti şərti üsulla müəyyən edilərkən şərti rentabellik norması (R) 20 faiz səviyyəsində götürülür.

Xarici hüquqi şəxsin Azərbaycan Respublikasında əldə etdiyi mənfəətinin yalnız bir hissəsi vergiyə cəlb olunduğu halda, vergi orqanı vergiyə cəlb olunan mənfəəti müyyən etmək üçün aşağıdakı me'yarlardan istifadə edə bilər:

- xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergiyə cəlb olunan fəaliyyətin həyata keçirilməsi üçün sərf etdiyi iş vaxtının nümayəndəliyin ümumi iş vaxtında xüsusi çəkisi;

- xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergiyə cəlb olunan fəaliyyətin həyata keçirilməsinə çəkdiyi xərclərinin, onun Azərbaycan Respublikasında daimi

downloaded from KitabYurdu.az

nümayəndəlik vasitəsilə həyata keçirdiyi fəaliyyətlə bağlı ümumi xərclərində xüsusi çəkisi;

- xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergiyə cəlb olunan gəlirlərinin fəaliyyətindən əldə olunan ümumi gəlirlərdə xüsusi çəkisi.

Xarici hüquqi şəxsin mənfəətindən vergi şərti üsulla hesablanarkən mənfəət vergisi üzrə müvafiq dövr üçün qanunvericiliklə nəzərdə tutulan güzəştlər verilir.

Mənfəət vergisinin məqsədləri üçün vergi hesabatı vergi bəyannaməsindən ibarətdir. Vergi ödəyiciləri hesabat ilindən sonrakı ilin aprel ayının 1-dək vergi orqanlarına bəyannamə təqdim edirlər.

VII fəsil. FİZİKİ ŞƏXSLƏRİN GƏLİR VERGİSİ

Əhalidən alınan vergilərin iqtisadi mahiyyəti büdcə və digər fondların formalaşdırılması prosesində dövlət ilə fiziki şəxslər arasında yaranmış pul münasibətləri ilə xarakterizə olunur.

Fiziki şəxslərdən alınan vergilərin iqtisadi mahiyyəti onun *fiskal* və *tənzimləyici* funksiyalarında əks olunur.

Müxtəlif ölkələrdə əhalidən alınan vergilərin müxtəlif forma və növləri mövcuddur, lakin onların əsasını da vergiqoyma prinsipləri təşkil edir.

Gəlir vergisi dövlətin gəlirinin formalaşmasının əsas mənbə-lərindən biridir. O əhalinin gəlirlərinin müxtəlif mənbələrini əhatə edir.

Gəlir vergisi XVII- XIX əsrlərdə kapitalist istehsal üsulu zamanı yaranmışdır.

1992-ci ilin yanvarın 1-dən Azərbaycan Respublikasında fiziki şəxslərin gəlir vergisinin prinsipcə

downloaded from KitabYurdu.az

yeni sistemi yarandı. Hal-hazırda fəaliyyətdə olan fiziki şəxslərin gəlir vergisi sisteminin əsas prinsipi sosial və digər mənşəyindən asılı olmayaraq vergi ödəyicilərinin bərabərliyi prinsipidir. Bu o deməkdir ki, vergi ödəyiciləri qanun qarşısında bərabərdirlər, müəyyən səviyyəli gəlir əldə edən vergi ödəyiciləri üçün vergi dərəcələri eynidir.

Fiziki şəxslərin gəlir vergisinin dövlət büdgəsində xüsusi çəkisi yüksəkdir. Əhalinin gəlirləri artıqca verginin bu növünün də xüsusi çəkisi artır. 1996-ci ildən etibarən gəlir vergisi vergi daxilolmalarında artaraq12,7%-dən 1997-ci ildə 15,5%-ə, 1998-ci ildə 24,3%-ə çatmış, 1999-cu ildən etibarən azalaraq 23,2%-ə, 2000-ci ildə 18,4%-ə, 2001-ci ildə isə 16,4% təşkil etmiş, 2002-ci ildə 11,1%-dək, 2003-cü ildə 9,5%-dək azalması nəzərdə tutulur.

Cədvəl 6. Fiziki şəxslərin gəlir vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstəri-cilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Vergilər-dən daxil olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
Fiziki şəxslərin gəlir vergisi	1,5	2,0	2,6	2,4	2,0	1,9	1,8	1,8

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

Rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir.

Qeyri-rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirdən ibarətdir.

Gəlirlərə aşağıdakılar aiddir:

- muzdlu işlə əlaqədar əldə edilən gəlir;
- muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir;
- vergilərdən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər.

Fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir – əmək haqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Muzdlu işlə əlaqədar əldə edilən gəlirə aşağıdakılar daxildir:

- fiziki şəxsə banklararası kredit hərracında olan faiz dərəcəsindən aşağı faiz dərəcəsi ilə ssuda verildiyi halda – bu tipli ssudalar üzrə banklararası kredit hərracında olan faiz dərəcəsinə uyğun ödənilməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun məbləğ arasındakı fərq;
- işə götürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda – bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyəri;
- işçinin xərclərinin əvəzi ödənildiyi halda – ödənən vəsaitin məbləği;
- işçinin işə götürənə olan borcunun və ya öhdəliyinin başlandığı halda – həmin borcun və ya öhdəliyin məbləği;
- işə götürən tərəfindən həyatın yığım sığortası üzrə sığorta haqları ödənildiyi halda, sığorta haqları ilə sığorta

downloaded from KitabYurdu.az

ödənişləri arasında fərq istisna olmaqla, sığorta olunanın həmin sığorta üzrə aldığı sığorta ödənişi. Həyatın yığım sığortası üzrə sığorta qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrdəki sığortaçı vasitəsilə aparıldıqda – işə götürənin sığorta haqları ilə əlaqədar çəkdiyi xərclər.

Faktiki e'zamiyyə xərclərinin və ya digər işgüzar xərclərin əvəzinin ödənilməsi gəlirə daxil deyildir.

Sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar daxildir:

- sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir;
- sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alınan gəlir;
- əsas vəsaitlərin satılmasından və ya icarəyə verilməsindən alınan gəlir;
- gəlirdən çıxılan, kompensasiya edilən məbləğlərdən və ya ehtiyatların azalmasından gəlir.

Fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar daxildir:

- fiziki şəxslərin mükafat şəklində əldə etdiyi gəlir;
- dividend;
- əmlakın icarəyə verilməsindən gəlir;
- royalti;
- vergi ödəyicisinə bağışlanmış borcun məbləği;
- sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir;
- təqvim ili ərzində alınan hədiyyə və mirasların məbləği (hədiyyə verildiyi halda – onun bazar qiyməti ilə dəyəri istisna olmaqla);
- vergi ödəyicisi aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir (əmək haqqından başqa);

downloaded from KitabYurdu.az

- həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq.

Rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün müəyyənləşdirilmiş gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir.

Ödəmə mənbəyindən vergi tutulduğu halda, *vergitutma obyekti* vergiyə cəlb olunan gəlirdir.

Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezident vergi ödəyicisi daimi nümayəndəliyi ilə əlaqədar olan vergiyə cəlb edilən gəlirləri üzrə gəlir vergisinin ödəyicilərdir.

Vergiyə cəlb olunan gəlir, konkret dövrdə Azərbaycan mənbələrindən daimi nümayəndəliklə bağlı əldə edilən ümumi gəlirlə həmin dövrdə bu gəlirlərin əldə edilməsi ilə əlaqədar çəkilən və gəlirlərdən çıxılan məbləğ arasındakı fərqdir. Azərbaycan Respublikasında verginin minimal dərəcəsi 12, maksimal dərəcəsi 35%-dir.

Fiziki şəxslərin aylıq gəlirindən vergi aşağıdakı dərəcələrlə tutulur:

Vergi tutulan aylıq gəlirin məbləği	**Verginin məbləği**
100000 manatadək	Vergi tutulmur
100001-1000000 manatadək	100000 manatdan çox olan məbləğin 12 faizi
1000001-5000000 manatadək	108000 manat + 1000000 manatdan çox olan məbləğin 25 faizi
5000000 manatdan çox olduqda	1108000 manat + 5000000 manatdan çox olan məbləğin 35 faizi

downloaded from KitabYurdu.az

Fiziki şəxslərin illik gəlirindən aşağıdakı dərəcələrlə vergi tutulur:

Vergi tutulan illik gəlirin məbləği	**Verginin məbləği**
1200000 manatadək	Vergi tutulmur
1200001-12000000 manatadək	1200000 manatdan çox olan məbləğin 12 faizi
12000001-60000000 manatadək	1296000 manat + 12000000 manatdan çox olan məbləğin 25 faizi
60000000 manatdan çox olduqda	13296000 manat + 60000000 manat-dan çox olan məbləğin 35 faizi

Fiziki şəxslərin aşağıdakı gəlirləri gəlir vergisindən azaddır:

- Azərbaycan vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğulluğundan gəlir;
- Azərbaycan Respublikasının rezidenti və ya vətəndaşı olmayan və vergi ilində Azərbaycan Respublikası ərazisində üst-üstə 182 gündən az olan şəxsin iş yerindən gəlir;
- təqvim ili ərzində alınan hədiyyə, maddi yardım və miraslar;
- hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın dəyəri aylıq gəlirin vergi tutulmayan məbləğinin 50 mislinədək, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın dəyəri – 100 mislinədək, mirasların dəyəri – 1000 mislinədək olarsa;
- hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri;

downloaded from KitabYurdu.az

- əmək qabiliyyətini müvəqqəti itirməsinə görə ödənilən müavinətlər istisna olmaqla dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri;

- alimentlər;

- müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar;

- daşınan maddi əmlakın satışından və ya icarəyə verilməsindən gəlir;

- bütün sığorta ödənişləri, o cümlədən sığorta olunanın ölümü və ya bədən xəsarəti nəticəsində verilən sığorta ödənişləri;

- vergi ödəyicisinin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakın təqdim edilməsindən gəlir;

- dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;

- kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər;

- sənətkarlıq sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri;

- lotereyalardan əldə olunan uduşların dəyəri;

- kompensasiya xarakterli ödəmələr, o cümlədən hərbi qulluqçuların pul və ya natura şəklində tə'minatı;

- yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri;

- beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri aylıq gəlirin vergi tutulmayan məbləğinin 200 mislinədək, respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində isə 10 mislinədək.

Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri vergi tutulmayan məbləğin 20 misli miqdarında azaldılır:

downloaded from KitabYurdu.az

- Azərbaycan Respublikasının Milli Qəhrəmanları;
- Sover İttifaqı və Sosialist Əməyi Qəhrəmanları;
- Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslər;
- I və II qrup müharibə əlilləri;
- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri);
- müharibə veteranı adı almış şəxslər;
- Çernobıl AES-də qəza, mülki və ya hərbi tə'yinatlı obyektlərində digər radiasiya qəzaları nəticəsində şüa xəstəliyinə və şüa ilə əlaqədar xəstəliyə tutulmuş və ya xəstəlikləri keçirmiş şəxslər.

I və II qrup əlillərin (müharibə əlillərindən başqa) hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri aylıq gəlirin vergi tutulmayan məbləğinin 3 misli miqdarında azaldılır:

- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nigaha girmiş olmasınlar;
- 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nigaha girmiş olmasınlar;
- Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və tə'lim-yoxlama toplantılarına çağırılmış hərbi vəzifəli şəxslər;
- daimi qulluq tələb edən uşaqlıqdan xəstə uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan

downloaded from KitabYurdu.az

valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum.

Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri vergi tutulmayan məbləğinin 1 misli qədər azaldılır.

Aşağıdakılar himayədə aid edilmirlər:

- təqaüd, pensiya və işsizlik müavinəti alan şəxslər;
- dövlət tə'minatında olan şəxslər;
- xüsusi məktəblərin şagirdləri və internat evlərində olan, saxlanmasına görə qəyyumlardan haqq alınmayan uşaqlar, habelə tam dövlət tə'minatındakı məktəblər yanında internatlarda olan uşaqlar.

Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əmək kitabçasının olduğu yerdə həyata keçirilir.

Gəlir vergisi üçün vergi ili təqvim ili sayılır.

VIII fəsil. ƏLAVƏ DƏYƏR VERGİSİ

Əlavə dəyər vergisi (ƏDV) 1954-cü ildə fransız iqtisadçısı ***M.Lore*** tərəfindən təklif edilmişdir. Qərbi Avropada bu vergi növü 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində tətbiq edilmişdi: 60-cı illərin sonunda Almaniyada, Fransada, İsveçrədə, Danimarkada, Niderlandda, 70-ci illərin əvvəllərində Belçikada, İngiltərədə, İtaliyada, Lüksenburqda, Norveçdə.

downloaded from KitabYurdu.az

ƏDV-nin geniş yayılmasına Avropa İqtisadi Birliyinin (AİB) qərarı səbəb olmuşdur. ƏDV AİB ölkələrində əsas vasitəli vergi kimi fəaliyyət göstərməyə başlamışdır. Bu mö'təbər Avropa təşkiltına daxil olmağın əsas şərti, namizəd ölkələrdə ƏDV sisiteminin fəaliyyətinin mövcudluğudur, buna görə də hazırda bu vergi Avropanın praktik olaraq bütün ölkələrində fəaliyyət göstərir. Vergi daxilorlmalarının 14% bu verginin payına düşür. ƏDV-nin populyarlığının əsas səbəbləri bunlardır:

- AİB-nə daxil olmağın mümkünlüyü;
- istehlak vergisi hesabına dövlət xərclərinin artırılması. ƏDV digər vergilərə nisbətən ölkənin büdcəsinə daxilolamaların artırılmasına şərait yaradır;
- ƏDV texniki vəsaitlərin və müəyyən sənəd dövriyyəsi sisteminin köməyi ilə operativ vergi əməliyyatlarının keçirilməsinə imkan yaradır.

ƏDV vasitəli vergilər qrupuna daxildir. Azərbaycan Respublikasında ƏDV 1 yanvar 1992-ci ildə tətbiq edilməyə başlanmışdır. 2001-ci ilədək "Əlavə dəyər vergisi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən 20% dərəcə ilə hesablanıb ödənilirdi. Dövlət tərəfindən tənzimlənən qiymət və tariflərlə satılan malların (işlərin və xidmətlərin) satışından, habelə alış və satış qiymətləri arasındakı fərqdən ƏDV 16,67 faiz dərəcə ilə hesablanırdı.

ƏDV-nin nümunəsi *dövriyyədən vergi* sayılırdı. Onun hesabına keçmiş SSRİ-də büdcənin gəlir bazasının xeyli hissəsi formalaşırdı. Dövriyyədən vergi 30-cu illərdə keçirilən iqtisadi islahatlar nəticəsində tətbiq edilmiş və 60 ilə yaxın ömür sürmüşdür. Bu illər planlı iqtisadiyyat, qiymətlərin, istehsalın və əhalinin gəlirlərinin mərkəzləşdirilmiş tənzimlənməsi dövrü idi. Dövriyyə vergisi qiymət tənzimləyicisi rolunu oynayırdı. Müəyyən məhsullar

downloaded from KitabYurdu.az

üzrə (avtomobil, araq, tütün) dövriyyə vergisi maya dəyərinə nisbətən qiymətləri artırırdı və vasitəli vergi xarakterinə malik idi. Lakin dövriyyə vergisi vahid dərəcəyə malik deyildi. Ona görə qiymətlərin səviyyəsi (xüsusi olaraq ərzaq məhsullarına, hərbi texnikaya, dərman məhsullarına, uşaq məhsullarına, kitablara və d.) sün'i olaraq azaldılırdı.

Dövriyyə vergisi bütövlükdə büdcəyə göçürülürdü. Onun hesablanmasının əsas üsulu qiymətlər arasındakı fərq üsulu idi. Verginin məbləği sənayenin topdansatış qiyməti ilə müəssisənin topdansatış qiyməti arasındakı fərq kimi hesablanıb ödənilirdi. Belə bir sistem planlı təsərrüfatın tələbatını tə'min edirdi və planlı iqtisadiyyatın məhdud elementini təşkil edirdi.

Bazar münasibətlərinə keçilməsi sərbəst bazar qiymətlərinin formalaşmasını və tətbiq edilmiş topdansatış və pərakəndə qiymətlərin ləğvini tələb edirdi. Yeni iqtisadi şəraitdə dövriyyə vergisinin əvvəlki qaydada mərkəzləşdirilmiş tətbiqinin mümkünlüyü aradan çıxdı, dövlət büdcəsinin əvvəlki qaydada doldurulması məqsədilə başqa vergi növünün tətbiq edilməsi zərurəti yarandı. Dünya təcrübəsi göstərdi ki, dövriyyə vergisini əvəz edə bilən iki vergi növü mövcuddur. Bu ƏDV və pərakəndə satışdan vergi idi. Onlar istehsaldan tutulan vergilər idi və əhali pul xərclədikcə bu vergiləri ödəyirlər. Son 30 il ərzində inkişaf etmiş ölkələr istehsal vergisinə keçməyə başlamışlar. Xüsusilə, ƏDV populyar idi, çünki onun dövriyyə vergisinə oxşar xüsusiyyətləri mövcuddur. Hər biri çoxpilləlidir və son istehlaka qədər əmtəənin hərəkətini hər bir mərhələsində tətbiq olunur. Lakin dövriyyə vergisindən fərqli olaraq, hesablanmış ƏDV məbləğindən əmtəənin hərəkətinin əvvəlki mərhələlərində ödənilmiş ƏDV çıxılır.

downloaded from KitabYurdu.az

Vergi Məcəlləsinin 153-cü maddəsinə əsasən ƏDV malların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi və tədavülü prssesində onların dəyərinə əlavənin bir hissəsinin, həmçinin ölkə ərazisinə gətirilən və vergi tutulan bütün malların dəyərinin bir hissəsinin büdcəyə tutulması formasıdır. ƏDV mallar istehsalının və göndərilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələlərində ödənilir.

ƏDV-nin büdcə üçün müəyyən üstünlükləri vardır: bu gəlirlərin sabit və daimi mənbəyidir. O istehlakçı üçün onun ödənilməsindən yayınmasına çətinlik törədir. ƏDV–nin fiskal mahiyyəti böyükdür. 2000-ci ildə dövlət büdcəsinə təxminən 572 mlrd. manat, 2001-ci ildə isə 1266 mlrd. manat (745 mlrd. manat Vergilər Nazirliyi tərəfindən) ƏDV daxil olmuşdur ki, bunun da büdcə gəlirlərində xüsusi çəkisi müvafiq olaraq 22,4% və 32,3% olmuşdur. 2002-ci ildə bu göstərici 34,2%, 2003-cü ildə isə 31,3% planlaşdırılmışdır.

ƏDV-nin ÜDM-də xüsusi çəkisi aşağıdakı cədvəldə öz çəkisini tapmışdır:

Cədvəl 7. Əlavə dəyər vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Vergilərdən daxil olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
ƏDV	2,3	3,0	3,1	2,6	2,4	4,7	5,4	5,8

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs, o cümlədən rezident və qeyri rezident hüquqi və fiziki şəxslər ƏDV-nin ödəyicisidir.

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal ***vergitutma obyektidir.***

Vergidən azad edilən malların göndərilməsindən, işlər görülməsindən və xidmətlərin göstərilməsindən başqa, Azərbaycan Respublikasının ərazisində müstəqil sahibkarlıq fəaliyyəti və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyəti çərçivəsində mallar göndərilməsi və xidmətlər göstərilməsi vergi tutulan əməliyyatlar sayılır.

Sahibkarlıq fəaliyyəti göstərən və əvvəlki ardıcıl 3 aylıq dövr ərzində vergi tutulan əməliyyatlarının həcmi aylıq gəlirin vergi tutulmayan məbləğinin 1250 mislindən artıq olan şəxs həmin dövr başa çatdıqdan sonra 10 təqvim günü ərzində vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməlidir.

Qeydiyyatdan keçməli olmayan sahibkarlıq fəaliyyəti göstərən şəxs vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər. Bu zaman vergi ödəyicisinin əvvəlki üç aylıq dövr ərzində vergi tutulan əməliyyatlarının həcmi nəzərə alınmır.

Vergi ödəyicisinin ƏDV-nin məqsədləri üçün qeydiyyatı hansı tarixin əvvəl başlanmasından asılı olmayaraq aşağıdakı tarixlərin birində qüvvəyə minir:

- məcburi qeydiyyat zamanı – qeydiyyat haqqında ərizə verməyə dair öhdəliyin birinci günündə;

- könüllü qeydiyyat zamanı – qeydiyyat haqqında ərizənin verildiyi aydan solnrakı hesabat dövrünün birinci günündə;

downloaded from KitabYurdu.az

- vergi ödəyicisinin qeydiyyatı haqqındakı ərizəsində göstərilən tarixdə.

Malların idxalı, vergidən azad edilən idxal istisna edilməklə, vergi tutulan idxal sayılır. Tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar və ya gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir.

Vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi, habelə barter əməliyyatı vergi tutulan əməliyyat sayılır.

Vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi vergi tutan əməliyyat sayılır.

Vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğv etmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir.

ƏDV-dən azad olunan mallar ixrac edilərkən vergiyə sıfır (0) dərəcə ilə cəlb edilməlidirlər. Aşağıdakı işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur.

1) xarici ölkələrin diplomatik və anoloci nümayəndəliklərin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik, inzibati və texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlər;

downloaded from KitabYurdu.az

2) xaricdən alınan əvəzsiz maliyyə yardımları (qrantlar) hesabına malların alınması, işlərin görülməsi, xidmətlərin göstərilməsi və bunların idxalı;

3) Vergi Məcəlləsi ilə nəzərdə tutulan xidmətlərin ixracı;

4) beynəlxalq və tranzit yük və sərnişin daşınması. Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi.

5) Azərbaycan Respublikasının Milli Bankına qızıl və digər qiymətlilərin göndərilməsi.

Vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ƏDV-nin hesab-fakturasının verildiyi vaxt sayılır. Əgər əməliyyatın aparıldığı gündən sonrakı 5 gün ərzində ƏDV-nin hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat aşağıdakı vaxtlarda aparılmış hesab edilir:

- malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxt, yaxud
- malların göstərilməsi onların daşınmasını nəzərdə tutursa, daşınmanın başlandığı vaxtda.

Mallar satılarkən onun qiyməti ƏDV-nin məbləği qədər artırılmalıdır. ƏDV nəzərə alınmaqla formalaşmış qiymətin tərkibində verginin məbləğini təyin etmək üçün verginin hesabat dərəcəsi nəzərdə tutulur. Hesabat dərəcəsi əmtəənin vergi də nəzərə alınmaqla formalaşmış qiymətinin tərkibində ƏDV-nin payını müəyyən edir.

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin ***18 faizidir.*** ƏDV malın (işin, xidmətin) vergi tutulan dəyərinə əlavə edilmir.

ƏDV **sıfır (0) dərəcə** ilə də tutulur. Azad olunan əməliyyatlar üzrə mallara (işlərə, xidmətlərə) ƏDV tətbiq edilmir.

downloaded from KitabYurdu.az

Vergi tutulan dövriyyə hesabat dövrü ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir.

Vergi tutulan əməliyyatdan büdcəyə hesablanmalı olan verginin məbləği vergi dərəcəsinin vergi tutulan əməliyyatın dəyərinə (ƏDV-siz) tətbiqi yolu ilə müəyyən edilir.

Özündə ƏDV-ni əks etdirən və buraxılış qiymətləri səlahiyyətli dövlət orqanı tərəfindən tənzimlənən məhsulların təqdim edilməsi üzrə əməliyyatlar zamanı ƏDV buraxılış qiymətini 1,18-ə böldükdən sonra vergi dərəcəsinin tətbiqi yolu ilə müəyyən edilir.

Malların ixracından başqa, malların təqdim edilməsinin, işlərin görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, habelə idxalın aşağıdakı növlərindən ***ƏDV tutulmur***:

- özəlləşdirmə qaydasında dövlət müəssisəsindən satın alınan əmlakın dəyəri, habelə dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının büdcəyə ödənilməli olan hissəsi;
- maliyyə xidmətlərinin göstərilməsi;
- milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin, qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi;
- Azərbaycan Respublikasının Milli Bankının aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş Azərbaycan Respublikasının pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin idxalı;
- müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı bir əmlakın qoyulması;
- tutulan məbləğlər hədlərində dövlət hakimiyyəti, yerli özünüidarəetmə və digər səlahiyyətli orqanların

downloaded from KitabYurdu.az

tutduğu dövlət rüsumu, icarə haqları, yığımlar və onların tutulması müqabilində göstərdiyi xidmətlər;

- beynəlxalq təşkilatların, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin ayırdıqları kreditlər və borclar hesabına, həmçinin bu kreditlər və borclar hesabına həyata keçirilən layihələrdə Azərbaycan tərəfinin payı, 49 faizdən çox olmamaqla, həmin pay hesabına malların alınması, işlər görülməsi, xidmətlər göstərilməsi və bunların idxalı;

- orta məktəb dərslikləri, uşaq ədəbiyyatlarının və büdcədən maliyyələşdirilən dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti;

- dəfn və qəbiristanlığın mərasim xidmətləri;

- Azərbaycan Respublikası Milli Bankının qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi;

- kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olunmaqla).

İdxalın digər növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən ƏDV-dən azad edilə bilər.

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və vergi tutulan əməliyyat aparan şəxs malları, işləri və ya xidmətləri qəbul edən şəxsə *hesab-fakturasını* verməyə borcludur. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyən şəxsin vergi hesab-fakturası verməyə hüququ yoxdur.

downloaded from KitabYurdu.az

Vergi hesab-fakturası ciddi uçotu aparılan sənəd olmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi forma üzrə hazırlanan və özündə aşağıdakı mə'lumatları əks etdirən sənəddir:

- vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı;
- vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi;
- yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin adı;
- vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin vergi tutulan əməliyyatın həcmi;
- aksizli mallarda aksizin məbləği;
- vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği;
- vergi hesabat-fakturasının verilmə tarixi;
- hesab-fakturanın sıra nömrəsi;
- qeydiyyat bildirişini vermiş vergi orqanının adı, bildirişin verilmə tarixi və sıra sayı;
- vergi hesab-fakturasını imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

Vergi ödəyicisi malın alınmasına (işlərin, xidmətlərin sifarişçisinə) vergi hesab-fakturasına mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra beş gündən gec olmayaraq verməyə bocludur.

ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, vergi hesab-fakturası əvəzinə qəbz və ya çek verilə bilər.

ƏDV-nin bəyannaməsi hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq verilir.

IX fəsil. AKSİZLƏR

downloaded from KitabYurdu.az

Aksiz aksizli malların satış qiymətinə daxil edilən, aksizli malları istehsal edən və satan vergi ödəyicilərindən tutulan dolayı vergilərdir. Bütün dolayı vergilər kimi aksizlər əmtəənin qiymətini formalaşdırır və faktiki olaraq onun ödənilməsi alıcıların üzərinə keçirilir. Formal olaraq bu verginin ödəyiciləri aksizli mal istehsal və ya satan müəssisələrdir. Lakin aksizin qiyməti əmtəənin qiymətinə daxil edildiyindən, faktiki olaraq onun ödəyiciləri aksizli malların istehlakçılarıdır. Aksiz yüksək rentabelli məhsul istehsalından əldə edilən əlavə mənfəətin bir hissəsinin dövlət büdcəsinə tutulması məqsədilə müəyyən edilir.

Aksizlər X-XI əsrlərdə yaranmış və ilk dəfə olaraq spirtli içkilərin üzərinə qoyulmuşdur. Sonrakı yüz il ərzində spirtli içkilərin aksizə cəlb edilməsi geniş vüs'ət almağa başladı. XIX əsrin əvvəllərindən e'tibarən spirtli içkilərə aksizlərin alınması qanuniləşdirildi, arağa və pivəyə tətbiq edilməyə başlandı. 1838-ci ildə aksiz tütünə tətbiq edildi. 1848-ci ildən kibritə, 1887-ci ildən neftdən alınan yağlara tətbiq olundu.

Aksizlər XX əsrin əvvəlində büdcə gəlirlərinin 70%-ni tə'min edirdilər. Vergitutma obyektini ilkin tələbat malları (duz, qənd, çay, kibrit və d.) və kütləvi istehlak malları (spirtli içkilər, tütün mə'mulatı) təşkil edirdi.

Planlı təsərrüfatın və inzibati idarəçiliyin möhkəmləndiyi bir dövrdə aksizlərin rolu azalmağa başladı, 1930-cu ildə keçirilən vergi islahatı bütün aksizləri ləğv etdi. XX əsrin 90-cı illərin əvvələrində Azərbaycanda gedən siyasi-iqtisadi proseslər dövlət büdcəsinin gəlir mənbəyi kimi aksizlərin rolunu artırdı.

Aksizə cəlb edilən məhsulların siyahısı və dərəcəsi Azərbaycan Respublikasının Hökuməti tərəfindən müəyyən

downloaded from KitabYurdu.az

edilir. Hazırda bu məhsullara etil spirti, araq, likor-araq mə'mulatı, çaxır, pivə, tütün mə'mulatı, neft və neft məhsulları və d. daxildir.

Aksizlərin tənzimləyici əhəmiyyəti o biri vasitəli vergilərə nisbətən azdır. Məhsullara tətbiq edilən aksizlər bütövlükdə dövlət büdcəsinə daxil olur.

Aksiz vergisinin vergilərdən daxilolmalarda xüsusi çəkisi 1996-ci ildə aksiz vergisinin vergi daxilolmalarında xüsusi çəkisi 7,7%, 1996-cı ildə 12,0%, 1997-ci ildə 9,9% təşkil etdiyi halda, 1998-ci ildə 3,8%, 1999-cu və 2000-ci illərdə 3,9%-dək azalmış, 2001-ci ildə kəskin artaraq 14,1% olmuşdur. 2002-ci ildə bu göstəricinin 10,4%-dək, 2003-cü ildə isə 4,9%-dək enməsi gözlənilir.

Cədvəl 8. Aksiz vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Vergilərdən daxil olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
Aksiz vergisi	1,4	1,3	0,4	0,4	0,4	2,1	1,6	0,9

Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olmaqla, digər mallardan vergi tutulur.

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün hüquqi və ya fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri *aksizin ödəyiciləridirlər.*

Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı aksizin ödəyicisidir. Bu halda istehsalçı aksiz məbləğlərini sifarişçidən almalıdır.

Vergitutma obyekti aksiz dərəcəsinin növündən asılıdır. Əgər aksiz dərəcəsi faizlə müəyyən olunmuşdursa, vergitutma bazası vasitəli vergilər nəzərə alınmaqla, aksizli malların buraxılış qiymətinə görə müəyyən edilir.

Aşağıdakı əməliyyatlar vergitutma obyektləridir:

– Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;

– idxal malları üçün Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması.

Azərbaycan Respublikasının ərazisində istehsal olunan mallar üçün vergi tutulan əməliyyatın məbləği vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında, aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir.

İdxal malları üçün vergi tutulan əməliyyatın məbləği Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla).

downloaded from KitabYurdu.az

Aksizlər üçün vergi tutulan əməliyyatın vaxtı aşağıdakı kimi müəyyənləşdirilir:

- respublika ərazisində istehsal olunan mallar üçün – malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt;

- malların idxalı üçün – gömrük qanunvericiliyinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt.

Aksizli malların ixracı **sıfır (0) dərəcəsi** ilə vergiyə cəlb olunur.

Yeni qəbul edilmiş Vergi Məcəlləsinə uyğun olaraq, aksizlərin hesablanması və alınması qaydalarının dəyişdirilməsi ilə əlaqədar yeni aksiz dərəcələri tətbiq olunur.

Vergi Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 yanvar 2001-ci il 19 saylı qərarına əsasən daxili bazarın tələbatını tam ödəmək, neft məhsullarının istehsalından büdcəyə daxilolmaların tənzimlənməsi məqsədilə yeni aksiz dərəcələri tətbiq edilmişdir: A-72/76 markalı avtomobil benzininin topdansatış qiymətinə – 114,92%, A-92/93 markalı benzinə – 135,69%, A-95/98 markalı benzinə – 144,5%, V-91/115 markalı təyyarə benzininə – 106,58%; dizel yanacağına – 17,31%, yağa – 16,96%, reaktiv myhərrik yanacağına – 8,24%, ağ neftə – 3,82%. Aksizlər neft məhsullarının yalnız daxili bazarda satışı zamanı yığılır, ixrac zamanı tətbiq olunmur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında istehsal olunan içməli spirtin, pivənin, spirtli içkilərin və tütün mə'mulatlarının aksiz dərəcələri haqqında» 07 mart 2001-ci il tarixli 61 saylı qərarı

downloaded from KitabYurdu.az

ilə aksizli malların dərəcələri aşağıdakı kimi müəyyəndəşdirilmişdir:

-İçməli spirt (o cümlədən tərkibində 80%-dən az spirt olmayan denaturallaşdırılmamış etil spirti; tərkibində 80%-dən az spirt olan denaturallaşdırılmamış etil spirti) 90%
-Araq – likyor və likyor mə'mulatları 50%
-Tündləşdirilmiş içkilər 50%
-Tündləşdirilmiş içki materialları 50%
-Konyak 35%
-Konyak materialları 35%
-Şampan şərabı 35%
-Tünd şərablar 25%
-Süfrə şərabı 25%
-Şərab materialları 25%
-Pivə 15%
-Bütün növ tütün mə'mulatları 22%

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 yanvar 2001-ci il 20 saylı qərarına əsasən xaricdən gətirilən tütün və alkoqollu içkilərə tətbiq olunan yeni aksiz dərəcələri aşağıdakı kimi müəyyən edilmişdir: idxal olunmuş 1 min siqaret üçün (1 dənəyə 0,5 sent) 5 dollar aksiz tətbiq olunur. Alkoqollu məhsulların müxtəlif növlərinə aşağıdakı aksiz dərəcələri tətbiq olunur: araq və konyak – 1 litr üçün 3 dollar, müxtəlif çaxır növləri – 1,5 dollar, pivə – 0,7 dollar.

Aşağıdakı hallarda mallar *aksizdən azad edilir:*

– fiziki şəxsin fərdi istehlakı üçün üç litr alkoqollu içkinin və üç blok siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq;

downloaded from KitabYurdu.az

– Azərbaycan Respublikasının ərazisindən tranzitlə daşınan mallar;

– təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə malların Azərbaycan Respublikasının ərazisinə müvəqqəti idxalı;

– təkrar ixrac üçün nəzərdə tutulan və girovla tə'minat verilən mallar.

Yuxarıda göstərilən aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olunsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması reciminin tə'siri altına düşərsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin recim aksizin tutulmasına da tətbiq olunur.

Məhsulun aksizli buraxılış qiyməti aşağıdakı kimi müəyyən edilir:

$$D = Q \times (100 + S) / 100$$

burada,

Q – istehsal xərcləri və mənfəət daxil olmaqla məhsulun qiyməti;

S – aksiz dərəcəsi.

Aksiz dərəcəsi məhsulun aksizli qiymətində aksizin məbləğinin xüsusi çəkisinin faizlə ifadəsidir:

$$S = A / D \times 100\%$$

burada,

A- aksizin məbləğidir.

Aşağıdakı mallar aksizli mallara aid edilir:

downloaded from KitabYurdu.az

- içməli spirt, pivə və spirtli içkilərin bütün növləri;
- tütün mə'mulatı;
- neft məhsulları.

Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar idxal edildikdə aksiz gömrük orqanları tərəfindən tutulur.

Aksizli malları göndərən vergi ödəyicisi malı qəbul edənə vergi hesab-fakturası yazmalı və verməlidir. Mallar pərakəndə qaydada göndərildikdə, vergi hesab-fakturası əvəzinə qəbz və ya çek verilə bilər.

Azərbaycan Respublikasında aksiz tutulan mallara aksiz markaları tətbiq edilir. Aksizli mallara aksiz markalarının tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiq edilməsi Qaydalarının təsdiq edilməsi haqqında» 8 yanvar 2001-ci il tarixli 10 saylı qərarı ilə tənzimlənir.

Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır və həmin mallar dövlət nəfinə alınır. Dövlət nəfinə alınmış aksiz markası olmayan aksizli malların satışı Vergi Məcəlləsində müəyyən edilmiş qaydada həyata keçirilir.

Vergi orqanları markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicilərinin müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurması və digər tədbirləri göstərməklə aksizli malların uçota alınmayan markalanmadan aksiz markası ilə markalanmalı olan markalanmamış malların siyahıya alınması və məs'ul

downloaded from KitabYurdu.az

saxlamaya qoyulması Qaydalarına uyğun olaraq, müəyyən edilmiş prosedura əsasında aksizləri ödəmədən istehsal binasının hüdudlarından kənara çıxarılmasının qarşısının alınmasını tə'min etməlidirlər.

Aksiz markası ilə markalanmalı olan markalanmamış malların siyahıya alınması, siyahıya alınmış malların vergi ödəyicisində məs'ul saxlanmaya qoyulması Qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

X fəsil. ƏMLAK VERGİSİ

10.1. Hüquqi şəxslərin əmlak vergisi

Azərbaycan Respublikasının ərazisində əmlak vergisi haqqında Qanun 1 yanvar 1992-ci ildən tətbiq edilmişdir. Verginin bu növü ümumi zəruri ödənişdir, hüquqi şəxslərin əmlak vergisinə və fiziki şəxslərin əmlak vergisinə bölünür. Əmlak vergisinə cəlb edilmənin məqsədi aşağıdakılardan ibarətdir:

1) büdcə xərclərini maliyyələşdirmək üçün bütün səviyyəli büdcələrin sabit gəlir mənbəyini tə'min etmək;

2) müəssisələrdə artıq əmlakın satışına maraq yaratmaq və ya onun istehsal prosesinə cəlb edilməsini tə'min etmək.

Hələ ki, verginin bu növünün dövlətin gəlir hissəsindəki xüsusi çəkisi yüksək deyil. Tətbiq olunmağa başlandığı ilk dövrlərdə əmlak vergisinin respublikanın dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında payı o qədər də yüksək olmamışdır. Belə ki, 1996-ci ildə cəmi 0,05%, 1997-cı ildə 1,4%, 1998-ci ildə 1,3%, 1999-ci ildə

downloaded from KitabYurdu.az

2,5%, 2000-ci ildə 2,3%, 2001-ci ildə 2,1% təşkil etmiş, 2002-ci ildə 1,8%, 2003-cü ildə 2,2% planlaşdırılmışdır. Təsərrüfat subyektlərinin əmlakının real qiymətləndirilməsinə keçid verginin mahiyyətinin və xüsusi çəkisinin artmasına imkan verəcəkdir. Müəssisələrin əmlak vergisi təşkilatların fəaliyyətinin maliyyə nəticələrinə aiddir. Bu verginin ödənilməsinə çəkilən xərclər mənfəət vergisinə vergiqoyma bazasını azaldır.

Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə əsasən müəssisələrin balansında olan əsas vəsaitlər və avtonəqliyyat vasitələri üçün ödənilən vergi *müəssisələrin əmlak vergisidir*.

Rezident müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsi ilə sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslər *əmlak vergisinin ödəyiciləridir*.

Cədvəl 9. Əmlak vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Vergilərdən daxil olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
Əmlak vergisi	0,01	0,2	0,1	0,3	0,2	0,2	0,2	0,4

Vergitutma obyektləri aşağıdakılardır:

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

- müəssisələrin balansında olan əsas vəsaitlərin (binalar, tikililər, qurğular, maşınlar, avadanlıqlar) orta illik dəyəri;

- müəssisələrin balansında olan avtonəqliyyat vasitələri;

- Azərbaycanda özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün – yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri.

Vergitutma obyekti olan və müəssisələr tərəfindən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün birləşdirilən əsas vəsaitlərin dəyəri, bu əsas vəsaitləri birləşdirən birgə fəaliyyət iştirakçıları tərəfindən vergiyə cəlb edilməsi məqsədləri üçün bəyannaməyə daxil olunur.

Birgə fəaliyyət nəticəsində yaradılmış (alınmış) əsas vəsaitlərin dəyəri isə birgə fəaliyyətin iştirakçıları tərəfindən müqavilə üzrə mülkiyyətdə müəyyən olunmuş pay haqqına müvafiq olaraq bəyannaməyə daxil edilir.

Əmlak vergisi müəssisənin əmlakının *orta illik qalıq dəyərinə* əsasən hesablanır.

Müəssisənin əmlak vergisi üçün vergi dövrü təqvim ili sayılır.

Əmlak vergisinin ödəyiciləri cari vergi kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 25%-i həcmində vergi ödəyir.

Büdcəyə hesabat dövrü üçün ödənilməli olan verginin məbləği hesabat dövrü ərzində əvvəllər hesablanmış ödəmələr nəzərə alınmaqla müəyyən edilir.

Müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin aprel ayının 1-dək vergi orqanına verir. İllik bəyannamələr üzrə vergilər həmin bəyannamələrin verilməsi üçün müəyyən edilmiş

downloaded from KitabYurdu.az

müddətlərədək ödənilir. Hesablanmış verginin məbləği gəlirdən çıxılmalara aid edilir. Müəssisələrin əmlak vergisi dövlət büdcəsinə ödənilir.

Vergi və ya cari vergi ödəməsi Məcəllə ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi məbləğinin 0,05%-i məbləğində faiz tutulur.

Verginin ödənilməsini təsdiq edən sənəd olmadıqda, avtonəqliyyat vasitəsinin qeydiyyatı, yenidən qeydiyyatı və ya texniki baxışı keçirilmir.

Müəssisələr əsas vəsaitlərin orta illik qalıq dəyərinin *1% dərəcəsi* ilə əmlak vergisi ödəyirlər. Avtonəqliyyat vasitələrinə görə illik əmlak vergisini həmin vasitələrin mühərrikinin həcminə görə (1 kub sm hesabı ilə) aylıq gəlirin vergi tutulmayan məbləğindən aşağıdakı dərəcələrlə ödəyirlər:

- minik avtomobilləri - 0,01%;
- yük daşıyan avtonəqliyyat vasitələri və avtobuslar - 0,02%.

Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları, Milli Bank və onun qurumları, dövlət fondları və əlillərin ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddır.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri aşağıdakı əmlakların dəyərində *azaldılır:*

- ekologiya, yanğından mühafizə və ya mülki-müdafiə üçün istifadə edilən obyektlərin;

- məhsul ötürücü kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerci ötürücü xətlərinin, meliorasiya və suvarma sistemi obyektlərinin;

downloaded from KitabYurdu.az

- müəssisənin balansında olan və vergiyə cəlb edilən avtonəqliyyat vasitələrinin;

- təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin tə'yinatı üzrə istifadə etdiyi obyektlərinin;

- 25%-dək amortizasiya olunan maşınların, avadanlıq və hesablama texnikasının.

Şəhərlərdə sərnişin daşımaları üçün istifadə olunan troleybuslar və tramvaylar əmlak vergisindən azaddırlar.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri götürülür. Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) orta illik qalıq dəyəri aşağıdakı qaydada hesablanır:

- müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) hesabat ilinin əvvəlinə və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünür;

- müəssisə hesabat ili ərzində yaradıldıqda, onun əmlakının yaradıldığı tarixə və ilin sonuna balans üzrə qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı aydan sonra, ilin sonuna qədər olan ayların sayına vurulur;

- müəssisə hesabat ili ərzində ləğv edildikdə, onun əmlakının ilin əvvəlinə və ləğv edildiyi tarixə balans üzrə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi aya qədər olan ayların sayına vurulur.

10.2. Fiziki şəxslərin əmlak vergisi

Fiziki şəxslərin şəxsi mülkiyyətində olan binalar, avtonəqliyyat, su və hava nəqliyyatı vasitələri üçün ödənilən vergilər *fiziki şəxslərin əmlak vergisi* adlanır.

downloaded from KitabYurdu.az

Fiziki şəxs Azərbaycan Respublikasının vətəndaşları, habelə vətəndaşə olmayan şəxslər adlanırlar.

Şəxsi mülkiyyətində cari ilin yanvarın 1-nə tikililəri və ya onların hissələri olan rezident və qeyri-rezident fiziki şəxslər, həmçinin avtonəqliyyat, su və hava nəqliyyatı vasitələri olan rezident fiziki şəxslər *əmlak vergisinin ödəyicilərdir.*

Rezident və qeyri-rezident fiziki şəxslərin şəxsi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələrinin (binaların), həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus avtomobil və özüyeriyən təkərli texnika (avtonəqliyyat vasitələri), su və hava nəqliyyatı vasitələrinin dəyəri *vergitutma obyektidir*.

Misgərlik, qalayçılıq, dulusçuluq və saxsı mə'mulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika mə'mulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallarından məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq e'malatxanalarının binaları və ya binaların bu e'malatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir.

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının, Şöhrət Ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin, I və II qrup müharibə əlillərinin, həlak olmuş, və yaxud sonralar vəfat etmiş

downloaded from KitabYurdu.az

döyüşçülərin dul arvadlarının (ərlərinin), 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin, müharibə veteranı adı almış şəxslərin, Çernobıl AES-da qəza, mülki və ya hərbi tə'yinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, tə'limlər və başqa işlər nəticəsində şüa xəstəliyinə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləğləri aylıq gəlirin vergi tutulmayan məbləğinin 1,5 misli qədər azaldılır.

Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının, Şöhrət Ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin, I və II qrup müharibə əlillərinin, həlak olmuş, və yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin), 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin, müharibə veteranı adı almış şəxslərin, Çernobıl AES-da qəza, mülki və ya hərbi tə'yinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, tə'limlər və başqa işlər nəticəsində şüa xəstəliyinə vəşüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin avtonəqliyyat vasitələrinə görə ödəməli olduğu əmlak vergisinin məbləği aylıq gəlirin vergi tutulmayan məbləğinin 50 faizi qədər azaldılır.

Fiziki şəxslər əmlak vergisini aşağıdakı dərəcələrlə ödəyirlər:

downloaded from KitabYurdu.az

- onların şəxsi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyəri aylıq gəlirin vergi tutulmayan məbləğinin (gəlirin vergi tutulmayan məbləği yüz min manatdır) 300 mislinədək olduqda vergi tutulmur. 300 mislindən çox olan məbləğin isə 0,1%-i;

- su və hava nəqliyyatı vasitəsinin mühərrikinin həcminin 1 kub.sm üçün aylıq gəlirin vergi tutulmayan məbləğinin 0,02%-i;

- mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün – onların bazar qiymətinin 1%-i.

Fiziki şəxslər avtonəqliyyat vasitələrinə görə illik əmlak vergisini həmin vasitələrin mühərrikinin həcminə görə (1 kub.sm hesabı ilə) aylıq gəlirin vergi tutulmayan məbləğindən aşağıdakı dərəcələrlə ödəyirlər:

- minik avtomobilləri - 0,01%;
- yük daşıyan avtonəqliyyat vasitələri və avtobuslar – 0,02%.

Binalar üzrə əmlak vergisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada binaların hər il yanvarın 1-i vəziyyətinə müəyyənləşdirilən inventar dəyərinə əsasən hesablanır.

Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq, müəyyən edilmiş qaydaya uyğun olaraq hesablanır.

Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən mə'lumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi mə'lumatları (buraxılış ili, alış

downloaded from KitabYurdu.az

qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək müvafiq orqana təqdim edir.

Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur.

Bələdiyyələr verginin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə iyunun 1-dən gec olmayaraq verməlidirlər.

Cari il üçün verginin məbləği bərabər hissələrlə, həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi ilə müəyyən edilmiş ödəmə vaxtına həmin əmlakın sahibi tərəfindən ödənilir.

Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir.

Avtonəqliyyat vasitələri üzrə əmlak vergisi avtonəqliyyat vasitələrinin qeydiyyatdan və ya illik texniki baxışdan keçirilməsi üçün müəyyən edilmiş vaxtda ödənilir. Verginin ödənilməsini təsdiq edən sənəd olmadıqda, avtonəqliyyat vasitəsinin qeydiyyatı, yenidən qeydiyyatı və ya texniki baxışı keçirilmir.

XI fəsil. TORPAQ VERGİSİ

Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il hesablanan vergidir.

Tətbiq olunmağa başlandığı ilk dövrlərdə torpaq vergisinin respublikanın dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında payı cüzi olmuşdur. Vergi daxilolmalarında əmlak vergisinin xüsusi çəkisi 1996-ci ildə

downloaded from KitabYurdu.az

cəmi 0,3%, 1997-ci ildə 1,1%, 1998-ci ildə 1,4%, 1999-cu ildə 2,2%, 2000-ci ildə 1,3%, 2001-ci ildə isə 2,1% olmuşdur. 2002-ci ildə vergi daxilolmalarında torpaq vergisinin xüsusi çəkisinin 1,15%-dək, 2003-cü ildə isə 0,9%-dək azaldılması gözlənilir (cədvəl 12).

Fiziki şəxslər, habelə müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr *torpaq vergisinin ödəyiciləridir.*

Cədvəl 10. Torpaq vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstəri-cilər	***1996***	***1997***	***1998***	***1999***	***2000***	***2001***	***2002***	***2003***
Vergilər-dən daxil olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
Torpaq vergisi	0,04	0,1	0,2	0,2	0,1	0,25	0,2	0,2

Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün aylıq gəlirin vergi tutulmayan məbləğinin 0,3 faizidir.

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

Torpaq vergisi torpaq vergisi ödəyicilərindən müəyyən olunmuş qaydada mülkiyyətinə və ya istifadəsinə verilmiş vergiyə cəlb edilən torpaq sahələrinə, o cümlədən tikinti və qurğuların tutduğu torpaq sahələrinə, habelə tiktnti və qurğuların saxlanması üçün zəruri olan torpaq sahələrinə görə tutulur.

Bu torpaqlara aşağıdakılar daxildir:

- kənd təsərrüfatı fəaliyyətinin həyata keçirildiyi torpaqlar;
- fərdi mənzil tikintisi, bağ evi, qarac tikintisi və digər tikinti məqsədli torpaqlar;
- sənaye, tikinti, nəqliyyat, rabitə, energetika və başqa təyinatlı torpaqlar;
- sağlamlıq və istirahət təyinatlı torpaqlar;
- istehsal fəaliyyəti üçün istifadə edilən dövlət, meşə və su fondu torpaqları;
- Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunun altında yerləşən istehsal fəaliyyətinə cəlb olunan torpaqlar.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən kənd təsərrüfatı torpaqlarının tə'yinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balları müəyyənləşdirilir.

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi tə'yinatlı yaşayış fondlarının həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə aşağıdakı cədvəldə aylıq gəlirin vergi tutulmayan məbləğindən faizlə müəyyən olunan dərəcələr tətbiq olunur (cədvəl 11).

Torpaq vergisi üzrə müəyyən güzəştlər tətbiq edilmişdir. Aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir:

downloaded from KitabYurdu.az

- yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;

downloaded from KitabYurdu.az

- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikasının Milli Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;

- istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar;

- dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Aşağıdakı şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği aylıq gəlirin vergi tutulmayan məbləğinin 50 faizi qədər azaldılır:

- Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının;

- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;

- Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin;

- I və II qrup müharibə əlillərinin;

- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin);

- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;

- qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı almış şəxslərin;

downloaded from KitabYurdu.az

- Çernobıl AES-də qəza, mülki və ya hərbi tə'yinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, şüa
xəstəliyi ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Müəssisələr torpaq vergisini torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq vergi orqanına verirlər. Bu qaydada hesablanmış torpaq vergisinin məbləği gəlirdən çıxılmalara aid edilir.

Fiziki şəxslərə torpaq vergisi hər il iyulun 1-dək hesablanır və tə'diyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi müəyyən edilmiş ödəmə vaxtında torpağın sahibi tərəfindən ödənilir.

XII fəsil. MƏDƏN VERGİSİ

downloaded from KitabYurdu.az

Mədən vergisi Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub şelfindəki faydalı qazıntıların çıxarılmasına görə tutulur.

Mədən vergisi dövlət büdcəsində xüsusi yer tutur və getdikcə onun xüsusi çəkisi artmaqdadır. 1996-ci ildə etibarən faydalı qazıntılar fəal olaraq vergiyə cəlb edilməyə başlanmış və həmin ildə mə'dən vergisi vergilərdən daxilolmaların 2,5%-ni təkkil etmiş, 1997-ci ildə 16,3% olmuş, 1998-ci ildən etibarən azalaraq 10,2%, 1999-cu ildə 9,3%-ə, 2000-ci ildə 9,9%-ə, 2001-ci ildə 8,2%-ə qədər enmişdir. Lakin, 2002-ci ildə verginin bu növünün xüsusi çəkisinin 11,6%, 2003-cü ildə isə 10,5% olması proqnozlaşdırılır.

Cədvəl 12. Mədən vergisinin ÜDM-da xüsusi çəkisi, faizlə[1]

Göstəri-cilər	***1996***	***1997***	***1998***	***1999***	***2000***	***2001***	***2002***	***2003***
Vergilər-dən daxil olmalar	12,0	13,3	10,7	10,2	10,8	11,8	15,8	18,6
Mədən vergisi	0,3	2,2	1,1	0,9	1,1	1,0	1,4	1,9

Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir.

Mədən vergisi Azərbaycan Respublikasının ərazisində, Xəzər dənizi daxil olmaqla, çıxarılan faydalı

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

qazıntıların ayrı-ayrı növlərinin topdansatış qiymətinə tətbiq edilir.

Vergitutma məqsədləri üçün topdansatış qiyməti dedikdə, vergi ödəyicisinin faydalı qazıntılar üçün müəyyən etdiyi əlavə dəyər vergisiz sonuncu faktiki buraxılış qiyməti (bazar qiymətindən aşağı olmayan), bu qiymət səlahiyyətli dövlət orqanları tərəfindən tənzimləndikdə isə tənzimlənən qiymətlər nəzərdə tutulur.

Mədən vergisinin dərəcələri faydalı qazıntıların növündən asılı olaraq aşağıdakı kimi müəyyənləşdirilir:

Cədvəl 13. Mədən vergisinə cəlb edilən faydalı qazıntıların vergi dərəcələri

Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı	**Mədən vergisinin dərəcələri (%-lə)**
Xam neft	**26**
Təbii qaz	**20**
Filiz faydalı qazıntıları:	
Qara metal (dəmir filizi, hematit)	**3**
Əlvan metallar (mis, qurğuşun, sink, alüminium xammalı, molibden, kobalt)	**4**
Nəcib metallar (qızıl, gümüş)	**6**
Nadir metallar (civə, sürmə)	**4**
Qeyri-filiz faydalı qazıntıları:	
Mişar daşları	**10**
Üzlük daşları (mərmər, qobbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı)	**8**
Seolit, barit	**4**
Yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər	**4**
Kərpic-kiramid gilləri	**4**
Vulkan külü və pemza	**3**
Tikinti və kvars qumları	**4**
Sement xammalı (əhəng daşı, mergel, gil,	**4**

downloaded from KitabYurdu.az

vulkan külü)	
Daş duz	**5**
Yüksək möhkəmliyə malik çınqıl xammalı	**6**
Qiymətli və yarımqiymətli bəzək daşları	**5**
Yodlu bromlu sular	**5**
Mineral sular	**8**

Mədən vergisi müəyyən olunmuş vergi dərəcələrini yerin təkindən çıxarılmış ayrı-ayrı növ faydalı qazıntıların topdansatış qiymətinə tətbiq etməklə hesablanır.

Dağ rayonlarında mineral suların istehsalı ilə məşğul olan müəssisələr və fiziki şəxslər mədən vergisini yuxarıda nəzərdə tutulan vergi dərəcəsinin 50 faizi miqdarında ödəyirlər.

Hesablanmış mə'dən vergisinin məbləği gəlirdən çıxılan xərclərə aid edilir.

Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən hasil edilmiş neftin və qazın miqdarından texnoloci proseslə əlaqədar olaraq quyuya geri vurulan neftin və qazın miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən normativlər əsasında çıxarılır.

Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dək ödənilir.

Mədən vergisinin ödəyiciləri hər ay hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına, yerli büdcələrə daxil olan mədən vergisi üzrə isə bələdiyyələrə mədən vergisinin bəyannaməsini təqdim edirlər.

Müəyyən edilən qaydada hesablanmış mədən vergisi məhdudlaşdı-rılmayan gəlirdən çıxılmalara aid edilir.

Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) dövlət büdcəsinə ödənilir.

downloaded from KitabYurdu.az

Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli büdcəyə ödənilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-keramid gilləri, tikinti qumları, yüksək möhkəmliyə malik çınqıl xammalı aid edilir.

XIII fəsil. YOL VERGİSİ

Azərbaycan Respublikası ərazisində sərnişin və yük daşıması ilə məşğul olan qeyri-rezident müəssisə və fiziki şəxslərdən avtomobil yollarından istifadəyə görə tutulan vergi *yol vergisi* adlanır. Bu verginin tətbiq edilməsində əsas məqsəd Azərbaycan Respublikasının ərazisinə daxil olan avtomobil nəqliyyatı vasitələri sahiblərinin Azərbaycanın avtomobil yollarından istifadəyə görə vergiyə cəlb edilməsidir.

Azərbaycan Respublikası ərazisinə daxil olan və respublika ərazisindən sərnişin və yük daşıması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələr və qeyri-rezident fiziki şəxslər *yol vergisinin ödəyiciləridir*.

Azərbaycan Respublikası ərazisinə daxil olan xarici dövlətlərin avtonəqliyyat vasitələri *vergitutma obyektidir*.

Avtonəqliyyat vasitələrinin növündən, oturacaqların sayından, yük götürmə qabiliyyətindən və avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, oxa düşən ağırlıqdan, Azərbaycan Respublikasının ərazisində qət edilən məsafədən, təhlükəli yüklərin daşınmasından asılı olaraq Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtonəqliyyat vasitələrindən vergi aşağıdakı dərəcələrlə hesablanır:

1. Minik avtomobilləri üçün - 15 ABŞ dolları;

downloaded from KitabYurdu.az

2.Avtobuslar üçün oturacaq yerlərininin sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazi-sində qaldığı müddət	Oturacaq yerlərinin sayı 12-dək olanda	Oturacaq yerlərinin sayı 13-dən 30-dək olanda	Oturacaq yerlərinin sayı 31 və çox olanda
1 gün üçün	15 ABŞ dolları	20 ABŞ dolları	25 ABŞ dolları
1 həftəyədək	30 ABŞ dolları	40 ABŞ dolları	50 ABŞ dolları
1 aya qədər	100 ABŞ dolları	140 ABŞ dolları	175 ABŞ dolları
3 aya qədər	300 ABŞ dolları	400 ABŞ dolları	500 ABŞ dolları
1 ilə qədər	1050 ABŞ dolları	1400 ABŞ dolları	1750 ABŞ dolları

3. Yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün oxların sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	4 (dörd) oxa qədər olanda	4 (dörd) ox və çox olanda
1 gün üçün	20 ABŞ dolları	30 ABŞ dolları
1 həftəyədək	40 ABŞ dolları	80 ABŞ dolları
1 aya qədər	140 ABŞ dolları	280 ABŞ dolları
3 aya qədər	400 ABŞ dolları	800 ABŞ dolları
1 ilə qədər	1400 ABŞ dolları	2800 ABŞ dolları

Verginin məbləği ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə Azərbaycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün aşağıdakı qədər artırılır:

- 37 tondan 41 tonadək olduqda – 0,15 ABŞ dolları;
- 41 tondan 51 tonadək olduqda – 0,30 ABŞ dolları;
- 51 tondan 61 tonadək olduqda – 0,45 ABŞ dolları;

downloaded from KitabYurdu.az

- 61 tondan 71 tonadək olduqda – 0,60 ABŞ dolları;
- 71 tondan 81 tonadək olduqda – 0,75 ABŞ dolları;
- 81 tondan çox olduqda – 1,8 ABŞ dolları.

Təhlükəli yüklərin daşınmasına görə yuxarıda (3-cü bənddə) göstərilən verginin məbləği aşağıdakı qədər artırılır:

- az təhlükəli yüklər üçün – 100 faiz;
- təhlükəli yüklər üçün – 200 faiz;
- xüsusi təhlükəli yüklər üçün – 400 faiz.

Azərbaycan Respublikasının ərazisində qalma müddətindən asılı olaraq xarici dövlətlərin avtonəqliyyat vasitələrinə hesablanmış verginin məbləği aşağıdakı faizlər qədər artırılır:

- 2 gündən 7 günədək – hər gün üçün 20 faiz;
- 7 gündən 30 günədək – hər gün üçün 30 faiz;
- 30 gündən sonra – hər gün üçün 40 faiz.

Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən vergi həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman tutulur və bir bank günü ərzində dövlət büdcəsinə keçirilir. Avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisində qalma müddətindən asılı olaraq hesablanmış vergi məbləği isə onlar Azərbaycan Resrublikasının ərazisini tərk etdikləri zaman gömrük orqanları tərəfindən tutulur.

XIV fəsil. SADƏLƏŞDİRİLMİŞ VERGİ

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq 2001-ci ilin yanvar ayından tətbiq olunan s*adələşdirilmiş vergi* vergilərin ən sadəsidir. Bu verginin ödənilməsində əsas məqsəd ilk növbədə kiçik biznesin nümayəndələri və fərdi

downloaded from KitabYurdu.az

sahibkarlar üçün vergilərin hesablanması və büdcəyə keçirilməsi prosedurunu sadələşdirməkdir.

Vergi Məcəlləsinin XI fəslinin müddəaları nəzərə alınmaqla ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmamış və əvvlki üç aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi aylıq gəlirin vergi tutulmayan məbləğinin 1250 mislindən az olan, habelə döbvriyyəsindən asılı olmayaraq avtomobil nəqliyyatı vasitələri, o cümlədən taksi ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər.

Aşağıda göstərilən şəxslərin sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ yoxdur:

- aksizli mallar istehsal edən şəxslər;
- kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardlar;
- qeyri-dövlət pensiya fondları;
- əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər;
- mülkiyyətində aylıq gəlirin vergi tutulmayan məbləğinin 50 min mislindən artıq məbləğdə əmlakı olanlar.

Hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən (avtomobil nəqliyyatı vasitələri, o cümlədən taksi ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər olan vergi ödəyicilərindən başqa) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmi vergitutma obyektidir.

Avtomobil nəqliyyatı vasitələri, o cümlədən taksi ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər olan vergi ödəyicilərinin vergiyə cəlb edilən dövriyyəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən regionlar üzrə

downloaded from KitabYurdu.az

yükgötürmə qabiliyyətindən və oturacaq yerlərinin sayından asılı olaraq nəqliyyat vasitələrinin ayrı-ayrı növləri üzrə müəyyən olunmuş şərti dövriyyəyə uyğun olaraq müəyyən edilir.

Sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyicisi deyildirlər.

Sadələşdirilmiş vergi (avtomobil nəqliyyatı vasitələri, o cümlədən taksi ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər olan vergi ödəyicilərindən başqa) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdankənar gəlirlərdən aşağıdakı dərəcə ilə hesablanır:

- Bakı şəhərində - 4 faiz;
- digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında - 2 faiz.

Avtomobil nəqliyyatı vasitələri, o cümlədən taksi ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər olan vergi ödəyiciləri 10 faiz dərəcəsi ilə vergi ödəyirlər.

Bakı şəhəri istisna olmaqla Azərbaycan Respublikasının digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyt göstərən vergi ödəyicilərinə bu regionlar üzrə müəyyən edilmiş vergi dərəcəsi o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsunlar.

Azərbaycan Respublikasının şəhər və rayonlarında, Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış,

downloaded from KitabYurdu.az

lakin Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş verginin ödəyiciləri vergini Bakı şəhəri üzrə müəyyən olunmuş vergi dərəcəsi ilə ödəyirlər.

Müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilən gəlirlər üzrə uçot ayrı-ayrılıqda aparılmalıdır. Belə uçot aparılmadıqda ən yüksək vergi dərəcəsi tətbiq edilir.

Sadələşdirilmiş sistem üzrə vergi ödəyən müəssisələrin əvvəlki üç aylıq dövr ərzində vergi tutulan əməliyyatlarının həcmi aylıq gəlirin vergi tutulmayan məbləğinin 1250 mislindən artıq olduqda, həmin dövr başa çatdıqdan sonra 10 gün ərzində vergi orqanına məlumat və ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə və ümumi qaydada vergilərin hesablanmasını və ödənilməsini tə'min etməyə borcludurlar.

Hesabat dövrü üçün sadələşdirilmiş sistemin məbləği Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergi dərəcəsini hesabat dövrünün ümumi hasilatının həcminə tətbiq etməklə hesablanır.

XV fəsil. DÖVLƏT RÜSUMLARI

Rüsum – vergi və yığım kateqoriyalı ödəniş növüdür. Rüsum ödəyiciləri müvafiq dövlət orqanları ilə və insanlarla müəyyən iqtisadi münasibətlərə girən şəxslərdir. Rüsumların ən geniş yayılmış formaları qeydiyyat, möhür rüsumu, poçt, məhkəmə və vərəsəlik rüsumlarıdır. Sərhəddən keçirilən mallardan alınan rüsumlar gömrük rüsumlarıdır.

Orta əsrlərdə rüsumlar yollardan, körpülərdən (yol rüsumu) istifadəyə görə dövlət, şəhərlər və feodallar tərəfindən tutulan yığımlar idi. Mərkəzləşdirilmiş dövlət

downloaded from KitabYurdu.az

hakimiyyətinin güclənməsi ilə əlaqədar olaraq rüsumlar dövlətin inhisarına çevrilmişdir. Müasir dövrdə rüsumlar vergilərin müxtəlif formasını təşkil edir. Rüsumlar dövlət və yerli idarəetmə orqanlarının müəyyən funksiyalarının həyata keçirməsi ilə bağlı müvafiq xərclərin ödənilməsi üçün nəzərdə tutulur.

Rüsumların növləri xidmətlərin xarakterindən asılı olaraq dəyişir.

Azərbaycan qanunverciliyi rüsumların 3 əsas növünü həyata keçirir: dövlət rüsumu, gömrük rüsumu və birdəfəlik rüsumlar.

Dövlət rüsumu dövlət orqanlarının müəssisə, təşkilat və fiziki şəxslərə göstərdikləri xidmətlərə və hüquqi hərəkətlərə görə dövlət büdcəsinə ödənilən məcburi ödənişdir. Dövlət rüsumu aşağıdakı hallarda tutulur:

- məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsi, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsi;
- notariat kontorları və dövlət orqanları tərəfindən notariat hərəkətlərinin aparılması;
- vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı;
- Azərbaycan Respublikası vətəndaşlarına və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə şəxsiyyət vəsiqəsi, habelə Azərbaycan Respublikasında 30 gündən artıq yaşayan əcnəbilərə qeydiyyat vəsiqəsi verilməsi, Azərbaycan Respublikası vətəndaşlığına qəbul və ya vətəndaşlığından çıxma;
- Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində konsul əməliyyatlarının aparılması;

downloaded from KitabYurdu.az

- sənaye mülkiyyəti obyektlərinin qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər, habelə icazələrin bəzi növlərinin verilməsi;

- xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi;

- hüquqi şəxslərin dövlət qeydiyyatı və təkrar qeydiyyatı;

- qiymətli kağızların qeydiyyata alınması (özəlləşdirmə qaydasında qeydə alınması halları istisna olmaqla) və dövlət reyestrinə daxil edilməsi;

- Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi;

- əmlaka mülkiyyət hüququna, o cümlədən torpağa mülkiyyət, icarə və istifadə hüququna dair sənədlərin verilməsi və girovun dövlət qeydiyyatı.

Dövlət rüsumunun ödəyiciləri işlərin görülməsi, xidmətlərin göstərilməsi və hüquqların əldə edilməsi üçün Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və hüquqi şəxslərdir. Dövlət rüsumunun hesablanması və ödənilməsi qaydaları «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Notariat hərəkətlərinin aparılmasına, beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə, habelə sənaye mülkiyyəti obyektlərinin qeydiyyata alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlərə görə tutulan dövlət rüsumunun 15 faizi dövlət rüsumu tutan orqanların xüsusi hesabına, 85 faizi isə dövlət büdcəsinə keçirilir.

downloaded from KitabYurdu.az

Dövlət rüsumları milli valyutada nağd və ya köçürmə yolu ilə dövlət büdcəsinə ödənilir. Dövlət rüsumunun dövlət büdcəsinə nağd şəkildə ödənilməsi barədə ödəyiciyə müəyyən edilmiş formada bank qəbzinin əsli, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank sənədi verilir.

Dövlət rüsumlarının həcmi və onların ÜDM-da xüsusi çəkisi aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 14. Dövlət rüsumları və onların ÜDM-da xüsusi çəkisi

Göstəricilər	1996	1997	1998	1999	2000	2001	2002	2003
Gömrük rüsumları (mlrd.man.)	38	32	46	81	80	79	115	115
ÜDM-da xüsusi çəkisi, %-lə	0,3	0,2	0,3	0,4	0,4	0,3	0,4	0,4

Cədvəldən göründüyü kimi, dövlət rüsumlarının həcminin artma meyli vardır, lakin ÜDM-da xüsusi çəkisi uzun illər sabit qalmaqdadır. Bunun da əsas səbəbi rüsum ödənişlərinin əvvəlki illərə nisbətən azaldılmasından ibarətdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2002-ci il 98 saylı qərarına əsasən ödənilmiş dövlət rüsumu aşağıdakı hallarda dövlət büdcəsindən qismən və ya tamamilə qaytarılır:

- dövlət rüsumu qanunla müəyyən edilmiş miqdardan artıq ödənildikdə;

downloaded from KitabYurdu.az

- ərizələr (şikayətlər) qaytarıldıqda və ya ərizə baxılmamış saxlanıldıqda, habelə notariat əməliyyatlarının icrasından imtina edildikdə;

- məhkəmələr tərəfindən iş üzrə icraata xitam verildikdə.

Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu dövlət rüsumunun ödəyicisinin yazılı müraciətinə əsasən 45 gün müddətində ona qaytarılır. Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılması üçün müəyyən edilmiş 45 günlük müddət dövlət rüsumunu tutan orqana bu barədə ərizə verildiyi gündən vəsaitin müvafiq dövlət xəzinədarlığının hesabından çıxdığı günədək olan dövrü əhatə edir. Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun büdcədən qaytarılması üçün 5 il ərzində iddia verilə bilər.

Dövlət rüsumu tutan idarə və təşkilatların vəzifəli şəxsləri rüsumun düzgün tutulması və dövlət büdcəsinə vaxtında və tam köçürülməsi üçün məsuliyyət daşıyırlar.

Dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Aşağıdakılar dövlət rüsumu ödəməkdən azad olunurlar:

- əməyin ödənilməsi və əmək fəaliyyəti ilə bağlı digər tələblər üzrə – iddiaçılar;

- aliment alınması barədə iddialar üzrə – iddiaçılar;

- şikəstlik, səhhətə digər xəsarətlər yetirilməsinə və ya ailəni dolandıranın ölümü nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə – iddiaçılar;

- müəlliflik mübahisələri üzrə – müəlliflər, müəlliflik hüququ, ixtiralar, faydalı modellər, sənaye nümunələri,

downloaded from KitabYurdu.az

habelə əqli mülkiyyətin digər növlərinə dair hüquqlardan irəli gələn iddilar üzrə – iddiaçılar;

- istehlakçıların hüquqlarının pozulması ilə əlaqədar verdikləri iddilar üzrə – iddiaçılar;

- zərərçəkənə və ya onun ailə üzvlərinə ödənilmiş müavinət və ya pensiya məbləğinin zərər vurandan tutulması barədə reqres iddialar üzrə – sosial sığorta orqanları və əhalinin sosial müdafiə mərkəzləri;

- sosial müdafiə vasitələrinin tələbi barədə iddialar üzrə – sosial təminat orqanları;

- borcludan tutulmalı olan, lakin borc tutan şəxsin hesabına keçirilməyən məbləğə görə iddilar üzrə – iddiaçılar;

- cinayət nəticəsində dövlətə vurulmuş maddi zərərin barədə prokuror tərəfindən verilən iddilar üzrə – iddiaçılar;

- aliment verməkdən, şikəst etmə və ya səhhəti sair şəkildə zədələnmə ilə, habelə ailəni dolandıranın ölümü ilə vurulan ziyanı ödəməkdən, vergilərin və digər məcburi ödəmələrin tutulmasından boyun qaçıran şəxslərin axtarışı ilə əlaqədar xərclərin tələb olunması üzrə – polis orqanları;

- cinayət işləri və aliment işləri ilə əlaqədar olaraq vətəndaşlara, müəssisələrə və təşkilatlara sənədlər (arayışlar) verilməsi üçün – vətəndaş, müəssisə, idarə və təşkilatlar;

- inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə – vətəndaş, inzibati orqanlar və vəzifəli şəxslər;

- qanunsuz olaraq qəti imkan tədbiri kimi həbsə alınmaqla, yaxud həbs və ya islah işləri növündə qanunsuz olaraq inzibati tənbeh verilməsi ilə fiziki şəxsə vurulmuş zərərin ödənilməsi ilə əlaqədar mübahisələr üzrə – tərəflər;

- məhkəmələrə verilən iddia ərizələri və bütün növ şikayətlər üzrə – büdcə təşkilatları, Milli Bank və onun qurumları;

downloaded from KitabYurdu.az

- başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, dövlət mənafeyinin müdafiəsi üçün verilən ərizələr üzrə – dövlət orqanları;

- öz hüquqlarının müdafiəsi barədə ərizələr üzrə – yetkinlik yaşına çatmayanlar;

- məhkəmə qərarlarından verilən şikayətlər üzrə – işdə iştirak edən şəxslər;

- qiyabi icraat qaydasında qəbul edilmiş qərarlara yenidən baxılması haqqında birinci instansiya məhkəmələrinə verilən ərizələr üzrə – tərəflər;

- yeni açılmış hallara görə qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yenidən baxılması üçün verilmiş ərizələr üzrə – tərəflər;

- məhkəmədə verilən iddialar üzrə – şəhid ailələri, müharibə veteranları, qaçqınlar və məcburi köçkünlər, habelə Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.

Notariat hərəkətlərinin aparılmasına görə aşağıdakı hallarda dövlət rüsumu ödənilmir:

- doğumu, ölümü, övladlığa götürülməni və atalığı (analığı) təsdiqləyən sənədləri almaq üçün;

- təminatlı kreditorun iştirakçısı olduğu girov müqaviləsi ilə bağlı notariat hərəkətləri aparılarkən dövlət rüsumu tutulmuşdursa, həmin müqavilədən irəli gələn borc öhdəliklərinin təmin edilməsi üçün iflas prosesi zamanı təminatlı kreditor ilə əmlak inzibatçısı arasında bağlanmış saziş ilə əlaqədar notariat hərəkətləri üzrə – təminatlı kreditor və əmlak inzibatçısı;

- mənzil və ya ev (evin bir hissəsi) alqı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə – birinci qrup işləməyən əlillər, qaçqınlar və məcburi köçkünlər;

downloaded from KitabYurdu.az

- mülki-hüquqi əqdlərin bağlanması zamanı, habelə mənzil (fərdi ev) alınması və ya dəyişdirilməsi əqdləri ilə bağlı notariat hərəkətləri üzrə – «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər və qəyyumluqda (himayədə) olan uşaqlar;

- pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üzrə.

Doğumun, ölümün, övladlığa götürülmənin və atalığın (analığın) müəyyən edilməsinin qeydə alınması və bu barədə ilkin şəhadətnamələrin verilməsi üçün dövlət rüsumu ödənilmir.

Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün şəxsiyyət vəsiqəsinin verilməsinə görə qaçqınlar, məcburi köçkünlər və Azərbaycan Respublikasında daimi yaşayan 16 yaşına çatmamış vətəndaşlığı olmayan şəxslər dövlət rüsumunu ödəməkdən azad olunurlar.

Aşağıdakı hallarda dövlət rüsumu alınmır:

- diplomatik pasport almaq üçün;

-Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında mülki, ailə və cinayət işlərində hüquqi yardım haqqında, alimentlər haqqında, pensiya haqqında və övladlığa götürmə məsələləri haqqında müqavilələrə uyğun olaraq bu ölkənin səlahiyyətli orqanlarının və ayrı-ayrı vətəndaşlarının sorğusuna əsasən sənədlərin tələb olunub alınmasına görə;

-dövlət nümayəndə heyətinin tərkibində xarici ölkələrə ezam olunan şəxslərin pasport və digər gediş sənədləri rəsmiləşdirildikdə;

downloaded from KitabYurdu.az

- Azərbaycan Respublikasının xeyrinə əmlakın bağışlanmasına dair müqavilələrin və vəsiyyətnamələrin təsdiq edilməsinə görə;

- Azərbaycan Respublikasının gəmi, hava və digər nəqliyyat vasitələrinin heyət üzvlərinin, habelə vətəndaşlarının ölümündən sonra qalmış əmlakın mühafizəsinə görə.

Azərbaycan Respublikasına gələn aşağıdakı əcnəbilərdən dövlət rüsumları alınmır:

- dövlət nümayəndə heyəti üzvləri və rəsmi şəxslərdən;

-Azərbaycan Respublikasında beynəlxalq humanitar təşkilatları təmsil edənlərdən;

- dövlət xətti ilə təhsil alan və pedaqoci fəaliyyət göstərənlərdən;

- müdafiə xətti ilə səfər edənlərdən.

Azərbaycan Respublikasına qrup halında gələn əcnəbilərin hər birindən vizanın rəsmiləşdirilməsinə və ya onun etibar müddətinin artırılmasına görə dövlət rüsumu tutulur.

Patent kooperasiyası haqqında müqaviləyə (PTS) uyğun ixtira, faydalı model barəsində iddia sənədinin milli fazaya daxil olması və digər hüquqi hərəkətlər üçün ödənilən rüsumun məbləği ixtira, faydalı model barəsində iddia sənədinin verilməsi və digər hüquqi hərəkətlər üçün müəyyən edilən məbləğə bərabər tutulur.

Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən xususi razılıq (lisenziya) verilməsinə görə dövlət rüsumun məbləği şərti maliyyə vahidinin 10,0 misli həcmində müəyyən edilir.

Dövlətə öz əmlakını bağışlayan vətəndaşlardan, müəssisələrdən və təşkilatlardan dövlət rüsumu tutulmur.

downloaded from KitabYurdu.az

Daşınmaz dövlət əmlakının bələdiyyə mülkiyyətinə keçməsi ilə əlaqədar mülkiyyət şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu tutulmur.

Dövlət rüsumunun dərəcəsi şərti maliyyə vahidiin (5500 manat) məbləğinin misli ilə müəyyən edilir.

XVI fəsil. GÖMRÜK RÜSUMLARI

Gömrük işi dövlət mexanizminin tərkib hissəsi olub, daxili və xarici siyasətin bir formasıdır. Ölkənin müdafiəsi, dövlət təhlükəsizliyi, pul emissiyası, xarici siyasət kimi gömrük işi də dövlət inhisarı sferasına daxildir, bununla ancaq dövlət aparatı məşğul olur.

SSRİ-nin dağılması nəticəsində Azərbaycan Respublikası bir müstəqil dövlət kimi öz gömrük sərhədini, gömrük xidmətini və gömrük hüququnu yaratdı. Azərbaycan Respublikasında gömrük işinin təşkili aşağıdakılarla tənzimlənir:

- Azərbaycan Respublikasının qanunları ilə;
- Azərbaycan Respublikası Prezidentinin qərarları ilə;
- Azərbaycan Respublikası hökumətinin sərəncamları ilə;
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aktları ilə;
- Dövlət Gömrük Komitəsinin mərkəzi və icra hakimiyyətinin aktları ilə.

Gömrük işini və gömrük hüququnu tənzimləyən əsas sənəd *Azərbaycan Respublikasının Gömrük Məcəlləsidir*. Gömrük Məcəlləsi gömrük işinin hüquqi, iqtisadi və təşkilati məsələlərini müəyyən edir, gömrük tənzimlənməsi məsələlərində əsaslı qanunvericilik aktıdır, xarici iqtisadi

downloaded from KitabYurdu.az

fəaliyyətin və gömrük orqanlarının iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir.

Gömrük işi malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtlərini, gömrük ödənişlərinin alınmasını, gömrük rəsmiləşdirilməsini, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrini təşkil edir.

Dövlət büdcəsinin gəlirlərində Dövlət Gömrük Komitəsi tərəfindən yığılan vergi və rüsumların xüsusi çəkisi qeyri-sabitdir. 1996-cı ildə bu göstərici 13,5 %, 1997-ci ildə 16,8 %, 1998-ci ildə 24,1 %, 1999-cu ildə 23,7 %, 2000-ci ildə 20,2 %, 2001-ci ildə 20,9 % olmuş, 2002-ci ildə 19,2 %, 2003-cü ildə isə 16,7 % proqnozlaşdırılmışdır. Belə bir tendensiya Azərbaycan Respublikası ərazisinə idxal məhsullarının azalmasını göstərir. Respublikamızda əvvəllər idxal olunan məhsullar istehsal olunduğundan Vergilər Nazirliyi tərəfindən yığılan vergilərin xüsusi çəkisinin artmasına səbəb olmuşdur və bu proses davam edir.

Cədvəl 15. Gömrük rüsumları və gömrük vergiləri, (mlrd. man.)

Göstəricilər	1996	1997	1998	1999	2000	2001	2002	2003
Dövlət Gömrük Komitəsi üzrə	272,0	430,0	561,0	662,0	720,0	822,0	920,0	102,0
Əlavə dəyər vergisi	152	173	233	248	385	522	545	652
Gömrük rüsumları	112	234	287	314	311	261	290	300
Aksiz	8	15	32	40	14	32	75	60
Tranzit yol vergisi	0	8	10	10	10	8	10	8

downloaded from KitabYurdu.az

Cədvəldən göründüyü kimi, Dövlət Gömrük Komitəsi tərəfindən yığılan vergi və rüsumlar arasında ən yüksək xüsusi çəki ƏDV-nə məxsusdur. Belə ki, 1997-ci ildə bu göstərici 40,2 %, 1998-ci ildə 41,5 %, 1999-cu ildə 45,0 %, 2000-ci ildə 53,5 %, 2001-ci ildə 63,5 % olmuş, 2002-ci il üçün 59,2 %, 2003-cü il üçün 63,9 % proqnozlaşdırılmışdır. 2000-ci ildə gömrük rüsumlarının xüsusi çəkisi 43,1 %-dən etibarən azalmağa başlamış, 2003-cü il üçün 29,4 % proqnozlaşdırılmışdır. Bu cür meyl aksizlərdə də müşahidə olunur. Tranzit yol vergisi isə demək olar ki, dəyişməz qalır.

Gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Gömrük Məcəlləsindən, «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının qanunundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Azərbaycan Respublikasında gömrük işi hüquq-mühafizə orqanları rolunu oynayan və vahid sistem təşkil edən gömrük orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı[1] haqqında Əsasnamə müvafiq icra hakimiyyəti orqanı[2] tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikasının gömrük orqanları öz səlahiyyətləri çərçivəsində ölkənin iqtisadi təhlükəsizliyini tə'min edir, gömrük rüsumları, vergilər və digər gömrük ödənişləri alırlar.

Azərbaycan Respublikasının gömrük tarifi - Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilçn mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə

[1] Burada Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur.
[2] Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

downloaded from KitabYurdu.az

nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur.

Gömruk rusmları **-** Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə malların idxalı və ixracı zamanı alınan ödənişlərdir.

İdxal gömrük rüsumlarının dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən tə'yin edilir. Azərbaycan Respublikasının əlverişli ticarət recimi tətbiq etdiyi ölkələrin malları üçün idxal gömrük rüsumlarının dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilir.

İxrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı, həmçinin xarici iqtisadi tənzimlənmənin qeyri-tarif tədbirləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Azərbaycan Respublikasının əlverişli ticarət recimi tətbiq etdiyi ölkələrin malları üçün ixrac gömrük rüsumlarının dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən tə'yin olunur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti 12 aprel 2001-ci il tarixli 80 saylı qərarı ilə «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»ni, «Azərbaycan Respublikasından ixrac zamanı ixrac gömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumlarının dərəcələri»ni və «Görük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı»nı təsdiq etmişdir.

Gömrük rüsumları xarici iqtisadi fəaliyyətdə tətbiq olunur. Gömrük rüsumlarının yığılmasında qarşıya qoyulan əsas vəzifələr bunlardır:

- dövlət büdcəsinin gəlirlərini tə'min etmək;

downloaded from KitabYurdu.az

- milli məhsul istehsalçılarını xarici rəqabətdən qorumaq;
- idxal və ixracın əmtəə strukturunun səmərələşdirilməsi;
- istehsalın və istehlakın strukturunda dəyişikliklərə şərait yaratmaq.

İqtisadi mahiyyətinə görə gömrük rüsumlarının aşağıdakı növləri vardır:

- idxal;
- ixrac;
- tranzit gömrük rüsumları.

1. Xarici malların daxili bazara daxil olması nəticəsində gömrük orqanları tərəfindən ***idxal gömrük rüsumları*** alınır. 1996-cı ildən etibarən gömrük rüsumlarının artımı müşahidə olunur. Belə ki, 1996-ci ildə büdcə gəlirlərində xüsusi çəkisi 5,6%-dən 1997-ci ildə 9,1%-dən, 1998-ci ildə 12,3%-dək artmış, 1999-cu ildən azalaraq 11,2%-ə, 2000-ci ildə 8,7%-ə, 2001-ci ildə isə 6,7%-ə enmişdir. Ümumiyyətlə, gömrük vergi və rüsumlarının büdcə gəlirlərində xüsusi çəkisi 2000-ci ildə 20,2%-dən 2001-ci ildə 20,9%-dək artmışdır. ÜDM-da xüsusi çəkisi bu iki ildə sabit olmuş və 3,3% təşkil etmişdir.

Azərbaycan Respublikasının iqtisadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq aşağıdakı xüsusi növ rüsumlar tətbiq edilir:

- xüsusi rüsumlar;
- antidempinq rüsumları;
- kompensasiya rüsumları.

Xüsusi rüsumlar aşağıdakı hallarda tətbiq olunur:

- mallar Azərbaycan Respublikası gömrük ərazisinə bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildiyi təqdirdə müdafiə tədbiri kimi;

downloaded from KitabYurdu.az

- digər dövlətlərin və onların ittifaqlarının Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrıseçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

Antidempinq rüsumları idxal olunan malların qiyməti Azərbaycan Respublikası gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

Kompensasiya rüsumları Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasıda bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

2. İxrac gömrük rüsumları məhdud mal qrupuna tətbiq olunur, belə ki, onların geniş tətbiqi ixracın inkişafına mane ola bilər. Bir qayda olaraq, ixrac rüsumları incəsənət əsərlərinin və qədim əşyaların ölkədən aparılması zamanı daha geniş tətbiq olunur.

3. Tranzit gömrük rüsumları gömrük tarifi əsasında ölkədən malların keçirilməsi zamanı tətbiq olunur.

Gömrük tarifi gömrük sərhədindən keçirilçn mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur. Gömrük tarifi məhsulun kodunu, malın qısaca olaraq adını, gömrük rüsumu və rüsum dərəcələri ilə tətbiqi vahidini özündə əks etdirir.

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasında aşağıdakı gömrük rüsumları tətbiq edilir:

- advalor – malların gömrük dəyərinə görə faizlə hesablanan;
- spesifik – mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan;
- kombinə edilmiş – hər iki növü birləşdirməklə hesablanan.

Gömrük rüsumunun həcmi malın gömrük dəyərindən və tarifindən asılıdır.

Malın gömrük dəyərinin müəyyən edilməsi sistemi gömrük qiymətləndirilməsinin beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərinə əsaslanan gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallara şamil edilir.

Gömrük dəyəri mal gömrük sərhədindən keçirilərkən deklarant tərəfindən gömrük orqanına bəyan edilir.

Deklarant tərəfindən bəyan edilmiş gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı mə'lumatlar dəqiq, kəmiyyəti tə'yin oluna bilən və sənədlərlə təsdiq edilmiş mə'lumatlara əsaslanır.

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən **malların gömrük dəyəri** aşağıdakı üsullarla müəyyən edilir:

- gətirilən malların sövdələşmə qiyməti ilə;
- eyni malların sövdələşmə qiyməti ilə;
- dəyərin toplanması üsulu ilə;
- dəyərin çıxılması üsulu ilə;
- ehtiyat üsulu ilə.

Gətirilən malların sövdələşmə qiymətinə uyğun olaraq qiymətləndirilməsi gömrük dəyərinin müəyyən edilməsinin əsas üsuludur. Əsas üsuldan istifadə edilə bilmədiyi halda, növbəti üsullardan hər biri ardıcıl olaraq tətbiq edilir. Bu

downloaded from KitabYurdu.az

zaman hər bir sonrakı üsulun tətbiqi gömrük dəyərini əvvəlki üsulla tə'y'n etmək mümkün olmadıqda həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malın gömrük dəyəri həmin mal Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilçrkən gətirilən mal üçün faktiki ödənilmiş və ya ödənilməli olan sövdələşmə qiymətidir.

Eyni malların sövdələşmə qiyməti üsulundan istifadə olunduqda malın gömrük dəyərinin müəyyən edilməsi üçün eyni malların sövdələşmə qiyməti aşağıdakı şərtlər nəzərə alınmaqla əsas götürülür:

- fiziki xüsusiyyətlərinə görə;
- keyfiyyətinə və bazardakı nüfuzuna görə;
- malın mənşə ölkəsinə görə;
- istehsalçısına görə.

Tarif güzəştləri (tarif preferensiyaları) dedikdə, Azərbaycan Respublikasının ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsum qaytarılması, rüsum ödənişindən azadetmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür.

III BÖLMƏ

BÜDCƏNİN XƏRCLƏRİ

downloaded from KitabYurdu.az

XVII fəsil. BÜDCƏ XƏRCLƏRİNİN PLANLAŞDIRILMASI VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ

17.1. Büdcə xərcləri sistemi

Büdcə sisteminin əsas təyinatı – dövlət və yerli idarəetmə orqanlarının üzərinə düşən vəzifə və funksiyaların həyata keçirilməsini təmin etməkdən ibarətdir. Bu funksiyaların xarkterindən asılı olaraq ***büdcə xərcləri sistemi*** formalaşır. İstiqamət və növlər üzrə büdcə xərclərini aşağıdakı qruplara bölmək olar:

XƏRCLƏR
Ümumdövlət xərcləri; Müdafiə; Məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları və prokurorluq, Elm, təhsil; Səhiyyə; Sosial müdafiə və sosial tə'minat; Mədəniyyət, incəsənət, KİV, bədən tərbiyəsi, idman, gənclər siyasəti; Mənzil-kommunal təsərrüfatı; Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq; Sənaye və tikinti; Nəqliyyat, rabitə və s.

Bu blokların hər birinə büdcə vəsaitinin istifadəsinin konkret istiqamətləri daxildir. Büdcə xərclərinin tərkibinə daha ətraflı olaraq onun funksional təsnifatında baxa bilərik.

1. İqtisadi mahiyyətindən asılı olaraq büdcənin ümumi[1] xərcləri əsaslı və cari xərclərə bölünür.

[1] Qeyd: Ümumi xərclər, qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlçrin verilmçsi = Ümumi xərclər + qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi

downloaded from KitabYurdu.az

Büdcənin əsaslı xərcləri – büdcə xərclərinin bir hissəsi olmaqla innovasiya və investisiya fəaliyyətini tə'min edir. Buraya əsas vəsaitlərin alınması, əsaslı tikinti, əsaslı təmir, dövlət ehtiyatlarının yaradılması, torpaq və qeyri-maddi aktivlərin alınması, əsaslı ödənişlər, ölkə daxilində kreditlərin verilməsi, xaricə kreditlərin verilməsi, xaricdən kreditlərin qaytarılması və s. daxildir.

Büdcənin əsaslı xərclərinin tərkibində inkişaf büdcəsi formalaşdırıla bilər. İnkişaf büdcəsinin formalaşdırılmasının qaydası və şərtləri qanunla müəyyən olunur.

Büdcənin cari xərcləri – Azərbaycan Respublikası büdcəsinin iqtisadi təsnifatı ilə əlaqədar əsaslı xərclərə daxil edilməyən dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının, büdcə idarələrinin cari xərclərini təşkil edir. Buraya əməyin ödəniş fondu, əmək haqqına üstəlik, malların alınması və xidmətlərin haqqının ödənilməsi, faizlər üzrə ödənişlər, daxili borc üzrə ödənişlər, subsidiyalar, transfertlər, mənfəətsiz işləyən müəssisələrə ödənişlər, əhaliyə ödənişlər, xarici ölkələrə cari ödənişlər və s. daxildir.

Büdcə vəsainin verilməsi aşağıdakı formalarda həyata keçirilir:

– büdcə idarələrinin saxlanmasına təxsisatlar;

– dövlət və bələdiyyə sazişləri üzrə fiziki və hüquqi şəxslərin istehsal etdikləri məhsulların, yerinə yetirdikləri iş və xidmətlərin ödənilməsinə xərclər;

– əhaliyə ödənişlər, yə'ni Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi, yerli özünüidarəetmə orqanlarının hüquqi aktları ilə müəyyən edilən əhaliyə məcburi ödənişlərin verilməsinə təxsisatlar;

downloaded from KitabYurdu.az

– dövlət hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar əsasında büdcə xərclərinin artırılmasına və ya büdcə gəlirlərinin azalmasına gətirən əlavə xərclərin kompensasiya edilməsi üçün təxsisatlar;

– hüquqi şəxslərə büdcə kreditləri;

– fəaliyyətdə olan və ya yeni yaradılan hüquqi şəxslərin nizamnamə kapitalına investisiyalar;

– Azərbaycan Respublikasının büdcə sisteminin müxtəlif səviyyəli büdcələrinə, büdcədənkənar dövlət fondlarına verilən büdcə ssudaları, subsidiyalar, dotasiyalar və subvensiyalar;

– xarici ölkələrə kreditlər;

– borc öhdəlikləri, o cümlədən dövlət borclarının ödənilməsi və onlara xidmət göstərilməsi ilə bağlı vəsaitlər.

1. Büdcə vəsaiti alan müəssisə və təşkilatlar tabeçiliyindən asılı olaraq idarəçilik əlamətlərinə görə bölünürlər.

2. Büdcə sisteminin maliyyələşdirilmə səviyyəsindən asılı olaraq, büdcə xərcləri dövlət və yerli xərclərə ayrılır.

Dövlət büdcəsindən aşağıdakı funksional növlü xərclər maliyyələşdirilir:

– Azərbaycan Respublikası Prezident aparatının, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, mərkəzi icra hakimiyyətinin və onların ərazi orqanlarının fəaliyyətinin tə'min edilməsi, növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun təsdiq edilən zaman müəyyən edilən siyahı üzrə ümumdövlət idarəetməsinə çəkilən xərclər;

– məhkəmə sisteminin fəaliyyət göstərməsinə çəkilən xərclər;

downloaded from KitabYurdu.az

– dövlət maraqlarına uyğun beynəlxalq fəaliyyətin həyata keçirilməsi (dövlətlərarası müqavilələrin və beynəlxalq maliyyə təşkilatlarının, beynəlxalq mədəni, elmi əməkdaşlıq üzrə müqavilələrin maliyyə tə'minatı) xərcləri;

– milli müdafiə və dövlətin təhlükəsizliyinin tə'min edilməsi, sənayenin müdafiə sahələrinin konversiyasının həyata keçirilməsi;

– əsaslı tədqiqatlar və elmi-texniki inkişafa yardım;

– dəmir yolu, hava və dəniz nəqliyyatına dövlət himayəsi;

– ölkə miqyaslı föv'qəladə halların və təbii fəlakətlərin nəticələrinin ardan qaldırılması;

– kosmik fəzanın tədqiqatı və istifadə edilməsi;

– dövlət mülkiyyətində və ya Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının tabeliyində olan idarələrin saxlanması;

– dövlət mülkiyyətinin formalaşdırılması xərcləri;

– Azərbaycan Respublikasının dövlət borcunun ödənilməsi və ona xidmət edilməsi;

– Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təyin edilmiş dövlət pensiya və müavinətlərin, digər sosial ödənişlərin həyata keçirilməsi üzrə büdcədənkənar dövlət fondlarına kompensasiyalar;

– dövlət material ehtiyatlarının, qiymətli metal və qiymətli daşlar üzrə dövlət ehtiyatının artırılması;

– Azərbaycan Respublikasında seçkilərin və ümumxalq səsverməsinin, referendiumların keçirilməsi;

– dövlət investisiya proqramlarının həyata keçirilməsi;

– digər səviyyəli büdcələrin gəlirlərinin azaldılmasına və xərclərin artırılmasına gətirən Azərbaycan

downloaded from KitabYurdu.az

Respublikasının dövlət hakimiyyəti orqanlarının qərarlarının həyata keçirilməsinin tə'min edilməsi;

– hakimiyyətin digər səviyyəsinə verilən ayrı-ayrı dövlət səlahiyyətlərinin həyata keçirilməsinin tə'min edilməsi;

– bələdiyyələrə maliyyə yardımı;

– sair dövlət əhəmiyyətli xərclər.

Yerli büdcələrdən aşağıdakı funksional növlü xərclər maliyyələşdirilir:

– yerli özünüidarəetmə orqanlarının saxlanması;

– bələdiyyə mülkiyyətinin formalaşdırılması və onun idarə edilməsi;

– yerli özünüidarəetmə orqanlarının tabeliyində və bələdiyyə mülkiyyətində olan təhsil, səhiyyə, mədəniyyət, bədən tərbiyəsi və idman, kütləvi informasiya və digər idarələrin təşkili, saxlanılması və inkişafı;

– bələdiyyə ictimai asayişinin mühafizəsi orqanlarının saxlanılması;

– bələdiyyə mənzil – kommunal təsərrüfatının təşkili, saxlanması və inkişafı;

– yerli əhəmiyyətli yolların saxlanması və bələdiyyə yol tikintisi;

– bələdiyyə ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması;

– məişət tullantılarının ləğv edilməsi və yenidən e'mal edilməsinin təşkili;

– bələdiyyə orqanlarının tabeliyində olan dəfn xidməti yerlərinin saxlanılması;

– yerli özünüidarəetmə orqanlarının tabeliyində və bələdiyyə mülkiyyətində olan idarələrin və əhalinin nəqliyyat xidmətinin təşkili;

downloaded from KitabYurdu.az

– yanğından mühafizənin təşkili;

– bələdiyyələrin ərazisində ətraf mühitin mühafizəsi;

– yerli özünüidarəetmə orqanları tərəfindən qəbul edilən ərazi məqsədli proqramların həyata keçirilməsinin tə'min edilməsi;

– bələdiyyə borclarının ödənilməsi və onlara xidmət edilməsi;

– bələdiyyə arxivlərinin saxlanması;

– bələdiyyə seçkilərinin və yerli ümumxalq səsvermələrinin keçirilməsi;

– sair yerli əhəmiyyətli xərclərin maliyyələşdirilməsi.

17.2. Büdcə xərclərinin planlaşdırılmasının əsasları

Büdcə təşkilatı – vüdcə smetası əsasında fəaliyyəti tamamilə və ya qismən büdcə vəsaiti hesabına maliyyələşdirilən, hesablaşma hesabı olmayan qeyri-kommersiya təşkilatıdır. Bu təşkilatlara vəsaitlərin ayrılması ***büdcə planlaşdırılması*** vasitəsilə həyata keçirilir.

Büdcə xərclərinin planlaşdırılmasının əsas üsulları bunlardır:

- proqramlı-məqsədli;
- normativli.

Büdcə xərclərinin planlaşdırılmasının proqramlı-məqsədli üsulu iqtisadi və sosial problemlərin həyata keçirilməsi üçün təsdiq edilmiş məqsədli proqramlara uyğun olaraq ayrılan büdcə vəsaitlərinin sistemli planlaşdırılmasıdır. Maliyyə vəsaitlərinin planlaşdırılmasının bu üsulu konkret proqram və layihələr əsasında maliyyə ehtiyatlarının səmərəli bölgüsü üçün vəsaitlərin cəmləşdirilməsinə və məqsədli istifadəsinə,

downloaded from KitabYurdu.az

nəzarətin yaxşılaşdırılmasına yardım edir. Bütün bunlar vəsaitlərin səmərəli mənimsənilməsinin səviyyəsini artırır.

Tədbirlərin və layihələrin həyata keçirilməsi üçün ayrılan vəsaitlərin həcmi planlaşdırmanı və maliyyələşdirməni ***smeta qaydası*** əsasında müəyyən edir. Büdcə təşkilatlarının smetaları üzrə xərclərin hesablanmasının əsasını onların fəaliyyət göstəricilərinin (məsələn, təhsil üzrə şagirdlərin, qrupların, siniflərin sayı və s.) həcmi, təşkilatın fəaliyyət müddəti və maliyyə normaları təşkil edir. Əhalinin sosial müdafiəsi üzrə tədbirlərin (pensiya, müavinət və s.) planlaşdırılması zamanı bu vəsaitləri alanların sayı və ödənişlərin müəyyən edilmiş normaları nəzərə alınır.

Xərclərin və ödənişlərin planlaşdırılmasının normativ üsulu əsasən büdcə təşkilatlarının maliyyələhdirilməsi üçün onların smetasının tərtibi zamanı istifadə olunur. *Normalar* qanunvericilik aktları əsasında müəyyən olunur və aşağıdakı növlərə ayrılır:

– sosial tələblərin tə'min olunmasının natural göstəricilərinin pulla ifadəsindən ibarət olan maliyyə normaları (məsələn, büdcə təşkilatlarında əhalinin qida ilə, dərman vasitələri ilə, yumşaq inventarla tə'min olunması xərclərinin normaları);

– fərdi ödəniş normaları (məsələn, əmək haqqı dərəcəsi, müavinət, təqaüd və s. normaları);

– orta statistik göstəricilər əsasında əvvəlki bir neçə il, eyni zamanda konkret dövrdə cəmiyyətin maddi-maliyyə imkanları üzrə götürülmüş normaları (məsələn, binanın saxlanması, tədris xərcləri və s. normaları).

Normalar *mütləq* (hökumət və ya yerli icra orqanları tərəfindən tətbiq olunur) və ya *fakultativ* (nazirlik, baş idarələr tərəfindən tətbiq olunur) ola bilər.

downloaded from KitabYurdu.az

Büdcə normaları *fərdi* (ayrı-ayrı xərc növləri üzrə) və *birləşdirilmiş* (məcmu xərclər və ya təşkilat üzrə bütövlükdə) ola bilər.

Natural göstəricilər (xidmət edən işçilərin sayı və binanın ölçüsü və s.) və maliyyə normaları əsasında ***xərclərin büdcə smetası*** tərtib olunur və aşağıdakı kimi ola bilər:

– fərdi - ayrı-ayrı təşkilatlar və ya tədbirlər üçün tərtib olunur;

– ümumi – eyni tipli təşkilatlar və ya tədbirlər üçün tərtib olunur;

– mərkəzləşdirilmiş – mərkəzləşdirilmiş qaydada həyata keçirilən tədbirlərin maliyyələşdirilməsi üçün nazirlik və baş idarələr tərəfindən tərtib olunur (avadanlıqların alınması, tikinti, tə'mir işləri və s.);

– icmal – burada həm fərdi və həm də mərkəzləşdirilmiş tədbirlərin smetaları birləşdirilir, yə'ni bütövlükdə nazirlik və ya baş idarələrin icmal smetası tərtib olunur.

Büdcə təşkilatının smetasında aşağıdakılar əks olunur:

1. Təşkilatın rekvizitləri (onun adı, maliyyələşdirən büdcə, smetanı təsdiq edən şəxsin imzası, təşkilatın möhürü və s.);
2. İcmal xərclər (əmək haqqı fondu, əmək haqqına üstəlik, material xərcləri, istehsal və sosial inkişaf fondu, maddi həvəsləndirmə və digər fondlar);
3. İcmal gəlirlər (büdcədən maliyyələşdirmə, əhaliyə əlavə pullu xidmət, təşkilatlara müqavilə əsasında xidmət göstərilməsi, digər daxilolmalar);
4. Təşkilatların istehsal-xidmət göstəriciləri;
5. Xərclərin və gəlirlərin hesablanması və əsaslandırılması.

downloaded from KitabYurdu.az

Büdcə təşkilatlarının təsdiq olunmuş smetası onların saxlanması üçün büdcədən ayrılan vəsaitin illik məbləğini, rüblük bölgüsünü və məqsədli təyinatını göstərən plan maliyyə sənədidir.

Büdcə təşkilatlarının smetalarının tərtibi aşağıdakı məsələlərin həllinə imkan verir:

– büdcə təşkilatlarının dövlət maliyyələşdirilməsi ilə tə'min edilməsi;

– nəzərdə tutulan layihə xərclərinin təhlili və vəsaitlərinin istifadəsi haqqında hesabatlar;

– vəsaitlərin səmərəli və qənaətlə xərclənməsinə nəzarət.

Büdcə planlaşdırılmasının və büdcə təşkilatlarının maliyyə tə'minatının təkmilləşdirilməsinə dövlət və yerli büdcələrin minimal dövlət sosial standartları, sosial və maliyyə normalarına keçilməsi tə'sir etməlidir.

Büdcə prosesinin tərkib hissəsi olmaqla büdcə planlaşdırılması maliyyəçi alimlərin və təcrübəli mütəxəssislərin daim diqqət mərkəzindədir. Azərbaycan Respublikası Maliyyə Nazirliyi büdcə planlaşdırılmasının təkmilləşdirilməsi sahəsində daim iş aparır.

XVIII fəsil. MADDİ İSTEHSAL SAHƏLƏRİNİN İNKİŞAFINA BÜDCƏ XƏRCLƏRİ

18.1. Müəssisələrnin maliyyəsi və büdcə

Dövlət reyestrinin ümumi xarakteristikası göstərir ki, iqtisadiyyatın bütün sahələrində aparılan islahatlar ölkə ərazisində fəaliyyət göstərən təsərrüfat subyektlərinin say və tərkibinə tə'sir göstərmiş, islahatlarla əlaqədar olaraq yeni

downloaded from KitabYurdu.az

müəssisə və təşkilatlar yaranmış, dövlət mülkiyyətində olan müəssisələrin bir hissəsi xüsusi bölməyə keçmiş, bir hissəsi ləğv olmuş, onların strukturunda dəyişikliklər baş vermişdir. Bir sıra xırda müəssisələr birləşmiş, bir zaman sərbəst olan törəmə müəssisə baş bölmənin struktur bölməsinə çevrilmişdir. Nəticədə, 2000-ci ilin yanvar ayının 1-nə olmuş vəziyyətlə müqayisədə 2001-ci ilin yanvar ayının 1-nə Dövlət reyestrində olan müəssisələrin sayı ümumilikdə artmış, 55799 vahid olmuşdur (artım 3,8% olmuşdur). Dövlət müəssisələrinin sayı 12,7%, qeyri-dövlət müəssisələrinin sayı isə 0,7% artmışdır. Müəssisələrin ümumi sayında qeyri-dövlət müəssisələrinin xüsusi çəkisi 72,4% təşkil etmişdir. Burada əsas yeri, 93,2% xüsusi mülkiyyətli kiçik müəssisələr təşkil edir. Xarici mülkiyyətli müəssisələrdə artım 9,9% təşkil etmişdir.

Müəssisələrin sayı və strukturu haqqında mə'lumat aşağıdakı cədvəldə əks olunur:

Cədvəl 16. Müəssisələrin sayı və strukturu, ədəd[2]

Göstəricilər	***01.01. 1997***	***01.01. 1998***	***01.01. 1999***	***01.01. 2000***	***01.01. 2001***
Cəmi müəssisələrin sayı	**44295**	**49049**	**52338**	**53780**	**55799**
Dövlət müəssisələri	13571	13622	13678	13647	15385
Qeyri-dövlət müssi-sələri o cümlədən:	30724	35427	38660	40133	40414
Xüsusi mülkiyyətli kiçik müəssisələr	29629	33794	36426	37590	37658
Qarışıq mülkiyyətli müəssisələr	493	653	801	875	922
Xarici mülkiyyətli	602	989	1433	1668	1834

[2] Azərbaycanın statistik göstəriciləri, 2002

downloaded from KitabYurdu.az

müəssisələr					

Müəssisələrin artım tempi, ilk növbədə onun iqtisadi, o cümlədən maliyyə göstəricilərinin qənaətbəxş olması ilə izah olunur.

Müəssisələrnin maliyyəsi dövlətin maliyyə sisteminin mühüm bölməsi olmaqla maddi istehsal sahələrində cəmiyyətin ümumi daxili məhsulunun bölüşdürülməsi yolu ilə mərkəzləşdirilmiş pul vəsaitləri fonduna daxil olan və büdcə sisteminin gəlirinin əsas hissəsini tə'min edən ilkin pul yığımı yaranır.

Maddi istehsal sferasında olan müəssisələrin maliyyələşdirilməsi xüsusi vəsait (əsasən mənfəət və amortizasiya), cəlb edilmiş vəsait (banklardan və maliyyə bazarından), büdcə vəsaiti və büdcədənkənar fondlar hesabına həyata keçirilir.

Son illər müəssisələrin maliyyələşdirilməsi strukturunda xüsusi vəsaitlərin rolu artmış və büdcədən maliyyələşdirmə azalmışdır. Bazar iqtisadiyyatı şəraitində müəssisələrin maliyyəsi özünümaliyyələşməyə əsaslanır.

Gəlirlər və xərclər balansı – büdcə planlaşdırılmasının həcmini və mənbəyini müəyyən edən əsas sənəddir.

Müəssisənin gəlir və xərclər balansında onların pul formasında gəlirləri, xərcləri, əsas və digər fəaliyyət növləri üzrə maliyyə nəticələri, satışdankənar gəlirlər və xərclər üzrə büdcəyə ödənişlər və büdcə vəsaitləri əks olunur.

Müəssisənin gəlir və xərclər balansı iki hissədən ibarətdir:

1. Gəlirlər və daxilolmalar;
2. Xərclər və xaricolmalar (ayırmalar).

"Gəlirlər və daxilolmalar" bölməsində aşağıdakı göstəricilər əks olunur:

downloaded from KitabYurdu.az

- satışdan gəlir;
- əsaslı tikinti üzrə toplanan vəsait;
- tikintində pay iştirakı qaydasında daxil olan vəsait;
- uzunmüddətli kreditlər və borclar;
- digər daxilolmalar.

"Xərclər və xaricolmalar" bölməsində aşağıdakılar əks olunur:

- cari xərclər;
- geniş təkrar istehsala, sosial sahələrin saxlanmasına, elmi-tədqiqat işlərinə çəkilən xərclər;
- uzunmüddətli kreditlərin və borcların ödənilməsi və kreditlərə və borclara görə faizlər;
- digər xərclər.

Mövcud büdcə təsnifatına uyğun olaraq xərclərin tərkibinə maddi istehsal sahələrinə, mənzil-kommunal təsərrüfatına çəkilən xərclər, sənaye və tikinti xərcləri daxildir.

Son illər büdcə vəsaitlərinin çox hissəsi dövlət sektoruna, kapital qoyuluşunun maliyyələşdirilməsinə yönəldilir.

Maddi istehsal sahəsinə çəkilən xərclərdə büdcə maliyyələşdirilməsinin həcminin azalması aşağıdakı səbəblərə görə baş vermişdir:

1) təsərrüfat subyektlərinin öz partnyorları və dövlət qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə görə tam əmlak məs'uliyyətinin tətbiqi ilə əlaqədar olaraq, müəssisələrə dotasiyaların verilməsinin get-gedə dayandırılması;

2) mərkəzləşdirilmiş kapital qoyuluşunun azaldılması və müəssisələrin özəlləşdirilməsi ilə əlaqədar olaraq dövlətin istehsalat investisiyalarında iştirakının azaldılması;

downloaded from KitabYurdu.az

3) bir çox ərzaq və sənaye məhsullarında qiymətlərdəki fərqin ödənilməsinə çəkilən əvvəlki dotasiyanın dayandırılması;

4) büdcə vəsaitlərinin istifadəsinə nəzarətin gücləndirilməsi.

Bazar münasibətlərinə keçidlə əlaqədar olaraq büdcə vəsaitlərinin xərclənməsində köklü dəyişikliklər baş verdi. Büdcə vəsaiti daha iri və dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə yönəldilir:

– dünya bazarlarında rəqabətə tab gətirən məhsul istehsal edə bilən sənaye sahələrinin inkişafına yönəldilən tədbirlərin həyata keçirilməsinin maliyyələşdirilməsi;

– büdcə vəsaiti hesabına həyata keçirilən və eyni zamanda dövlət tə'minatı verilən yüksək səmərəli investisiya layihələrinin həyata keçirilməsinin maliyyələşdirilməsi;

– yarmıçıq qalmış obyektlərin layihə xərclərinin həyata keçirilməsi;

– aqrar sənaye kompleksinin sabitliyinin tə'min edilməsi məqsədilə, bazar mexanizmi bazasında onun işinə yardım edilməsi;

– istehsal və sosial-məişət infrastrukturunun təkmilləşdi-rilməsi üçün maliyyə imkanlarının yaradılması və s.

Son illər sənayenin və tikintinin maliyyələşdirilməsinə dövlət büdcəsi xərclərin xüsusi çəkisi azalmışdır. Bunu aşağıdakı cədvəldə görmək olar:

Cədvəl 17. Sənaye və tikinti xərclərinin maliyyələşdirilməsində dövlət büdcəsinin xüsusi çəkisi[1]

[1] Azərbaycanın statistik göstəriciləri, 2002.
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

Göstəricilər	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Dövlət büdcəsinin xərcləri – cəmi	**100**	**100**	**100**	**100**	**100**	**100**	**100**
Sənaye və tikinti xərcləri	0,5	0,4	0,3	0,4	0,3	0,4	1,3

Sənaye və tikinti xərclərinin maliyyələşdirilməsində büdcə vəsaitinin azalması sənaye məhsulu istehsalının azalması, ziyanla işləyən müəssisələrin artması və dövlət tərəfindən verilən dotasiyanın dayandırılmasından irəli gəlir.

İqtisadiyyatın real sektorunda yaranmış neqativ vəziyyəti aradan qaldırılması məqsədilə bu sahədə bir sıra dövlət proqramları həyata keçirilir. Buraya daxildir:

- müəssisələrdə vergi ödənişlərinin ümumi həcminin azaldılması;
- büdcəyə cari ödənişlərin ödənilməsi şərtilə müəssisə borclarının restrukturizasiyası;
- müəssisələrə öz məhsullarını maya dəyərindən aşağı qiymətə satılmasına icazə verilməsi;
- Azərbaycan ixracına yardım edilməsi.

İqtisadiyyatın baza sahələrinin böhran vəziyyətindən çıxarılması real investisiyaların, yə'ni kapital qoyuluşunun artırılması vasitəsilə mümkündür.

18.2. İstehsalın inkişafına büdcə xərcləri

«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

Real investisiyalar müəssisələrin dinamik inkişafını tə'min edir və aşağıdakı vəzifələri yerinə yetirməyə imkan verir:

1) maliyyə və maddi ehtiyatlar yığımı hesabına sahibkarlıq fəaliyyətinin genişləndirilməsi;

2) yeni müəssisələrin yaradılması;

3) yeni biznes sahələrinin mənimsənilməsi nəticəsində diversifikasiya.

İnvestisiya fəaliyyətinin subyektlərini investorlar, sifarişçilər, iş icraçıları, investisiya fəaliyyəti obyektlərinin istifadəçiləri təşkil edirlər.

İnvestorlar uzun müddətli investisiya qoyuluşu formasında xüsusi, borc və cəlb edilmiş vəsaitin məqsədli istifadəsini tə'min edirlər.

Sifarişçilər investorlar, həmçinin investora məxsus investisiya layihələrinin həyata keçirilməsinə səlahiyyəti çatan hər hansı fiziki və hüquqi şəxslər ola bilərlər. Əgər sifarişçi investor deyilsə, o müqavilə ilə müəyyən olunmuş investisiyalardan müəyyən dövr və səlahiyyət çərçivəsində istifadə və sərəncam vermək hüququna malikdir.

İvestisiya fəaliyyətinin ***istifadə obyektləri*** investorlar, həmçinin investisiya fəaliyyəti obyektləri yaradan hüquqi və fiziki şəxslər, dövlət və bələdiyyə orqanları, xarici dövlətlər və beynəlxalq təşkilatlar ola bilərlər.

Azərbaycan Respublikasında investisiya fəaliyyəti obyektləri aşağıdakılardır:

- iqtisadiyyatın bütün sahələrində yeni yaradılan və modernləşdirilmiş əsas fondlar;
- qiymətli kağızlar;
- elmi-texniki məhsul və mülkiyyətin digər obyektləri;
- əmlak hüququ və intellektual mülkiyyət hüququ.

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının dövlət investisiya siyasəti sahəsində iqtisadi islahatların keçirildiyi dövrdə ciddi dəyişikliklər baş vermişdir. Büdcədən əsaslı tikintiyə vəsaitin azaldılması ilə yanaşı müəssisələrin və digər mənbələr hesabına yaranan büdcədənkənar fondların bu sahələrə kapital qoyuluşu artmışdır.

Hazırda kapital qoyuluşu məqsədli proqramların maliyyələşdirilməsinə yönəldilir. Məqsədli proqramların həyata keçirilməsi nəticəsində təsərrüfatın mühüm sahələrinə maliyyə vəsaiti ayrılması imkanları da genişlənir.

Bir çox müəssisələrin maliyyə vəziyyətinin pisləşməsi, büdcə maliyyələşdirilməsinin kəskin azalması, yüksək faiz dərəcəsi şəraitində uzunmüddətli kreditlərin alınmasındakı çətinliklər, təsərrüfat fəaliyyətinin tənzimlənməsinin hüquqi bazasının yaradılması və digər faktlar investisiya aktivliyinə mənfi tə'sir göstərir.

İstehsal və qeyri-istehsal tə'yinatlı obyektlər üzrə kapital qoyuluşu aşağıdakı cədvəldə əks olunur:

Cədvəl 18. İstehsal və qeyri-istehsal tə'yinatlı obyektlər üzrə kapital qoyuluşu (faizlə)[1]

İllər	***Cəmi kapital qoyuluşu***	***O cümlədən obyektlər üzrə:***	
		İstehsal tə'yinatlı	***qeyri-istehsal tə'yinatlı***
1990	100	63,5	36,5
1995	100	54,7	45,3
1996	100	77,6	22,4

[1] Azərbaycanın statistik göstəriciləri, 2002

downloaded from KitabYurdu.az

1997	100	77,6	22,4
1998	100	83,7	16,3
1999	100	87,8	12,2
2000	100	81,8	18,2
2001	100	80,2	19,8

Cəmi kapital qoyuluşunda istehsal tə'yinatlı obyektlərə investisiya qoyuluşunun nisbəti qeyri-istehsal tə'yinatlı obyektlərə qoyulan investisiyalara nisbətən yüksəkdir.

Cədvəl 19. İqtisadiyyata investisiya qoyuluşu (milyon dollar)[2]

Göstəricilər	***1997***	***1998***	***1999***	***2000***	***2001***
Cəmi investisiyalar o cümlədən:	**1849**	**2044**	**1714**	**1654**	**1580**
Daxili investisiyalar	387	459	480	519	392
Xarici investisiyalar	1462	1585	1234	1135	1188
onlardan: birbaşa ivestisiyalar	1068	1085	691	588	813
Kreditlər və ssudalar	204	127	339	293	213
digər	1	3	2	2	1

[2] Orada

downloaded from KitabYurdu.az

investisiyalar	90	73	04	54	62

Ümumiyyətlə, investisiyaların artım tempi 1999-ci ildən e'tibarən aşağı düşür. Aşağı meyl özünü xüsusilə birbaşa investisiyalarda və qismən də xarici investisiyalarda göstərir.

Müasir dövrdə dövlətin investisiya strategiyasına aşağıdakı mərhələlər daxildir:

1) inflyasiyanın qarşısının alınması, müəssisələrin və əhalinin investisiya fəaliyyətinin stimullaşdırılması;

2) büdcə kəsirinin azaldılması, onun daxili mənbələr hesabına örtülməsi, daxili maliyyə vəsaitlərinə əsaslanıb istehsala investisiya qoyulması;

3) investorların və səhmdarların hüquq və maraqlarının tam qorunması. Bunun üçün təkcə qanunvericiliyin təkmilləşdirilməsini deyil, eyni zamanda müəssisələrin səmərəli idarə edilməsinin təşkilini həyata keçirmək lazımdır. Müəssisələrin bütün mülkiyyət növlərinin dövlət tərəfindən tənzimlənməsi;

4) özəl investisiyalar vasitəsilə investisiya prosesinin həyata keçirilməsi;

5) işləyən müəssisələrdə büdcə maliyyələşdirilməsinin məqsədli proqramlarla həyata keçirilməsi. Mərkəzləşdirilmiş investisiya qoyuluşunun yerləşdirilməsi hər bir investisiya proqramının iqtisadi səmərəliyinin ilkin ekspertizasının keçirilməsindən sonra, rəqabət əsasında həyata keçirilməsi zərurətini yaradır.

6) investisiya lahiyələrinin pay əsasında dövlət-kommersiya maliyyələşdirməsi, eyni zamanda layihələrin xarici investisiyaların cəlb edilməsi vasitəsilə həyata keçirilməsi.

İnvestisiya fəaliyyətinin dirçəldilməsi təkcə ayrı-ayrı müəssisələrin deyil, eyni zamanda dövlətin də problemidir. Bu problem hər dəfə növbəti büdcənin tərtibi zamanı

downloaded from KitabYurdu.az

meydana çıxır. Lakin, əsas çətinlik ölkənin daxili mənbələrinin məhdudluğundan və özəl investorların iqtisadi tənəzzül dövründə investisiyaların istehsal sahələrinə qoya bilməməsindən ibarətdir. İnflyasiyanın və vergilərin yüksək olması müəssisələri praktik olaraq daxili maliyyə mənbələrisiz qoymuşlar. Bank faizlərinin yüksək dərəcələri orta və uzunmüddətli kreditlərin alınmasında problemlər yaratmışdır.

Əsas kapitala birbaşa investisiyaların strukturunda, maliyyələşdirilmə mənbələrində bazar münasibətlərinin inkişafı ilə əlaqədar müəyyən dəyişikliklər baş vermişdir:

1) əgər 70-80-ci illərdə əsas maliyyələşmə mənbəyi büdcə vəsaiti idisə (50-60%), indiki zamanda onlar 20-25%-dək enmişdir;

2) vəsaitlərin alınması mənbələrində də dəyişikliklər baş vermişdir. Büdcə subyektlərindən ayrılan vəsaitin xüsusi çəkisi artmışdır;

3) mərkəzləşdirilmiş büdcədənkənar investisiya fondlarının, ayrılan investisiyaların ümumi həcmi artmışdır;

4) kommersiya banklarının iqtisadiyyatın real sektoruna kredit qoyuluşunun aktivliyi zəifləmişdir;

5) əhalinin vəsaitləri demək olar ki, investisiya sahəsinə cəlb edilmir.

XIX fəsil. QEYRİ-İSTEHSAL SAHƏLƏRİ XƏRCLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

Sosial infrastruktura. Müasir cəmiyyətdə əhalinin həyat tə'minatında qeyri-istehsal sahələri böyük rol oynayır. Təhsil, səhiyyə, mədəniyyət, incəsənət, sosial tə'minat və

downloaded from KitabYurdu.az

digər sahələrinin daxil olduğu sosial infrastruktura ölkənin təsərrüfat kompleksində mühüm yer tutur. 2002-ci ilin mə'lumatına görə Azərbaycanda sosial infrastruktura sahələrində çalışanlar ümumi sayı işçi əhalinin 20-22%-ni təşkil edir.

Sosial infrastrukturanın inkişafı maddi istehsalın inkişaf səviyyəsindən, burada yaradılan milli gəlirin həcmindən və onun istehsal və qeyri-istehsal sahələri arasında bölgüsündən asılıdır. İnfrastruktura məhsuldar qüvvələrə hərtərəfli tə'sir edir. İctimai əmək bölgüsü prosesinin gücləndiyi bir şəraitdə maddi istehsal sahələrinin sosial infrastrukturasız fəaliyyəti demək olar ki, mümkün deyil. Sosial infrastruktura müəssisə və təşkilatlarının təqdim etdiyi maddi və mə'nəvi sərvətlər əhalinin şəxsi tələbatını ödəməklə yanaşı, işçi qüvvəsinin təkrar istehsalı və istehsalın intensivləşdirilməsinin mühüm amilləridir. İnfrastruktur iqtisadi inkişafın sosial sür'ətləndiricisidir.

İstehsalın və ictimai əmək bölgüsünün miqyasının genişlənməsi, ETT-nin, istehsal münasibətlərinin inkişafı, istehlak strukturunun dəyişməsi və əhalinin sosial tələbatının artımı ilə müşaiyət olunan həyat tərzinin dəyişməsi nəticəsində infrastrukturanın mahiyyəti də dəyişir. İnfrastruktura sahələrinə sərf edilən canlı əmək ölkənin milli gəlirinin həcmini artırır. Sosial infrastruktura təşkilatlarının inkişafının zəruriliyi onunla izah edilir ki, mövcud infrastruktura hələ də əhalinin tələbatını tam ödəmir. Sosial infrastruktura sahələrinə sərf edilən maliyyə vəsaitlərinin həcminin artması tələb olunur.

Müasir şəraitdə sosial infrastrukturanın saxlanması və inkişafına aşağıdakı mənbələrdən maliyyə vəsaiti sərf edilir:

– büdcə vəsaiti;

downloaded from KitabYurdu.az

– büdcədənkənar fondlar;

– müəssisələrin və əhalinin vəsaiti.

İctimai istehlak fondları büdcənin, büdcədənkənar fondların və müəssisələrin sosial infrastrukturasına yönədilən vəsaitidir. Onların əsas tə'yinatı cəmiyyətin sosial inkişafı və əhalinin sosial müdafiəsi ilə bağlıdır. İctimai istehlak fondlarının vəsaitləri əhaliyə pensiyaların, müavinətlərin verilməsinə, təhsilin, səhiyyənin, sosial tə'minat xidmətlərinin həyata keçirilməsinə xidmət edir.

Cədvəl 20. Sosial sahələrə sərf edilən dövlət xərclərinin dinamikası[1]

Göstəricilər	*ÜDM-da xüsusi çəkisi, %-lə*						
	1997	***1998***	***1999***	***2000***	***2001***	***2002***	***2003***
Cəmi xrclər	**18,6**	**16,3**	**19,8**	**21,5**	**16,4**	**17,2**	**19,6**
Təhsil	3,6	3,6	4,8	5,2	3,8	3,7	3,7
Səhiyyə	1,2	1,0	1,1	1,3	0,9	0,9	0,9
Sosial müdafiə və sosial tə'minat	3,3	3,8	3,7	3,8	3,0	3,1	3,3
Mədəniyyət, incəsənət, kütləvi informasiya, idman	0,5	0,5	0,5	0,6	0,5	0,4	0,5
Mənzil-kommunal xidmətləri	0,6	0,4	0,4	0,5	0,3	0,3	0,4

Büdcə təxsisatları. İctimai istehlak fondlarının 2/3 hissəsini büdcə təxsisatları təşkil edir. Buna görə də bu

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

fondlar əhaliyə büdcə sistemi vasitəsilə aşağıdakı xərclərlə çatdırılır:

1. Sosial-mədəni tədbirlərə xərclər;
2. Mənzil-kommunal təsərrüfatı xərcləri.

Sosial-mədəni tədbirlərə və mənzil-kommunal təsərrüfatına büdcə təxsisatları əhalinin sosial-mədəni və mənzil-təsərrüfat xərcləri xidmətləri ilə minimum həcmdə maliyyə tə'minatının Konstitusiya hüquqlarıdır.

Bu hüquqlar Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı qaydada öz əksini tapmışdır:

1. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır (maddə 35).

2. Hər kəsin sosial tə'minat hüququ vardır. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial tə'minat hüququna malikdir. Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir (maddə 38).

3. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu tə'min edir. Maddi vəziyyətindən asılı olmayaraq iste'dadlı şəxslərin təhsili davam etdirilməsinə dövlət zəmanət verir (maddə 42).

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu yerli özünüidarəetməni həyata keçirmək üçün yerli dövlət tə'minatlarını müəyyənləşdirmişdir.

downloaded from KitabYurdu.az

Yerli sosial müdafiə proqramları bələdiyyələr tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial tə'minatından əlavə sosial tə'minatlar təyin edir. Həmin tə'minatlar mütəmadi və birdəfəlik ola bilərlər.

Yerli sosial müdafiə və sosial inkişaf proqramlarının məqsədi dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan məsələləri və yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanması və istifadə edilməsi, mənzil tikintisi, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, informasiya xidmətinin təşkili, KİV fəaliyyəti üçün şərait yaradılması və yerli infrastrukturun digər sahələrini əhatə edir.

Bu vəsaitlərin həcmi, tərkibi və strukturu, onların müxtəlif səviyyəli büdcələr arasında bölgüsü aşağıdakı cədvəldə öz əksini tapır:

Cədvəl 21. Dövlət və yerli büdcələrin sosial infrastruktura çəkdiyi xərcləri, 2002-cu il[1]

Xərclərin istiqamətləri	***Dövlət büdcəsinin xərcləri***	***Mərkəzləşdir ilmiş xərclər***	***Yerli xərclər***
Elm	100	97,2	2,8
Təhsil	100	14,6	85,4
Səhiyyə	100	23,9	76,1
Sosial tə'minat	100	90,1	9,9
Mədəniyyət, incəsənət, KİV, bədən tərbiyəsi, gənclər siyasəti və idman tədbirləri	100	58,8	41,2

[1] «Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanunu

downloaded from KitabYurdu.az

Mənzil-kommunal təsərrüfatı	100	3,4	96,6

Cədvəldən göründüyü kimi, orta hesabla sosial infrastrukturun inkişafına dövlət büdcəsinin çəkdiyi xərclər 48% (1999-cu ildə bu göstərici 50,4% olmuşdur), yerli büdcələrin çəkdiyi xərclər isə 52% iəşkil etmişdir. Yerli büdcələrin çəkdiyi xəlclər içərisində mənzil-kommunal təsərrüfatı xərcləri, təhsil, səhiyyə xərcləri üstünlük təşkil edir. Göründüyü kimi, bələdiyyələrin formalaşdığı bir dövrdə yerli büdcələrin sosial sahələrinin maliyyələşdirilməsində rolu artmaqdadır.

XX fəsil. ÜMUMDÖVLƏT XİDMƏTLƏRİ, MƏHKƏMƏ HAKİMİYYƏTİ, MÜDAFİƏ XƏRCLƏRİ, HÜQUQ-MÜHAFİZƏ, TƏHLÜKƏSİZLİK ORQANLARININ VƏ PROKURORLUĞUN SAXLANMASI XƏRCLƏRİ

Azərbaycan Respublikasında idarəetmə orqanları sistemi bütün səviyyələrdə hakimiyyət, qanunvericilik, icra, məhkəmə, prokurorluq və təhlükəsizlik orqanlarının məcmusunu təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq dövlət hakimiyyəti sistemi qanunvericilik, icra, məhkəmə hakimiyyətinin bölüşdürülməsi prinsiplərinə əsaslanır.

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir (maddə 81).

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur (maddə 99).

Yerli səviyyələrdə idarəetməni bələdiyyələr həyata keçirir. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə əsaslanır, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikasının Prezidentinin fərmanlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

Azərbaycan Respublikasında mövcud qanunvericiliyə əsasən dövlət və yerli idarəetmə aparatının saxlanmasına xərclər hər il, optimallıq prinsipinə əsasən dövlət büdcəsində təsdiqlənir.

«Azərbaycan Respubdikasının 2002-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respubdikası Qanununda dövlət idarəetmə xərcləri ümumi xərclərin 17,0%-ni təşkil edir. Bu xərclərin 89,6%-i mərkəzləşdirilmiş, 10,4%-i isə yerli büdcələr hesabına həyata keçirilir.

Ümumi dövlət xidməti xərclərinin ÜDM-da xüsusi çəkisi aşağıdakı cədvəldə əks olunur:

Cədvəl 22. Ümumi dövlət xidməti xərclərinin ÜDM-da xüsusi çəkisi, %-lə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Xərclər və xalis borclar	**17,6**	**18,6**	**16,3**	**19,8**	**21,5**	**16,4**	**17,2**	**19,6**
O cümlədən: Ümumi dövlət	1,0	1,3	1,2	1,5	1,8	2,2	2,9	3,1

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

xidməti xərcləri								

Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanması xərclərinə daxildir: Azərbaycan Respublikasının Milli Məclisi aparatının, Azərbaycan Respublikasının Prezidenti aparatının, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aparatının, Azərbaycan Respublikasının Nazirlər Kabineti aparatının, yerli bələdiyyə orqanlarırının, Azərbaycan Respublikasının nazirlikləri, Dövlət komitələri, baş idarələri və başqa icra orqanlarının mərkəzi aparatının, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti aparatının, yerli icra hakimiyyəti başçıları aparatının, Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinin saxlanması xərcləri.

Ümumdövlət xidmətləri xərclərinə həmçinin, beynəlxalq təşkilatlara üzvlük haqları, xarici dövlətlərə iqtisadi yardım xərcləri, elm xərcləri, başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri daxildir.

Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərclərinə daxildir: Azərbaycan Respublikasının Prezidentinin seçki, Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının yerli bələdiyyə orqanlarına seçkilərin keçirilməsi, Ümumxalq səsverməsi (referendumlar) keçirilməsi, xalq məhkəmələrinə seçkilərin keçirilməsi, respublikada əhalinin siyahıyaalınması ilə bağlı xərclər.

İdarəetmə aparatının saxlanması xərclərinin həcmi ştat siyahısı cədvəlləri və xərclər smetası əsasında müəyyən edilir.

Ştat cədvəlində vəzifələrin struktur bölmələr üzrə adı, hər vəzifə üzrə ştat vahidinin sayı, vəzifə maaşlarının sxemi,

downloaded from KitabYurdu.az

əmək haqqına əlavələr, vəzifə maaşları üzrə aylıq əmək haqqı fondu, hər bir vəzifədə maksimum və minimum əmək haqqı göstərilir.

İdarəetmə orqanlarının maliyyələşdirilməsi Azərbaycan Respublikasının «Dövlət büdcəsi haqqında» Qanunu, Azərbaycan Respublikasının dövlət büdcəsinin təsnifatı və büdcənin icrası prinsipləri əsasında həyata keçirilir.

Smeta üzrə təxsisatların həcmi büdcədə təsdiq olunmuş məbləğdən asılı ola bidməz. Büdcə vəsaiti yalnız məqsədli tə'yinatı üzrə və təyin edilmiş müddətdə istifadə edilməlidir.

Yerli idarəetmə orqanları üzrə xərclərin hesablanmasını müvafiq struktur bölmələri həyata keçirir. Zəruri təxsisatların həcmi təsdiq olunmuş tarif, norma və normativlər əsasında hesablanır. Xərclərin müəyyən edilməsi zamanı xərclər qrupuna birləşdirən fərdi və birləşdirilmiş normalar tətbiq oluna bilər. Xərclər iqtisadi və funksional təsnifat kodlarına uyğun olaraq həyata keçirilir.

İdarəetmə aparatının saxlanması xərclərinin tərkibinə əmək haqqı, əmək haqqına üstəlik, təsərrüfat, e'zamiyyət və digər ödənişlər daxildir.

İllik əmək haqqı fondu əmək haqqının orta aylıq məbləğini işçilərin orta illik sayına və 12 aya vurmaqla hesablanır.

Əmək haqqının orta dərəcəsi ştat cədvəli ilə təsdiq olunmuş vəzifə maaşları üzrə aylıq əmək haqqı fondunu ştat vahidinə bölməklə hesablanır.

Malların alınması və xidmətlərin haqqının ödənilməsi xərclərinə dəftərxana ləvazimatı, cari təsərrüfat məqsədləri üçün mal və materialların alınması, kommunal, rabitə,

downloaded from KitabYurdu.az

enerci və başqa kommunal xidmətləri haqqlarının ödənilməsi daxildir.

İşçilərin e'zamiyyət və xidməti səfər xərclərinə gediş haqqı, əmək haqqına müxtəlif əlavələr, e'zamiyyə hesabına ödənişlər (kirayə haqqı, gündəlik yemək xərci) və b. ödənişlər daxildir.

Nəqliyyat xidmətləri xərclərinə nəqliyyatın saxlanması, onun cari tə'miri, şəxsi minik avtomobillərindən istifadəyə görə kompensasiya ödənişləri daxildir.

Rabitə xidməti xərclərinə beynəlxalq və digər telefon danışıqları, telefakslar, poçt xidməti, internet xidməti və digər xidmət ödənişləri daxildir.

Kommunal xidmətləri xərclərinə binanın icarəsi, istilik, enerci, su təchizatı və digər xidmət ödənişləri daxildir.

Digər cari xərclərdə avadanlıq və inventarın cari tə'miri, işçilərin ixtisaslarının artırılması və digər xərclər nəzərdə tutulur.

İdarəedici orqanlara ayrılan büdcə təxsisatlarının xərclənməsinə nəzarəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Maliyyə Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Dövlət Xəzinədarlığı, Azərbaycan Respublikasının Hesablama Palatası, Vergilər Nazirliyi həyata keçirir.

Nəzarət orqanları nəzərdə tutulmuş məbləğdən artıq yol verilən xərcləri aşkar edir və bu xərclərin azaldılması haqqında müvafiq təkliflər verirlər. Ştat cədvəlinin tərtibi və təsdiqi qaydaları, idarəetmə aparatının saxlanmasına çəkilən bütün xərclərin və əmək haqqı dərəcələrinin yoxlanılmasına xüsusi diqqət yetirirlər.

Yoxlama nəticələrinə görə akt tərtib olunur və smeta-ştat intizamının pozulması halları qeyd edilir və onların aradan qaldırılması yolları göstərilir.

downloaded from KitabYurdu.az

Maliyyə orqanları nəzarət funksiyasından əlavə, idarəetmə orqanlarının saxlanılmasına çəkilən xərclərin səmərəli və düzgün istifadə edilməsi üçün tədbirlər həyata keçirirlər. Respublikanın idarəetmə sistemində 1995-ci ildən e'tibarən struktur dəyişikliklərinin həyata keçirilməsinə 586,9 mln. dollar həcmində xarici investisiya cəlb edilmişdir ki, bunun da 154 mln. dolları 1999-cu ilin payına düşür.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq məhkəmə hakimiyyətini ədalət məhkəməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

Məhkəmə hakimiyyətinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının İqtisad Məhkəməsi, Azərbaycan Respublikasının Ümumi Məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirirlər (maddə 125).

Məhkəmə hakimiyyətinin saxlanması xərclərinə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəmələrinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəmələrinin, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Hərbi Kolleksiyasının saxlanılması xərcləri daxildir.

«2003-cü il Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununda məhkəmə hakimiyyəti və prokurorluq orqanlarının saxlanmasına 94579,1 mln. manat vəsait ayrılması nəzərdə tutulmuşdur, onun 98%-i mərkəzləşdirilmiş xərclər hesabına həyata keçirilmişdir. Hüquq-mühafizə orqanlarının, məhkəmə və prokurorluğun saxlanması xərclərinin ÜDM-da xüsusi çəkisi aşağıdakı cədvəldə əks olunur:

downloaded from KitabYurdu.az

Cədvəl 23. Hüquq-mühafizə orqanlarının, məhkəmə və prokurorluğun saxlanması xərclərinin ÜDM-da xüsusi çəkisi, %-lə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Xərclər və xalis borclar	**17,6**	**18,6**	**16,3**	**19,8**	**21,5**	**16,4**	**17,2**	**19,6**
o cümlədən: Hüquq-mühafizə or-qanlarının, məhkə-mə və prokurorlğun saxlanması xərcləri	1,5	1,6	1,8	2,1	2,2	1,7	1,8	1,9

Müdafiə, hüquq-mühafizə fəaliyyəti və dövlətin təhlükəsizlik tə'minatı xərclərinin həyata keçirilməsi zərurəti Azərbaycanın müstəqil dövlətçiliyinin, ərazi bütövlüyünün, tarixi, mədəni və mə'nəvi dəyərlərinin saxlanmasını tə'min edən milli təhlükəsizliyinin yaradılmasından və möhkəmləndirilməsindən irəli gəlir.

Bu sistemdə əsas yeri ölkənin maliyyə-iqtisadi və maddi imkanlarından irəli gələn dövlətin siyasəti, hərbi doktrinası, Silahlı Qüvvələrin yaradılmasının uzunmüddətli planı bazasında tə'min olunan milli müdafiəsi tutur.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir.

Respublikamızın ərazisinin 20 faizinin Ermənistan tərfindən işğal edilməsi və ölkənin müharibə vəziyyətində olduğu bir vaxtda dövlətin hərbi qüdrətinin artırılması, ordunun maddi-texniki bazasının gücləndirilməsi olduqca zəruridir. Müdafiə sahəsində müasir hərbi texnikanı mənimsəyə bilən kadrların hazırlığına xüsusi diqqət yetirilir. Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi məqsədilə 2003-cü il üçün dövlət büdcəsindən 683399,6 mln. manat vəsait ayrılması nəzərdə tutulur ki, bu da ümumi büdcə xərclərinin 10,6%-ni təşkil etməlidir.

Müdafiə xərclərinin ÜDM-da xüsusi çəkisi aşağdakı cədvəldə əks olunur:

Cədvəl 24. Müdafiə xərclərinin ÜDM-da xüsusi çəkisi, %-lə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
Xərclər və xalis borclar	**17,6**	**18,6**	**16,3**	**19,8**	**21,5**	**16,4**	**17,2**	**19,6**
o cümlədən: Müdafiə xərcləri	2,2	2,2	2,3	2,6	2,7	2,2	2,0	2,1

Milli müdafiəyə xərclərinin planlaşdırılması prosesində hərbi islahatlar sahəsində aşağıdakı tədbirlər nəzərdə tutulur: Silahlı Qüvvələrin sayının yüksək ixtisaslı kadrlar hesabına komplektləşdirilməsi, onların strukturunun təkmilləşdirilməsi, hərbi qulluqçuların müasir

[1] Azərbaycanın statistik göstəriciləri, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

texnika və silahlarla tə'min edilməsi, müqavilə əsasında Silahlı Qüvvələrin komplektləşdirilməsinə keçid, hərbi xidmətdən tərxis olunmuş qulluqçuların maddi və sosial tə'minat sisteminin təkmilləşdirilməsi və s.

Müdafiə xərgləri – dövlət büdcəsi xərclərinin tərkib hissəsrdir. Buna görə də müdafiə xərclərinin bilavasitə dövlət xərclərinin vahid sisteminə daxil edilməsi, bu sahədə tələbatın iqtisadi cəhətdən səmərəliyini müəyyən edir.

Müdafiə xərcləri Müdafiə Nazirliyi, eyni zamanda Maliyyə Nazirliyi tərəfindən qəbul edilən, müəyyən beynəlxalq tələblərə cavab verən, dövlətin müdafiəsinin tə'min edilməsi ilə bağlı xərclərin qruplaşdırılmasından ibarətdir.

Müdafiə xərclərinin müəyyən edilməsi və icrası zamanı büdcə prosesinin xüsusiyyətini müəyyən edən aşağıdakı hallar nəzərə alınır:

– dövlətin müdafiəsini təmin edən tədbirlərin Azərbaycan Respublikasının qanunvericiliyi əsasında həyata keçirilməsi;

– hərbi texnika və silahların səviyyəsinin yuxarı həddi daxil edilməklə, istifadə olunan maddi ehtiyatların müəyyən edilməsi;

– hərbi təyinatlı məhsulların istehsalında müqavilə qiymətlərinin formalaşması xüsusiyyətlərin nəzərə alınması;

– həyata keçirilən maddi ehtiyat xərclərinin dəqiq uçotunun aparılması.

Müdafiə xərclərinin maliyyələşdirilməsi «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunur. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin

downloaded from KitabYurdu.az

tə'minatı dövlət büdcəsindən ayırmalar hesabına həyata keçirilir.

Müdafiə xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin funksional təsnifatına uyğun kodlara görə maliyyələşdirilir və aşağıdakı istiqamətlərə yönəldilirlər:

1. ***Hərbi ehtiyacların ödənilməsi və mülki müdafiə xərcləri.*** O cümlədən:

- Ordu və Donanmanın saxlanılması;
- silah və texnikanın alınması;
- Azərbaycan Respublikasının Könüllü Hərbi-Vətənpərvərlik Texniki İdman Cəmiyyətinin saxlanılması;
- Mülki Müdafiə tədbirləri;
- sair xərclər.

2. Müdafiə sahəsində elmi-tədqiqat və təcrübə-konstruktor işləri ilə bağlı xərclər.

3. Digər kateqoriyalara aid edilməyən xərclər.

Müdafiə, Məhkəmə hakimiyyəti və prokurorluq orqanlarının saxlanması xərcləri üzrə maddələr Milli Məclisin müvafiq komissiyasında müzakirə edilir, üç oxunuşda Milli Məclis tərəfindən təsdiq edilir və növbəti il üçün dövlət büdcəsinin xərclərinə daxil edilir.

Hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin funksional təsnifatına uyğun tərtib edilir və aşağıdakılardan ibarətdir:

- daxili işlər orqanları;
- daxili qoşunlar;
- milli təhlükəsizlik orqanları;
- sərhəd qoşunları xidməti;
- prokurorluq orqanları;
- mühafizə orqanları;

downloaded from KitabYurdu.az

– hüquq-mühafizə, təhlükəsizliyin tə'min edilməsi üzrə digər kateqoriyalara aid edilməyən fəaliyyətlə bağlı xərclər.

Bu xərclərin tərkibində müdafiə edilən maddələr üzrə xərclər də mövcuddur və büdcənin icrası zamanı aşağıdakılara üstünlük verilir:

– sosial və məcburi tibbi sığorta fonduna, pensiya fonduna, əhalinin məşğulluq fonduna ödənişlərin həyata keçirilməsi;

– tibbi xidmət xərcləri;

– ərzaq tə'minatı.

Müdafiə olunan xərc maddələri əsasən şəxsi hey'ətin tə'min edilməsi və aparatın saxlanması xərclərinə daxil edilirlər.

Hərbi hissənin strukturunda cari xərclərin planlaşdırılması aşağıdakı prinsiplərə əsaslanır:

1) xərclərin müdafiə olunun maddələri şəxsi hey'ətin sayı və pul tə'minatı, əmək haqqı, ərzaq xərcləri, kompensasiya və digər sosial ödənişlərin normalar üzrə ödənilməsinin əvvəlki ilin hesabat göstəriciləri nəzərə alınmaqla birbaşa hesablama üsulu ilə müəyyən edilir. Bununla belə hərbi qulluqçulara və onlara bərabər tutulmuş şəxslərə pul tə'minatının ödənilməsində mövcud vəzifə maaşları və hərbi rütbəyə görə ödənişlər nəzərə alınır;

2) ilin nəticələrinə görə birdəfəlik mükafatlandırma və digər müəyyən edilmiş ödənişlər - müəyyənləşdirilmiş həcmdə;

3) pul tə'minatının hesablanması hərbi qulluqçuların kateqoriyaları üzrə müəyyən edilir: zabitlər (zabit səviyyəsində), yuxarı səviyyəli idarəedici hey'ət, gizir, aşağı səviyyəli idarəedici hey'ət, əsgərlər, matroslar (kontraktçılar

downloaded from KitabYurdu.az

və çağırışçılar), kursantlar, hərbi təhsil ocaqlarındakı dinləyicilər;

4) ərzaq tə'minatına çəkilən xərclər nazirlik və idarələrin tərkibində xidmət edən hərbçilər və onlara bərabər tutulmuş şəxslərə bir gün üçün nəzərdə tutulmuş ərzaq payı həcmində vahid hesablama üsulu ilə müəyyən edilir.

Büdcə vəsaitini xərc maddələri arasında bölüşdürərkən əsas diqqəti hərbçilərin və hərbi hissənin təchizatı (silahlanma və s.) ilə əlaqədar xərclərə yönəltmək lazımdır.

Maliyyə planlaşdırılması zamanı döyüş hazırlığı və operativ fəaliyyət planı, əsaslı tikinti, maddə-texniki təchizat və məişət tə'minatı, ştat strukturu və şəxsi hey'ətin sayı, hərbiçilərin maddi (paltar, ərzaq) və pul tə'minatı normaları, hərbi əşyaların qiymətləri, Azərbaycan Respublikasının Prizidentinin, Azərbaycan Respublikası Hökumətinin, eyni zamanda Azərbaycan Respublikası Maliyyə Nazirliyinin əlavə sərəncamları nəzərə alınır.

Silahların və hərbi texnikanın alınmasına xərclər Silahlı Qüvvələrin müasir silah və hərbi texnika nümunələri ilə təchizatını tə'min edir ki, bu da hərbi hissələrin silahla komplektləşdirilməsinə və şəxsi hey'ətlə tə'minatına imkan verir.

Güc nazirlikləri və idarələrinin maliyyələşdirilməsi dövlət büdcəsinin təkcə «Müdafiə xərcləri», və «Məhkəmə hakimiyyəti və prokurorluq orqanlarının saxlanması xərcləri» bölmələri üzrə deyil, eyni zamanda «Sosial müdafiə» bölməsi üzrə də həyata keçirilir. Göstərilən strukturların maliyyə tə'minatında onların büdcədənkənar fəaliyyətinin, xüsusilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin təsərüffat hesablı müəssisə və təşkilatlarının fəaliyyətindən alınan gəlirin də rolu vardır.

downloaded from KitabYurdu.az

«Sosial müdafiə» bölməsi üzrə hərbi qulluqçuların pensiyaları və hərbi qulluqçuların, himayəsində uşaq olan mülki hey'ətin dövlət müavinəti planlaşdırılır.

Müvafiq nazirlik və orqanların plan ili üçün xərclər smetasının layihəsi əsaslandırılmış və hesablanmış formada, tə'yin olunmuş vaxtda Maliyyə Nazirliyinə göndərilir, orada mövcud qanunvericilik çərçivəsində onların düzgünlüyü, normalara, eyni zamanda ölkənin iqtisadi və maliyyə imkanlarına uyğunluğu yoxlanılır. Maliyyə Nazirliyi büdcənin gəlirlər və xərclər üzrə planına uyğun olaraq Müdafiə Nazirliyinin smetasını nəzərə alıb vəsaitlərin ayrılmasını planlaşdırır. Maliyyə Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birgə bu sahədə əlaqəli işləyirlər. Bə'zi hallarda hərbi büdcə lahiyəsi tərtibatı zamanı Müdafiə Nazirliyi ilə Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi arasında bir sıra göstəricilər üzrə (hərbi büdcə daxil olmaqla) fikir ayrılığı baş verir ki, bunu da Azərbaycan Respublikasının Nazirlər kabineti tənzimləyir.

Bütün maraqlı tərəflərlə razılaşdırılmış büdcə lahiyəsi dövlət büdcəsinin lahiyəsinin tərkibində təqdim olunur, baxılmaq və təsdiq edilmək üçün Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət daimi komissiyası vasitəsilə Milli Məclisin müzakirəsinə verilir.

Dövlət büdcəsinin bu istiqamətlərdə icrasının nəticələri hesabat dövrü üçün müvafiq nazirliklər tərəfindən hesabat formasında Maliyyə Nazirliyinə göndərilir. Maliyyə Nazirliyi hesabatın düzgünlüyünü təhlil edir, məqsədli istifadəsini yoxlayır. Hesabatlara görə nəticə tərtib olunur. Büdcə vəsaitindən istifadənin düzgünlüyünə ***nəzarəti*** hər bir hərbi hissədə, birləşmədə, təhsil müəssisəsində, hərbi dairədə fəaliyyət göstərən xüsusi maliyyə xidmətləri həyata keçirirlər. Azərbaycan Respublikasının Hesablama Palatası

downloaded from KitabYurdu.az

və Milli Məclisin İqtisadi siyasət daimi komissiyası bu sahədə ali nəzarəti həyata keçirir.

Büdcəsi vəsaitinin səmərəli istifadəsinin təmin edilməsi və maliyyə intizamına ciddi əməl olunması üzərində nəzarətin həyata keçirilməsində Azərbaycan Respublikası Maliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən Baş Dövlət Xəzinədarlığı xüsusi rol oynayır.

XXI fəsil. MƏNZİL-KOMMUNAL TƏSƏRRÜFATININ MALİYYƏLƏŞDİRİLMƏSİ

Müasir cəmiyyətdə insan fəaliyyəətinin əsas sahələrindən biri mənzil-kommunal təsərrüfatıdır (MKT). Şəhər insanların məskunlaşdığı əsas yaşayış yeri olmuşdur. 2001-ci ilin məlumatlarına əsasən əhalinin 50,8%-ni şəhər əhalisi, 49,2%-ni kənd əhalisi təşkil edir. Müasir şəhərlərdə insanlar kommunal təsərrüfatın müxtəlif xidmətlərindən istifadə edirlər.

Müasir istehsal da MKT-nın xidməti olmadan fəaliyyət göstərə bilməz. MKT işçilərə həyat şəraiti yaradır, sənaye və tikinti müəssisələrini qaz, su, istilik, elektrik enercisi ilə tə'min edir və bununla belə istehsal prosesində iştirak edir.

Əhalinin normal həyat fəaliyyətinin tə'min edilməsi üçün şəhərlərin abadlaşdırılmasının (yollar, işıqlandırma, yaşıllaşdırma, ərazinin təmizlənməsi, zibillərin tullanması) mühüm əhəmiyyəti vardır. MKT-nın xidmətləri – maddi istehsalın və işçi qüvvəsinin işlə tə'minatının əsas amilidir.

Ölkənin xalq təsərrüfatının mühüm hissəsi olmaqla MKT özünün fəaliyyəti və inkişafı üçün müəyyən həcmdə

downloaded from KitabYurdu.az

maliyyə vəsaiti tələb edir. Bu sahə büdcə ilə ikitərəfli münasibətdədir.

Mənzil-kommunal təsərrüfatına aşağıdakı alt sahələr daxildir:

– mənzil təsərrüfatı;
– su kəməri – kanalizasiya təsərrüfatı;
– istilik-enerci təsərrüfatı;
– yaşıllaşdırma;
– yaşayış yerlərinin abadlaşdırılması.

MKT-nın saxlanması və inkişafı ilə bağlı xərclərin maliyyələşdirilməsi mənbələri aşağıdakılardır:

– büdcə vəsaitləri;
– öz xidmət və məhsullarının satışı nəticəsində əldə edilən vəsait;
– mənzil-kommunal obyektlərinin saxlanması ilə əlaqədar müəssisələrin vəsaitləri.

1991-ci ilədək mənzil sahəsinin təxminən 60%-i, qaz kəmərlərinin 30%-dən çoxu, su-kanalizasiya müəssisələrinin gücünün 30%-i baş idarə tabeçiliyində idi. Müəssisələrin mənzil təsərrüfatının maliyyələşdirilməsinə ayrıldığı vəsaitin xüsusi çəkisi 75%-dən çox, kommunal təsərrüfatında 25%-ə qədər idi. Bazar münasibətlərinə keçidlə əlaqədar olaraq müəssisələr maliyyə vəsaitlərinin çatışmamazlığı nəticəsində mənzil-kommunal obyektlərindən imtina edib onları yerli icra orqanlarının səlahiyyətlərinə verdilər, yə'ni bu obyektlər büdcədən maliyyələşdirilməyə başlanıldı.

İslahatlara qədər MKT-ın maliyyələşdirilməsinə yönəldilən vəsaitlərin demək olar ki, hamısı dövlət büdcəsindən həyata keçirildi.

Hazırda MKT-na sərf edilən vəsaitin 5-10%-i mərkəzləşdirilmiş xərclər, 90-95%-i yerli xərclər hesabına formalaşır. Yerli xərclərdə MKT-ın saxlanmasına sərf

downloaded from KitabYurdu.az

edilən xərclər 6-7%-dən çox təşkil edir. Bu o deməkdir ki, MKT-ın xərcləri əsasən göstərdikləri xidmət və satdıqları məhsul hesabına formalaşır.

MKT-ın ayrı-ayrı sahələrinin maliyyələşdirilməsində büdcə vəsaitlərinin rolu müxtəlifdir. Yol təsərrüfatının, yaşıllaşdırmanın, yaşayış yerlərinin işıqlandırılması və təmizlənməsi büdcə vəsaitləri hesabına həyata keçirilir.

MKT müəssisələrinin fəaliyyətinin təhlili göstərir ki, bir sıra amillərin tə'siri nəticəsində (xammalın, materialın, yanacağın, əsas vəsaitlərin, əmək haqqının və b.) onların xidmətlərinin maya dəyəri daim artırdı. Xərclərinin artım tempi əmək məhsuldarlığının artım tempindən irəlidə idi. Tariflərin sabitliyi şəraitində bu rentabelliyin azalmasına, ziyanla və dotasiya hesabına işləməsinə gətirib çıxarırdı.

MKT-ın xidmətləri əhalinin həyatının əsas elementlərindən biridir. Əgər bu xidmətlərdə tariflər artırırlarsa, istehlak xərcləri də artmış olacaq. Bu artım ya əmək haqqının artırılması, ya da mərkəzləşdirilmiş büdcə vəsaiti hesabına ödənilməlidir. Bazar münasibətləri şəraitində bu üsulun tətbiqi mümkündür.

MKT-na dotasiyanın ayrılması müəssisələrdə onların canlı və maddiləşmiş əməyinə sərf edilən xərclər kimi, işçilərdə isə işçi qüvvəsinin bərpası kimi baxmaq olar. Bununla belə qeyd etmək lazımdır ki, istehsalın və bir sıra satılacaq məhsulların dotasiyalaşdırılması kommersiya fəaliyyətinə neqativ tə'sir edir, təsərrüfatçılığın intensiv metodunun güclənməsinə, maddi və maliyyə ehtiyatlarından daha səmərəli və qənaətlə istifadəyə marağın artırılmasına imkan yaratmır.

MKT-nın iqtisadiyyatında başlıca vəzifə bu sahədə vəsaitlərin səmərəli istifadə edilməsi yolu ilə istismar

downloaded from KitabYurdu.az

xərclərinin artım tempinin aşağı düşməsinə şərait yaratmaqdan ibarətdir.

Mənzil fondunun saxlanmasına xərclərin artım tempinin aşağı salınması müəyyən dərəcədə onun istismarının yaxşılaşdırılmasından ibarətdir. Mənzil tikintisinin həcminin genişləndirilməsi, binaların texniki tə'minatı, göstərilən xidmətlərin keyfiyyətinə tələbatın artması ona gətirib çıxarır ki, mənzil fondunun istismarının mövcud təşkilati sistemi bu sahədə kommersiya hesabının inkişafını tormozlayır və kifayət qədər iqtisadi itki verir.

Mənzil təsərrüfatının istismar sisteminin təkmilləşdirilməsinin, istismar xərclərinin səviyyəsinin aşağı salınmasının yolları aşağıdakılardır:

- istehsal prosesinin mexanikləşdirilməsi və avtomatlaşdırılması;
- binadaxili mühəndis qurğularının və binaların tə'mirinin həyata keçirilməsi məqsədilə yüksək texniki səvyyəli ixtisaslaşdırılmış təşkilatların yaradılması;
- bu sahəyə ayrılmış maddi və maliyyə vəsaitlərinin cəmlənməsi;
- əmək haqqı sisteminin təkmilləşdirilməsi;

Mənzil fondunun saxlanmasına ayrılan vəsaitin çox hissəsi cari tə'mirin həyata keçirilməsinə sərf edilir. Cari tə'mirə ayrılan maddi və maliyyə vəsaitləri binaların texniki vəziyyətinin sabit saxlanılmasına imkan verir.

Mənzil təsərrüfatının maliyyə vəziyyətinin yaxşılaşdırılması həmin sahələrin gəlirlərindən asılıdır. Mənzil təsərrüfatının gəlir mənbələri isə aşağıdakılardır:

- mənzil haqqı;
- icarə haqqı;
- icəradarlardan istismar xərclərinə yığım;
- digər gəlirlər.

downloaded from KitabYurdu.az

Gəlirlərin əsas mənbəyini mənzil haqqı və icarə haqqı təşkil edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında dövlət və ictimai mənzil fondu evlərində yaşayış sahəsindən istifadə haqqı (mənzil haqqı) və mənzil-kommunal xidmətlərinə görə tariflərin təsdiq edilməsi haqında» Qərarına əsasən mənzil (ev) xidmətinin tarifləri aşağıdakı tariflə təsdiq edilmişdir:

- tam kommunal tə'minatlı mənzillər üzrə mənzil haqqı 1 kv.m. yaşayış sahəsi üçün ayda 100 manat;
- qismən kommunal tə'minatlı, yarımzirzəmi və kommunal tipli mənzillər üzrə mənzil haqı 1kv.m. yaşayış sahəsi üçün ayda 50 manat;
- özəlləşdirilmiş mənzillərin mülkiyyətçilərinə mənzillərin yerləşdiyi evlərin (binaların) saxlanılması üçün xidmət haqqı 75 manat.

Əhali üçün kommunal xidməti tarifləri aşağıdakı qaydada təsdiq edilmişdir:

- layihələrlə qaz təchizatı nəzərdə tutulmuş hündür mərtəbəli binaların sakinləri üçün elektrik enercisindən istifadəyə görə 1 kvt. saat əhali üçün müəyyən edilmiş tariflərin 50 faizi məbləğində;
- istifadə edilmiş hər kvt.saat üçün 96 manat;
- adambaşına istifadə edilən qazın hər kub m. görə 35 manat;
- məişət tullantılarının daşınması və zərərsizləş-dirilməsinə görə adambaşına 1 aya 700 manat;
- yaşayış binalarında liftdən istifadəyə görə 1 ayda 1000 manat;
- məhəllədaxili fərdi qaraclar üzrə 1 kv.m ümumi sahə üçün 1 ayda 50 manat;

downloaded from KitabYurdu.az

- sudan istifadəyə görə adambaşına ayda 12 kub m. olmaqla 185 manat, yə'ni ƏDV ilə 2620 manat müəyyən edilmişdir.

Yaşayış yerlərinin su ilə tə'min edilməsi və çirkab suların təmizlənməsi problemi şəhərin, xüsusilə sıx yaşayış yerlərinin və sənaye rayonlarının inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Su ilə tə'minat, çirkab sularının təmizlənməsi yaşayış rayonlarının abadlaşdırılması nöqteyi nəzərindən zəruridir, çünki gələcəkdə sənayenin inkişafı və ətraf mühitin mühafizəsi bunsuz mümkün deyil. Su mənbəyinin olması və su ilə tə'minat vasitələrinin mövcudluğu sənaye istehsalına və onunla bağlı mənzil-kommunal təsərrüfatının inkişafına şərait yaradır. Mərkəzləşdirilmiş su tə'minatı təkcə suyun keyfiyyətinə nəzarəti deyil, eyni zamanda suyun insan sağlamlığına zəruri olan mikroelementlərlə zənginləşdirilməsini həyata keçirir. Su kəmərinin yeniləşdirilməsi və təmizlənmə qurğularının tikilməsi ətraf mühitin ekoloci tarazlığını, ölkənin su ehtiyatının qoruyur.

Azərbaycan Respublikası Statistik Komitəsinin 2000-ci il məlumatına əsasən şəhərlər su kəməri ilə 95,7%, şəhər tipli qəsəbələr 85,6%, kənd yaşayış məntəqələri 11,5%, kanalizasiya ilə şəhərlər 49,3%, şəhər tipli qəsəbələr 31,8%, qazla şəhərlər 100%, şəhər tipli qəsəbələr 70,5%, kənd yaşayış məntəqələri 0,4% tə'min olunmuşdur.

2001-ci ilin yanvarın 1-ə olan məlumata əsasən respublikanın 22 şəhər və şəhər tipli qəsəbələrinin, hər 10 kənd yaşayış məntəqəsinin 9-nun əhalisi mərkəzləşdirilmiş su təhcizatı sistemi ilə təmin edilməmişdir.

Çirkab sularının mərkəzləşdirilmiş qaydada axıdılması vəziyyəti yaxşı deyil. Hazırda şəhərlərin yarıdan bir qədər çoxunun (51%), şəhər tipli qəsəbələrin isə 2/3

downloaded from KitabYurdu.az

hissəsindən çoxunun (68%) kanalizasiya sistemi isə yoxdur («Azərbaycanın statistik göstəriciləri», 2001).

Mənzil tikintisinin, yaşayış və ictimai binaların, şəhərlərin abadlıq səviyyəsinin yüksəldilməsi, sənayenin inkişafı və onun su təchizatı ilə tə'min olunması su-kanalizasiya sisteminin yenidən qurulmasını tələb edir. Bunlar həmin təsərrüfatda gəlirlərin yüksəldilməsinə səbəb ola bilər.

Azərbaycan Respublikasında mənzil fondunun müasir vəziyyəti 25-ci cədvəldə əks olunur.

2000-ci ildə dövlət və ictimai mənzil fondunun əsaslı təmiri üçün 16,7 mlrd. manat xərclənmiş, 230,8 min m^2 ümumi sahəsi tə'mir edilmişdir. 2001-ci ilin əvvəlində mənzil fondunun ümumi sahəsinin 727,0 min m^2-i, yaxud 0,7%-i köhnə və qəza vəziyyətində olan mənzilləridir. 2000-ci ilin noyabr ayında baş vermiş zəlzələ nəticəsində qəza vəziyyətində olan binaların sayı artmışdır. Binaların bərpası ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti vəsait ayrılması barədə sərəncam vermişdir və bərpa işləri davam etdirilməkdədir.

Cədvəl 25. Mənzil fondu (ilin sonuna, min m^2 ümumi mənzil sahəsi)

Göstəricilər	***1995***	***1996***	***1997***	***1998***	***1999***	***2000***
Ümumi mənzil fondu	90,4	90,6	92,2	94,2	94,7	97,1
o cümlədən vətəndaşların	63,9	66,6	70,1	73,7	75,1	78,4
şəhər mənzil fondu	53,2	53,2	53,7	53,8	54,2	55,0
O cümlədən: vətəndaşların	27,8	27,8	32,6	34,2	35,3	36,8
kənd mənzil fondu	37,2	37,4	38,5	40,4	40,5	42,1

downloaded from KitabYurdu.az

O cümlədən: vətəndaşların	36,1	36,3	37,5	39,5	39,8	41,6

Su kommunikasiyasının yenidən təşkili, çirkab sularının təmizlənməsi, onların texniki səviyyəsinin yüksəldilməsi və dünya standartlarına çatdırılması yüksək ixtisaslı işçilərin olmasını tələb edir. Bütün bunlar kapital qoyuluşunun, amortizasiya ayırmalarının, əmək haqqı artırılması ilə müşaiyət olunmalıdır. Təbii ki, burada iş və xidmətlərin maya dəyərinin yüksəldilməsinə səbəb olacaqdır.

İş və xidmətlərin maya dəyərinin yüksək olduğunu nəzərə alıb, maya dəyərinin aşağı düşməsinə tə'sir edən amillərin aşkar edilməsi zərurəti meydana gəlir. Buraya ilk növbədə, qeyri-səmərəli xərclərin azaldılması, istehsalçıların, suyun itkisinin qrşısının alınması üçün sayğaclarla tə'min olunması, su-kanalizasiya sistemində enerciyə qənaət, mexanikləşdirmə və avtomatlaşdırma sisteminin tətbiq edilməsi və digər amillər daxildir.

Su-kanalizasiya təsərrüfatının inkişafına xeyli kapital qoyuluşu cəlb olunur. Buna görə onların istifadəsinin səmərəliyi aktual xarakter daşıyır. Əsas fondların strukturunuda aktiv hissənin səviyyəsi yüksəkdir, belə ki, əsas hissəni uzun müddət istismarda olan uzunmüddətli tikililər təşkil edir. Bu sahədə amortizasiya normasının orta səviyyəsi digər sahələrə nisbətən aşağıdır, lakin məhsulun maya dəyərində amortizasiyanın xüsusi çəkisi yüksəkdir. Buna görə də bu sahədə xərclərin artım səviyyəsinin aşağı salınmasını mövcud əsas fondlardan səmərəli istifadədə axtarmaq lazımdır.

Su kəmərlərinin texniki cəhətdən köhnə olması, onların uzun müddətli istismarı və istehlakçıların suya israfçılıq münasibəti su itkisinə səbəb olur. İsrafçılığın və

downloaded from KitabYurdu.az

mə'suliyyətsizliyin nəticəsi olaraq hər bir fərdi istehlakçıya su sərfi ayda 12 kub m. başa gəlir.

Su kəmərlərinin köhnə olması və onların konstruksiyasının təkmil olmaması nəticəsində su itkisinin aşağı salınmasında əsas rolu su qurğularının və avadanlıqlarının texniki nəzarəti, profilaktik tə'mirini həyta keçirilməsi, qəza xidmətinin təkmilləşdirilməsi, su norması sərfinə nəzarət oynaya bilər.

Su təsərrüfatında xərclərin artım tempinin aşağı düşməsinə tə'sir edən texniki xarakterli tədbirlərdən başqa, *iri müəssisələrin tikilməsi və kiçiklərinin birləşdirilməsi* xüsusi əhəmiyyət kəsb edir. İri tikililərlə kiçiklərə nisbətdə daha çox əmək məhsuldarlığına nail olmaq mümkündür. Məsələn, iri su təsərrüfatında bir işçiyə düşən məhsuldarlıq kiçik təsərrüfatındakından 20 dəfədən çox olur, 1 kub m. suyun məhsuldarlığı xeyli aşağı olur. Bununla yanaşı təsərrüfatın birləşdirilməsi və iriləşdirilməsi su ehtiyatlarından istifadəni yaxşılaşdırır, verilən suyun sanitar keyfiyyətinə nəzarəti gücləndirir.

Su-kanalizasiya təsərrüfatının vəziyyətinin təhlili və inkişaf perspektivləri göstərir ki, gələcəkdə suyun məntəqələrə çatdırılması, çirkab sularının daha uzaq məsafələrə daşınması və onların təmizlənsməsi səviyyəsinin artırılması nəticəsində sabit tariflər və istismar xərcləri çərçivəsində xərclərin artım tempi gəlirlərin artım tempini üstələyəcəkdir. Bu gələcəkdə su-kanalizasiya təsərrüfatında mənfəətin artım tempinin aşağı düşməsinə gətirib çıxara bilər.

Şəhərlərdə bu təsərrüfatın iqtisadi göstəricilərinin yaxşılaşdırılması məsələləri aktual xarakter daşıyır. Texniki təhcizat və istehsalın təşkili ilə yanaşı *tariflər probleminin* xüsusi əhəmiyyəti vardır.

downloaded from KitabYurdu.az

Maya dəyərinin artım tempinin tariflərin artım tempini üstələməsi su-kanalizasiya təsərrüfatı müəssisələrinin rentabelliyini aşağı salır. Bu şəraitdə tariflərin tənzimlənməsi üzrə işlərin aparılması zərurəti yaranır. Tətbiq edilmiş tariflər su-kanalizasiya təsərrüfatının bütün xərclərini ödəməli, yüksək nəticələrin əldə edilməsi üçün maraqları artırmalı, sənaye, nəqliyyat, tikinti və digər müəssisələrin su ehtiyatlarından daha səmərəli və qənaətlə istifadə edilməsi yolunda işləri fəallaşdırmalıdır.

XXII fəsil. TƏHSİL XƏRCLƏRİ

Azərbaycan Respublikasının təhsil sistemi məktəbəqədər müəssisələrdən başlayaraq diplomdan sonrakı təhsil də daxil olmaqla, çox geniş sahəni əhatə edən fasiləsiz (ardıcıl) fəaliyyət göstərən bir sistemdir.

Təhsil sisteminə məktəbəqədər tərbiyə müəssisələri, ümumtəhsil məktəbləri, məktəbdənkənar müəssisələr, peşə təhsili müəssisələri, orta ixtisas və ali təhsil müəssisələri, ixtisasartırma institutları, həmçinin qeyd edilən müəssisələrə müxtəlif səpgidə köməklik göstərən və onlara rəhbərlik edən idarə, müəssisə və təşkilatlar daxildir.

Respublikamızda 2000/2001-ci tədris ilində fəaliyyət göstərən 1790 məktəbəqədər müəssisədə 111,0 min nəfər uşağın tərbiyəsi ilə 32 min işçi, 16 min pedaqoci işçi məşğul olmuşdur.

Azərbaycan təhsil sistemində ümumtəhsil məktəblərinin xüsusi yeri vardır. Ümumtəhsil məktəbləri geniş şəbəkəyə malikdir. 2000/2001-ci tədris ilində respublikada fəaliyyət göstərən 4548 ümumtəhsil

downloaded from KitabYurdu.az

məktəbində təhsil alan 1654 min nəfər şagirdin tə'lim-tərbiyəsi ilə 165 min nəfər müəllim məşğul olub.

Ümumtəhsil məktəbləri ilə yanaşı, respublikada peşə təhsili müəssisələri də fəaliyyət göstərir. 2000/2001-ci tədris ilində 119 peşə təhsili müəssisəsində 25 min nəfər gənc müxtəlif peşələr üzrə təhsillərini davam etdirmişlər. Peşə məktəbləri və peşə liseylərində gənclərin tə'lim-tərbiyəsi ilə 3,5 minə yaxın mühəndis-pedaqoci işçi məşğul olmuşdur.

2000/2001-ci tədris ilində respublikamızda 68 dövlət, 3 qeyri-dövlət (özəl) orta itxtisas məktəbi fəaliyyət göstərmişdir. Dövlət orta ixtisas məktəblərində 41,2 min nəfər tələbənin tə'lim-tərbiyəsi ilə 5316 nəfər pedaqoci işçi məşğul olub.

Ali təhsil müəssisələri respublikamızın həyatında mühüm əhəmiyyət kəsb edir. 2000/2001-ci tədris ilində respublikada 25 dövlət, 17 qeyri-dövlət (özəl) ali təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Ali təhsil müəssisələrində 119,7 min nəfərdən çox tələbə təhsil almış, həmin tələbələrin təhsili ilə 13,3 min nəfərədək professor-müəllim hey'əti məşğul olmuşdur.

22.1. Təhsil üzrə büdcə xərclərinin sosial mahiyyəti

Müstəqil dövlət quruculuğu şəraitində müstəqil təhsil siyasəti yeridilməsinə, sovet təhsil sisteminin stereotiplərindən uzaqlaşaraq ölkəmizin yeni müstəqil təhsil sisteminə keçməsinə və bu məqsədlə yeni təhsil konsepsiyasının hazırlanmasına böyük ehtiyac vardır.

Təhsil qeyri-istehsal sferasının ən mühüm sahələrindən biridir. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində nəzərdə tutulduğu kimi,

downloaded from KitabYurdu.az

hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Hazırkı dövrdə özəl təhsil sisteminin yaranması ilə əlaqədar, kadrların, yeni istiqamətlər üzrə mütəxəssislərin hazırlanması, tədris prosesinin daim təkmilləşdirilməsi sahəsində irəliləyişlər baş vermişdir.

Dövlət təhsil sisteminin əsas hissəsi dövlət büdcəsindən, büdcə təsnifatına uyğun olaraq maliyyələşdirilir. Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin funksional təsnifatına uyğun olaraq təhsil xərclərinə məktəbəqədər uşaq tərbiyə müəssisələri; məktəb-uşaq bağçaları, ibtidai, əsas və orta təhsil məktəbləri, gimnaziyalar, litseylər; axşam və qiyabi orta ümumtəhsil məktəbləri; internat məktəbləri; xüsusi recimli internat məktəbləri; xüsusi məktəblər; texniki-peşə məktəbləri və litseyləri; xüsusi texniki peşə məktəbləri və litseyləri; orta ixtisas təhsili müəssisələri; ali təhsil müəssisələri; ixtisasartırma institutları; kadr hazırlığı üzrə sair tədris müəssisələri; metodiki iş, texniki təbliğat tədbirləri; uşaq evləri; ümumi icbari təhsil fondu; mərkəzləşdirilmiş mühasibatlıqların saxlanması; mərkəzləşdirilmiş təsərrüfat xərcləri daxildir.

Təhsilin maliyyələşdirilməsinə 2003-cü ildə dövlət büdcəsindən 1216,0 mlrd. manat pul vəsaiti ayrılması nəzərdə tutulmuşdur ki, bunun da 85,4%-i yerli büdcələr, 14,6%-i isə mərkəzləşdirilmiş büdcə hesabına maliyyələşdirilir. Təhsilin maliyyələşdirilməsində yerli büdcələrin xüsusi çəkisinin yüksək olması ümumtəhsil məktəblərinin əsas hissəsinin yerli dövlət hakimiyyəti orqanlarının tabeçiliyində olması ilə əlaqələndirilir.

Təhsil müəssisələrinin maliyyələşdirilməsi haqq-hesab vahidləri üzrə təyin edilən xərc normaları həyata keçirilir. Xərc normaları Dövlət normativləri Nazirlər Kabineti

downloaded from KitabYurdu.az

tərəfindən Maliyyə Nazirliyinin təqdimatı əsasında təsdiq edilir.

Təhsil müəssisələrinin bir qisminin müxtəlif mülkiyyət formalarına keçməsi ilə əlaqədar olaraq bu sahənin maliyyələşdirilməsi üçün əlavə vəsait cəlb edilməsi imkanını genişləndirmişdir. Özəl təhsil müəssisələri mövcud qanunvericilik çərçivəsində əlavə ödənişli təhsil haqqı, hüquqi və fiziki şəxslər tərəfindən məqsədli ödənişlər, müxtəlif ianələr cəlb edə bilərlər. Təhsil sisteminə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsi onların normativlərindəki stabilliyə tə'sir etmir, büdcədən maliyyələşdirilən hissə müəyyən düzəlişlərə mə'ruz qalır.

Əhaliyə *əlavə ödənişli xidmətlərə* aiddir:

- əlavə təhsil proqramları üzrə təhsil;
- xüsusi kursların və fənlərin tədrisi;
- repetitorluq;
- ayrı-ayrı fənlərin əsaslı öyrədilməsi və s.

Göstərilən əlavə xidmətlərdən alınan gəlirlər Nizamnamə əsasında fəaliyyətin genişləndirilməsinə, eyni zamanda əmək haqqının artırılmasına yönəldilir.

Özəl təhsil müəssisələri təhsil haqqını dövlət standartları çərçivəsində göstərdiyi təhsil xidmətlərinə görə alırlar. Belə müəssisələrdəki pullu xidmət həmin müəssisənin sahibkarlıq fəaliyyəti ilə məşğul olması demək deyil, belə ki, əldə olunan gəlir tam olaraq təhsil prosesinə, eyni zamanda əmək haqqının verilməsinə, tədris prosesinin inkişifana və təhsil müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə sərf edilir.

Təhsil müəssisələri sərbəst olaraq öz maliyyə-təsərrüfat fəaliyyətini həyata keçirirlər. Cari ildə istifadə edilməyən maliyyə vəsaiti təhsil müəssisəsinin sərəncamında qalır və növbəti maliyyə ilində sərf edilir.

downloaded from KitabYurdu.az

22.2. Ümumtəhsil məktəblərinin saxlanması xərclərinin maliyyələşdirilməsi

«Təhsil qanunu»na uyğun olaraq ümumi orta təhsil üç pillədən ibarətdir:

- ibtidai (I-IV siniflər);
- əsas (V-IX siniflər);
- orta (X-XI siniflər).

Birinci pillədə uşaq şəxsiyyətinin təşəkkülü, onun bacarıq və qabiliyyətinin aşkara çıxarılması və məqsədyönlü inkişafı tə'min olunur.

İkinci pillədə şagird şəxsiyyətinin inkişafı, onun mənlik və əxlaqi şüurunun, hüquqi düşüncəsinin, qabilliyyət və iste'dadının, elmlərin əsaslarının öyrədilməsi və dünyagörüşünün formalaşdırılması tə'min edilir.

Üçüncü pillədə dövlət təhsil standartları gözlənilməklə tə'limin diferensiallaşdırılması əsasında ümumtəhsil hazırlığının başa çatdırılması tə'min edilir.

Məktəbin *maliyyə vəsaiti* normativ əsasında müəyyən edilən büdcə və büdcədənkənar vəsait hesabına yaranır. Dövlət və cəmiyyət tə'lim-tərbiyə prosesinin səmərəliyini artırmaq üçün təhsilin maliyyələşdirilməsini tə'min edir. Məktəbin maliyyələşdirilməsi bir şagirdə çəkilən faktiki xərclərin ardıcıl artması prinsipinə əsaslanaraq, dövlət normativləri əsasında həyata keçirilir.

Məktəbin fondu aşağıdakı əsas mənbələrdən yaranır:

- məktəb üçün yerli büdcədən ayrılan vəsait;
- nazirliklərin, baş idarələrin, baza müəssisələrinin, dövlət idarələrinin, ictimai təşkilatların, birliklərin və s. məqsədli qoyuluşları;

downloaded from KitabYurdu.az

- valideynlərin, xeyriyyə cəmiyyətlərinin, tə'sisçilərin və s. könüllü verdiyi vəsait;

- məktəbin təsərrüfatından, şagirdlərin əmək haqqı istisna olmaqla, məktəbyanı sahəsindən əldə edilən və s. vəsaitlər.

Məktəblər tədrisə zərər yetirməmək şərtilə pullu xidmət göstərməklə gəlir əldə etmək hüququna malikdirlər.

Ümumtəhsil məktəblərinin saxlanması xərcləri təhsilə çəkilən xərclərin əsas hissəsini təşkil edir.

Ümumtəhsil məktəblərinə çəkilən xərclər aşağıdakılardır:

- cari xərclər;
- avadanlıq və inventarın alınması;
- əsaslı tə'mir;
- yeni binaların alınması.

Cari xərclərə pedaqoci işçilərin, inzibati və köməkçi hey'ətin əmək haqqı, tədris, dəftərxana və təsərrüfat xərcləri, e'zamiyyət, xidməti səfərlər xərcləri və s. daxildir.

Məktəblərin saxlanmasına çəkilən cari xərclər iki əsas göstərici əsasında hesablanır:

1) şagirdlərin sayı;
2) sıxlıq norması əsasında təyin edilən siniflərin sayı.

1. Məktəbə çəkilən xərclər planlaşdırılarkən ilk növbədə şagirdlərin kontingenti, sonra siniflərin miqdarı, pedaqoci dərəcələr, tə'mir işlərinin həcmi və digər göstəricilər müəyyən edilir.

Tədris ili təqvim ilinə müvafiq gəlmir, il ərzində şagirdlərin və siniflərin sayı dəyişilir. Büdcədən maliyyələşməni düzgün aparmaq üçün şagirdlərin və siniflərin orta illik sayını hesablamaq lazımdır. Şagirdlərin orta illik sayını hesablamaq üçün tədris ilində buraxılışı və

downloaded from KitabYurdu.az

yeni qəbulu nəzərə almaqla 1 sentyabr və 1 yanvar vəziyyətinə şagirdlərin sayını müəyyən etmək lazımdır.

Birinci sinfə qəbul sentyabrın 1-nə məktəb yaşı çatmış (6 yaş) uşaqların sayına əsasən, beşinci sinfə isə ibtidai təhsili bitirmiş şagirdlərin sayına görə planlaşdırılır. Onuncu sinfə qəbul əsas təhsil bazasında yaranmış orta texniki-peşə məktəbləri və digər tədris məktəblərinə şagird qəbulu nəzərə alınmaqla, doqquzuncu sinfi bitirmiş şagirdlərin sayı əsasında planlaşdırılır. Başqa siniflərə görə şagird kontingenti bir sinifdən digər sinfə keçirilmiş və sinifdə qalmış şagirdlərin sayı əsasında müəyyən edilir.

Siniflərin miqdarı sinif qrupları üzrə, yəni I-IV, V-IX, X-XI siniflər üzrə müəyyən olunur. Siniflərin sayı həm sinif qrupu üzrə şagirdlərin mövcud kontingenti və qanunvericiliklə hər sinif üçün təyin edilmiş sıxlıq norması əsasında hesablanır. Hal-hazırda I-IX siniflərdə şagirdlərin sıxlıq norması 30 nəfərədək, X-XI siniflərdə sayı isə 25 nəfərədək nəzərdə tutulmuşdur. Lakin, məktəblərimizdə bu həddə gözlənilmir, hətta ibtidai siniflərdə şagirdlərin sayı 40 nəfərə yaxın olur.

Məktəblərin, siniflərin və şagirdlərin sayı adətən 1 yanvar və 1 sentyabr tarixinə görə müəyyən olunur. Şagirdlərin və siniflərin 1 yanvar tarixinə sayı, cari ilin sonunadək dəyişmə ehtimalı nəzərə alınmaqla son hesab dövrünün faktiki vəziyyətinə əsasən müəyyən edilir. Bununla əlaqədar olaraq, orta illik göstəricilərin hesablanması zərurəti yaranır.

Şagirdlərin və siniflərin orta illik sayı aşağıdakı formula ilə hesablanır:

$$K_{or} = \frac{K_1 \cdot A_1 + K_2 \cdot A_2}{12}$$

downloaded from KitabYurdu.az

burada, $К_{or}$ – orta illik kontingentin sayı;

$К_1$ – plan ilinin əvvəlinə mövcud olan kontingentin (siniflərin) sayı;

$К_2$ – artma və ya azalmanı nəzərə almaqla dəyişmiş yeni (ilin axırına) kontingentin (sinifin) sayı;

$А_1$ və $А_2$ müvafiq kontingentin (siniflərin) büdcə ilində fəaliyyət göstərdikləri ayların sayı.

Məsələn, məktəbdə plan ilinin 1 yanvar vəziyyətinə şagirdlərin sayı 1000 nəfər, 1 sentyabr vəziyyətinə isə şagirdlərin sayı 1300 nəfərdir. Onda şagirdlərin orta illik sayı:

$$K_{or} = \frac{1000 \cdot 8 + 1300 \cdot 4}{12} = 1100 \text{ nəfər olar.}$$

Bunu aşağıdakı formula ilə də hesablamaq olar:

$$K_{or} = K_1 + \frac{1}{3}(K_2 - K_1) = 1000 + \frac{1300 - 1000}{3} = 1100 \text{ nəfər.}$$

Siniflərin orta illik sayına əsasən məktəbin saxlanmasına bütün cari xərclər müəyyən edilir.

Xərclərin tərkibində *əmək haqqı* xərcləri üstünlük təşkil edir.

Əmək haqqı fondunun planlaşdırılması zamanı şəhər məktəblərinin müəyyən xüsusiyyətlərini nəzərə almaq lazımdır. Belə ki, şəhər məktəblərində müəllimlərə əmək haqqı ayda iki dəfə ödənildiyinə görə dekabr ayının ikinci yarısı üçün əmək haqqı növbəti büdcə ilinin yanvar ayında verilir. Buna görə də yeni tədris ilində məktəb işçiləri əmək haqqını 3,5 aya görə, ilin əvvəlindən sentyabrın 1-dək isə 8,5

downloaded from KitabYurdu.az

aya görə alırlar. Bu halda hər büdcə ili üçün əmək haqqı fondu aşağıdakı formula üzrə hesablanır:

$$K_{or} = \frac{K_1 \cdot 8.5 + K_2 \cdot 3.5}{12} \text{ və ya}$$

$$K_{or} = K_1 + 29.2\%(K_2 - K_1)$$

burada 29,2% - 3,5 ayın 12 aya nisbətidir.
Bizim misalda şagirdlərin orta illik sayı

$$K_{or} = \frac{(1000 \cdot 8.5) + (1300 \cdot 3.5)}{12} = 1088 \text{ və ya}$$

$$K_{or} = 1000 + 29.2\%(1300 - 1000) = 1088$$

Məktəb üzrə əmək haqqı fonduna daxildir:
- dərslərə görə müəllimlərə əmək haqqı;
- dəftərlərin yoxlanması üçün haqq;
- inzibati idarə və tədris-köməkçi hey'ətinin əmək haqqı;
- müəllimlərin əmək haqqına əlavələr.

Ümumtəhsil məktəblərinin direktorları, onların müavinləri əsas iş üzrə müvafiq qayda əsasında tam vəzifə maaşı almaqla yanaşı, işlədikləri təhsil müəssisələrində ixtisaslarına uyğun olaraq dərs ilinin əvvəlində taarifləşmə siyahısına salınmaqla həftədə 12 saata (ildə 480 saata) qədər dərs apara bilərlər.

Ümumtəhsil məktəblərinin direktorlarının vəzifə maaşları təhsil alan şagirdlərin sayından asılı olaraq müəyyən edilir.

downloaded from KitabYurdu.az

İbtidai məktəblərdə direktor vəzifəsi siniflərin sayı 5, şagirdlərin sayı isə 100 nəfərdən çox olduqda təyin edilir. İbtidai məktəbdə şagirdlərin sayı 100 nəfərdən az olduqda məktəbə rəhbərlik həvalə edilən müəllimə stavka üzrə əmək haqqının 20%-i miqdarında əlavə haqq ödənilir.

Şagirdlərin sayı	**Vəzifə maaşının ödəniş dərəcəsi**
Ali təhsilli, 5 il pedaqoci stacı olan:	
Şagirdlərin sayı 100 nəfərədək olduqda	13
Şagirdlərin sayı 101-dən 300 nəfərədək olduqda	14
Şagirdlərin sayı 301-dən 800 nəfərədək olduqda	15
Şagirdlərin sayı 801 nəfərədən çox olduqda	16

Məktəb direktorunun tə'lim-tərbiyə işləri üzrə müavininin vəzifə maaşı direktorun vəzifə maaşından 10% aşağı, digər müavinlərin vəzifə maaşı direktorun vəzifə maaşından 15% aşağı müəyyən edilir. Təsərrüfat işləri üzrə direktor müavininin vəzifə maaşı isə direktorun vəzifə maaşından 20% aşağı müəyyənləşdirilir.

Qüvvədə olan qanunvericiliyə əsasən ümumtəhsil məktəblərində müəllimlərin bir stavka üzrə həftəlik dərs yükü 12 saat (ildə 480 saat) müəyyənləşdirilir.

Ümumtəhsil məktəblərində müəllimlərin ixtisas üzrə faktiki tədris etdikləri dərs saatlarının əmək haqqı tam ödənilir. Yə'ni zəruri ehtiyac yarandıqda artıq dərs yükü verilə bilər.

Bütün tipdən olan ümumtəhsil məktəblərində işləyən müəllimlərin əmək haqqı və pedaqoci stacı əsasən aşağıdakı kimi müəyyənləşdirilir:

Təhsil və pedaqoci stac	**Vəzifə maaşının ödəniş dərəcəsi**

downloaded from KitabYurdu.az

Ali təhsilli müəllimlər:	
3 ilə qədər pedaqoci stacı olan	10
3 ildən 8 ilədək stacı olan	11
8 ildən 13 ilədək stacı olan	12
13 ildən 18 ilədək stacı olan	13
18 ildən çox stacı olan	14
Orta ixtisas təhsilli müəllimlər:	
3 ilə qədər pedaqoci stacı olan	8
3 ildən 5 ilədək stacı olan	9
5 ildən 10 ilədək stacı olan	10
10 ildən 15 ilədək stacı olan	11
15 ildən çox stacı olan	12

Ümumtəhsil müəssisələrində işləyən müəllimlərin ödəniş dərəcələri üzrə vəzifə maaşları aşağıdakı kimi müəyyən edilmişdir:

– ali kateqoriyalı müəllimlər üçün 15-ci dərəcə – 133088 manat;
– I kateqoriyalı müəllimlər üçün 14-cü dərəcə – 119438 manat;
– II kateqoriyalı müəllimlər üçün 13-cü dərəcə – 108063 manat;

Müəllim kateqoriyası üçün, stacından asılı olaraq:

– 12-ci dərəcə – 97825 manat;
– 11-ci dərəcə – 87588 manat;
– 10-cu dərəcə – 78488 manat.

Orta ixtisas təhsilli müəllimlər üçün:

– 9-cu dərəcə – 70525 manat;
– 8-ci dərəcə – 63700 manat.

Ümumtəhsil məktəblərində hər il sentyabr ayının 1-i vəziyyətinə müəllimlərin tarifləşmə siyahısı tərtib edilir. Tarifləşmə siyahısında müəllimin soyadı, tutduğu vəzifəsi, təhsili, hansı məktəbi bitirməsi, diplomun nömrəsi, verilmə

downloaded from KitabYurdu.az

tarixi, hansı dərsi aparması, hansı sinifdə dərs deməsi, aylıq əmək haqqı stavkası, dəftər yoxlama haqqı, aldığı əlavə aylıq əmək haqqı məbləği göstərilir. Tarifləşmə siyahısı əsasında sinif qrupları üzrə aylıq əmək haqqı məbləği 1 sentyabr və 1 yanvar vəziyyətinə müəyyən edilmiş pedoqoci stavkaların sayına bölünməklə orta aylıq əmək haqqı məbləği müəyyən edilir.

Sinif qrupları üzrə orta aylıq əmək haqqı məbləği pedoqoci stavkaların orta sayına vurulur, alınan nəticə 8-ə (8,5-ə) və 4-ə (3,5-ə) vurulmaqla cəmlənir və orta illik əmək haqqı müəyyən edilir.

Ümumtəhsil məktəblərində çalışan pedaqoci işçilər əsas vəzifələri ilə yanaşı əlavə işlər də yerinə yetirirlər. Buna görə onlara əlavə haqq ödənilir.

Ümumtəhsil məktəblərinin I-IV siniflərinə rəhbərlik edən müəllimə həmin müəllimin bir stavka üzrə aylıq əmək haqqının 15%-i miqdarında əlavə haqq ödənilir. Yuxarı siniflərə, yəni V-XI siniflərə rəhbərlik həvalə edilən müəllimə bir stavka üzrə aylıq əmək haqqının 20%-i miqdarında əlavə haqq ödənilir.

Bütün tipdən olan ümumtəhsil məktəblərinin I-IV sinif müəllimlərinə *yazı işlərinəgörə dəftər yoxlanması üçün* bir stavkanın 10%-i miqdarında haqq ödənilir. Bu haqq dərs yükünün həcmindən asılı olmayaraq əsas müəllimə verilir. Sinifdə şagirdlərin sayı 10 nəfərdən az olduqda yazı işlərinin yoxlanması üçün nəzərdə tutulan məbləğin 50%-i ödənilir.

Ümumtəhsil məktəblərinin V-XI siniflərində ana dili və ədəbiyyat üzrə yazı işlərinin yoxlanması üçün müvafiq müəllim stavkası məbləğinin 15%-i, riyaziyyat, xarici dil və stenoqrafiya üzrə isə 10%-i miqdarında əlavə haqq ödənilir.

Tədris kabinetinin müdirinə stavka və ya vəzifə maaşının 10%-i miqdarında əlavə haqq ödənilir.

downloaded from KitabYurdu.az

İbtidai məktəbdə şagirdlərin sayı 100 nəfərə qədər olduqda məktəbə rəhbərlik həvalə edilən müəllimə stavkanın 20%-i miqdarında əlavə haqq ödənilir.

7-8 illik uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində şagirdlərin sayı 50-yə qədər olduqda məktəbə rəhbərlik edən müəllimə stavkanın 15 %-i miqdarında əlavə haqq ödənilir. Həmin məktəblərdə şagirdlərin sayı 150-200 olduqda tədris hissə müdirinə 20% miqdarında əlavə haqq ödənilir.

Xərclərin strukturunda tədris xərcləri mühüm yer tutur. Buraya tədris işlərinə, kabinetlərə alınan vəsaitlər, yazı, dəftərxana ləvazimatı, xırda idman inventarı, tədris məqsədilə aparılan ekskursiya və digər məqsədlərə çəkilən xərclər daxildir. Kitabxana fondunun yaradılması, yeniləşdirilməsi və kitablarla tə'min olunmasına vəsait ayrılır.

Məktəbin smetasında *avadanlıqların, inventarların alınması və əsaslı tə'mir xərcləri* də nəzərdə tutulur. Planlaşdırılan il üçün məktəblərin avadanlıq və inventara tələbatı məktəbin tədris ilinin əvvəlinə tə'minatı və bir məktəbə və ya bir şagirdə düşən normaya uyğun olaraq, plan dövründə onun yeniləşdirilməsinin zəruriliyi nəzərə alınmaqla müəyyən edilir.

İcmal planlaşdırılma zamanı əsaslı tə'mirə çəkilən xərclər məktəbin ümumi xarici görünüşünün kubaturasına düşən norma üzrə hesablanır. Bu məqsədlərə ayrılan vəsait hesabına məktəbdə rekonstruksiya işləri aparıla bilər, məktəbi genişləndirmək, sinif otaqlarını yenidən qurmaq mümkündür.

Yeni məktəblərin tikintisi müvafiq yerli orqanların büdcələrinə ayrılan vəsait hesabına həyata keçirilir.

downloaded from KitabYurdu.az

Ümumtəhsil məktəblərinin xərclərinə həmçinin, *təsərrüfat xidmətlərinə çəkilən xərclər və e'zamiyyət xərcləri* daxildir.

Təsərrüfat xidmətlərinə çəkilən xərclər qüvvədə olan normalara uyğun həyata keçirilir. Buraya istilik, işıqlandırma, kommunal xidmətləri və s. təsərrüfat xərcləri daxildir. İcmal planlaşdırma zamanı təsərrüfat xərcləri siniflərin orta illik miqdarına əsasən müəyyən edilir.

Xərc maddələri üzrə hesablamalar əsasında ümumtəhsil məktəblərinin smetası tərtib olunur, bu smetalar əsasında isə yerli büdcələrin layihələrinə daxil etmək məqsədilə ümumtəhsil məktəblərinin saxlanması üzrə icmal xərc smetası tərtib olunur.

22.3. Məktəb-internat və məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin xərclərinin maliyyələşdirilməsi

Məktəb-internatlara ailədə tərbiyə olunması üçün lazımi şəraiti olmayan və ya valideyn himayəsindən məhrum olan uşaqlar qəbul olunurlar.

Məktəb-internat xərclərinin maliyyələşdirilməsinin bir sıra xüsusiyyətləri vardır:

1. Məktəb-internatların saxlanması xərclərinin hesablanması üçün əsas göstərici kimi şagirdlərin sayı, siniflərin sayı və pedaqoci maaş dərəcələri əsas götürülür.
2. Məktəb-internat müəllimlərinin əmək haqqı fondu ümumtəhsil məktəblərində olduğu kimi planlaşdırılır, hər bir sinif qrupuna düşən tərbiyəçi ştatı əlavə olaraq nəzərdə tutulur.
3. İnzibati-təsərrüfat hey'ətinin əmək haqqı fondu ştat vahidlərinin sayı əsasında hesablanır. Lakin, ümumtəhsil

downloaded from KitabYurdu.az

məktəblərindən fərqli olaraq tibb işçilərinin, aşpazların, gecə dayələrinin və s. vəzifələri də nəzərdə tutulur.

4. Məktəb-internatın saxlanılmasına çəkilən xərclər adətən bir şagirdə görə hesablanır.

5. Şagirdlərin orta illik sayı ümumtəhsil məktəblərində olduğu kimi hesablanır.

6. Dəftərxana və təsərrüfat xərcləri, avadanlıq və inventarların alınmasına, əsaslı tə'mirə çəkilən xərclər ümumtəhsil məktəblərində olduğu kimidir.

7. Məktəb-internatda oxuyan şagirdlər yumşaq inventarla və geyimlə tə'min olunma xərcləri də nəzərdə tutulur.

8. Bu məqsədlərə sərf edilən xərclər, bu tədris müəssisəsində qalmaq müddətindən asılı olaraq bir nəfər şagirdə düşən xərc norması üzrə hesablanır. Yemək xərcləri bir gündə bir nəfər şagirdə düşən yemək norması, internatda tərbiyə alanların orta illik sayı və onların məktəb-internatda qalma günlərinin sayı əsasında hesablanır.

9. Tədris və digər xərclər bir il ərzində bir nəfər şagirdə duşən xərc norması üzrə müəyyən edilir.

10. Məktəb-internatlarda uşaqların saxlanılması xərcləri budcədən maliyyələşdirilir.

11. Məktəb-internatlardakı sair xərclər planlaşdırılarkən, onların tərkibinə tərbiyə alanların ehtiyac xərcləri, gediş haqları, həmçinin onların arasında mədəni-kütləvi işlərin aparılması xərcləri daxil edilir.

12. İcmal planlaşdırılmada ümumi orta təhsil məktəblərindən fərqli olaraq (burada xərclər hər bir sinif üzrə hesablanır) məktəb-internatda xərclər bir nəfər tərbiyə alana çəkilən orta xərc üzrə müəyyən olunur.

downloaded from KitabYurdu.az

İnternat məktəblərinin direktorlarının vəzifə maaşları, müəllimlərin əmək haqqı, əlavə ödənişlər ümumtəhsil məktəblərində olduğu kimidir.

Məktəbəqədər uşaq müəssisələrinə uşaq bağçaları və körpələr evi daxildir.

Məktəbəqədər uşaq müəssisələri tərbiyə olunan uşaqların tərkibinə görə ümumi və xüsusi tipli olur. Xüsusi tipli məktəbəqədər uşaq müəssisələrində əqli və ya fiziki inkişafında qüsuru olan, uzunmüddətli müalicəyə ehtiyacı olan uşaqlar tərbiyə olunur.

Məktəbəqədər uşaq müəssisələri təhsil orqanları, müəssisələr, təsərrüfat təşkilatları tərəfindən yaradıla bilər. Tabeçiliyindən asılı olmayaraq, onlara metodiki rəhbərliyi təhsil orqanları həyata keçirirlər. Daha çox geniş yayılmış uşaq bağçalarının iş recimi 9-11 saatdır, xüsusi qruplarda iş recimi 12-24 saat ola bilər.

Məktəbəqədər uşaq müəssisələrinin maliyyələşdirilməsinin müəyyən xüsusiyyətləri vardır:

1. Uşaq bağçalarının saxlanmasına çəkilən xərclər uşaqların orta illik sayından, qrupların sayından və bir uşağın uşaq müəssisəsində qalma müddətindən asılıdır. Planlaşdırılma üçün əsas göstərici uşaqların uşaq bağçasındakı orta illik sayıdır.

2. Uşaq bağçalarında xərclərin hesablanması üçün uşaqlarıın ilin əvvəlinə sayını və orta illik kontingenti müəyyən etmək lazımdır. Bu kontingent uşaqların (qrupların) ilin əvvəlinə sayı və plan dövründə onun dəyişməsi əsasında müəyyən edilir.

3. Əmək haqqı xərcləri təsdiq edilmiş ştat cədvəlinə əsasən və vəzifə maaşlarının ödəniş dərəcəsi əsasında planlaşdırılır. Ştat vahidi qrupun sayı və uşaqların bağçada qalma günlərinin sayı əsasında müəyyən edilir.

downloaded from KitabYurdu.az

Məktəbəqədər uşaq müəssisələri və uşaq evlərinin müdirlərinin vəzifə maaşları qrupların və ya uşaqların sayından asılı olaraq müəyyən edilir: ümumtipli məktəbəqədər uşaq müəssisələrində qrupların sayı 1-4 olduqda 12-ci, 5-8 olduqda 13-cü, 9 və daha çox olduqda 14-cü dərəcə ilə; xüsusi tə'yinatlı məktəbəqədər uşaq müəssisələrində qrupların sayı 1-3 olduqda 13-cü, 4-6 olduqda 14-cü, qrupların sayı 7-8 olduqda 15-ci, 9 və daha çox olduqda 16-cı dərəcə ilə. Uşaq evinin müdiri (direktoru) uşaqların sayından asılı olaraq 13-16-cı dərəcəli vəzifə maaşı ilə təsdiq edilir.

Uşaq evi müdirinin tə'lim-tərbiyə işi üzrə müavininin vəzifə maaşı müdirin vəzifə maaşından 10% aşağı, təsərrüfat işləri üzrə müavinin vəzifə maaşı isə 20% aşağı təyin edilir.

4. Müəllimlərin və tərbiyəçilərin stavka üzrə vəzifə maaşları onların təhsili, pedaqoci iş stacı və vəzifə maaşının dərəcəsindən asılıdır.

Bütün tipdən olan məktəbəqədər uşaq tərbiyə müəssisələrində və uşaq evlərində işləyən baş tərbiyəçi, tərbiyəçi və musiqi rəhbərlərinin stavka üzrə vəzifə maaşları ali ixtiasas təhsilli baş tərbiyəçi üçün, stacından asılı olaraq 13-14-cü, ali təhsilli tərbiyəçi 10-14-cü, orta ixtisas təhsilli tərbiyəçi 9-13-cü, ali təhsilli musiqi müəllimi 9-13-cü, orta ixtisas təhsilli musiqi rəhbəri 8-11-ci dərəcə ilə müəyyən edilir.

Məktəbəqədər uşaq müəssisələrinin müdirləri tutduqlrı vəzifə ilə yanaşı 0,5 ştat tərbiyəçi vəzifəsini də yerinə yetirib müvafiq qaydalar əsasında əmək haqqı ala bilərlər. Bundan əlavə, müdir təhsil müəssisəsində ixtisasına uyğun olaraq tədris ili ərzində əmək haqqı saathesabı ödənilməklə 240 saata qədər dərs tədris edə bilər.

downloaded from KitabYurdu.az

5. Ərzaq xərcləri uşağın bağçada qalma müddəti əsas götürülməklə, bir gündə bir uşağa düşən pul norması əsasında müəyyən edilir.

6. Dəftərxana və təsərrüfat xərcləri ümumtəhsil məktəblərində olduğu kimi, binanın kubaturasından asılı olaraq müəyyən edilir.

7. Uşaq bağçalarında həmçinin tədris və digər xərclər nəzərdə tutulur: oyuncaqların, tədris vəsaitlərinin, uşaqlarla məşğul olmaq üçün materialların alınması, uşaq bayramlarının və s. keçirilməsi xərcləri. Bu xərclər hər uşağa ildə norma üzrə planlaşdırılır.

8. Avadanlığın, yumşaq inventarın alınması xərcləri ilin əvvəlinə, mövcud norma üzrə müəyyən edilir.

9. Məktəbəqədər müəssisələrdə valideynlərin ödədiyi haqq xərclərin müəyyən, cüz'i hissəsini təşkil edir.

10. İcmal planlaşdırma zamanı büdcə vəsaitləri bir uşağa düşən əmək haqqıya, ərzağa, avandanlığa, yumşaq inventara və s. çəkilən xərclərə görə müəyyən edilir.

Körpələr evinə çəkilən xərclərin planlaşdırılması qaydası uşaq bağçalarına çəkilən xərclər kimidir.

22.4. Kadr hazırlığı xərclərinin maliyyələşdirilməsi

Elmi-texniki tərəqqi, istehsalın səmərəliliyinin artırılması məsələləri və ölkənin bazar münasibətlərinə qədəm qoyması daim elmi biliyin artmasını, kadrların ümumi mədəniyyətinin yüksəlməsini tələb edir.

Kadrların hazırlanmasını - professional-texniki liseylər, peşə və orta ixtisas müəssisələri və ali məktəblər həyata keçirirlər.

downloaded from KitabYurdu.az

Hazırkı dövrdə, müəssisələrin bir qisminin bağlanması, bir qisminin elmi-texniki tərəqqi əsasında avtomatlaşdırılması işsizlər ordusunu yaratmışdır. İnvestisiya qoyuluşu nəticəsində yeni iş yerlərinin açılması və nəticədə kadrların yenidən hazırlanması məsələsi qarşıya çıxmışdır.

Ölkəmizdə dövlət və qeyri-dövlət ali təhsil sistemi formalaşmışdır. Məlum olduğu kimi, hazırda 25 dövlət və 17 qeyri-dövlət (özəl) təhsil müəssisəsi fəaliyyət göstərir. *Büdcə vəsaitləri* yalnız dövlət təhsil müəssisələrinə yönəldilir. Dövlət təhsil müəssisələrini də demək olar ki, hamısı təhsilinin müəyyən hissəsini ödənişli həyata keçirir. Təhsil müəssisələri iqtisadiyyatın və qeyri-istehsal sferasının bütün sahələri üçün kadrlar hiazırlayırlar.

Təhsil aşağıdakı formada həyata keçirilir: gündüz, axşam, qiyabi.

Ali məktəblərə xərclər hər bir təhsil müəssisəsinə görə, onların spesifik xüsusiyyətləri nəzərə alnımaqla tələbələrin orta illik sayı, maddi tə'minat normaları, professor-müəllim heyətinin vəzifə maaşları və digər göstəricilər əsasında müəyyən olunur.

Ali məktəbin əsas maliyyə sənədi smetadır. O büdcə xərclərinin ümumi həcmini, məqsədli istiqamətini və rüblər üzrə bölgüsünü müəyyən edir.

Nazirlik tabeçiliyində olan ali məktəblərə əmək haqqı fonduna ayrmaları, stipendiya, avadanlıq və inventarların alınmasının smetasını təsdiq edir. Ali məktəblərin nəzdində fəaliyyət göstərən magistratura, aspirantura və doktorantura, eləcə də kafedraların elmi işləri ilə bağlı xərcləri də daxil edilməklə ali mətəblərin xərclər smetasına aid edilir.

downloaded from KitabYurdu.az

Digər məsrəflər üzrə xərclər «Digər xərclər» bölməsinə aid edilir və ali məktəbin rektor tərəfindən, xərclərin ümumi məbləği hüdudunda bölüşdürülür.

Smetada təhsil müəssisəsi, maddi-texniki bazası haqqında ümumi mə'lumatlar əks olunur. İcmal planlaşdırılma zamanı xərclər hər bir tələbəyə hesablanmış norma əsasında hesablanır. Bunun üçün plan ilində buraxılış və qəbul nəzərə alınmaqla *tələbələrin kontingenti* müəyyən edilir. Hesablama ayrılıqda gündüz, axşam və qiyabi təhsil üzrə aparılır.

Tələbələrin orta illik sayı aşağıdakı formula üzrə hesablanır.

$$K_{orta} = K_1 - \frac{1}{2}B + \frac{1}{3}Q$$

burada K_{orta} – tələbələrin orta illik kontingenti;

K_1 – ilin əvvəlinə kontingent;

B – tələbələrin buraxılışı (məsələn, 1 iyula)

Q – yeni dərs ili üçün tələbə qəbulunun sayı (məsələn, 1 sentyabra).

Planlaşdırma zamanı tələbələrin kursda qalması və bərpası nəzərə alınmır.

Dövlət ali məktəblərində inzibati-idarə heyəti, inzibatçı-təsərrüfat işçiləri, professor-müəllim hey'əti və digər texniki, yardımçı və xidmətedici işçilər qüvvədə olan normativ sənədlərə əsaslanaraq işə qəbul edilirlər. Onların vəzifə maaşları və ya stavka üzrə əmək haqqı yerinə yetirdikləri işin xüsusiyyətlərinə müvafiq olaraq elmi dərəcə, elmi ad, təhsil, stac nəzərə alınmaqla müəyyənləşdirilir.

1. Ali məktəblərin rektorlarının, filial direktorlarının, prorektorlarının və kafedra, şö'bə (laboratoriya) müdirlərinin vəzifə maaşları aşağıdakı kimi

downloaded from KitabYurdu.az

müəyyənləşdirilir: müvafiq elmi dərəcəsi və elmi adı, pedaqoci və ya rəhbər vəzifələrdə 5 ildən az olmayan iş stacı olmaqla vəzifə maaşı 17-19-cu ödəniş dərəcsi ilə; filial direktoru 16-17-ci ödəniş dərəcəsi ilə; tədris işləri üzrə prorektor, elmi işlər üzrə prorektor, tərbiyə işləri üzrə prorektor, qiyabi və axşam şö'bəsi üzrə prorektor, beynəlxalq əlaqələr üzrə prorektor, inzibati-təsərrüfat işləri üzrə prorektor elmi dərəcəsindən, elmi adından, stacından asılı olaraq 14-18-ci ödəniş dərəcəsi ilə, tədris şö'bəsinin müdiri 12-14-cü, doktorantura və aspirantura şö'bəsinin müdiri 12-13-cü ödəniş dərəcəsi ilə.

Vəzifəli, inzibati-təsərrüfat işçilərinin və xidmət heyətinin maaşı təhsil müəssisənin iş həcmindən və xüsusiyyətindən asılı olaraq, vəzifə maaşları əsasında hesablanır.

2. Professor-müəllim hey'ətinin əmək haqqı fondu onların tutduğu vəzifəsindən, təhsilindən, elmi dərəcəsindən (elmi adından), stacından asılı olaraq vəzifə maaşının ödəniş dərəcəsi əsasında hesablanır.

Vəzifələrin miqdarı bir müəllimə düşən tələbələrin, magistrantların və aspirantların sayından asılı olaraq əmsal üzrə hesablanır. Bu əmsallar gündüz, axşam və qiyabi şö'bədə fakültələr üzrə, tələbələrin və aspirantların hazırlıq istiqaməti üzrə müəyyən edilir.

Ali məktəblərdə professor, dosent və müəllimlər iş günü ərzində tədris planına və elmi-tədqiqat işləri planına uyğun olaraq tədris-metodiki və elmi-tədqiqat işləri aparmalıdır. Professor-müəllim hey'ətinin konkret yükünü ali məktəblərin rektorları müəyyən edir.

Ali təhsil müəssisələrində ştat üzrə işçilərin stavka üzrə əmək haqqı aşağıdakı kimi ödənilir: professor, elmi dərəcəsindən asılı olaraq 16-18-ci ödəniş dərəcəsi ilə; dosent,

downloaded from KitabYurdu.az

elmi dərəcəsindən asılı olaraq 14-16-cı; baş müəllim 13-14-cü; müəllim (assistent) 12-13-cü ödəniş dərəcəsi ilə.

Ali təhsil müəssisələrində dərəcələr üzrə professor-müəllim hey'əti üçün vəzifə maaşları aşağıdakı kimi müəyyən edilmişdir:

1. Ali təhsil müəssisələrində təqaüdlər üzrə xərclər də mühüm yer tutur. Bu xərclər təqaüd alan tələbələrin orta illik sayı üzrə hesablanır.

2. Tədris xərcləri və kitabxana üçün kitabların alınması xərcləri təhsil formasından (əyani, axşam, qiyabi) və mütəxəssislərin istiqamətindən asılı olaraq normalar üzrə müəyyən edilir.

Tələbələrin istehsalat təcrübəsi üçün xərcləri təcrübə keçəcək tələbələrin sayından və təcrübənin uzunluğundan asılıdır. Bu xərclərə eyni zamanda, təcrübəyə rəhbərlik edən müəllimlərə əmək haqqı və s. aiddir.

Ali məktəblərin xərcləri sistemində elmi-tədqiqat işləri, təcrübənin aparılması, müəllimlərə e'zamiyyət xərcləri, dissertasiyaların müdafiəsi üzrə xərclər daxildir.

3. Ali məktəblər üçün inventar və avadanlıq xərcləri onların xüsusi avadanlıqla, kompüterlərlə və təsərrüfat inventarları ilə tə'min olunma normaları üzrə planlaşdırılır. İcmal planlaşdırılma zamanı inventarların və avadanlıqların alınması xərcləri bir tələbəyə düşən norma əsasında, əsaslı tə'mirə çəkilən xərclər binanın xarici kubaturası və $1m^3$-ə düşən xərc normasına görə hesablanır.

Peşə və orta ixtisas məktəbəlrinin əsas vəzifəsi iqtisadiyyatın müxtəlif sahələri və ölkənin qeyri-istehsal sferası üçün zəruri nəzəri biliklər və təcrübi vərdişlərə malik olan orta ixtisas dərəcəli və ümumi orta təhsilli mütəxəssislərin hazırlanmasından ibarətdir.

downloaded from KitabYurdu.az

Peşə və orta ixtisas məktəblərində xərclər hesablanarkən aşağıdakı göstəricilər əsas tutulur:

– şagirdlərin orta illik sayı;
– əyani, axşam və qiyabi təhsil üzrə ayrılıqda qrupların sayı.

Şagirdlərin orta illik sayı ali məktəblərdə olduğu kimi hesablanır.

Peşə və orta ixtisas məktəblərinin cari xərclərinə əmək haqqı, ona əlavələr, təqaüdlərin verilməsi, tədris, təsərrüfat və digər xərclər daxildir.

Peşə və orta ixtisas məktəblərinin əsas xərcləri əmək haqqı xərcləridir.

Peşə və orta ixtisas məktəblərinin direktorlarının vəzifə maaşları təhsil müəssisəsində şagird və ya tələbələrin sayından asılı olaraq aşağıdakı kimi müəyyən edilir: ali təhsilli, 5 il müvafiq ixtisas üzrə stacı olan, şagirdlərin sayı 200-ə qədər olduqda vəzifə maaşının ödəniş dərəcəsi 14, şagirdlərin sayı 201-500 nəfər olduqda 15, şagirdlərin sayı 500-dən çox olduqda 16.

Peşə və orta ixtisas məktəblərində işləyən müəllimlərin əmək haqqı təhsil və pedaqoci staca əsasən, ümumtəhsil məktəblərində olduğu kimi, vəzifə maaşının ödəniş dərəcəsi ilə müəyyən edilir.

Peşə və orta ixtisas məktəblərində əmək haqqına daxildir:

– pedaqoci heyətinin əmək haqqı;
– yazı işlərinin yoxlanması üçün əmək haqqına əlavələr;
– laboratoriya və kabinet müdirliyinə görə haqq;
– sinif rəhbərliyinə görə haqq;
– tə'lim-tərbiyə, inzibati hey'ətin əmək haqqı və s.

downloaded from KitabYurdu.az

XXIII fəsil. SƏHİYYƏ XƏRCLƏRİ

23.1. Səhiyyə müəssisələrinin saxlanması xərclərinin tərkibi və quruluşu

Vətəndaşların sağlamlığının mühafizəsi üzrə qəbul edilmiş qanunvericiliyə əsasən səhiyyənin maliyyələşdirilməsi və idarə edilməsi sahəsində mərhələli islahatlar gedir. Bu sahədə qəbul edilmiş *tibbi sığorta mexanizminin* böyük əhəmiyyəti vardır.


Səhiyyə xərcləri dövlət büdcəsi xərclərinin tərkib hissəsi olmaqla müəyyən xüsusi çəkiyə malikdir. Lakin bu xərclərin dövlət büdcəsi xərcləri içərisində xüsusi çəkisi ildən-ilə azalmış, 1995-ci ildə 6,9%, 1996-cı ildə 8,4%, 1997-ci ildə 5,7%, 1998-ci ildə 5,8%, 1999-cu ildə isə 5,7% 2000-ci ildə 5,9%, 2001-ci ildə 5,8% olmuş, 2002-ci ildə 5,3%, 2003-cü ildə 4,7% planlaşdırılmışdır. Bunun da əsas səbəbi büdcə xərclərinin bir hissəsinin maliyyələşdirilməsinin yerli (bələdiyyə) büdcələrə verilməsi və səhiyyə xidmətinin dövlət maliyyələşdirilməsinin azaldılıb pullu xidmətə keçirilməsindən ibarətdir.

Hal-hazırda səhiyyənin maliyyə tə'minatının modeli büdcə vəsaitlərini, icbari tibbi sığorta vəsaitlərini, təşkilatların tibbi sığorta fondlarını və digər mənbələri özündə birləşdirir. (şəkil 4).

Şəkil 1. Səhiyyə sahəsinə yönəldilən maliyyə vəsaitlərinin yaradılması
mənbələri və istifadəsi istiqamətləriri

Yaranması mənbələri

downloaded from KitabYurdu.az



Səhiyyədə tibbi sığorta mexanizminin tətbiqinə qədər xərclərin planlaşdırılmasının aşağıdakı qaydaları tətbiq edilmişdir və hal-hazırda da bu üsulların bə'zilərindən istifadə olunur:

1) səhiyyə müəssisələrinin fərdi və icmal smetasının tərtib edilməsi;

2) yerli büdcələrin layihələrinə uyğun səhiyyədə xərclərin icmal smetasının tərtib edilməsi;

3) Maliyyə Nazirliyi tərəfindən göstəricilərin hesablanması (plan-laşdırılması.

downloaded from KitabYurdu.az

Büdcə sisteminin hər bir səviyyəsində xərclərin planlaşdırılmasının özünəməxsus xüsusiyyətləri var idi.

Tibb müəssisələrinin fərdi smetasının tərtibi çarpayıların orta illik göstəricilərinin, çarpayı-günlərin miqdarının, tibbi və inzibati-təsərrüfat heyʼətinin orta illik sayının, poliklinikaya müraciət edənlərin sayının və digər göstəricilərin hesablanması ilə başlanırdı.

Səhiyyədə xərclərin planlaşdırılmasının aşağıdakı göstəricilərindən istifadə olunurdu:

1) ambulator-poliklinika yardımı üzrə – poliklinikalarda işləyən həkimlərin sayı, ildə bir nəfərə düşən müayinənin və evdə yardımın miqdarı (təxminən ildə 12 yardım);

2) stasionar yardım üzrə – çarpayı-yerin miqdarı, il ərzində xəstəxana çarpayısının məşğul olması;

$$D_m = \frac{\sum_{m=1} I_m}{K_m}$$

burada Dm – m-ci ixtisas üzrə olmayan il ərzində çarpayının istifadə edilməsi günlərinin miqdarı göstəricisi;

Im – m-ci ixtisas üzrə xərclərin çarpayı günlərinin miqdarı;

Km – m-ci ixtisas üzrə çarpayıların orta illik miqdarı.

Çarpayıların dövriyyəsi il ərzində hər bir xəstəxana çarpayısı üzrə xəstələrin orta sayını xarakterizə edir:

$$F_m = \frac{D_m}{R_m}$$

burada F_m – xəstənin çarpayıda olmasının orta göstəricisidir.

downloaded from KitabYurdu.az

İl ərzində xəstəxana çarpayılarının orta istifadəsi (D) xəstələrin orta günlük miqdarından (N) və ya xəstəxananın gücündən asılıdır:

$$D_m = \frac{365N}{N + 3\sqrt{N}}$$

$$D_m = 365 - tmFm$$

burada tm – m-ci ixtisas üzrə ildə çarpayının boş dayanmasının orta göstəricisidir.

Ayrılmış büdcə vəsaitlərinin səmərəli istifadəsinə nəzarət müfəttiş və tematik yoxlama zamanı, yerli idarəetmə orqanları, ayrı-ayrı nəzarət orqanları tərəfindən həyata keçirilir.

Yoxlama zamanı xüsusilə aşağıdakı məsələlərə fikir verilir: səhiyyə müəssisələrinin fəaliyyətinin plan göstəricilərinin düzgün hesablanması; onların faktiki görülən işlərin, göstərilən tibbi xidmətlərin həcmi ilə eyniliyi; ayrılmış büdcə vəsaitlərinin istifadəsinin məqsədəuyğunluğu.

Beləliklə, xəstəxana çarpayısının istifadəsi göstəricisi nə qədər yüksək olarsa, çarpayıların dövriyyəsi göstəriciləri bir o qədər də yüksək olar və çarpayı fondunun saxlanmasına büdcədən ayrılan vəsaitə, yeni çarpayıların yerləşdirilməsinə, yeni stasionarların tikilməsinə zərurət bir o qədər az olur.

Hal-hazırda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin səhiyyə müəssisələri xərclərinin planlaşdırılması məqsədilə gəlir və xərc smetasını (icmal smetasını) tərtib edirlər.

downloaded from KitabYurdu.az

Buna misal olaraq, Bakı şəhər Uşaq Bərpa Müalicə Mərkəzini göstərmək olar. Burada xərclər smetası (ambulator müəssisə kimi) aşağıdakı kimidir:

1. Əməyin ödəniş fondu;
2. Əmək haqqına üstəlik;
3. Malların alınması və xidmətlərin haqqının ödənilməsi:

- dəftərxana ləvazimatı, cari təsərrüfat məqsədləri üçün mal və materiallar alınması;
- dərman və sarğı ləvazimatlarının alınması;
- yumşaq inventar və paltarların alınması, tə'mir xərclərinin ödənilməsi;
- ərzaq məhsullarının alınması;
- nəqliyyat xidmətlərinin haqqının ödənilməsi;
- yanacaq və sürtgü materiallarının alınması;
- rabitə, kommunal xidmətləri, elektrik energisi haqqının ödənilməsi;
- qaz, su, istilik enercisi haqqının ödənilməsi;
- inventar və avadanlığın alınması;
- binaların cari tə'miri və s.

23.2. Səhiyyə işçilərinin əmək haqqı xərclərinin planlaşdırılması

Azərbaycan Respublikası Dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatının tətbiqi üzrə göstəricilərə əsasən «Əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi» maddəsinin «Əməyin ödəniş fondu» köməkçi maddəsinə daxil olan əsas xərc işçilərə verilən əmək haqqıdır. Səhiyyə sahəsində çalışan işçilərin əmək haqqına daxildir:

downloaded from KitabYurdu.az

- bütün ştat işçilərinə müəyyən edilmiş vəzifə maaşı;
- işçilərin vəzifə maaşına əlavələr;
- işçilərə əlavə iş üçün ödənişlər;
- elmi dərəcə və fəxri adlara görə əlavə ödənişlər.

Səhiyyə işçilərinin vəzifələr üzrə tarif – ixtisas xüsusiyyətləri kadrların düzgün seçilməsi və yerləşdirilməsi, onların peşə ixtisasının artırılması, rəhbərlərlə mütəxəssislər arasında əməyin bölgüsü, eləcə də bu kateqoriyadan olan işçilərin vəzifə borclarının və əməyin ödənilməsi dərəcələri üzrə ixtisas tələblərinin vahidliyini tə'min etmək məqsədini güdür.

Azərbaycan Respublikası səhiyyə işçilərinin əməyinin ödənilməsi büdcədən maliyyələşən səhiyyə müəssisəsinin tibb hey'ətinin *Vahid Tarif Cədvəli* üzrə maddi tə'minatının vahid prinsiplərini nəzərdə tutur və maaşlardan (stavkalardan), eləcə də artımlar, əlavələr və qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş digər stimullaşdırıcı xarakterli ödənclərdən ibarətdir.

Səhiyyə müəssisələrinə və təşkilatlarına ayrılan büdcə vəsaiti çərçivəsində əlavə haqların, üstəlik haqların, əlavələrin, mükafatların və digər stimullaşdırıcı xarakterli ödənclərin növləri və ölçüsünü, eləcə də müəssisə və təşkilatların strukturunu və ştatlarını sərbəst müəyyən etmək hüququ verilmişdir.

Tibb heyətinin əmək haqqı stavkası və maaşları Vahid Tarif Cədvəli əsasında müəyyən edilir:

Əməyin ödənil-məsi cədvəli	0 10	1 11	2 12	3 13	4 14	5 15	6 16	7 17	8 18	9 19
Tarif əmsal-ları	1,0 5,11	1,32 5,72	1,74 6,41	2,30 7,18	2,58 7,97	2,89 8,85	3,24 9,82	3,63 10,90	4,07 12,10	4,56 13,43

downloaded from KitabYurdu.az

Vahid tarif cədvəli əsasında müəyyən edilmiş stavka və maaşlar qanunvericiliklə müəyyən olunmuş və əmək müqaviləsi ilə şərtləndirilmiş iş vaxtının uzunluğuna və iş həcminin yerinə yetirilməsinə riayət olunmaqla səhiyyə işçilərinin əməyinin ödənilməsinin minimal səviyyəsinin dövlət tə'minatıdır.

Sıfır dərəcəli tarif stavkasının (maaşının) ölçüsü hökumət tərəfindən müəyyən edilir və əməyin ödənilməsinin minimal ölçüsünə uyğun olur.

Vahid Tarif Cədvəlinin digər dərəcələri üzrə işçilərin stavka və maaşları tarif cədvəlinin sıfır dərəcəsinin müvafiq tarif əmsalına vurmaq yolu ilə müəyyən edilir.

Büdcədən maliyyələşən səhiyyə işçilərinin vəzifələri üzrə əməyin Vahid Tarif Cədvəli əsasında ödənilməsi dərəcələri aşağıdakı kimi müəyyən edilir:

- baş həkim (direktor, müdir, rəis, səhiyyə müəssisəsinin rəhbəri) – 13-18-ci dərəcələr;
- baş tibb bacısı – 8-13-cü dərəcələr;
- həkim-intern – 7-8-ci dərəcələr;
- həkim – 9-15-ci dərəcələr;
- orta tibb hey'əti – 7-12-ci dərəcələr;
- tibb bacısı – 5-9-cu dərəcələr;
- diş texniki – 6-9-cu dərəcələr;
- əczaçı – 6-9-cu dərəcələr və s.

Vəzifə maaşları aşağıdakı hallarda artırılır:

a) ixtisas dərəcəsinə görə;

b) elmi dərəcəyə görə;

v) sağlamlıq üçün təhlükəli və son dərəcə ağır iş şəraitində işləyənlərə;

downloaded from KitabYurdu.az

q) tə'cili və təxirəsalınmaz tibbi yardım stansiyaların işçilərinə.

Əlavə haaq aşağıdakı hallarda verilir:

a) gecə işinə görə;

b) bir-neçə peşənin (vəzifənin) aparılmasına, xidmət sahəsini geniş-ləndirilməsinə;

v) müvəqqəti olaraq işdə olmayan işçinin vəzifəsinin aparılmasına;

q) başqa hallarda.

23.3. Səhiyyə üzrə sair xərclərin planlaşdırılması və maliyyələşdirilməsi

Stasionar səhiyyə müəssisələrinin saxlanması xərclərin hesablanması çarpayıların artırılması müddətindən asılı olaraq, ***çarpayıların orta illik miqdarı*** göstəricisi əsasında, aşağıdakı formula üzrə aparılır:

$$C_{or} = C \pm \frac{C_n \cdot A_n}{12}$$

burada C_{orta} – çarpayıların orta illik miqdarı;

C_1 – ilin əvvəlinə çarpayıların miqdarı;

C_n – il ərzində istifadəyə verilən (ixtisar olan) çarpayıların miqdarı;

A_n – yeni artırılmış (ixtisar edilmiş) çarpayıların fəaliyyət göstərdiyi ayların sayı.

Səhiyyə üçün rayonun büdcə layihəsində ümumi xərclər aşağıdakı kimi müəyyən edilir:

1. Rayonlar üzrə xəstəxanaların və digər stasionarların tibbi işçilərinin *əmək haqqı fondunun həcmi* müəyyən edilir. Şəhərlərdə, qəsəbə və kənd yerlərində

downloaded from KitabYurdu.az

yerləşən, hər bir dispanser üzrə müəyyən edilən çarpayıların orta illik miqdarından və bir ildə çarpayıya düşən orta əmək haqqından asılı olaraq:

$$\textbf{ƏHF}_{\textbf{il}} = C_{orta} \cdot \textbf{ƏH}_{\textbf{c}}$$

burada $ƏHF_{il}$ – illik əmək haqqı fondu;

$ƏH_c$ – il ərzində çarpayıya düşən orta əmək haqqı.

2. *Dərmanlara çəkilən xərclər* (normativ əsasında) və eyni zamanda dəftərxana və təsərrüfat xərcləri (norma üzrə il üçün bir çarpayıya görə) müəyyən edilir.

Dərman alınmasına çəkilən xərclərin ümumi həcmi dərmanlara çəkilən xərclərdən və şəhər və kənd yerlərində yerləşən xəstəxanalar üzrə pulsuz və imtiyazlı şəkildə verilən dərmanların xərclərindən ibarətdir:

$$X_d = N_x \cdot S_{cg}$$

burada X_d – stasionarda dərmanlara çəkilən xərclər;

N_x – dərmanlara çəkilən xərc norması;

S_{cg} – çarpayı-günlərin sayı.

$$ÜX_m = X_d + X_{im}$$

burada $ÜX_m$ – dərman alınması üçün ümumi xərclərin miqdarı;

X_d – stasionarda dərmanlara çəkilən xərclər;

X_{im} – imtiyazla (pulsuz) verilən dərmanlara çəkiələn xərclər.

Dəftərxana və təsərrüfat xərcləri də anoloci qaydada müəyyən edilir:

downloaded from KitabYurdu.az

$$M_d - C_{orta} \cdot N_{cx}$$

burada M_d – dəftərxana və təsərrüfat xərcləri;

N_{cx} – ildə bir çarpayıya düşən xərc norması.

3. Bir ildə *bir çarpayıya düşən ərzaq norması* aşağıdakı kimi müəyyən edilir:

$$N_{ax} = C_g \cdot N_g$$

burada N_{ax} – bir ildə bir çarpayıya düşən ərzaq norması xərcləri;

C_g – bir ildə çarpayının fəaliyyət göstərdiyi gün;

N_g – bir gündə bir çarpayıya düşən ərzaq norması xərcləri.

Ərzaqa çəkilən xərclərin məbləği aşağıdakı formula ilə müəyyən edilir:

$$M_x = N_{ax} \cdot C_{orta}$$

burada M_x – ərzağa çəkilən xərclərin məbləği;

N_{ax} – bir ildə bir çarpayıya düşən ərzaq norması xərcləri;

C_{orta} – çarpayıların orta illik miqdarı.

4.*Xəstəxanalar və dispanserlər üzrə çarpayı-günlərin miqdarı* müəyyən edilir:

$$S_{cg} = C_g + C_{orta}$$

burada S_{cg} – çarpayı-günlərin miqdarı;

C_g – bir ildə çarpayının fəaliyyət göstərdiyi gün;

C_{orta} – çarpayının orta illik miqdarı.

4. *Yumşaq inventara çəkilən xərclər* aşağıdakı formula üzrə hesablanır:

downloaded from KitabYurdu.az

$$X_{yi} = X_{yct} + X_{əyt}$$

burada X_{yi} – yumşaq inventara çəkilən xərclər;
$X_{yçt}$ – yeni çarpayılarla tamamlanma;
$X_{əyt.}$– əvvəlki yataqlarla təchizat.
Eyni zamanda çarpayıların istismar artımı hesablanır:

$$A_c = C_{ism} – C_{iəm}$$

burada A_c – il ərzində çarpayıların istismar artımı;
C_{ism} – ilin sonuna çarpayıların miqdarı**;**
$C_{iəm}$ – ilin əvvəlinə çarpayıların miqdarı.
6. Sonda xəstəxana və dispanserlər üzrə *büdcə layihəsinin icmal xərcləri* müəyyən edilir:

$$X_m = ƏHF + H_{əhf} + ÜH_{dx} + ÜH_{tx} + ÜH_{əx} + ÜH_{yix}$$

burada X_m – xəstəxana və dispanserlər üzrə büdcə layihələri xərclərinin məbləği;
ƏHF – tibb işçilçrinin və inzibati-təsərrüfat hey'ətinin əmək haqqı fondu;
$H_{əhf}$ – əmək haqqı fondunun hesablanması;
$ÜH_{dx}$ - dərman xərclərinin ümumi həcmi;
$ÜH_{tx}$ – dəftərxana və təsərrüfat xərclərinin ümumi həcmi;
$ÜH_{əx}$ – ərzaq xərclərinin ümumi həcmi;
$ÜH_{yix}$ - yumşaq inventar xərclərinin ümumi həcmi.
Tibb müəssisəsinin smetasının tərtibi zamanı əvvəlki bir-üç il ərzində stetanın icrasının iqtisadi təhlilindən istifadə edilir. Təhlil materialları üzrə nəticələr bə'zi xərclərin həcmini, bə'zi hesablama normalarını dəqiqləşdirməyə, göstəricilərin dinamikasını aşkar etməyə, xərclər

downloaded from KitabYurdu.az

smetasındakı maddələr üzrə kənaraçıxmalara tə'sir edən müxtəlif amillərin tə'sirini müəyyən etməyə imkan verir.

Tibb müəssisələrinin maliyyələşdirilməsinin mühüm modelləri (üsulları) aşağıdakılardır:

1)xərclər smetası bazasında müəyyən edilən konkret tibbi xidmətin qiyməti;

2)müalicə olunan xəstənin orta xərci (ümumilikdə stasionar və ya orta hesabla şö'bə üzrə);

3)klinik statistik qrup və ya tibbi-iqtisadi standartlar əsasında bir müalicəni qurtarmış xəstənin xərcinin ödənilməsi.

Müasir şəraitdə tibbi sığortanın köməyi ilə bazar münasibətlərinin elementlərini və sosial tə'yinatı özündə birləşdirən səhiyyənin idarə edilməsinin və maliyyələşdirilməsinin optimal modelinin təkmilləşdirilməsinin və inkişafının böyük əhəmiyyəti vardır.

Tibb müəssisələri bir neçə mənbədən maliyyələşdirilir:

- büdcə vəsaitləri;
- məqsədli dövlət proqramlarının maliyyələşdirilməsi;
- icbari tibbi sığorta vəsaitləri;
- könüllü tibbi sığortadan pullu xidmətlər;
- digər vəsaitlər.

1999-cu ildə qəbul edilmiş «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi formasını müəyyən edir, sığorta hadisəsi baş verdikdə əhalinin tibbi və dərman yardımı alınmasını tə'min edir.

Tibbi sığorta icbari və könüllü formadə həyata keçirilir.

İcbari tibbi sığorta (İTS) dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına

downloaded from KitabYurdu.az

müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını tə'min edir.

Könüllü tibbi sığorta (KTS) icbari tibbi sığorta proqramında müəyyənləşdirildiyindən əlavə könüllü tibbi sığorta müqaviləsi əsasında əhalinin tibbi və digər xidmətlər alınmasını tə'min edir.

İTS sistemində sığorta edənlər:

- işləməyən vətəndaşlar üçün – müvafiq icra hakimiyyəti orqanları və müvafiq sosial proqramlar çərçivəsində yerli özünüidarəetmə orqanları;
- işləyən vətəndaşlar üçün – mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər və qanunvericilikdə müəyyən olunmuş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

İTS sistemi dövlət büdcəsindən, sığorta edənin ödəmələri, İTS haqlarının ödəmə qaydasının pozulması hallarında tətbiq olunan cərimə və dəbbə pulu, qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir. İTS haqlarının saxlanması və maliyyə vəsaitlərinin məqsədli istifadəsinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

İTS sistemində sığorta edənlər işləyən vətəndaşlar üçün məbləği və ödənilmə qaydası müvafiq icra hakimityyəti orqanı tərəfindən müəyyən edilən icbari tibbi sığorta haqları ödəyirlər. İTS haqları İTS proqramının yerinə yetirilməsini tə'min edən məbləğdə müəyyən edilir. İşləməyən pensiyaçılar, idarə və təşkilar ləğv olunduqda müvəqqəti işsizlər, əmək qabiliyyəti olmayanlar, uşaqlar, tələbələr və büdcə təşkilatlarının işçiləri üçün İTS haqları tibbi xidmətlər üçün qiymətlərin indeksasiyası nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən büdcə və sosial müdafiə fondlarının vəsaiti hesabına ödənilir.

downloaded from KitabYurdu.az

İTS sistemində tibbi sığorta sistemində tibbi xidmətlər üçün tariflər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Tariflər tibb müəssisələrinin rentabelliyini və tibbi sığorta müqaviləsində nəzərdə tutulan tibbi xidmətin müasir səviyyəsini tə'min etməlidir.

KTS üzrə tibbi xidmətlər üçün tariflər sığorta təşkilatı ilə bu xidmətləri göstərən tibb müəssisəsi arasında razılaşmaya əsasən müəyyən edilir.

Tibbi sığortanın funksiyaları dövlətin sosial siyasətini həyata keçirdiyi funksiyalara uyğundur:

- sosial, belə ki, İTS – dövlətin sosial müdafiəsinin bir hissəsidir;
- tənzimləyici (nəzarət orqanlarının lisenziyalaşdırılması vasitəsilə);
- nəzarət (vergi nəzarəti vasitəsilə);
- həvəsləndirici – müəssisələrədə əhalinin əməyinin və sağlamlığının qorunması səviyyəsinin artırılması;
- monitorinq – göstərilən tibbi xidmətlərin keyfiyyətinin və son nəticədə tibb işçilərinin işinin qiymətləndirilməsi;
- səlahiyyətlərin bölgüsü – İTS fondları və büdcə fondları arasında maliyyə məs'uliyyətinin sərhədlərinin müəyyənləşdirilməsi;
- səmərəlik – mövcud maliyyə vəsaitlərinin optimal istifadəsini nəzərdə tutur.

Göstərilən funksiyalar dövlətin sosial siyasəti və tibbi sığorta subyektlərinin sahibkarlıq fəaliyyəti vasitəsilə həyata keçirilir.

Beləliklə, tibbi sığorta sosial institutu və sığorta bazarı elementini əks etdirir.

downloaded from KitabYurdu.az

23.4. Əhalinin sağlamlığının qorunması tədbirlərinin maliyyələşdirilməsi

Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla tə'minatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir.

Əhalinin sağlamlığının qorunmasının əsas prinsiplərindən biri tibbi-sosial yardımın hamı üçün mümkünlüyündən ibarətdir.

Əhalinin sağlamlığının qorunması sahəsində dövlətin vəzifələri aşağıdakılardan ibarətdir:

- sağlamlığının qorunması sahəsində dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;
- səhiyyə sisteminin təşkili qaydalarının və fəaliyyətinin müəyyənləşdirilməsi;
- dövlət səhiyyə sisteminin maliyyələşdirilməsi;
- əhalinin xüsusi qrupları üçün tibbi-sosial yardım göstərilməsinə tə'minat verilməsi;
- məcburi sığorta üzrə sığorta məbləğinin və sığorta haqqının ödənilməsi qaydasının müəyyənləşdirilməsi;
- səhiyyə sahəsində beynəlxalq əməkdaşlığının həyata keçirilməsi və s.

Dövlət səhiyyə sisteminə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı, dövlət tabeçiliyindəki müalicə-profilaktika, elmi-tədqiqat, tədris, əczaçılıq, sanitariya-profilaktika müəssisələri, eləcə də səhiyyənin maddi-texniki təchizatı ilə məşğul olan, tibbi texnika və dərman vasitələri istehsal edən müəssisələr, sanitariya-epidemologiya xidməti, məhkəmə-tibbi ekspertizası daxildir.

downloaded from KitabYurdu.az

Dövlət səhiyyə sistemi əsasən dövlət büdcəsi, eləcə də tibbi sığorta vasitələri, müəssisə, idarə və təşkilatların gəlirlərindən könüllü ayırmalar, hüquqi və fiziki şəxslərin ianələr və istifadəsi qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Dövlət səhiyyə sisteminin vəsaitləri:

- səhiyyənin məqsədli kompleks proqramının işlənib hazırlanmasına və yerinə yetirilməsinə;
- dövlət səhiyyə müəssisələrinin maddi-texniki bazasının inkişafına;
- müalicə-profilaktika və sanitariya-epidemoloci müəssisələrin saxlan-masına;
- güzəştli tibbi xidmətin göstərilməsinə;
- tibb və əczaçılıq işçilərinin hazırlanmasına və ixtisaslarının artırılmasına;
- tibb elminin inkişafına və tətbiqinə;
- epidemiyaların aradan qaldırılmasına yönəldilir.

Xəstələndikdə, əmək qabiliyyətini itirdikdə və digər hallarda vətəndaşların tibbi-sosial yardım almaq hüququ vardır.

Hər bir qadın hamiləlik dövründə, doğuş və doğuşdan sonrakı dövrdə səhiyyə sisteminin müəssisədə ixtisaslaşdırılmış tibbi yardımla pulsuz tə'min olunur.

Tibb və əczaçılıq işçilərinin, habelə elmi işçilərin, ali və orta tibb və əczaçılıq təhsili müəssisələrinin, universitetlərin tibb fakültələrinin professor-müəllim hey'ətinin əmək haqqı onların ixtisas dərəcəsinə, stacına və yerinə yetirdikləri vəzifələrə uyğun olaraq ödənilir və bu, əmək müqaviləsində nəzərdə tutulur.

Tibb və əczaçılıq işlərinin əmək şəraitləri təhlükəli, zərərli amillərlə bağlı olduqda onlar vəzifə maaşlarına əlavə olaraq kompensasiya almaq, eləcə də qanunvericilikdə

downloaded from KitabYurdu.az

müəyyən edilmiş digər güzəştlərdən istifadə etmək hüququna malikdirlər.

Əmək haqqının artırılmasına, əlavə ödəmələrinin verilməsinə kompensasiyalar və güzəştlər almaq hüququna malik olan tibb işçilərinin siyahısı icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət səhiyyə müəssisələrində xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş tibb və əczaçılıq işçilərinin ailələrinə miqdarı msüvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən birdəfəlik müavinət verilir.

Tabeçiliyindən və mülkiyyət formalarından asılı olmayaraq müalicə-profilaktika müəssisələrinin, o cümlədən elmi-tədqiqat institutları və dövlət ali tibb təhsil müəssisələrinin əhaliyə göstərdikləri pullu tibbi xidmətin qaydaları və şərtləri Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilir.

Tibb müəssisələri əhaliyə göstərilən müvafiq pullu tibbi xidmətin Azərbaycan Respublikasının ərazisində icazə verilmiş diaqnostik, profilaktik və müalicə metodları ilə tə'min etməyə borcludurlar.

Tibb müəssisələrinin əlavə maliyyələşdirilməsi müəssisə, təşkilat, hüquqi və fiziki şəxslərə pullu xidmətlərin göstərilməsinə görə alınan vəsaitlər hesabına həyata keçirilir.

Tibbi xidmətlərin qiymətlərin Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş qayda üzrə tənzim edilir. İl ərzində indeksasiya gəlir-xərc smetası yenidən dəqiqləşdirilir.

Səhiyyə Nazirliyi tərəfindən təqdim edilən tibbi xidmətlərin qiymətləri respublika üzrə orta qiymətlərdir. Səhiyyə müəssisə rəhbərlərinə əhalinin sosial-iqtisadi vəziyyətindən asılı olaraq bu qiymətləri 20% artırıb-azaltmaq hüququ verilir. Müstəsna hallarda tibbi xidməti

downloaded from KitabYurdu.az

qiyməti göstərilən hüdudlardan fərqlənərsə, razılaşdırılmaq üçün Səhiyyə Nazirliyinə təqdim edilməlidir.

Tibb fəaliyyətinin subyektləri arasında münasibətlərin tənzimlənməsində, onların hüquq və vəzifələrinin, bu fəaliyyəti təşkilati-hüquqi əsaslarının müəyyən edilməsində 30 dekabr 1999-cu ildə qəbul edilmiş "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun böyük əhəmiyyəti vardır.

Özəl tibb fəaliyyətinin subyektləri dövlət və bələdiyyə səhiyyə müəssisələri ilə yanaşı, səhiyyə sahəsində dövlət siyasətinin həyata keçirilməsinə və əhalinin sağlamlağının qorunmasına tə'minat verir.

Özəl tibb fəaliyyəti hüquqi və fiziki şəxslərin vəsaitləri, icbari və könüllü tibbi sığorta vəsaitləri, qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Özəl tibb fəaliyyəti subyektlərinin dövlət tə'minatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində iştirakı onları bu işə də'vət edən (razılıq verən) müvafiq icra hakimiyyəti orqanlarının vəsaiti və icbari tibbi sığorta vəsaitləri hesabına maliyyələşdirilir

XXIV fəsil. SOSİAL MÜDAFİƏ VƏ SOSİAL TƏ' MİNAT XƏRCLƏRİ

Sosial siyasət, Azərbaycan Respublikasının Konstitusi-yası və digər qanunvericilik aktları ilə tənzimlənən və əhalinin hüquq və tə'minatlarını həyata keçirməyə imkan verən, dövlətin ən öncül istiqamətlərindən biridir.

downloaded from KitabYurdu.az

Bu cür hüquq və tə'minatların həyata keçirilməsi əhaliyə sosial müdafiə xidmətlərin göstərilməsini nəzərdə tutur.

Sosial müdafiə dedikdə, xüsusilə çətin vəziyətdə olan və kənardan kömək olmadan yaşamaq iqtidarında olmayan əhali qrupunun heç olmazsa, minimum tələbatını tə'min etməyə yönəldilmiş dövlət siyasəti başa düşülür. Sosial müdafiənin bu forması cəmiyyətin iqtisadi və siyasi inkişafı ilə əlaqədar meydana çıxmış və inkişaf edərək hər bir dövlətin imkan və maraqlarından asılı olaraq sosial müdafiə mexanizmi yaradılmışdır.

BMT-nin hesablamalarına görə, 150 ildən sonra dünyada hər iki nəfərdən biri qoca olacaqdır. Azərbaycanda bu günə qocaların sayı ümumi əhalinin sayından xüsusi çəki e'tibarilə 9% təşkil edir. Əmək qabiliyyəti olmayan yaş qruplarının ümumi əhali sayında çəkisi isə 42%-i ötür.

Azərbaycanın sosial müdafiə sistemi MDB ölkələrinin sistemlərinə oxşar olsa da, ölkənin sosial durumu bir qədər fərqlidir. Dövlətin himayəsində milyonlarla qaçqın, Qarabağ müharibəsi əlili və çoxuşaqlı ailə var. Dövlət Sosial Müdafiə Fondu (DSMF) 1,2 milyona qədər vətəndaşa pensiya, 1,65 milyondan çox aztə'minatlı ailəyə müxtəlif müavinətlər verir. Bu respublika əhalisinin təxminən 40 faizə qədərini təşkil edir.

Azərbaycan Respublikasının maliyyə vəziyyətinin ağır olduğu bir şəraitdə, dövlət əhalinin müəyyən kateqoriyaların Sosial xidmətlərinin minimum səviyyəsini tə'min etmək iqtidarındadır. Sosial xidmətlərin bu növlərinə aiddir:

- uşaqlı ailələrə dövlət müavinətləri;
- yaşa, əlilliyə, ailə başçısını itirməyə görə pensiyalar;
- işsizliyə görə müavinətlər;

downloaded from KitabYurdu.az

– Çernobıl AES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması iştirakçılarına müavinətlərin ödənilməsi;
– sair müavinətlər və kompensasiyalar.

Sosial müdafiə və sosial tə'minat xərcləri 2003-cü ildə büdcə xərclərinin 18,5%-i təşkil etmişdir. 1998-ci ilə nisbətən bu göstərici 4,8 bənd aşağı düşmüşdür. Lakin ÜDM-də bu xərclərin çəkisi artmaqdadır.

Cədvəl 26. Sosial müdafiə və sosial tə'minat xərclərinin ÜDM-də xüsusi çəkisi, faizlə[1]

Göstəricilər	*1996*	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
cəmi xərclər	**17,6**	**18,6**	**15,4**	**19,8**	**17,0**	**16,4**	**17,1**	**19,6**
O cüml: sosial müdafiə və sosial təminat xərcləri	2,6	3,3	3,6	3,7	3,1	3,0	3,1	3,3

Əhalinin sosial tə'minat hüququ müxtəlif forma və metodlarla həyata keçirilir. Bununla belə hər bir dövlətdə sosial tə'minat hüququ sahəsində vətəndaşların pensiya tə'minatı ən aparıcı yer tutmuşdur.

Azərbaycan öz müstəqilliyini e'lan etdikdən sonra qəbul etdiyi ilk mühüm qanunlardan biri «Vətəndaşların pensiya tə'minatı haqqında» Azərbaycan Respublikasının Qanunu olmuşdur. Həmin Qanun 1993-cu il yanvarın 1-dən

[1] Azərbaycanın iqtisadi icmalı, 2002
«Azərbaycan Respublikasının 2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu

downloaded from KitabYurdu.az

qüvvəyə minmişdir. Qanuna dəyişikliklər və əlavələr 13 iyun 1997-ci ildə qəbul olunmuşdu.

Bu Qanun iki mərhələdə: ilk mərhələ 1 avqust 1997-ci ildə və ikinci mərhələ isə 1 avqust 1998-ci ildə qüvvəyə minmişdir.

Bu Qanunla vətəndaşlara aşağıdakı pensiyalar tə'yin edilir.

a) əmək pensiyaları:
- yaşa (qocalığa) görə;
- əlilliyə görə;
- ailə başçısını itirdiyinə görə;
- xidmət illərinə görə;

b) sosial pensiyalar.

Yaşa görə pensiya hüququna aşağıdakılar malikdir:
- kişilər – 62 yaşına çatdıqda və azı 25 il iş stacı olduqda;
- qadınlar – 57 yaşına çatdıqda və azı 20 il iş stacı olduqda.

Yaşa görə pensiya üçün tələb edilən tam ümumi iş stacı olduqda pensiyaların minimum məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən respublika üzrə pensiya hesablanması üçün təsdiq olunan orta aylıq əmək haqqının 30%-i məbləğində tə'yin edilir.

İşləyən pensiyaçılara pensiyalar himayəsində olanlara və qulluğa görə əlavələr nəzərə alınmadan 50% məbləğində ödənilir. «Vətəndaşların pensiya tə'minatı haqqında» Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən yaşa görə pensiyalara əlavələr aşağıdakı qaydada müəyyən edilmişdir:

Cədvəl 27. Yaşa görə pensiyaların hesablanması

downloaded from KitabYurdu.az

İşləmə-yənlərin hər ailə üzvünə	75 yaşına çatmış tənhalara	Müharibə əlilləri və iştirakçı-larına	Repressi-yaya mə-ruz qa-lanlara	I qrup əlillərə	Çernobıl iştirak çılarına
Yaşa görə minimum pensiya-nın 20%	Yaşa görə mini-mum pensiya -nın 20%	Yaşa görə minimum pensiyanın: I qrup-100% II qrup-70% III qrup-50% İştirakçı– 30%	Yaşa görə minimum pensiya-nın 50%	Yaşa görə mini-mum pensiya nın 50%	Yaşa görə minimum pensiya-nın 50%
3600 man.	3600 man.	I qrup-18000m. II qrup-12600m. III qrup-9000 m. İştirakçı – 5400 man.	9000 man.	9000 man.	9000 man.

Qeyd:

1. Cədvəlin ayrı-ayrı qrafalarında göstərilən əlavələr pensiyaçının hüququ olduqda bu əlavələri eyni zamanda ala bilər.

2. Ailə əlavəsi uşaqların 18 yaşı tamam olanadək (əyani təhsil aldıqda 23 yaşınadək) verilir.

3. İşləyənlərin pensiyalarının üzərinə himayədə olanlara (ailə əlavəsi) və qulluğa görə əlavələr hesablanmır.

Əlilliyə görə pensiyalar, orqanizmin funksiyalarının pozulması ilə əlaqədar səhhətin pisləşməsi zamanı əmək qabiliyyətinin tam və ya qismən itirildiyi aşağıdakı hallarda tə'yin edilir:

a) əmək zədəsi və ya peşə xəstəliyi;

b) ümumi xəstəlik;

v) müddətli hərbi və ya alternativ xidmət vəzifələrini yerinə yetirərkən yaralanma, kontuziya, zədələnmə və ya

downloaded from KitabYurdu.az

cəbhədə olmaqla əlaqədar xəstələnmə, həmçinin müddətli hərbi xidmət və alternativ xidmət zamanı xəstələnmə.

Əlilliyə görə pensiyalar əlillik, əmək zədəsi və ya peşə xəstəliyi, hərbi zədə nəticəsində yaralanma, zədələnmə, müddətli hərbi və alternativ xidmət dövründə xəstələnmə hallarında iş stacından asılı olmayaraq tə'yin edilir.

Ümumi xəstəlik nəticəsində əlilliyə görə pensiyalar 21 yaşına çatanadək əlil olmuş şəxslərə iş stacından asılı olmayaraq, 23 yaşınadək əlil olmuş şəxslərə bir il stacı olduqda, 23 yaşından sonra əlil olmuş şəxslərə isə bir il stacı və əlavə olaraq yaşın üstünə gələn hər növbəti il üçün üç ay stacı olduqda tə'yin edilir.

«Vətəndaşların pensiya tə'minatı haqqında» Azərbaycan Respublikasının Qanununun 29, 30, 32, 33 və 34-cü maddələrinə əsasən əlilliyə görə pensiyaların hesablanması qaydaları aşağıdakı kimi müəyyən edilmişdir:

Cədvəl 28. Əlilliyə görə pensiyaların hesablanması

Pensiyaçıların kateqoriyaları	**Pensiyanın əsas məbləği**	**Minimum məbləği**	**Əlavələr**		
			İşləyənlərin hər ailə üzvünə	**Müharibə iştirakçılarına**	**Qulluq**
Ümumi səbəbdən, peşə xəstəliyi, əmək zədəsi	Orta aylıq əmək haqqının	Yaşa görə minimum pensiyanın	Yaşa görə minimum pensiyanın	Yaşa görə Minimum pensiyanın	Yaşa görə minimum pensiyanın
I qrup	70%	150%-27000 man.	20%-3600 man.	50%-9000 man.	50%-9000 man.
II qrup	50%	100%-18000 man.	20%-3600 man.	50%-9000 man.	
III qrup	30%	70%-12600 man.		50%-9000 man.	
Müharibə əlilləri və onlara bərabər	Orta aylıq əmək haqqını	Yaşa görə minimum pensiyanın	Yaşa görə minimum pensiyanın	Yaşa görə Minimum pensiyanın	Yaşa görə minimum pensiyanın

downloaded from KitabYurdu.az

tutulanlar I qrup II qrup III qrup	n 80% 60% 40%	200%-36000 man. 150%-27000 man. 100%-18000 man.	20%-3600 man. 20%-3600 man.	50%-9000 man. 50%-9000 man. 50%-9000 man.	50%-9000 man.
Hərbi xidmətlə əlaqədar digər əlillər I qrup II qrup III qrup	Orta aylıq əmək haqqını n 70% 50% 30%	Yaşa görə minimum pensiyanın 150%-27000 man. 100%-18000 man. 70%-12600 man.	Yaşa görə minimum pensiyanın 20%-3600 man. 20%-3600 man.	Yaşa görə Minimum pensiyanın 50%-9000 man. 50%-9000 man. 50%-9000 man.	Yaşa görə minimum pensiyanın 50%-9000 man.

Qeyd:

1. Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlərə görə təltif olunan əlillərin pensiyalarının üzərinə əlavələr ödənilir.

2. Övladı şəhid olan əlillərin pensiyalarının üzərinə yaşa görə minimum pensiyanın 50% - 9000 manat məbləğində əlavə hesablanır.

Vəfat etmiş ailə başçısının öhdəsində olmuş əmək qabiliyyəti olmayan ailə üzvlərinin *ailə başçısını itirməyə görə* pensiya almaq hüququ vardır. Ailə başçısının öhdəsində olub-olmamasından asılı olmayaraq aşağıdakı əmək qabiliyyəti olmayan ailə üzvləri pensiya almaq hüququna malikdirlər:

- müharibədə həlak olmuş vətəndaşların uşaqları, valideynləri, dul arvadları;
- vəfat etmiş vətəndaşların uşaqları və s.

downloaded from KitabYurdu.az

«Vətəndaşların pensiya tə'minatı haqqında» Azərbaycan Respublikası Qanununun 47, 49 və 51-ci maddələrinə əsasən ailə başçısını itirməyə görə pensiyaların hesablanması qaydası aşağıdakı kimi müəyyən edilmişdir:

Cədvəl 29. Ailə başçısını itirməyə görə pensiyanın hesablanması

Pensiyaçıların kateqoriyaları	Pensiyanın əsas məbləği	Minimum məbləğ
Hər iki valideynini itirmiş, yaxud vəfat etmiş tənha ananın hər uşağına	Hər iki valideynin orta aylıq əmək haqqının 60%	Yaşa görə minimum pensiyanın 100%-18000 manat
Ümumi səbəbdən, peşə xəstəliyi, əmək zədəsi nəticəsində vəfat etmiş şəxslərin hər ailə üzvünə	Orta aylıq əmək haqqının 30%	Yaşa görə minimum pensiyanın 80%-14400 manat
Müharibədə həlak olanların və onlara bərabər tutulanların hər ailə üzvünə	Orta aylıq əmək haqqının 60%	Yaşa görə minimum pensiyanın 100%-18000 manat
Vəfat etmiş hərbi qulluqçuların hər ailə üzvünə	Orta aylıq əmək haqqının 30%	Yaşa görə minimum pensiyanın 80%-14400 manat

«Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə dövlət tə'minatının məzmununu, tədbirlərini müəyyən edir, həmin tə'minatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

Aşağıdakı şəxslərin sosial müdafiəsi həyata keçirilir;

– valideynlərini itirmiş uşaqlar – hər iki valideyni vəfat etmiş 18 yaşınadək olan şəxslər;

– valideyn himayəsindən məhrum olmuş uşaqlar – hər iki valideyni mə'lum olmayan;

downloaded from KitabYurdu.az

– valideynlik hüquqlarından məhrum edilə və ya valideynlik hüquqları məhdudlaşdırılanlar;

– xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan hesab edilən, ölmüş e'lan edilən;

– azadlıqdan məhrum edilmə yerlərində cəzasını çəkən;

– uşaqların tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edilən;

– uşaqların tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoci müəssisələrdən götürməkdən imtina edilən və d. şəxslər.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan qaydada və məbləğdə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün qəyyumlara (himayəçilərə) aylıq müavinətlər verilir.

Bu şəxslərə həmçinin təhsil, tibbi xidmət, əmlak və yaşayış sahəsi, əmək hüququ üzrə tə'minatlar verilir.

Xidmət illərinə görə pensiyalar yaşa görə pensiya almaq hüququ verən yaşa çatandan əvvəl əmək qabiliyyətinin tam və ya qismən itirilməsinə səbəb olan işlərdə çalışan ayrı-ayrı peşə sahibləri üçün müəyyən edilmiş şərtlərlə tə'yin edilir.

Məsələn, AR Nazirlər Kabinetinin təsdiq etdiyi siyahı üzrə təhsil və uşaq tərbiyə müəssisələrində kişilər azı 25 il, qadınlar 20 il pedaqoci fəaliyyət göstərdikdə onlara xidmət illərinə görə pensiya almaq hüququ verilir.

65-ci maddəyə əsasən xidmət illərinə görə pensiyalar aşağıdakı qaydada hesablanır:

Xidmət illərinə görə pensiyanın hesablanması	**Xüsusi staca görə əlavələr**	**Xidmət illərinə görə pensiyala-rın minimum məbləği**	**Xidmət illərinə görə pensiyala-rın maksimum həddi**
Orta aylıq əmək	Pensiya tə'yin	Yaşa görə mini-	Orta aylıq əmək

downloaded from KitabYurdu.az

haqqının 60%	edilməsi üçün tələb ediləndən artıq xüsusi iş stacının hər tam ili üçün orta aylıq əmək haqqının 1%	mum pensiyanın 100%-18000 m.	haqqının 80%

İşləməyən pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi haqqında 24 dekabr 1999-cu il Sərəncama əsasən pensiya və müavinətlərinin ümumi məbləği 50 min manatdan az olan işləməyən pensiyaçıların (III qrup əlilliyə görə pensiya alanlardan başqa) pensiya və müavinətlərinin ümumi məbləği dövlət büdcəsinin vəsaiti hesabına əlavə edilməklə 50 min manata çatdırılıb.

Sosial pensiyalar aşağıdakı əmək qabiliyyəti olmayan işləməyən vətəndaşlara onların əmək pensiyası almaq hüququ olmadıqda tə'yin edilir və ödənilir:

- ümumi xəstəlik nəticəsində I, II və III qrup əlillərə;
- 65 yaşına çatmış kişilərə, 60 yaşına çatmış qadınlara;
- 55 yaşına çatmış, 3 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş analara;
- uşaqlıqdan əlil olanların 55 yaşına çatmış analarına, onlar həmin uşaqları 8 yaşınadək tərbiyə etmişlərsə;
- ailə başçısını itirmiş uşaqlara;
- vəfat etmiş ailə başçısının 8 yaşına çatmış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə qulluq edən və işləməyən valideynlərdən birinə və ya ərə (arvada), yaxud babaya nənəyə, qardaşa, bacıya yaşından və əmək qabiliyyətindən asılı olmayaraq.

Sosial pensiya əmək qabiliyyəti almaq hüququ olmayan I,II və III qrup uşaqlıqdan əlillərə və eləcə də 16 yaşına çatmamış əlil uşaqlara da tə'yin olunur.

downloaded from KitabYurdu.az

«Vətəndaşların pensiya tə'minatı haqqında» Azərbaycan Respublikası Qanununun 91-ci maddəsi sosial pensiyaların aşağıdakı qaydada məbləğini müəyyən etmişdir.

Azərbaycan Respublikasında sosial sığortalar sahəsində tənzimlənən münasibətlər, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsasları 18 fevral 1997-ci ildə qəbul edilmiş «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

Yaşa görə sosial pensiyalar	**Ailə başçısını itirməyə görə sosial pensiyalar**	**I qrup əlilliyə və II qrup əlilli-yə görə so-sial pensi-yalar**	**II qrup ümumi xəstəlikdən əlilliyə görə sosial pensiyalar**	**16 yaşına çatmamış uşaqlara sosial pensiyalar**	**III qrup əlilliyə görə sosial pensiyalar**
Yaşa görə minimum pensiyanın 80%	Yaşa görə minimum pensiyanın 80%	Yaşa görə minimum pensiyanın 100%	Yaşa görə minimum pensiyanın 80%	Yaşa görə minimum pensiyanın 100%	Yaşa görə minimum pensiyanın 50%
14400 manat	14400 manat	18000 manat	14400 manat	18000 manat	9000 manat

Qeyd:

I qrup əlillərin, 16 yaşına çatmamış əlil uşaqların pensiyalarının üzərinə yaşa görə minimum pensiyanın 50% - 9000 manat məbləğində qulluq əlavəsi hesablanır.

Sosial sığorta vətəndaşların itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına ygnəldilmiş tə'minat formasıdır.

downloaded from KitabYurdu.az

Sosial sığorta məcburi dövlət sıcortası və könüllü (əlavə) sığorta formalarında olur.

Məcburi dövlət sosial sığortası işəgötürənlər tərəfindən bütün fərdi əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilir.

Sosial sığorta hadisəsi baş verdikdə aşağıdakı sığorta ödəmələri verilir:

- «Vətəndaşların pensiya tə'minatı haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət pensiyaları;
- könüllü (əlavə) sosial sığorta əsasında dövlət pensiyalarına əlavələr;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət;
- haiməliliyə və doğuma görə müavinət;
- uşağın anadan olmasına görə birdəfəlik müavinət;
- qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət;
- dəfn üçün müavinət;
- sığorta olunanların sanatoriya-kurort müalicəsi üzrə xərclərinin tam və ya qismən ödənişi.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə sosial sığorta üzrə tə'minatın növləri də müəyyən edilə bilər.

İkinci növ tə'minat vətəndaşların əvvəlki ödənclərindən asılı olmayaraq müvəqqəti və ya həmişəlik əhalinin ehtiyacı olan aztə'minatlı təbəqəsinə kömək olunmasını nəzərdə tutur.

Bu tədbirlər dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirilir. Bu kateqoriyada olan ailələrin müavinət alması hüququ forması üçün bə'zi hallarda ailənin aylıq gəlirinin məbləği nəzərə alınır.

downloaded from KitabYurdu.az

Dövlət büdcəsi vəsaiti hesabına aşağıdakı müavinətlər ödənilir:

- uşaq doğulduğu aydan başlayaraq 16 yaşına çatanadək (18 yaşınadək təqaüd almayan məktəblilər) verilən müavinətlər;
- işləməyən təqaüdçülərə verilən müavinət;
- uşağın valideyni müddətli hərbi xidmətdə olduğu müddətdə verilən müavinət;
- müharibə əlillərinin, şəhid ailələrinin uşaqlarına verilən müavinət;
- 70 yaşından yuxarı tənha, ahıl vətəndaşlara aylıq əlavə müavinət;
- sosial təqaüdçülərə, Çernobıl qəzası əlillərinə, I və II qrup vətəndaşlara aylıq əlavə müavinət;
- 1941-1945 ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, fədəkar əməyinə görə orden və medallarla təltif edilmiş vətəndaşlara aylıq müavinətlər.

Sosial sığorta vəsaitləri hesabına mvaliyyələşdirilən əsas tə'minat növü vətəndaşların pensiyalarının ödənilməsidir.

«Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikası Qanunu bu işçilərin sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və sağlamlığının dövlət icbari şəxsi sığorta qaydalarını və şərtlərini müəyyən etmişdir.

Hər bir məhkəmə və hüquq-mühafizə orqanları işçisi onların 5 illik əmək haqqı məbləğində sığorta edilir.

Sığorta haqqı, işin aparılması üçün sığortaçının xərcləri də nəzərə alınmaqla, sığorta məbləğinin bir faizi miqdarında müəyyən edilir.

downloaded from KitabYurdu.az

Sığorta hadisələri baş verdikdə sığorta məbləğindən faizlə aşağıdakı sığorta ödənişləri verilir:

a) sığorta olunan məhkəmə və ya hüquq mühafizə orqanlarında xidmətdə olduğu zaman həlak olduqda (vəfat etdikdə) – 100 faiz;

b) sığorta olunan xidmətdə olduğu zaman aldığı zədələnmə, yaralanma və ya xəsarətə görə xidmətdən çıxdıqdan sonra üç il ərzində öldükdə – 100 faiz;

v) sığorta olunana əlillik tə'yin olunduqda:

- I qrup – 80 faiz;
- II qrup – 60 faiz;
- III qrup – 40 faiz;

q) sığorta olunan:

- ağır yaralandıqda – 20 faiz;
- yüngül yaralandıqda – 10 faiz.

Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari sı-ğortası hər il dövlət büdcəsindən nəzərdə tutulmuş vəsait hesabına aparılır.

«Bə'zi kateqoriyalardan olan vətəndaşlara tə'dilən aylıq və birdəfəlik müavinətlərin məbləği barədə» Fərmana əsasən:

- valideynlərdən biri şəhid olmuş ailədə hər bir uşağın 16 yaşı (şagirdlər üçün 18 yaş) tamam olanadək onların hər birinə aylıq müavinət 35 min manat məbləğində müəyyən edilmişdir;

- Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarını dispanser qeydiyyatında olan uşaqlarına hər uşaq üçün aylıq müavinət 25 min manat məbləğində müəyyən edilmişdir;

- «Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial

downloaded from KitabYurdu.az

müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununun 14-cü maddəsində nəzərdə tutulmuş əlillərə hər il müalicə ilə əlaqədar olaraq verilən birdəfəlik müavinət 30 min manat müəyyən edilmişdir.

«Hərbi qulluqçuların» pensiya tə'minatı haqqında Azərbaycan Respublikasının Qanunu müvafiq icra hakimiyyəti orqanlarının zabit hey'əti, gizirləri, miçmanları və xidmətindən artıq xidmət edən hərbi qulluqçuları, habelə müvafiq icra üakimiyyəti orqanlarının sıravi və rəis hey'əti, onların ailələri üçün Azərbaycan Respublikasının ərazisində vahid dövlət pensiyaları sistemini müəyyən edir.

Hərbi qulluqçulara əlilliyə görə pensiyalar, onların ailələrinə isə ailə başçısının itirməyə görə pensiyalar, xidmət illərinə görə pensiyalar tə'yin edilir.

20 il və daha çox hərbi xidmət və ya orqanlarda xidmət etməyə görə pensiyanın minimum məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən minimum əmək haqqının 150 faizi məbləğində tə'yin edilir.

Əlilliyə görə pensiyaların minimum məbləğləri aşağıdakı kimi müəyyən edilir;

a) I və II qrup müharibə əlillərinə və xidməti vəzifələrini yerinə yetirərkən əlil olmuş hərbi qulluqçulara – yaşa görə minimum pensiyanın 200 faizi, III qrup əlillərə – yaşa görə minimum pensiyanın 150 faizi;

b) digər əlillərə, o cümlədən xidməti vəzifələri yerinə yetirməklə bağlı olmayan hadisə nəticəsində əlil olmuş şəxslərə:

- I və II qrup əlillərə – yaşa görə minimum pensiyanın 100 faizi məbləğində;

- III qrup əlillərə - yaşa görə minimum pensiyanın 50 faizi məbləğində.

downloaded from KitabYurdu.az

Ailə başçısını itirməyə pensiyalar aşağıdakı məbləğlərdən az ola bilməz:

- ailənin əmək qabilləyəti olmayan hər bir üzvü üçün – yaşa görə minimum pensiyanın 75 faizi;
- valideynlərinin ikisini də itirmiş hər uşaq üçün, habelə hərbi əməliyyatlar zamanı və ya xidmət vəzifələrini yerinə yetirərkən həlak olmuş hərbi qulluqçunun ailəsinin əmək qabiliyyəti olmayan hər bir üzvü üçün - yaşa görə minimum pensiyanın 100 faizi.

21 may 1999-cu il tarixində Azərbaycan Respublikası Prezidenti «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununu imzalamışdır. Qanunun məqsədi Azərbaycan Respublikasında məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin məskunlaşdırılması, sosial müdafiəsi tədbirlərinin və bununla əlaqədar dövlət orqanlarının vəzifələrini müəyyən edir.

Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərə aşağıdakı sosial müdafiə tədbirləri tətbiq edilir:

- müvəqqəti yaşayış sahəsi ilə tə'min edilməsi;
- məşğulluğun tə'min edilməsi;
- sosial tə'minat;
- tibbi tə'minat;
- təhsil hüququnun tə'min edilməsi;
- nəqliyyat və mənzil-kommunal güzəştləri;
- vergi güzəştləri.

Məcburi köçkünlərə əmək qabiliyyətinin müvəqqəti itirməyə görə sosial sığorta ödəmələri iş stacından asılı olmayaraq əmək haqlarının tam həcmində ödənilir.

Azərbaycan Respublikasının Məcburi köçkünlərin Sosial Müdafiə Fondu Azərbaycan Respublikası Prezidentinin Qərarı ilə 6 dekabr 1999-cu ildə Azərbaycan

downloaded from KitabYurdu.az

Respublikasının Nazirlər Kabinetinin yanında yaradılmışdır.

Fondun əsas məqsədi məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, onlar üçün iş yerlərinin açılmasını tə'min edən tədbirlərin həyata keçirilməsi, əsasən sosial infrastrukturun bərpasına yönəldilmiş mikrolayihələrin yerinə yetirilməsi üçün vəsait ayırmaq istifadəsini tə'min etməkdən ibarətdir.

Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncama əsasən yemək xərci üçün verilən aylıq müavinət 2000-ci ilin yanvar ayının 1-dən 20 min manat məbləğində müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti «Məcburi köçkünlərin birdəfəlik və mütəmadi pul yardımları, ərzaq və sənaye məhsulları ilə tə'min edilməsi» Qaydasını təsdiq edmişdir. Bu Qərara əsasən məcburi köçkünlərə mütəmadi pul yardımları dövlət büdcəsi hesabına ödənilir.

XXV fəsil. DÖVLƏT BORCLARI VƏ DÖVLƏT ZƏMANƏTLƏRİ

25.1. Dövlət borclarının və dövlət zəmanətlərinin iqtisadi mahiyyəti, əsas anlayışlar.

Hər bir dövlətin mövcud maliyyə vəsaiti ilə onun xərcləri arasında müəyyən dövr ərzində fərq əmələ gələ bilər. Bu fərq həm müsbət, həm də mənfi ola bilər. Belə ki, müsbət fərq olduqda həmin vəsait dövlətin ehtiyatına keçir. Bu fərq mənfi olduqda isə hər hansı bir mənbə hesabına ödənilməlidir. Həmin mənbənin tapılması bu fərqin bağlanması prosesi və sonradan borcun qaytarılması borclanma adlanır. Başqa sözlə desək, hökumətin

downloaded from KitabYurdu.az

xərclərinin gəlirlərlə örtülə bilməyən hissəsinin digər mənbələrdən borc hesabına ödənməsi və hər bir hüquqi və fiziki şəxsə zəmanət verməsi nəzərdə tutulur.

Dövlət borcu – müvavfiq xərclərin maliyyələşdirilməsi üçün dövlət zəmanəti ilə alınan və dövlətin öhdəliyi əsasında müəyyən edilmiş müddətlərdə qaytarılması nəzərdə tutulan maliyyə vəsaitidir.

Dövlət borcları normal istifadə olunarsa, sosial-iqtisadi inkişafa müsbət təsir göstərə bilər. Əgər onlar yalnız cari istehlak məqsədlərinə istifadə olunarsa, bu zaman cəmiyyət üçün ağır bir yükə çevrilir.

Beynəlxalq maliyyə-kredit və digər kredit təşkilatlar ilə saziş əsasında ölkədə həyata keçirilən iqtisadi islahatların dəstəklənməsi və ayrı-ayrı prioritet hesab edilən layihələrin maliyyələşdirilməsi məqsədilə müvafiq qaydada hökumət zəmanətləri verilir. Belə ki, dövlət büdcəsində həmin il tələb olunan məbləğdə vəsait olmadıqda hökumət zəmanətlə borc alır və gələcək illərin büdcəsində bu borcun ödənilməsi üçün vəsait nəzərdə tutulur.

Dövlət zəmanətinin verilməsi məsələsinə dövlət investisiya proqramları çərçivəsində baxılır və kreditlə əhatə olunan layihələr üzrə texniki-iqtisadi əsaslandırmalara və kredit sazişinin şərtlərinə Maliyyə Nazirliyi və digər əlaqədar orqanlar tərəfindən müvafiq rəy verilir.

Dövlət borc zaman hüquqi və fiziki şəxslərin və digər qurumların qənaətlə yığdıqları vəsaiti özünə cəlb edir və buna uyğun olaraq borcun müddəti bitdikdə geri qaytarır. Buna görə də borclanma həm dövlətə gəlir gətirir, həm də dövlət xərclərini artırır. Dövləti borclanmaya sövq edən əsas səbəb dövlətin ən vacib xərclərini tam maliyyələşdirmək məcburiyyətidir. Bu xərclər heç də həmişə vergilər və digər dövlət gəliri ilə təmin edilə bilmir. Çünki, dövlətin vergi və

downloaded from KitabYurdu.az

digər ənənəvi gəlirlərinin artırılmasının müəyyən hüdudu vardır. Bu hüdud nə qədər geniş olsa da elə dövlət xərcləri meydana gəlir ki, həmin gəlirlər bunun üçün kifayət etmir. Bu baxımdan borclanmanı vergilərə və başqa dövlət gəlirlərinə alternativ kimi başa düşmək qətiyyən düzgün deyildir. Bununla bərabər hər hansı bir dövlət xərcinin vergi və digər normal dövlət gəlirləri ilə deyil, borclanma ilə maliyyələşdirilməsi üçün xüsusi səbəb ola bilər. Bu əsasən xüsusi səbəblərə əsaslanan maliyyə ehtiyaclarının təmin edilməsidir. Bu kimi xərclərə əsasən fövqəladə hallar, müharibə, təbii fəlakətlərlə bağlı xərclər aid edilir.

Dövlətin borclanması və borcların idarə edilməsi də dövlət xərcləri və gəlirləri kimi onun maliyyə siyasətinin mühüm tərkib hissəsidir.

Dövlət borclanmaya və borcların tdarə edilməsinə başlayarkən bu vasitə ilə özünə gəlir əldə etmək məqsədini deyil, iqtisadi və sosial vəzifələri reallaşdırmaq istəyir. Əsasən dövlət ən çox inflyasiya dövrlərində borclanır. Əsas məqsəd sərf ediləcək xərclərin təmin edilməsi deyil, iqtisadiyyatda pul-kredit və valyuta sahəsindəki çətinlikləri aradan qaldırmaqdır.

İnflyasiya dövrlərində dövlət borclarının uzunmüddətli və yüksək faizli olması lazım gəlir ki, burada da məqsəd iqtisadiyyatda pul aktivlərinin məhdudlaşdırılması, şəxsi istehlak və investisiya xərclərinin azaldılmasına nail olmaq izafi xərclərə tələbi aşağı salmaqdan ibarətdir.

Müasir dövrdə demək olar ki, dünyanın əksər dövlətləri mütəmadi olaraq borclanmaq və borc ödəmək məcburiyyətindədirlər. Dövlətin borclanma və ödəmə fəaliyyəti dövlətin borc bazarı və ya borc imkanlarını aydın göstərir. Bu borc bazarı eyni xüsusiyyətli borclardan ibarət

downloaded from KitabYurdu.az

deyildir. Bu baxımdan dövlət borcları xüsusiyyətlərinə görə qruplaşdırılır.

«Dövlət borcu haqqında» Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikasının daxili borcu daxili və xarici dövlət borcundan ibarət olmaqla, respublikanın təxirəsalınmaz sosial-iqtisadi xərclərinin maliyyələşdirilməsi və büdcə kəsirinin yerinin doldurulması üçün Azərbaycan Respublikası Hökumətinin hüquqi və fiziki şəxslərə, habelə xarici dövlətlərə müvafiq faiz ödənilməklə qaytarılmalı olan, milli və ya xarici valyuta ilə idarə edilmiş borc öhdəlikləridir.

Maliyyə Nazirliyinin Azərbaycan Respublikası adından bağladığı müqavilələr (sazişlər) üzrə milli valyutada ifadə olunmuş daxili dövlət borcunun və xarici dövlət borcunun ümumi məbləğidir. Azərbaycan Respublikasının digər xarici valyutalarda dövlət borcu Azərbaycan Respublikası Milli Bankı tərəfindən müvafiq tarixə müəyyən olunmuş rəsmi valyuta məzənnəsinə əsasən milli valyutada ifadə olunun.

Azərbaycan Respublikasının dövlət borcunun formaları və tərkibi aşağıdakılardan ibarətdir.

- Azərbaycan Respublikası Hökumətinin aldığı kreditlər;
- Hökumət adından buraxılan qiymətli kağızlar şəklində dövlət istiqrazları;
- Hökumətin təminat verdiyi digər borc öhdəlikləri.

Borcun tərkibi isə ötən illərin borcundan və yeni yaranan borcdan ibarətdir.

Dövlət borcu qısamüddətli, ortamüddətli və uzunmüddətli borc öhdəlikləri şəklində ola bilər.

Azərbaycan Respublikasının kreditlər üzrə dövlət zəmanətləri Maliyyə Nazirliyinin Azərbaycan Respublikası

downloaded from KitabYurdu.az

adından kreditlər üzrə təqdim etdiyi bütün dövlət zəmanətləridir.

Azərbaycan Respublikasının daxili kreditlər üzrə dövlət zəmanətləri Azərbaycan Respublikasının kreditlər üzrə dövlət zəmanətlərinin tərkib hissəsi olmaqla, zəmanət müqavilələrinə uyğun olaraq milli valyutada ifadə olunmuş məbləğin kredit təşkilatlara ödəniş üzrə Maliyyə Nazirliyinin Azərbaycan Respublikası adından üzərinə götürdüyü bütün şərti öhdəliklərin məbləğini özündə əks etdirir

Azərbaycan Respublikasının xarici kreditlər üzrə dövlət zəmanətləri Azərbaycan Respublikasının kreditlər üzrə dövlət zəmanətlərinin tərkib hissəsi olmaqla, zəmanət müqaviləsinə uyğun olaraq xarici valyutada ifadə olunmuş məbləğin kreditor təşkilatlarına ödəniş üzrə Maliyyə Nazirliyinin Azərbaycan Respublikası adından üzərinə götürdüyü bütün şərti öhdəliklərin məbləğini özündə əks etdirir.

Əsas borc məbləği – borc müqaviləsinə (sazişə) uyğun olaraq alınmış (istifadə edilmiş) pul vəsaitlərinin ümumi məbləğidir.

Dövlət qiymətli kağızı – dövlət borcunun bir forması olmaqla, borc alan timsalında Azərbaycan Respublikası ilə kreditor timsalında fiziki və hüquqi şəxslər arasında milli və ya digər valyutada qısamüddətli və ya uzunmüddətli borc müqaviləsindən irəli gəlir.

Faizli qiymətli kağız üzrə (dövlət istiqrazı) əsas borc məbləği – ödəniş gününə ödənilməli olan qiymətli kağızın nominal dəyərinin ümumi məbləğidir.

Diskontlu qiymətli kağız – nominal dəyərindən aşağı qiymətə satılan qiymətli kağızdır.

downloaded from KitabYurdu.az

Təxsisat – Parlament tərəfindən Hökumətə verilmiş səlahiyyət çərçivəsində xəzinədarlıq vasitəsilə həyata keçirilən xərclərdir.

Daimi təxsisat – il ərzində təsdiq olunmuş büdcə haqqında qanunda yenidən təsdiqi tələb edilməyən qanunvericiliklə nəzərdə tutulmuş müəyyən məqsəd üçün həyata keçirilən büdcə xərcləridir.

Xəzinədarlıq hesabı – bütün gəlirlərin toplandığı və büdcə xərclərinin həyata keçirildiyi hesabdır.

Hesabda yazılış sistemi – Azərbaycan Respublikasının Milli Bankı tərəfindən baş agent kimi qiymətli kağızların sənədləşdirilmiş formasının qeydiyyat və uçotunun aparılması sistemidir.

Pul öhdəliyi – müəyyən pul məbləğinin ödənilməsi üzrə öhdəlikdir.

Təminat hesabı – Maliyyə Nazirliyi tərəfindən dövlət zəmanətləri üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə benifisiar təşkilatların verilmiş zəmanətlərə görə ödədiyi haqq və büdcə vəsaiti hesabına yaradılan büdcədənkənar hesabdır.

Təminat müqaviləsi – Maliyyə Nazirliyi ilə kreditor arasında ödənişlərin müəyyən edilmiş şərtlərə uyğun olaraq həyata keçiriləcəyi haqqında bağlanan müqavilədir.

Kredit müqaviləsi – debitorun kredit təşkilatından pul vəsaitləri alması, əsas borc və müvafiq faizlərin müəyyən vaxtdan sonra ödənilməsinə dair razılığı haqqında müqavilədir.

Azərbaycan Respublikasının dövlət borclarının maliyyələşdirilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatına uyğun olaraq həyata keçirilir.

25.2. Azərbaycan Respublikasının daxili dövlət borcunun formaları və tərkibi

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının daxili dövlət borcu Azərbaycan Respublikasının dövlət borcunun tərkib hissəsi olmaqla, Maliyyə Nazirliyinin Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri ilə bağladığı müqavilələrin bilavasitə yerinə yetirilməmiş öhdəlikləri ilə borc vəsaitlərinin milli valyutada yekununu əks etdirir.

Daxili borc – dövlətin daxili bazarlardan əldə etdiyi, yəni ölkə daxilində yerləşən müəssisə və təşkilatlardan, banklardan və yaxud əhalidən cəlb edilən borclara deyilir.

Hər hansı bir borcun daxili borc olub-olmadığını müəyyənləşdirən əsas əlamət borcun alınma yeridir. Əgər borc milli maliyyə mənbəyi ilə təmin olunarsa, onda bu borc daxili borcdur.

Daxili borclar dövlət borcunun ən mühüm hissəsini təşkil edir. Həmçinin qeyd olunmalıdır ki, inflyasiyanın sabit olduğu hallarda dövlətin daxili maliyyə bazarlarından borclanması xarici maliyyə bazarlarından borclanmasından daha asandır və üstündür. Bundan başqa, dövlət daxili maliyyə bazarlarından borclanarkən satdığı dövlət istiqrazlarının pulunu tez bir zamanda əldə edir və tez bir zamanda da dövlət xərclərini ödəyir.

Normal şəraitdə, yəni iqtisadi sabitlik dövründə dövlətin buraxdığı istiqrazların daxili maliyyə bazarlarında alıcının tapılması heç də çətin olmur. Dövlət qiymətli kağızlarını satın alanlar müxtəlif qurumlar ola bilərlər: - müxtəlif fondlar, xeyriyyə cəmiyyətləri, sosial yardım təşkilatları, sığorta şirkətləri, investisiya şirkətləri və fondları, Milli Bank, kommersiya bankları, maliyyə şirkətləri, fiziki şəxslər və s.

downloaded from KitabYurdu.az

Hazırda Azərbaycanda da müəyyən qədər daxili və xarici borc bazarı yaranmışdır. Bu borclar isə «Dövlət borcu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Daxili və xarici dövlət borclarının limitləri hər il dövlət büdcəsi ilə bərabər təsdiq olunur.

Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatına əsasən Azərbaycan Respublikasının dövlət daxili borcunun maliyyələşmə mənbələri aşağıdakılardır:

- uzunmüddətli dövlət daxili uduşlu istiqrazları;
- qısamüddətli istiqrazlar və veksellər;
- başqa kateqoriyalara aid olmayan uzunmüddətli ssudalar;
- başqa kateqoriyalara aid olmayan qısamüddətli ssudalar;
- sair öhdəliklər;
- bank hesabında vəsait qalıqlarının dəyişdirilməsi.

Ölkənin daxili borcunun əsas komponentləri aşağıdakılardan ibarətdir:

- dövlət qısamüddətli istiqraz vərəqələri;
- 1994-cü il dövlət 150 faizli istiqraz vərəqələri;
- hökumətin sərəncamına əsasən buraxılmış dövlət nəğdsiz kuponlu istiqraz vərəqələri;
- beynəlxalq maliyyə-kredit və digər kredit təşkilatları ilə aparılan danışıqlar nəticəsində ölkədə həyata keçirilən iqtisadi islahatların dəstəklənməsi və ayrı-ayrı prioritet hesab edilən layihələrin maliyyələşdirilməsi məqsədilə müvafiq hökumət zəmanətləri ilə verilmiş kreditlər;
- Birləşmiş Universal Səhmdar Bankının zəruri kapitala və likvidliyə olan tələbatını ödəmək məqsədilə buraxılan dövlət qiymətli kağızları;

downloaded from KitabYurdu.az

- Mərkəzləşdirilmiş kredit resursları üzrə Azərbaycan Respublikası Milli Bankının silinmiş əsas borcu məbləğində yerləşdirilmiş dövlət qiymətli kağızları;
- 2001-ci il dövlət daxili uduşlu istiqraz vərəqələri.

Kreditlər üzrə maliyyələşmələr Azərbaycan Respublikasının Hökuməti adından «zəmanətçi» kimi çıxış edən Maliyyə Nazirliyi ilə benefisiar arasında müvafiq sazişlər imzalandıqdan sonra həyata keçirilir. Hökumət zəmanəti ilə təmin edilmiş kreditlərdən istifadə edən benefisiarlar layihələr üzrə görülmüş işlər və maliyyələşmələrlə əlaqədar Maliyyə Nazirliyinə rüblük hesabatlar təqdim edilməli və eyni zamanda Maliyyə Nazirliyi bu hesabatları Nazirlər Kabinetinə təqdim etməlidir.

Daxili dövlət krediti aşağıdakı formalarda ola bilər: dövlət istiqrazları; əhalinin əmanətlərinin bir hissəsinin dövlət istiqrazlarına çevrilməsi; ümumdövlət ssuda fondundan borc vəsaitinin alınması; xəzinə öhdəlikləri və s.

Normal iqtisadi sabitlik şəraitində dövlətin buraxdığı istiqrazların daxili maliyyə bazarında satışı normal həyata keçirilir.

Dövlət istiqrazlarının xüsusiyyəti əhalinin, müəssisə və təşkilatların sərbəst pul vəsaitləri istiqrazların, xəzinə biletlərinin və digər qiymətli kağızların buraxılışı və satışı ilə əlaqədar xərclərin maliyyələşdirilməsinə sərf edilməsindən ibarətdir. Dövlət istiqrazları satarkən onlara görə müəyyən müddət ərzində, müəyyən faizlə cəlb edilmiş pul vəsaitinin ödənilməsini öz üzərinə bir öhdəlik kimi götürür.

Dövlət istiqrazları bir neçə əlamət üzrə təsnifləndirilir:

1. Yerləşdirmə üsuluna görə dövlət istiqrazları bir neçə əsas qrupa bölünürlər: *sərbəst dövr edən; abunə formasında yerləşdirilən; icbari formada yerləşdirilən.*

downloaded from KitabYurdu.az

Dövlət istiqrazları hökumət tərəfindən ssuda kapitalı bazarında bankların və qeyri-bank maliyyə institutları vasitəçiliyi ilə yerləşdirilir. İstiqrazlar adətən bank sistemi vasitəsilə, əhalinin əmanətlərinin yaradılması üçün isə əmanət bankları vasitəsilə yerləşdirilir.

2. Dövlət istiqrazları *qısamüddətli* – bir il müddətinədək ödənilən; *orta müddətli* – beş ilədək; *uzunmüddətli*- beş ildən yuxarı olur.

3. Gəlirlik növlərinə görə istiqrazlar *faizli* (istiqraz sahibi hər il eyni həcmdə təsdiq olunmuş dərəcə əsasında gəlir əldə edir) və *uduşlu* (uduş tiracı nəşr olunandan sonra gəlir əldə edilir) ola bilər.

4. Dövlət istiqrazları yerləşdirilməsi yerinə görə *daxili* (milli valyutada) və *xarici* (kreditor ölkənin, borc alan ölkənin, üçüncü ölkənin valyutasında) olur. Daxili istiqrazları xarici ölkə vətəndaşları da ala bilər.

Bir çox ölkələrdə dövlət istiqrazları dövlət gəlirlərinin əsas hissəsini təşkil edirlər (vergilərdən sonra ikinci). Büdcə kəsirinin xroniki mövcudluğu şəraitində dövlət artan xərclərini maliyyələşdirmək məqsədilə dövlət istiqrazlarından istifadəni genişləndirir. Vergilərin sistematik artımına baxmayaraq ölkənin artan xərclərini tam ödəyə bilmirlər. Dövlət istiqrazları dövlətə qısa müddət ərzində böyük həcmdə pul vəsaitinin cəmlənməsinə imkan verir.

Dövlət istiqrazlarının mahiyyəti ondan ibarətdir ki, dövlətin kreditorları rolunda dövlətə könüllü olaraq pul vəsaitlərini ssuda formasında verən ssuda kapitalının sahibi çıxış edir. Eyni zamanda dövlət istiqrazlarının ödənilməsi və onlara görə faizlərin verilməsi vergilər vasitəsilə həyata keçirilən vəsaitlərdir. Dövlətin kreditorları faiz şəklində gəlir əldə edirlər, yəni bu halda istiqrazlar vasitəsilə milli gəlirin yenidən bölgüsü həyata keçirilir.

downloaded from KitabYurdu.az

Dövlət istiqrazları bir qayda olaraq, pul formasında olur. Kağız pulların kəskin qiymətdən düşməsi nəticəsində onların natural formada tətbiqi həyata keçirilirdi. Dövlət istiqrazlarının ümumi həcmində daxili istiqrazların xüsusi çəkisi yüksəkdir (Böyük Britaniyada – 97 %, Fransada – 96 %, İtaliyada – 90 % və Yaponiyada – 87 %).

Azərbaycanda dövlətin daxili borclarına çəkilən xərclərin ÜDM-da xüsusi çəkisi 2001-ci ildə 0,5%, büdcə xərclərində isə 2,9% təşkil etmişdir. Daxili borcun ödənilməsi ilə bağlı xərclərdə daxili istiqrazların xüsusi çəkisi 20,2% olmuşdur, 2002-ci ildə isə bu göstərici 36,0% proqnozlaşdırılmışdır.

Dövlət istiqrazları həm mərkəzi hökumət tərəfindən, həm də yerli idarəetmə (bələdiyyə) orqanları tərəfindən buraxıla bilər.

Bəzi hallarda dövlət borcları o miqyasa çatır ki, bəzi dövlətlər dövlət istiqrazları üzrə öhdəliklərini müəyyən olunmuş müddətdə ləğv edə bilmirlər. Buna görə də əvvəllər buraxılmış istiqrazların şərtlərini dəyişmək zərurəti yaranır. Bu istiqrazlar üzrə xərclərin azaldılması üçün onların müddəti uzadılır və ya ödəniləcək faizlərin həcmi azaldılır. Bəzi hallarda bu üsulların hər ikisi birgə tətbiq olunur.

Dövlət qiymətli kağızları qiymətli kağızlar bazarında xüsusi yer tutur. 26 iyul 1999-cu ildə qəbul edilmiş «Qiymətli kağızlar haqqında» Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında qiymətli kağızların buraxılışı və tədavülü qaydalarını müəyyən edir, qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyətini tənzimləyir. Dövlət istiqrazları, veksellərin bəzi tipləri, banknotlar, xəzinə öhdəlikləri, çeklər və başqaları onların sahibi ilə emitentlər arasında əmlak münasibətlərini əks etdirir, bunlardan istifadəyə görə gəlir əldə etməyə imkan verir. Dövlət

downloaded from KitabYurdu.az

qiymətli kağızları müəyyən səbəblərə görə hökumət, icra hakimiyyəti orqanları tərəfindən buraxıla bilər.

Qiymətli kağız – onun sahibinin əmlak və qeyri-əmlak hüquqlarını və bu hüquqların verilməsi imkanını müəyyən edilmiş formaya və məcburi rekvizitlərə riayət etməklə təsdiqləyən sənəddir.

Qiymətli kağızlar emissiya və qeyri-emissiya qiymətli kağızlarına bölünür.

Emissiya qiymətli kağızları – buraxılışlarla yerləşdirilən və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq bir buraxılış daxilində hüquqlarının həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlardır.

Qeyri-emissiya qiymətli kağızları – buraxılışlarla yerləşdirilən və qiymətli kağızlar üzrə hüquqların keçməsinin həcmi və müddəti müxtəlif olan qiymətli kağızlardır. Qeyri-emissiya qiymətli kağızlarına veksel, çek, depozit sertifikatları, opsion, varrant, fyuçers, özəlləşdirmə payları və bu anlayışa cavab verən qiymətli kağızların digər növləri aiddir.

Səhm – onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini dividend şəklində almaq, səhmdar cəmiyyətin idarə edilməsində iştirak etmək və o, ləğv edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüququnu təsbit edən emissiya qiymətli kağızıdır.

İstiqraz vərəqəsi – onun sahibinin emitentdən istiqraz vərəqəsində nəzərdə tutulan müddətdə onun nominal dəyərinin və bu dəyərdən müəyyən edilmiş faizi və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsbit edən emissiya qiymətli kağızıdır. Dövlət və bələdiyyə qiymətli kağızları üzrə gəlir aşağıdakı formada müəyyən edilə bilər:

downloaded from KitabYurdu.az

- qiymətli kağızın nominalına nisbətdə müəyyənləşdirilmiş faiz dərəcəsi ilə;
- pilləli faiz dərəcəsi ilə;
- diskontla (nominal dəyərdən güzəştlə);
- dəyişilə bilən faiz dərəcəsi ilə;
- qiymətli kağızların nominal dəyərinin indeksləşdirilməsi yolu ilə.

Dövlət istiqrazların nominal dəyərini müəyyən edir. Bu məbləğ istiqraz sahibinə onun ləğv edilməsi nəticəsində ödənilir və onun üzərinə faizlər hesablanır. Lakin istiqraz sahibi üçün real gəlirlik səviyyəsi onun nominal dəyərindən yuxarı və yaxud aşağı ola bilər. Bu onunla əlaqədardır ki, istiqrazlar məzənnə qiyməti ilə satıla bilər, bu da onun nominal dəyərindən fərqlənə bilər. Belə kənarlaşma *məzənnə fərqi* adlanır.

Dövlət qiymətli kağızlarının buraxılmasının əsas məqsədi bunlardır:
- cari büdcə kəsirinin maliyyələşdirilməsi;
- əvvəllər buraxılmış istiqrazların ləğv edilməsi (ödənilməsi);
- dövlət büdcəsinin kassa icrasının təmin edilməsi;
- bütün maliyyə ili ərzində vergi daxilolmalarının bərabər həcmdə təmin olunması;
- büdcə ödəmələrinin ardıcıllığının tənzimlənməsi;
- dövlətin müəyyən edilmiş pul-kredit siyasətinin həyata keçirilməsi;
- dövlət əhəmiyyətli sosial problemlərin həlli və s.

Bələdiyyə qiymətli kağızların buraxılması aşağıdakı məqsədlərlə həyata keçirilir:
- yerli büdcənin formalaşması;
- yerli iqtisadi inkişaf proqramının həyata keçirilməsi;

downloaded from KitabYurdu.az

- yerli əhəmiyyətli sosial, mədəni və məişət problemlərinin həll edilməsinin həyata keçirilməsi;
- alqı-satqı əməliyyatlarının həyata keçirilməsi.

Qiymətli kağızlar bazarı – ölkənin təsərrüfat mexanizminin ayrılmaz hissəsidir. Bu bazar dövlət xəzinəsinə nağd pulun daxil olmasının etibarlı təminatçısıdır və müəssisələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə onların sərbəst pul vəsaitlərinə görə gəlir əldə etməyə imkan verir.

Fond birjası – müstəsna olaraq fəaliyyət predmeti qiymətli kağızların normal tədavülü üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi (qiymətli kağızlara olan tələb və təklif arasında tarazlığı əks etdirən qiymət), həmçinin onlar haqqında lazımi informasiyanın yayılması, qiymətli kağızlar bazarı iştirakçılarının yüksək peşəkarlıq səviyyəsi nümayiş etdirmək üçün şərait yaradılması olan təşkilatdır.

Qiymətli kağızlar buraxılışı – sahiblərinə eyni həcmdə hüquqları təmin edən, eyni emissiya (ilkin yerləşdirmə) şərtləri və bir dövlət qeydiyyatı nömrəsi olan qeydə alınan bir emitentin qiymətli kağızlarının məcmusudur.

Dövlət qiymətli kağızlarını Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi buraxır. Dövlət qiymətli kağızları yazılı hüquqi sənəd olmaqla hesabda sənədləşdirilmiş və ya sənədləşdirilməmiş formada buraxılır.

Emissiya qiymətli kağızların sənədləşdirilmiş forması – müvafiq surətdə sənədləşdirilmiş qiymətli kağızlar sertifikatı təqdim etmək əsasında və ya qiymətli kağızlar deponentə qoyulduğu halda deponent hesabında olan yazının əsasında sahibi müəyyən edilən emissiya qiymətli kağızları formasıdır.

Emissiya qiymətli kağızların sənədləşdirilməmiş forması – qiymətli kağız sahiblərinin reyestrinin aparılması

downloaded from KitabYurdu.az

sistemində yazı əsasında və ya deponent hesabında olan yazının əsasında sahibi müəyyən edilən emissiya qiymətli kağızları formasıdır.

25.3. Azərbaycan Respublikasının xarici borcunun formaları və tərkibi

Azərbaycan Respublikasının xarici dövlət borcu Azərbaycan Respublikasının dövlət borcunun tərkib hissəsi olmaqla, Maliyyə Nazirliyinin Azərbaycan Respublikası adından xarici hüquqi və fiziki şəxslərlə, həmçinin Beynəlxalq maliyyə təşkilatları ilə bağladığı müqavilələrə əsasən bilavasitə yerinə yetirilməmiş maliyyə öhdəliklərinin xarici valyutada yekununu əks etdirir.

Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatına əsasən Azərbaycan Respublikasının dövlət xarici borcunun maliyyələşdirmə mənbələri aşağıdakılar hesab edilir:

- uzunmüddətli istiqrazlar;
- qısamüddətli istiqrazlar və veksellər;
- başqa kateqoriyalara aid olmayan uzunmüddətli ssudalar;
- başqa kateqoriyalara aid olmayan qısamüddətli ssuda və avanslar;
- sair öhdəliklər;
- bank hesablarında vəsait qalıqlarının dəyişdirilməsi.

Azərbaycan Respublikasının xarici dövlət borcunun vəsaitlərinə aşağıdakılar aiddir:

- milli valyutadan başqa istənilən qanuni xarici valyutada borc haqqında müqaviləni (sazişi) özündə əks etdirən dövlət qiymətli kağızları;

downloaded from KitabYurdu.az

- xarici dövlətlərin hökumətlərindən, xarici dövlətlərin hökumətlərinin agentlərindən (müvəkkillərindən) alınan borclar;
- xarici maliyyə-kredit təşkilatları və beynəlxalq maliyyə təşkilatları tərəfindən verilən kreditlər;
- digər xarici xüsusi banklardan və fondlardan alınan iki tərəfli və çoxtərəfli kreditlər.

Xarici dövlət borcları üzrə alınmış vəsaitlər aşağıdakı məqsədlər üçün istifadə olunur:
- dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsinə;
- tədiyyə balansının saxlanmasına;
- investisiya layihələrinin maliyyələşdirilməsinə;
- xammalın, enerci resurslarının və digər məhsulların idxalına;
- kreditlər üzrə dövlət zəmanətləri ilə əlaqədar öhdəliklərin yerinə yetirilməsinə;
- digər məqsədlərə.

Xarici kreditlərin alınması üzrə müqavilələrə əsasən investisiyaların və ya idxalın maliyyələşdirilməsi üçün alınmış vəsaitlər Maliyyə Nazirliyinin təklifi ilə, hökumətin qərarına əsasən respublikaının maliyyə təşkilatları arasında bölüşdürülür. Borc alınmış vəsaitlərin qaytarılma şərtləri Maliyyə Nazirliyi və maliyyə-kredit təşkilatları arasında bağlanmış müqavilələrə əsasən müəyyən olunur. Bu müqavilələrdə Maliyyə Nazirliyinə ödənilən faiz dərəcəsi, faiz dərəcəsinə marca limiti, əsas borc və faizlərin ödəniləcəyi valyuta, həmçinin tərəflərin digər öhdəlikləri öz əksini tapır.

Xarici kreditlər üzrə alınan vəsaitlər, büdcədən maliyyələşən təşkilatlara investisiya və ya idxal üçün nəzərdə tutularsa, bu borclar Azərbaycan Respublikası Hökumətinin və Milli Məclisin müvafiq qərarlarında

downloaded from KitabYurdu.az

müəyyən olunmuş şərtlər əsasında Maliyyə Nazirliyi tərəfindən idarə olunur.

Azərbaycan Respublikasının xarici borcu – struktur dəyişiklikləri ilə əlaqədar (maliyyə-bank, satınalmalar, enerci sektoru, su və digər dövlət sektorlarında aparılan islahatların həyata keçirilməsi üçün) Dünya Bankından alınmış kreditlər, yoxsulluğun azaldılması və inkişafına kömək məqsədilə Beynəlxalq Valyuta Fondundan alınmış kreditlər, ixracat məqsədilə Türkiyə Eksimbankından alınmış kreditlər və digər kommersiya banklarından alınmış kreditlərdən ibarətdir.

Xarici ölkələrdən kreditlər uzunmüddətli və aşağı faizlə alınmışdır.

Azərbaycan Respublikası 1995-ci ildən başlayaraq Beynəlxalq maliyyə-kredit təşkilatlarından hökumətin iqtisadi islahatlarının dəstəklənməsi üçün Beynəlxalq Valyuta Fondundan 462,5 mln. dollar həcmində kredit almış, 01 yanvar 2001-ci il tarixi vəziyyətinə bu kreditin 94,8 %-i istifadə olunmuşdur.

Dünya Bankı tərəfindən Maliyyə Nazirliyinə 157,1 mln. dollar həcmində kredit verilmişdir. Kredit uzunmüddətli olub, 0,75 %-lə 2032-ci ilədək qaytarılmaq şərtilə verilmişdir. Kreditin 38,8 %-ni reabilitasiya krediti, 11,9 %-ni institusional kredit, 49,3 %-ni SAK krediti təşkil edir və tam istifadə edilmişdir.

Beynəlxalq maliyyə-kredit təşkilatlarından güzəştli şərtlərlə investisiya layihələrinin maliyyələşdirilməsi üçün alınmış kreditlərin həcmi 802,3 mln. dollar, digər təşkilatlardan kommersiya şərti ilə investisiya layihələrinin maliyyələşdirilməsi üçün alınmış kreditlərin həcmi 515,9 mln. dollar təşkil etmişdir.

downloaded from KitabYurdu.az

Bütövlükdə alınmış kreditlərin 41,9 %-ni bilavasitə hökumətə verilən kreditlər, 34,2 %-ni hökumətə verilən və icraçıya ötürülən kreditlər, 23,9 %-ni hökumət zəmanəti ilə təqdim edilən kreditlər təşkil edir. 01 yanvar 2001-ci il tarixinə istifadə olunmuş kreditlər 64,7 % təşkil etmiş, qaytarılmış məbləğ 5 %-ə yaxın olmuşdur.

Azərbaycanda dövlətin xarici borclarına çəkilən xərclərin ÜDM-da və büdcə xərclərində xüsusi çəkisinin ən yüksək səviyyəsi 1998-ci ildə müşahidə olunun (müvafiq olaraq 1,4% və 6,7%). 2001-ci ildə bu göstəricilərin nisbəti azalmış 0,3% və 1,9% olmuşdur. Xarici dövlət borclarının qaytarılması ilə əlaqədar 2002-ci ildə xərclərdə onların xüsusi çəkisinin nisbi artımı nəzərdə tutulur (müvafiq olaraq 0,4% və 2,4%).

Hökumət zəmanəti ilə alınan kreditlərin qaytarılmasına nəzarətin gücləndirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti 11 iyun 2001-ci ildə fərman imzalamışdır.

Fərmanla müəssisə və təşkilatlar tərəfindəın hökumət zəmanəti ilə alınan kreditlərin vaxtında qaytarılmasına nəzarət Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə həvalə edilmişdir. Maliyyə Nazirliyinə tapşırılmışdır ki, Hökumət zəmanəti ilə kredit almış dövlət müəssisə və təşkilatlarında nazirliyin nümayəndəliyini təyin etsin, hökumət zəmanəti ilə kredit almış müəssisə və təşkilatlarda alınmış vəsaitin istifadə olunması vəziyyətini hərtərəfli araşdırıb öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görsün və bu barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat versin.

Müəyyən edilmişdir ki, hökumət zəmanəti ilə kredit almış müəssisə və təşkilatlarda kreditin vaxtında

downloaded from KitabYurdu.az

qaytarılması vaxtında təmin olunanadək bu müəssisə və təşkilatların hesablarına onların təsərrüfat fəaliyyətindən daxil olan vəsaitin əmək haqqı, vergilər və qanunvericiliklə nəzərdə tutulmuş digər məcburi ödənişlər istisna olmaqla, başqa məqsədlər üçün istifadəsinə yalnız Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla yol verilir.

XXVIII fəsil. BÜDCƏDƏNKƏNAR FONDLAR VƏ ONLARIN SOSİAL-İQTİSADİ MAHİYYƏTİ

Büdcədənkənar fondlar dövlətin maliyyə sisteminin mühüm hissəsidir. Onların yaradılmasında əsas məqsəd mümkün qədər çox vəsait cəlb etmək və onları sosial-iqtisadi məsələlərin həllinə yönəltməkdən ibarətdir.

Büdcədənkənar fondları dövlət və yerli səviyyələrdə yaratmaq olar. Məqsədli təyinatına görə büdcədənkənar fondları sosial-iqtisadi və digər fondlara bölmək olar.

Büdcədənkənar fondlar pul vəsaitlərinin xüsusi formasıdır. Büdcədənkənar fondlar üçün pul vəsaitlərinin yaradılması və istifadəsinin xüsusi sistemi fəaliyyət göstərir.

Dövlətin büdcədənkənar fondları mərkəzi və yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan və məqsədli təyinata malik olan maliyyə vəsaitlərinin məcmusudur.

Tarixən büdcədənkənar fondlar büdcədən tez yaranmışdır. Onların büdcə vəsaitlərindən əsas fərqi məqsədi üzrə istifadə edilməsindən ibarətdir. Maliyyə sisteminin inkişafının müəyyən mərhələsində müxtəlif fondların birləşməsi nəticəsində dövlət büdcəsi yaranmış və bu da bir fondda vəsait çatışmadıqda digər fondun vəsaiti hesabına ödəniləmsinə imkan verirdi. Büdcədənkənar

downloaded from KitabYurdu.az

fondların dövlətin büdcə sisteminə daxil olması prosesi hələ də davam etməkdədir. Məsələn, son illər büdcədənkənar fondların bir hissəsi dövlət büdcəsinin tərkibinə daxil edilmiş və *məqsədli büdcə fondları* statusu almışdır.

Müasir dövrdə büdcədənkənar fondların əhəmiyyəti artır. Bu ilk növbədə fondların büdcədən kənar fəaliyyət göstərməsi üstünlüyü ilə əlaqədardır. Bu üstünlüklərə aiddir: birincisi, fondların muxtar fəaliyyət göstərməsi. İqtisadiyyatın qeyri-sabitliyi və büdcə kəsirinin mövcudluğu şəraitində xüsusi tədbirlərin maliyyələşdirilməsi sabit olaraq büdcədənkənar fondlar vasitəsilə həyata keçirilir.

İkinci üstünlüyü ondan ibarətdir ki, büdcədənkənar fondların gəlir hissəsi büdcəyə nisbətən tez dolur və bu da fonda müsbət saldonun mövcudluğu şəraitində büdcənin kreditoru rolunu oynamağa imkan verir.

Büdcədənkənar fondların mənbəyini milli gəlir təşkil edir. Bu fondların əsas yaranma mənbələrini sosial sığorta haqları, transfertlər, müəssisə və təşkilatların əmək haqqı fondlarından, balans mənfəətindən məcburi ayırmalardan daxilolmalar, kommersiya və sahibkarlıq fəaliyyətindən daxilolmalar təşkil edir.

Xüsusi fondlar. Sənayecə inkişaf etmiş ölkələrin maliyyə sistemi üçün müxtəlif büdcədənkənar fondlar, həmçinin «xüsusi fondlar» anlayışı altında birləşən birləşdirilmiş büdcələr xarakterikdir. İnkişaf etmiş ölkələrin maliyyə sistemi üçün onların əhəmiyyəti böyükdür. Bir sıra ölkələrdə xüsusi fondlar həcminə görə dövlət büdcəsi ilə müqayisə edilə bilər, bir çox ölkələrdə isə bu fondlar vasitəsilə dövlət xərclərinin 1/3 hissəsi, hətta yarısı maliyyələşdirilir.

downloaded from KitabYurdu.az

Hüquqi statusundan asılı olaraq xüsusi fondlar *dövlət və yerli fondlara* bölünürlər. Dövlət xüsusi fondlarına mərkəzi hakimiyyət orqanlarının sərəncamlarında olan fondlar daxildir. Bu fondlara aiddir: dövlətin valyuta fondu, mərkəzi yol fondu, investisiya fondları, elmi-tədqiqat fondları, pensiya fondu və b. Yerli xüsusi fondlar müxtəlif tədbirlərin kreditləşdirilməsi üçün yaradılan fondlardır.

İstifadə istiqamətinə görə xüsusi fondlar aşağıdakı qruplara bölünür:

- sosial fondlar;
- iqtisadi fondlar;
- elmi-tədqiqat fondları;
- kredit fondları;
- şəxsi və əmlak sığortası fondları;
- hərbi-siyasi fondlar;
- dövlətlərarası fondlar.

Sosial fondlar. Sosial fondlar əhaliyə sosial yardımın həyata keçirilməsi məqsədilə yaradılan pul vəsaitləri fondlarıdır. Son zamanlar bir sıra obyektiv səbəblərə görə (inkişaf etmiş ölkələrdə həyat səviyyəsinin yaxşılaşması ilə əlaqədar uzunömürlüyün artması və s.) sosial ehtiyacların artması müşahidə olunur.

Sosial fondların yaradılmasının üç əsas mənbəyi mövcuddur: sığorta olunanların və muzdla işləyənlərin sığorta haqları, sahibkarların ödədiyi sığorta haqları, dövlət subsidiyaları.

Sığorta olunanların və muzdla işləyənlərin sığorta haqları onların gəlirlərin-dən çıxılan hissədir. Bir çox ölkələrdə bu haqların dərəcələri faizlə və proporsional olaraq tətbiq edilir, yə'ni onlar gəlirlərin həcmindən asılı olaraq dəyişmir, sabit olur. Müxtəlif ölkələrdə üzvlük

downloaded from KitabYurdu.az

haqlarının dərəcələri aşağıdakı həcmdə müəyyən edilir: Böyük Britaniyada və Fransada – 5,7%, ABŞ-da – 7,15%, Yaponiyada – 5,3% və s.

Sahibkarların ödədiyi sığorta haqlarının həcmi müxtəlifdir, məsələn, ABŞ-da 15,3% həcmində kombinə edilmiş dərəcə (muzdla işləyənlərdən və sahibkarlardan birgə) tətbiq olunur.

Burada sığorta haqqına cəlb edilmə bazası qabaqcadan müəyyən edilmiş maksimal ümumi əmək haqqıdır (məsələn, ABŞ-da bu məbləğ 50 min dollardır). Maksimum həddi keçdikdə haqq ödənilmir.

Sosial fondlara haqq istehsal xərclərinə bərabər tutulur və beləliklə, məhsulun qiymətinə daxil edilir.

ABŞ-da çoxlu sayda sosial fondlar vardır. Bunların arasında ən iriləri qocalığın, əlilliyin və ailə başçısının itirilməsinə görə sığorta fondu, dövlət qulluqçularının sığortalanması fondu, ehtiyacı olanlara yardım fondudur.

Almaniyada bir neçə fond vardır: fəhlə və qulluqçuların pensiya sığortası fondu, xəstəliyə görə sığorta fondu, işsizliyə görə sığorta fondu.

Böyük Britaniyada milli sığorta fondu və dövlət müəssisələrinin pensiya fondu fəaliyyət göstərir.

Yaponiyada sağlamlığın sığortası fondu, istehsal zədələnməsindən sığorta fondu və işsizliyə görə sığorta fondu fəaliyyət göstərir.

Fransada əhaliyə sosial yardım fondu, xəstəliyin, əlilliyin, analığın sığortalanması fondu, pensiya fondu, ailələrə yardım fondu və işsizlərə yardım milli fondu xidmət edir.

İqtisadi fondlar. İqtisadi fondlar təsərrüfat prosesinin tənzimlənməsi məqsədilə yaradılır. Bu fondlara investisiya fondları və modernləşdirmə fondları aiddir. Bu fondlar

downloaded from KitabYurdu.az

vasitəsilə dövlət və özəl kompaniyaların subsidiyalar və imtiyazlı kreditlər formasında maliyyələşdirilməsi həyata keçirilir.

ABŞ-da iqtisadiyyatın yenidən qurulması və inkişafı fondu fəaliyyət göstərir və bu fondun yaranmasının əsas mənbəyi federal büdcənin vəsaitləridir.

Fransada iqtisadi və sosial inkişaf fondu (mənbəyi – ssuda kapitalları bazarında yerləşdirilən istiqrazlar, mərkəzi büdcənin vəsaitləri), sənaye adaptasiya fondu (mənbəyi – mərkəzi büdcənin vəsaitləri), konyunktura fondu (mənbəyi – konyunktura vergisi) fəaliyyət göstərir.

Yaponiyada investisiya büdcəsi (mənbəyi – əmanət, sığorta və pensiya vəsaitləri) fəaliyyət göstərir.

Elmi-tədqiqat fondları. ***Elmi-tədqiqat fondları sənayedə və tikintidə elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi, həmçinin fundamental tədqiqatları həyata keçirən dövlət elmi mərkəzinin saxlanması üçün istifadə edilir.***

ABŞ-da milli elmi fond (mənbəyi – federal büdcənin vəsaiti, sənaye müəssisələrinin mənfəətindən ayırmalar, universitetlərin və kolleclərin üzvlük haqları), standartlar bürosunun elmi fondu (mənbəyi – federal büdcənin vəsaiti) fəaliyyət göstərir.

Böyük Britaniyada tədqiqatların inkişafı üzrə millmi korporasiya fondu (mənbəyi – ixtitalardan istifadə hüququ verən lisenziyaların satışından gəlir, uzunmüddətli imtiyazlı dövlət krediti, mərkəzi büdcədən subsidiyalar) fəaliyyət göstərir.

Kredit fondları. Kredit fondları – dövlət banklarının, əmanət kassalarının, digər kredit institutlarının qaytarılmaq və faizli şərtlərlə verilən vəsaitləridir. Bu fonddan istifadə etmək hüququna dövlət sifarişlərini yerinə

downloaded from KitabYurdu.az

yetirən hüquqi şəxslər və ya inkişaf etmiş ölkələrin dövlət proqramları ilə işləyənlər malikdirlər.

ABŞ-da fermer kreditinin inzibati fondu, mənzil tikintisinin imtiyazlı kreditləşdirilməsi fondu (mənbəyi – xəzinədarlığın vəsaiti, qiymətli kağızlar emissiyası), ABŞ-ın ixrac-idxal bankı fondu (mənbəyi – bankın vəsaiti, qiymətli kağızlar emissiyası) fəaliyyət göstərir.

Fransada Fransanın Bank fondu(mənbəyi – Milli Bankın vəsaitləri, fondun qiymətli kağızlar emissiyası), xarici ticarət bankı fondu (mənbəyi – xarici ticarət Bankı vəsaiti, xüsusi istiqrazlar emissiyası) fəaliyyət göstərir.

Yaponiyada mənzil tikintisinin maliyyələşdirilməsi korporasiyası fondu, kiçik və orta müəssisələrin maliyyələşdirilməsi korporasiyası fondu, Yaponiyanın ixrac-idxal bankı fondu (mənbələri – büdcə vəsaitləri, kreditlərin verilməsindən gəlirlər) fəaliyyət göstərir.

IV BÖLMƏ

BÜDCƏ PROSESİNİN TƏŞKİLİ ƏSASLARI

XXVII fəsil. BÜDCƏ PROQNOZLAŞDIRILMASI

27.1. Maliyyə-büdcə siyasəti

Dövlət öz funksiyalarını yerinə yetirmək üçün lazımi miqdarda maliyyə vəsaitinin səfərbərliyə almalı və istifadə etməlidir ki, bu da əsasən büdcə vasitəsilə həyata keçirilir. Büdcə mexanizmi vasitəsilə maliyyə vəsaitinin toplanması və istifadəsi zamanı dövlətlə hüquqi və fiziki şəxslər arasında müəyyən maliyyə münasibətləri əmələ gəlir. Həmin maliyyə münasibətləri dövlətin maliyyə-büdcə siyasəti vasitəsilə tənzimlənir.

downloaded from KitabYurdu.az

Maliyyə-büdcə siyasəti - hər bir konkret tarixi dövrdə cəmiyyətin idarə edilməsi, iqtisadi-sosial və siyasi vəzifələrin həyata keçirilməsi məqsədilə dövlətin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması və məqsədəuyğun istifadəsi ilə əlaqədar olaraq həyata keçirtdiyi tədbirlər sistemindən ibarətdir.

Dövlətin büdcə siyasəti Azərbaycan Respublikasının Konstitusiyası ilə, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə, ayrı-ayrı hakimiyyət orqanlarının büdcə prosesi sahəsində funksiyalarını və səlahiyyətlərini ifadə edən digər qanunvericilik aktları ilə müəyyən edilir. Büdcə siyasətini yalnız büdcə prosesinə aid etmək olmaz. Büdcə siyasəti haqqında qanun hər bir dövlət hakimiyyəti orqanının büdcə prosesindəki funksiyalarını dəqiq müəyyən edir.

Bununla yanaşı, büdcə siyasəti UDM-un büdcə vasitəsilə istifadə edilən hissəsinin müəyyən edilməsini, büdcə vəsaitinin istifadə edilməsi zamanı mərkəzi və yerli hakimiyyət və idarəetmə orqanları arasındakı münasibətləri, büdçənin xərclərinin quruluşunu və büdçə xərçlərinin müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsini, dövlət borclarının və büdcə kəsirinin idarə edilməsi kimi məsələləri və s. əhatə edir.

Dövlətin maliyyə siyasətinin tərkib hissəsi kimi büdçə siyasətinin işlənib hazırlanmasında dövlət hakimiyyətinin qanunveriçi və içraediçi həlqələri iştirak edir. Müasir dövrdə Azərbayçan Respublikasının inkişaf xüsusiyyətləri şəraitində çari dövr və perspektiv ücün ölkənin iqtisadi siyasətinin, o çümlədən maliyyə-büdçə siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində Respublika prezidenti aparıçı rol oynayır.

downloaded from KitabYurdu.az

Ölkənin iqtisadi inkişafının və sosial sabitliyin təmin edilməsi məqsədilə Respublika prezidenti dövlətin iqtisadi və sosial siyasətinin əsas istiqamətlərini müəyyən edir. Buna əsasən Respublika hökuməti dövlətin maliyyə-büdcə siyasətini həyata kecirmək ücün müvafiq qanun layihələrini hazırlayır və müzakirə və qəbul üçün Milli Məclisə təqdim edir.

Azərbaycan Respublikasının Prezidentinin Büdcə göndərişində növbəti maliyyə ilinə Azərbaycan Respublikasının büdcə siyasəti müəyyən edilir. Yerli səviyyədə bu siyasət müvafiq orqanların qərarları ilə müəyyən edilir. Bu siyasət maliyyə və vergi orqanlarının, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Vergilər Nazirliyi, pul-kredit siyasətini tənzimləyən orqanın (Azərbaycan Respublikasının Milli Bankı), nəzarət-hesablama orqanının (Azərbaycan Respublikasının Hesablama Palatası) fəaliyyətində həyata keçirilir.

Azərbaycan Respublikasında büdcə ili, büdcə icrası prosesi yanvarın 1-dən dekabrın 31-dək olan 12 aylıq dövrdür. Büdcə prosesinin uzunluğu (müddəti) büdcə ilindən çoxdur, belə ki, büdcə prosesinə büdcə proqnozlaşdırılmasına, sonradan, büdcə nəzarətinə və digər proseslərə ayrılan vaxt daxildir.

Büdcə siyasətini həyata keçirən dövlət orqanları sisteminə maliyyə orqanları, pul-krediti təzimləyən orqanlar, dövlət (bələdiyyə) maliyyə nəzarəti orqanları daxildir. Hər bir orqanın öz funksiya və səlahiyyətləri vardır.

Pul-kredit siyasətini tənzimləyən orqan Azərbaycan Respublikasının Milli Bankı sayılır.

Dövlət və ya bələdiyyə maliyyə nəzarəti orqanlarına aşağıdakılar daxildir:

downloaded from KitabYurdu.az

- Azərbaycan Respublikasının Hesablama Palatası;
- dövlət maliyyə və bələdiyyə nəzarəti orqanları;
- Naxçıvan Muxtar Respublikasının qanunvericilik orqanı və yerli özünüidarəetmə nəzarət orqanları.

Büdcə sisteminə nəzarət orqanları aşağıdakılardır:

- Azərbaycan Respublikasının Prezidenti;
- Azərbaycan Respublikasının Milli Məclisi;
- icra hakimiyyəti orqanları;
- pul-kredit siyasətini tənzimləyən orqanlar;
- büdcə vəsaitinin baş sərəncamçıları və sərəncamçıları.
- Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi ilə büdcə, vergi və digər səlahiyyətlər həvalə edilən başqa orqanlar.

Milli Bank Azərbaycan Respublikasının hökuməti ilə birlikdə pul-kredit siyasətinin əsas istiqamətlərini işləyir və baxılmaq üçün Milli Məclisə təqdim edir.

Milli Bank büdcənin xəzinə hesablarına xidmət edir.

Azərbaycan Respublikasının qanunvericilik orqanları, yerli özünüidarəetmə orqanları tərəfindən yaradılan dövlət, bələdiyyə maliyyə nəzarət orqanları müvafiq büdcənin və büdcədənkənar dövlət fondlarının icrasına nəzarət edir, göstərilən büdcələrin, dövlət və ərazi məqsədli proqramların və bütün səviyyəli büdcə qanunvericiliklərinin və hüquqi aktların ekspertizasının aparır.

Azərbaycan Respublikasının icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları tərəfindən yaradılan dövlət, bələdiyyə maliyyə nəzarəti orqanları büdcələrin və büdcədənkənar dövlət fondlarının

downloaded from KitabYurdu.az

büdcələrinin icrasına qabaqcadan, cari və sonrakı nəzarəti həyata keçirirlər.

Dövlət və bələdiyyə maliyyə nəzarəti orqanlarının səlahiyyətləri Azərbaycan Respublikasının «Vergi Məcəlləsi», «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanunu, Naxçıvan Muxtar Respublikasının nəzarət orqanları haqqında qanunları, yerli özünüidarəetmə orqanlarının hüquqi aktları, habelə digər normativ hüquqi aktlarla müəyyən edilir.

Dövlət büdcəsi vəsaitlərinin baş sərəncamçısı dövlət büdcəsinin xərclərinin təşkilatlar üzrə təsnifatı əsasında büdcə vəsaitini vəsait alanlar arasında bölgüsünü həyata keçirmək hüququ olan ilk birbaşa büdcə vəsaiti alan Azərbaycan Respublikasının icra hakimiyyəti orqanıdır.

Büdcə vəsaitlərinin baş sərəncamçısının səlahiyyətləri aşağıdakılardır:

– dövlət büdcəsinin xərclərini təşkilatlar üzrə təsnifləşdirmək, büdcə vəsaitlərini vəsaitlər alanlar arasında bölüşdürmək;

– qaytarmaq şərtilə verilən büdcə vəsaitlərinin, dövlət və ya bələdiyyə zəmanətlərinin, büdcə investisiyalarının verilməsi haqqında müqavilələrdə dövləti təmsil etmək;

– tabeçiliyində olan büdcə vəsaitlərinin məqsədli istifadəsini tə'min etmək, onların vaxtında qaytarılması, hesabatların vaxtında təqdim edilməsi, dövlət və ya bələdiyyə xidmətləri üzrə tapşırıqların yerinə yetirilməsi üzərində nəzarət etmək;

– tabeçiliyində olan büdcə idarələrinin gəlirlər və xərclər smetalarını təsdiq etmək;

– büdcənin bölgüsünü tərtib etmək, büdcə öhdəlikləri limitlərini, büdcə vəsaitlərini tabeçilikdə olanlar arasında bölüşdürmək;

downloaded from KitabYurdu.az

– büdcə vəsaitlərinin istifadəsinə nəzarət etmək;
– büdcənin icrası haqqında icmal hesabatı, gəlir və xərclərin icmal smetasını, həmçinin dövlət və ya bələdiyyə xidmətləri üzrə verilən tapşırıqların yerinə yetirilməsi haqqında hesabatları hazırlamaq və təqdim etmək.

Büdcə vəsaitlinin sərəncamçıları – büdcə vəsainin tabeçilikdəki büdcə təşkilatları alanlar arasında bölüşdürmək hüququ alan dövlət hakimiyyəti orqanı və ya yerli özünüidarəetmə orqanı sayılır.

Mərkəzi səviyyədə büdcə səlahiyyətlərinə malik olan büdcə prosesinin iştirakçıları aşağıdakılardır:
– Azərbaycan Respublikasının Prezidenti;
– Azərbaycan Respublikasının Milli Məclisi;
– Azərbaycan Respublikasının Nazirlər Kabineti;
– Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;
– Azərbaycan Respublikasının Vergilər Nazirliyi;
– Azərbaycan Respublikasının Milli Bankı;
– Azərbaycan Respublikasının Hesablama Palatası;
– Büdcədənkənar dövlət fondları;
– Azərbaycan Respublikasının qanunvericiliyi ilə büdcə, vergi və digər səlahiyyətlər həvalə edilən orqanlar.

Büdcə prosesinə aşağıdakılar daxildir:
– icmal maliyyə planlaşdırılması və proqnozlaşdırılması;
– büdcə layihəsinin tərtibi, baxılması və təsdiqi;
– büdcə ili ərzində büdcələrin icra edilməsi;
– büdcənin icrasının təhlili və büdcənin icrasına nəzarət.

27.2. Toplu maliyyə planlaşdırılması

downloaded from KitabYurdu.az

Ümumi daxili məhsulun (ÜDM) dövriyyəsi maddi və dəyər formasında həyata keçirilir. ÜDM-un dəyər formasında dövranı zamanı maliyyə vəsainin yaradılması, bölgüsü, yenidən bölgüsü və istehlakı prosesində maliyyə münasibətləri yaranır. Maliyyə vəsaitinin yaradılması, bölgüsü, yenidən bölgüsü və istehlakı prosesinin idarə edilməsi maliyyə planlaşdırılmasının köməyi ilə həyata keçirilir. Maliyyə planlaşdırılması iqtisadiyyatı, təsərrüfatlararası nisbəti balanslaşdırır, əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadənin yollarını müəyyən edir.

Dövlət və yerli səviyyələrdə maliyyə planlaşdırılması dəyər ifadəsində maddi və əmək balansları ilə əlaqələndirilən maliyyə planları sistemi ilə tə'min olunurlar. Hər bir maliyyə planı idarəetmənin konkret sahəsində maliyyənin təşkili və idarə edilməsi məsələlərini həll edir.

Maliyyə planları sisteminə daxildir:

- perspektiv maliyyə planı;
- idarəetmənin dövlət və yerli səviyyələrində tərtib olunan toplu maliyyə balansı.

Perspektiv maliyyə planı - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının, bələdiyyələrin sosial-iqtisadi inkişafının orta və tə"cili proqnozuna əsaslanan, büdcə layihəsi ilə birlikdə formalaşdırılan və özündə büdcə gəlirlərinin səfərbər edilməsi üzrə imkanları, dövlət və bələdiyyə borc götürmənin cəlb edilməsini və büdcənin əsas xərclərinin maliyyələşməsini əks etdirən sənəddir.

Perspektiv maliyyə planı aşağıdakı məqsədlərə görə tərtib olunur:

- sosial-iqtisadi inkişafın və maliyyə siyasətinin istiqamətlərini tə"min etmək;

downloaded from KitabYurdu.az

– planlaşdırılmış tədbirlərin həyata keçirilməsi üçün zəruri olan maliyyə vəsaitləri həcminin proqnozlaşdırılması;

– islahatların, proqramların maliyyə nəticələrinin proqnozlşdırılması;

– maliyyə siyasəti sahəsində mxtəlif tədbirlərin həyata keçirilməsi imkanlarının aşkar edilməsi;

– uzunmüddətli neqativ meyllərin qarşısının alınması və vaxtında müvafiq tədbirlərin həyata keçirilməsi.

Perspektiv maliyyə planı üç ilə işlənir, onlardan:

– birinci il - büdcə tərtib edilən il;

– sonrakı iki il - plan dövrüdür. Bu zaman bəyan edilən iqtisadi siyasətin real nəticələri izlənir.

Perspektiv maliyyə planının formalaşdırılması üçün əsas cari ilin büdcəsi sayılır.

Perspektiv maliyyə planı Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının, bələdiyyələrin sosial-iqtisadi inkişafının orta tə"cili proqnozunun göstəricilərinin dəqiqləşdirilməsinin uçotu ilə dürüstləşdirilir, bu zaman plan dövrü bir il irəli çəkilir.

Perspektiv maliyyə planı büdcə təsnifatının əsas göstəriciləri üzrə tərtib edilir.

Uzunmüddətli məqsədli proqramlar icra hakimiyyəti orqanları, yerli idarəetmə orqanları tərəfindən işlənir, müvafiq qanunvericilik və yerli idarəetmə orqanı tərəfindən təsdiq edilir.

Uzunmüddətli məqsədli proqramların siyahısının formalaşdırılması Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının proqnozuna və müvafiq ərazilərin sosial-iqtisadi inkişaf proqnozuna uyğun olaraq sahələr üzrə icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Təsdiq olunmağa və büdcə vəsaitləri və ya məqsədli büdcədənkənar fondlar hesabına maliyyələşdirməyə təklif

downloaded from KitabYurdu.az

olunan uzunmüddətli proqramlarda aşağıdakılar əks olunmalıdır:

– texniki-iqtisadi əsaslandırmalar;

– göstərilən proqramın tətbiqi nəticəsində gözlənilən sosial-iqtisadi proqnozlar;

– göstərilən proqramların sifarişçilərinin adı;

– işlər üzrə maliyyələşmə mənbələrinin və məbləğlərinin bölüşdürülməsi haqqında mə'lumat;

– onun təsdiq olunması üçün lazım olan digər sənədlər və materiallar.

Torlu maliyyə balansı – konkret dövr üçün ölkədə maliyyə vəsaitlərinin yaranma mənbələrin və istifadə istiqamətlərin barədə məlumatları özündə əks etdirən maliyyə sənədidir. Toplu maliyyə balansı müvafiq ərazidə yerləşən büdcələri və məqsədli büdcədənkənar fondları əhatə edir.

Toplu maliyyə planlaşdırılmasının tərtibi ünvanlı maliyyə planının, yə"ni büdcənin tərtibində hazırlıq mərhələsidir. Dövlətin toplu maliyyə planı təsərrüfat sahələrində maddi və maliyyə nisbətlərinin asılılığına, müxtəlif səviyyəli maliyyə-kredit sisteminin göstəricilərinin uzlaşdı-rılmasına şərait yaradır; dövlətin iqtisadi və sosial inkişaf proqnozu balansının yoxlanmasını tə"min edir, bu proqnozla nəzərdə tutulan tədbirlərinin maliyyələşmə mənbələrini aşkar edir; əlavə maliyyə vəsatilərini aşkar edir; maliyyə siyasəti istiqamətlərini müəyyənləşdirir.

Dövlətin toplu maliyyə balansı makroiqtisadi göstəricilər əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin bahçılığı ilə Maliyyə Nazirliyində hazırlanır. Dövlətin toplu maliyyə balansının strukturu cədvəl 30-də göstərilmişdir.

downloaded from KitabYurdu.az

Beləliklə, toplu maliyyə balansının tərtibi ölkənin iqtisadi və sosial inkişafının konkret istiqamətlərini müəyyən edir; dövlət vəsaitlərinin dövlət qurumları arasında səmərəli

Cədvəl 30. Toplu maliyyə balansının strukturu

GƏLİRLƏR	XƏRCLƏR
1. Fiziki şəxslərin gəlir vergisi	1. Dövlət icra hakimiyyəti orqanlarının saxlanması xərcləri
2.Hüquqi şəxslərin mənfəət vergisi	2. Elm və təhsil xərcləri
3. Əlavə dəyər vergisi və aksizlər	3. Müdafiə xərcləri
4. Hüquqi şəxslərin əmlak vergisi	4. Məhkəmə hakimiyyəti və prokurorluq orqanlarının saxlanması xərcləri
5. Hüquqi şəxslərin torpaq vergisi	5. Səhiyyə xərcləri
6. Yol vergisi	6. Sosial müdafiə və sosial təminat xərcləri
7. Mədən vergisi	7. Mədəniyyət, incəsənət və KİV xərcləri
8.Sadələşdirilmiş sistem üzrə vergi	8. Mənzil-kommunal təsərrüfatı xərcləri
9. Birdəfəlik rüsum	9. Yanacaq və enerci kompleksi xərcləri
10.Vergi olmayan gəlirlər	10.Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri
11.Dövlət əmlakının icarəsindən və satışından daxilolmalar	11.Sənaye və tikinti xərcləri
12.Dövlət kreditlərindən faizlər	12.Nəqliyyat və rabitə xərcləri
13.Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər	13.İqtisadi fəaliyyətlə bağlı sair xərclər
14.Digər gəlirlər	14.Məqsədli büdcə fondları xərcləri
	15.Dövlətin xarici borcları üzrə xərclər

downloaded from KitabYurdu.az

	16.Ehtiyat fondu xərcləri
	17.Yerli büdcələrə dotasiyalar
	18.Sair xərclər
CƏMİ GƏLİRLƏR	CƏMİ XƏRCLƏR

bölgüsünü təşkil edir; dövlət büdcəsi vəsaitləri hüdudunda müxtəlif səviyyəli maliyyə planlarını həyata keçirir; milli gəlirin bölgüsü və yenidən bölgüsünün müxtəlif tərəflərini əks etdirir; məqsədli büdcə fondlarının və ehtiyat fondlarının bölgüsünü həyata keçirir; yerli büdcələrə dotasiyaların həcmini müəyyən edir və s.

27.3. Büdcə proqnozlaşdırılması

Büdcə proqnozlaşdırılması «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 11-cu maddəsinin «Dövlət büdcəsi layihəsinin tərtibi prosesi və büdcə təqvimi» maddəsinə əsasən həyata keçirilir. Büdcə proqnozlaşdırılması respublikanın iqtisadi-sosial inkişaf proqramı və toplu maliyyə planlaşdırılması ilə sıx əlaqədədir.

Təsərrüfat fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün onun idarəetmə üsullarının daim təkmilləşdirilməsi gərəkdir. Bununla əlaqədar olaraq perspektiv planlaşdırmanın rolu artır, deməli, elmi proqnozlaşdırmanın zərurəti meydana gəlir. Natural göstəricilərin parametrlərinin proqnozlaşdırılması maliyyə ehtiyatlarının proqnozu ilə müşaiyət olunmalıdır. Belə ki, bu ehtiyatların artım perspektivinin uçotu olmadan təsərrüfatın inkişafının keyfiyyət baxımdan proqnozlaşdırılması mümkün deyil.

downloaded from KitabYurdu.az

Uzunmüddətli icmal maliyyə planlaşdırılmasından fərqli olaraq büdcə proqnozlaşdırılması ünvanlı olur və büdcə ili üçün, yə»ni bir ildən çox olmayan dövr üçün hesablanır. İcmal maliyyə balansı göstəricilərinin əsas hissəsini büdcə göstəriciləri təşkil etdiyi üçün perspektiv icmal maliyyə balansının tərtibi zamanı əsas büdcə göstəricilərinin proqnoz hesablamaları aparılmalıdır.

Büdcənin inkişaf proqnozu dedikdə, onun gəlir və xərc hissələrinin inkişaf yollarının ehtimal qiymətləri kompleksi nəzərdə tutulur.

Büdcə proqnozlarının məqsədi mövcud konkret sosial-iqtisadi şəraitdə və perspektiv qiymətləndirmə əsasında büdcənin inkişafının optimal yollarını işləmək, əsaslandırmaq və onun möhkəmləndirilməsi üçün təkliflər verməkdən ibarətdir. Belə proqnozlaşdırmanın nəticələrinin müasir uçotu, dövlətin maliyyə siyasətində daha səmərəli tədbirlərin qəbul edilməsinin mühüm şərtidir.

Büdcə göstəricilərinin proqnozlaşdırılmasının hesablanmasında illik büdcə göstəricilərinin hesablanması ilə yanaşı, metodoloci yanaşmanın da böyük əhəmiyyəti vardır. Büdcələrin illik və rüblük göstəriciləri iqtisadi və maliyyə parametrlərinin birbaşa hesablamaları bazasında müəyyən edilir.

Dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılması qaydası müəyyən edilmişdir. Vergilərin proqnozlaşdırılması zamanı ilk növbədə mə'lumat bazası əldə edilir. Bu mə'lumat bazası Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyindən, Statistika Komitəsindən, Vergilər Nazirliyindən, Gömrük Komitəsindən, ayrı-ayrı təşkilatlardan əldə edilir. Bu bazaya əsaslanaraq hər bir tədiyə növü üzrə potensial vergi məbləği və əvvəlki illərin yığım əmsalı da tətbiq etməklə proqnoz müəyyən edilir.

downloaded from KitabYurdu.az

Birbaşa vergilərin proqnozlaşdırılması

Vergilər üzrə mədaxillərin proqnozlaşdırılması zamanı onların xüsusiyyətləri nəzərə alınır.Mənfəət vergisinin proqnozunun verilməsi üçün ilk növbədə ÜDM-un əvvəlki illər üzrə faktiki və cari ilə gözlənilən döstəricisi müəyyənləşdirilməlidir.

Mənfəət vergisinin proqnozunun hazırlanması zamanı ötən illərin faktiki daxilolmaları, rayon və şəhər ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatların maliyyə-təsərrüfat göstəriciləri barədə mə'lumatlar əldə edilməlidir. Bu tədiyə növünün proqnozu müəyyən edilərkən rayon və şəhər ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatların balans mə'lumatlarından istifadə edilir. Balans mənfəəti məhsulun (işlərin və xidmətlərin) satışından əldə edilən gəlirlərlə məhsulun (işlərin və xidmətlərin) gəlirdən çıxılan xərclərə daxil edilən istehsal və satış məsrəfləri arasındakı fərq kimi hesablanır. Bu zaman qeyri-satış əməliyyatlarından gəlirlərə (xərclərə) aid olan digər müəssisələrin fəaliyyətində payçı kimi iştirakdan gəlir, müəssisəyə məxsus səhmlər, istiqrazlar və digər qiymətli kağızlardan əldə olunan gəlirlər (dividendlər, faizlər), habelə məhsul (işlər və xidmətlər) istehsalı və satışı ilə bilavasitə bağlı olmayan əməliyyatdan götürülən digər gəlirlər (xərclər), o cümlədən cərimə və zərərin ödənilməsi şəklində alınmış və ödənilmiş məbləğləri də nəzərə almaq lazımdır. Balans mənfəəti müəyyən edildikdən sonra mövcud qanunvericilikdə müəyyən olunmuş güzəşt məbləği və çıxılmalar edildikdən sonra mənfəət vergisinin proqnoz məbləği hesablanır.

downloaded from KitabYurdu.az

Qeyd olunanlarla yanaşı mənfəət vergisinin proqnozlaşdırılmasında ayrı-ayrı sahələr, regionlar və ya müəssisələr üzrə həmin vergi üzrə yerinə yetirilmənin dinamikası, hesablanmış məbləğ, qalıq əsas götürülür. Burada müəssisənin əvvəlki illərlə müqayisədə tədiyə qabiliyyəti nəzərə alınır.

Fiziki şəxslərdən gəlir vergisi proqnozlaşdırılanda dövlət və qeyri dövlət sektorunda işçilərin sayı və orta aylıq əmək haqqı əsas götürülür. Bununla yanaşı, fiziki şəxslərdən gəlir vergisinin proqnozunun müəyyən edilməsində rayon ərazisində olan büdcə və qeyri-büdcə təşkilatlarında işləyənlərin orta illik sayı və illik əmək haqqı fondu müəyyən edilməlidir. Sonra illik əmək haqqı fondunu işçilərin orta illik sayına bölməklə bir nəfər işçiyə düşən orta aylıq əmək haqqı hesablanır. Bu tə'diyyə növü üzrə proqnoz hesablanarkən gəlir vergisindən azad olunan və güzəşt edilən əmək haqqı fondunun məbləği çıxılmaqla gəlir vergisi məbləği hesablanır.

Mə"dən vergisi proqnozunun müəyyən edilməsi zamanı xam neftin, təbii qazın, sair faydalı qazıntıların topdansatış qiyməti, eyni zamanda şəhər və rayon ərazisində mülkiyyət formasından asılı olmayaraq yerin təkindən faydalı qazıntıların çıxarılması ilə məşğul olan hüquqi və fiziki şəxslərin dislokasiyası barədə mə"lumat əldə edilməlidir. Bu zaman şəhər və rayon ərazisində yerin təkindən çıxarılan faydalı qazıntıların hər vahidinin dəyəri, onların növü, keyfiyyəti, dağ-mə"dən şəraiti, hasilatın rentabelliyi nəzərə alınmaqla mə"dən vergisinin dərəcələrinə uyğun hesablanır.

Vasitəli vergilərin proqnozlaşdırılması

downloaded from KitabYurdu.az

Vasitəli vergilərə ƏDV, aksizlər, gömrük rüsumları aiddir. ƏDV proqnozunda ilk növbədə ÜDM-un daxili istehlakı, mal və xidmətlər əlavə dəyər vergisinə cəlb olunan və olunmayan qruplarına bölünməklə, güzəştlər nəzərə alınmaqla ƏDV-i üzrə proqnoz hazırlanır, istehsal xərclərinə aid edilmiş məsrəflərin məbləği, bu məsrəflər üzrə ödənilmiş ƏDV-nin məbləği müəyyən edilir. Bundan sonra satılmış malların, işlərin və xidmətlərin dəyəri (o cümlədən əlavə dəyər vergisinə cəlb olunan və olunmayan satış) və bunlar üzrə alınmış ƏDV-nin məbləği müəyyən edilməklə büdcəyə ödənilməli olan ƏDV-nin məbləği müəyyən edilir.

Bu halda əvvəllər ƏDV ödəmiş və 1 yanvar 2001-ci il tarixdən sadələşdirilmiş vergi sisteminə keçmiş vergi ödəyiciləri hökmən nəzərə alınmalıdır.

Aksiz vergisini hesablayarkən aksizə cəlb olunan mallar, məhsulları istehsal və idxal edən rezident və qeyri-rezident şəxslər barədə mə"lumat əldə edilməlidir. Bundan sonra aksizə cəlb olunan malların (neft məhsulları, tütün məmulatları, alkoqollu içkilər) daxili istehlak üçün istehsal müəyyən edilməli, sonra isə aksizin dərəcəsinə uyğun vergi hesablanmalıdır.

Mülkiyyət vergiləri və bu tədiyələrin proqnozlaşdırılması

Mülkiyyət vergilərinə hüquqi və fiziki şəxslərin torpaq vergisi və əmlak vergisi aiddir. Qeyd etmək lazımdı ki, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununa və "Vergi Məcəlləsi"nə əsasən fiziki şəxslərin əmlak və fiziki şəxslərin torpaq vergisi bələdiyyələrin büdcəsinə daxil olur. Torpaq vergisi hesablanarkən rayon və şəhər üzrə olan torpaq sahələri

downloaded from KitabYurdu.az

barədə mə"lumatlar əldə edilməlidir. Bunun üçün rayon ərazisində olan əkin, dinc və həyətyanı torpaqlar, çoxillik əkinlər (keyfiyyət qruplarına görə) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 14 may tarixli 43 saylı qərarı ilə təsdiq edilmiş torpaq vergisini hesablamaq üçün torpaqların qiymətləndirilməsi cədvəlinə əsasən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının tə'yinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında hesablanır. Şəhərlərdə isə sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət və digər xüsusi tə"yinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin tutduğu və kənd təsərrüfatı məqsədləri üçün istifadə edilən torpaqlar, vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar bir kvadrat metrinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 1999-cu il tarixli Qərarında edilmiş dəyişikliyə və "Vergi Məcəlləsi"nə əsasən hesablanır. Həmçinin «Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının tə'yinatı, coğrafi yerləşdirilməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balların müəyyənləşdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 dekabr 2000-ci ci il 230 saylı qərarı nəzərə alınmalıdır. Bu zaman əvvəlki illərdə hüquqi şəxslər tərəfindən hesablanmış və faktiki ödəməyə uyğun yığım faizi müəyyən edilməklə proqnoz müəyyən edilir. Əmlak vergisinin proqnozu müəyyən edilərkən ilk növbədə rayon statistika idarələrinin rayon ərazisində olan hüquqi şəxslərin əsas vəsaitlərinin orta illik dəyəri barədə mə"lumatlarından istifadə edilməlidir. Bu tədiyyə növü üzrə vergitutma obyekti onların balansında olan əmlakın dəyəridir. Hüquqi şəxslər tərəfindən mövcud qanunvericilikdə nəzərdə tutulmuş faiz dərəcəsinə uyğun

downloaded from KitabYurdu.az

olaraq əmlak vergisi üzrə hesablanılan məbləğ və bu məbləğdən əvvəlki illərin yığım faizi nəzərə alınmaqla vergi məbləği məüəyyən edilir.

Gömrük vergiləri və rüsumları və onların proqnozlaşdırılması

Gömrük vergilərinə Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara əlavə dəyər vergisi, idxal rüsumu, gömrük rüsumu, gömrük nəzarəti və gömrük əməliyyatlarının aparılması ilə bağlı daxilolmalar, Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizə cəlb edilən mallar aid edilir. Bu vergi və rüsumların proqnozunun müəyyən edilməsində mal qrupları üzrə idxalın həcmindən, mal qrupları üzrə azadolmalardan, malların mənşə mənbələrinə dair mə"lumatlardan istifadə edilir.

Büdcənin inkişaf proqnozunun tərtibi zamanı müxtəlif üsullardan istifadə edilə bilər:

1) *Ekstropolyasiya üsulu* - əvvəlki dövrün təcrübəsindən (göstərici-lərindən) istifadə etməklə proqnozun tərtibidir. Bu üsuldan az-çox sabit olan dövlət büdcəsinin gəlir və xərcləri üzrə bir sıra maddələrin proqnozlaşdırılmasında istifadə edilə bilər;

2) *Ekspert qiymətləndirilməsi üsullu* - elmin və xalq təsərrüfatının müxtəlif sahələrinin mütəxəssisləri tərəfindən aparılan və əsaslandırılan qiymətləndirmə bazasında proqnozun tərtibidir. Lakin bu üsul subyektivizm elementinə malikdir;

3) Eyni vaxtda hər iki üsuldan istifadə edilir. Bu zaman həm inkişafın obyektiv meyli və həm də mütəxəssislərin fikirləri nəzərə alınır.

downloaded from KitabYurdu.az

Əsas maliyyə qanunauyğunluğunun ekstropolyasiya üsullarından biri *reqressiya xətti* ola bilər. Bu halda büdcə proqnozu üzərində işləyərkən büdcənin yaradılmasına tə"sir edən amillərin araşdırılmasından və öyrənilməsindən başlamaq lazımdır. Bu amillərə ölkənin məhsuldar qüvvələrinin inkişafı və ümumdövlət maliyyə ehtiyatlarının mövcudluğu, demoqrafik dəyişiklik, təsərrüfat sahələrinin inkişafı və b. aiddir.

Perspektiv üçün dövlət büdcəsinin gəlirlərinin həcmi ilə milli gəlir və sənaye və kənd təsərrüfatı istehsalının məcmu məhsulu, eyni zamanda bu göstəricilərlə mənfəət vergisi arasındakı *korrelyasiya əlaqəsindən* istifadə edilə bilər. Korrelyasiya əmsalı bu əlaqələrin sıxlığını göstərir və aydındır ki, büdcənin gəlirləri ilk növbədə vergilər hesabına yaranır, mənfəət vergisi ilə mənfəət arasındakı fərq isə şübhəsizdir.

Perspektiv üçün büdcə vəsaitləri həcminin proqnozlaşdırılması zamanı dərin *iqtisadi və statistik təhlildən* istifadə edilir və bu müəyyən dərəcədə bir çox amillərin göstəricilərə tə"sirinin araşdırılmasına imkan verir. Təhlil göstərir ki, büdcə vəsaitlərinin müəyyən edilməsinin statistik üsulu perspektiv üçün hesablanan göstəricilərin dolğunluğunu əks etdirir.

Yuxarıda qeyd olunan iki dəyişənli kəmiyyəti olan reqressiya tənliyi aşağıdakı xətti halda olar:

$$u = a_0 + a_1 x$$

burada, u - dövlət büdcəsi vəsaitinin həcmi;

x - 1) iqtisadiyyatın sahələrində istehsal edilən məhsul,

2) milli gəlir;

downloaded from KitabYurdu.az

a_0, a_1 - ilkin mə'lumatlar əsasında müəyyən edilən reqressiya xətti əmsalı.

Bu üsulların tərtibi zamanı proqnozlaşdırılan dövrdə asılı olmayan kəmiyyətlərin qiymətlərinin tapılması (milli gəlir və istehsal olunmuş məhsul) problemi sərbəst problem kimi meydana çıxır. Onların müəyyən edilməsi üçün qeyd olunan ümumi göstəricilərin proqnoz hesablanmasından istifadə edilir. İqtisadi təhlil tədqiq edilən göstəricilərin inkişaf tempinin öyrənilməsi, onların qarşılıqlı münasibəti, tədqiq olunan hadisələrin illər üzrə orta illik tempinin hesablanması ilə tamamlanır. Belə təhlil ona görə vacibdir ki, dövlət büdcəsi real iqtisadi vəziyyət ilə əlaqədədir və xalq təsərrüfatında baş verən hər bir dəyişikliyə reaksiya verir, əhalinin sosial müdafiəsi sahəsində siyasətlə, dövlətin əsas xərclərinin maliyyələşdirilməsi üsullarının dəyişilməsi ilə əlaqədardır.

27.4. Büdcə layihəsinin tərtibi

Büdcə proqnozlaşdırılmasının növbəti mərhələsi - *büdcə layihəsinin tərtibi prosesidir.* Büdcə layihəsinin tərtibinin əsas vəzifəsi dövlət hakimiyyəti orqanı və yerli idarəetmə orqanları üzərinə qoyulmuş funksiyaların dövlət və yerli özünüidarəetmənin iqtisadi və sosial pronozlaşdırılmasında nəzərdə tutulan tədbirlərin maliyyə tə'minatının həyata keçirilməsi məqsədilə büdcədə mərkəzləşdirilmiş pul vəsaitlərinin həcminin müəyyən edilməsidir.

Büdcə layihəsinin tərtib edilməsi üçün Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının, bələdiyyələrin və iqtisadiyyatın müxtəlif sahələrinin sosial-

downloaded from KitabYurdu.az

iqtisadi inkişaf proqnozları işlənib hazırlanır. İcra hakimiyyəti orqanlarında büdcə layihəsinin işlənməsi üçün əsas sayılan icmal maliyyə balansı hazırlanır.

Büdcə layihəsinin tərtib edilməsi Azərbaycan Respublikası hökumətinin, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının, müvafiq icra hakimiyyəti orqanlarının mühüm vəzifəsidir.

Büdcə layihəsinin tərtib edilməsini bilavasitə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və bələdiyyələrin maliyyə orqanları həyata keçirirlər.

Büdcə layihəsinin vaxtında və keyfiyyətlə tərtib edilməsi üçün müvafiq orqanlardan və hüquqi şəxslərdən lazımi mə'lumatlar alınmalıdır.

Büdcə layihəsinin tərtib edilməsi üçün vacib olan mə'lumatlar bunlardır:

- qüvvədə olan mövcud vergi qanunvericiliyi;
- büdcə sisteminin müxtəlif səviyyələrinin tənzimləyici normativləri;
- Azərbaycan Respublikasının dövlət büdcəsinin digər büdcələrə verəcəyi maliyyə yardımının nəzərdə tutulan həcmi;
- Azərbaycan Respublikasının dövlət büdcəsinin digər büdcələrə verəcəyi xərclərin növü və həcmi;
- dövlət və ya bələdiyyə xidmətlərinin göstərilməsinə maliyyə məsrəflərinin normativləri;
- minimum maliyyə tə'minatı normativləri.

Büdcə layihəsinin tərtibi aşağıdakılara əsaslanır:

- Azərbaycan Respublikasının Prezidentinin büdcə göndərişinə;
- növbəti maliyyə ilinə müvafiq inzibati ərazinin sosial-iqtisadi inkişaf proqnozuna;

downloaded from KitabYurdu.az

- növbəti maliyyə ilinə müvafiq ərazinin büdcə və vergi siyasətinin əsas istiqamətlərinə;
- növbəti maliyyə ilinə müvafiq inzibati ərazinin iqtisadiyyatının dövlət və ya bələdiyyə bölməsinin inkişaf planına.

İnzibati-ərazi vahidinin sosial-iqtisadi inkişaf proqnozu son hesabat ilində həmin ərazinin sosial-iqtisadi inkişafı haqqında mə'lumatlar, baza ilinin sonuna qədər ərazinin sosial-iqtisadi inkişaf proqnozu və planlaşdırılan maliyyə ilinə iqtisadiyyatın və sosial sahənin inkişaf meylləri əsasında işlənib hazırlanır.

Büdcə layihəsinin tərtib edilməsi mövcud büdcə qanunvericiliyi əsasında həyata keçirilir.

Əhaliyə ödənilməli müavinət, pensiya, kompensasiya, dotasiya və digər ödəniş növlərinin hesablanması üçün qüvvədə olan hüquqi aktlara edilmiş dəyişikliklər və əlavələr nəzərə alınır.

Büdcə haqqında qanun layihəsində büdcənin əsas xarakteristikası öz əksini tapmalıdır.

Büdcə haqqında qanun layihəsinin əsas xarakteristikasına aşağıdakılar aiddir:

- büdcə gəlirlərinin ümumi həcmi;
- büdcə xərclərinin ümumi həcmi;
- büdcə kəsiri.

Büdcə layihəsinin tərtib edilməsi üçün ilkin makroiqtisadi göstəricilər bunlardır:

- növbəti maliyyə ilinə ÜDM-un həcmi və növbəti maliyyə ilində ÜDM-un artım sür'əti;
- inflyasiyanın səviyyəsi (qiymətlərin artım sür'əti).

Dövlət büdcəsi layihəsinin tərtibi prossesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi günədək olan dövrü əhatə edir.

Qeyd edildiyi kimi, növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozları, məqsədli proqramlar, iqtisadiyyatın sahələrinin, inzibati rayonların, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin cari və növbəti il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi əsasında hazırlanır.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi layihəsinin tərtibi üçün lazım olan iqtisadi və sosial proqramların hazırlanması barədə əsaslandırılmış sənədlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən müddət ərzində və qaydada hazırlanıb ona təqdim edilir.

Azərbaycan Respublikasının qanunvericiliyi əsasında dövlət büdcəsi layihəsinin müəyyən edilmiş əsaslandırıcı materiallar və hesablamalar mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, dövlət büdcəsindən vasitəsilə maliyyələşdirilən təşkilatlardan tələb edilir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi layihəsinin tərtibi üçün lazım olan iqtisadi və sosial proqnozların hazırlanmasına cəlb olunan idarə və təşkilatların adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət büdcəsinin formalaşdırılmasının *birinci mərhələsində* Azərbaycan Respublikasının hökuməti və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən iqtisadiyyatın vəziyyətini əks etdirən makroiqtisadi göstəriciləri əsasında növbəti maliyyə ilinə Azərbaycan Respublikasının iqtisadiyyatının fəaliyyət proqnoz - planı işlənib hazırlanır.

Proqnoz-plan əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi növbəti maliyyə ilinə dövlət büdcəsinin gəlirlər və xərclər üzrə əsas göstəricilərinin layihələrini

downloaded from KitabYurdu.az

hazırlayır. Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatına uyğun olaraq növbəti maliyyə ili üçün dövlət büdcəsi xərclərinin bölgüsünü müəyyəe edir.

Eyni zamanda Azərbaycan Respublikasının hökuməti növbəti maliyyə ilində vəzifə maaşlarının, pensiyaların, müavinətlərin və s ödənişlərin minimum həddinin artırılması haqqında təklifləri nəzərə alır.

Növbəti maliyyə ilinə dövlət büdcəsinin əsas xarakteristikası və Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına uyğun olaraq növbəti maliyyə ilinə dövlət büdcəsi xərclərinin bölgüsü Azərbaycan Respublikasının hökuməti tərəfindən qəbul edildiyi gündən sonra iki həftə ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

– dövlət büdcəsi vəsaitinin büdcədən maliyyələşən təşkilatlar arasında bölüşdürülməsi üçün büdcə layihəsini mərkəzi icra hakimiyyəti orqanlarına göndərir;

– növbəti maliyyə ilinə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən orta müddətli perspektivə Azərbaycan Respublikası hökumətinin Naxçıvan Muxtar Respublikası icra hakimiyyəti orqanına münasibətini bildirir.

Dövlət büdcəsinin formalaşmasının *ikinci mərhələsində* mərkəzi icra hakimiyyəti orqanları tərəfindən büdcə vəsaitinin büdcə təsnifatına uyğun olaraq bölüşdürülməsi, həmçinin büdcə vəsainin sərəncamçılar arasında ünvanlı maliyyələşdirilməsi nəzərdə tutulur.

İcra hakimiyyətinin müvəkkil orqanı eyni zamanda növbəti maliyyə ilində dövlət büdcəsi vəsaitlərindən maliyyələşən məqsədli proqramların siyahısını hazırlayır,

downloaded from KitabYurdu.az

növbəti ildə və orta müddətli perspektivdə onların maliyyələşmə həcmini müəyyən edir.

Növbəti ildə və orta müddətli perspektivdə büdcə layihəsi üzrə razılaşdırılmış məsələlər Maliyyə Nazirinin rəhbərlik etdiyi xüsusi dövlət komissiyasında baxılır.

Azərbaycan Respublikasının hökuməti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən növbəti maliyyə ili üçün təqdim edilmsiş sosial-iqtisadi inkişaf proqnozunun və büdcə layihəsinin əsas göstəricilərinin uyğunluğunu müəyyən edir, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondları büdcələrinin layihələrini, növbəti maliyyə ili və orta müddətli perspektivüçün büdcə-maliyyə siyasətini xarakterizə edən digər sənədləri və materialları dəqiqləşdirir və təyin olunmuş qaydada Milli Məclisə təqdim edilməkdən örrü qanun layihəsini bəyənir. Azərbaycan Respublikasının hökuməti növbəti maliyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsini və ona əlavə olunmuş sənədləri və materialları Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi ilə bağlı aşağıdakı sənədlər hazırlanıb Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir:

- cari ilin dövlət büdcəsinin icrasının vəziyyəti barədə hesabat;
- növbəti büdcə ili üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanun layihəsi;
- Azərbaycan Respublikasının növbəti büdcə ili üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;
- dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar;

downloaded from KitabYurdu.az

- büdcə və vergi siyasətinin əsas istiqamətləri;
- Azərbaycan Respublikasının inzibati ərazisi üzrə icmal maliyyə balansı;
- dövlət büdcəsinə daxil olmayan məqsədli dövlət fondlarının büdcələri haqqında qanun layihələri;
- büdcə təsnifatına uyğun olaraq növbəti büdcə ili üzrə dövlət büdcəsinin gəlirlərinin və xərclərinin məbləği;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər sənədlər.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə təqdim edilir.

Növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisində dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir.

27.5. Büdcə layihəsinə baxılması və təsdiq edilməsi

Maliyyə orqanlarından müvafiq büdcə layihələrini aldıqdan sonra, icra hakimiyyəti orqanları layihəyə baxır və zəruri hallarda düzəlişlər və əlavələr edirlər.

Azərbaycan Respublikası hökuməti növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsini və ona əlavə olunmuş sənədləri və materialları oktyabrın 1-dək Azərbaycan Respublikası Prezidentinə təqdim edir.

Azərbaycan Respublikası Prezidenti növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsinə və ona əlavə olunmuş materiallara baxdıqdan sonra onları oktyarın 15-

downloaded from KitabYurdu.az

dən gec olmayaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi ilə balı aşaöıdakı sənədlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir:

– növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi və qanun layihəsinə dair izahat;

– Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadə və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;

– büdcə-vergi siyasətinin əsas istiqamətləri;

– dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar;

– büdcə gəlirləri təsnifatının, funksional, iqtisadi və təşkilati təsnifatların paraqrafları səviyyəsində gəlirlərin və xərclərin laüihəsi;

– dövlət borcları və dövlət zəmanətləri ilə digər öhdəliklərə dair məlumat;

– növbəti il üzrə icmal büdcənin layihəsi;

– Azərbaycan Respublikasının ərazisi üzrə toplu maliyyə balansı;

– qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olanması nəzərdə tutulduğu hallarda növbəti büdcə ili üzrə büdcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələri;

– növbəti büdcə ili üzrə gəlirləri ötən ilin faktiki və cari gözlənilən nəticələri ilə, habelə xərclərin funksional, iqtisadi və təşkilati təsnifatlar üzrə müqayisəsi;

downloaded from KitabYurdu.az

– funksional, iqtisadi və təşkilati təsnifatlar paraqrafları səviyyəsində cari ilin dövlət büdcəsinin gözlənilən icrasının vəziyyəti;

– cari ilin icmal büdcəsinin gözlənilən icrasına dair məlumat;

– büdcədənkənar əməliyyatlara dair icmal hesabat;

– keçən büdcə ilində, faktiki və cari büdcə ilində gözlənilən maliyyələşdirmə mənbələri barədə hesabat;

– müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər sənədlər.

Azərbaycan Respublikasının Prezidenti növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsi ilə birlikdə Milli Məclisə aşağıdakı qanun layihələrini göndərir:

– Azərbaycan Respublikasının vergilər və rüsumlar haqqında qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi;

– Azərbaycan Respublikasının büdcədənkənar fondlarının büdcələri haqqında qanun layihələri.

Lazım olan hallarda maliyyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsi ilə və növbəti maliyyə ilinə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə fondunun büdcəsi haqqında qanun layihəsi ilə əmək haqlarının və dövlət pensiyalarının indekslәşdirilməsi nəzərdə tutularsa, onda Milli Məclisə eyni zamanda pensiyaların minimum məbləğinin artırılması, dövlət pensiyalarının yenidən hesablanması və indekslәşdirilməsi, əməyin ödənilməsinin artırılması haqqında qanun layihələri də göndərilir.

Milli Bank cari ilin oktyabrın 1-dək növbəti maliyyə ilinə vahid dövlət pul-kredit siyasətinin əsas istiqamətlərinin layihəsini Milli Məclisə təqdim edir. Bu layihə həmçinin Azərbaycan Respublikası Prezidentinə və Azərbaycan Respublikası hökumətinə göndərilir.

downloaded from KitabYurdu.az

Dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramların layihələri Milli Məclisə növbəti maliyyə ilinə dövlət büdcəsi haqqında qanun layihəsi ilə eyni zamanda təqdim edilir. Məqsədli proqramların layihələrində proqramların bütün texniki iqtisadi göstəriciləri əks etdirilir.

Milli Məclisdə dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramların layihələri dövlət büdcəsinin layihəsi ilə eyni zamanda baxılır və qəbul edilir.

Azərbaycan Respublikasının Prezidenti dövlət büdcəsi haqqında qanuna dəyişikliklər və əlavələr edilməsi haqqında qanun layihəsini Milli Məclisə təqdim edir. Dövlət büdcəsi haqqında qanuna dəyişikliklər və əlavələr edilməsi dövlət büdcəsinin əsas xarakteristikasının dəyişdirilməsi və tənzimləyici gəlirlərin Azərbaycan Respublikası büdcə sisteminin müxtəlif səviyyəli büdcələri arasında bölüşdürülməsi, həmçinin dövlət büdcəsi xərclərinin funksional və təşkilatlar üzrə təsnifatının bölmələri üzrə bölüşdürülməsi səbəb ola bilər.

Qeyd edildiyi kimi, növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsi və təsdiqi Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

Milli Məclisə təqdim edilmiş növbəti il üçün dövlət büdcəsi haqqında qanun layihəsini Milli Məclisin sədri Milli Məclisin İqtisadi siyasət daimi komissiyasına göndərir və layihəyə baxılması müddətini müəyyən edir.

Qanun və qərar layihələrinə baxılması üçün daimi komissiya işçi qrupu yarada bilər.

Müvafiq icra hakimiyyəti orqanının tapşırığı ilə onun səlahiyyətli nümayəndəsi Azərbaycan Respublikasının Milli

downloaded from KitabYurdu.az

Məclisinin iclasında növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında mə'ruzə edir.

Milli Məclisdə qanun layihələrinə, bir qayda olaraq, ***üç oxunuşda*** baxılır. Milli Məclisin sədrinin qərarı ilə və ya Milli Məclisin protokol qaydasında qəbul etdiyi qərarla qanun layihəsinə bir oxunuşda baxıla bilər.

I. Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsinin *birinci oxunuşunda* Milli Məclis Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının konsepsiyası və proqnozunu, büdcələrarası qarşılıqlı münasibətlərin əsas prinsiplərini, dövlət büdcəsi kəsirinin ödənilməsi üçün xarici maliyyələşdirmə mənbələrini araşdırır. Eyni zamanda dövlət büdcəsinin göstəriciləri, o cümlədən büdcə gəlirlərinin bölmələr, qruplar və yarımqruplar üzrə təsnifatı, dövlət büdcəsinin gəlirlərinin və rüsumlarının büdcə subyektləri arasında bölgüsü, dövlət büdcəsi kəsirinin ölçüsü və növbəti il üçün dövlət büdcəsi xərclərindəki xüsusi çəkisi, büdcə kəsirinin örtülməsi mənbələri və ümumilikdə, dövlət büdcəsinin xərclərinin ümumi həcmi təhlil edilir.

Azərbaycan Respublikasının Milli Məclisinin daxili Nizamnaməsinin 16-cı maddəsinə əsasən qanun layihələrinin birinci oxunuşu zamanı onun qəbul edilməsinin zəruriliyi, yuxarıda qeyd olunan əsas müddəaları müzakirə edilir, qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilir.

İqtisadi siyasət daimi komissiyasında layihəyə baxılarkən onların arasında fikir ayrılığı əmələ gəlmişsə, layihə ilə razı olmayan daimi komissiyanın rə'yini həmin komissiyanın nümayəndəsi oxuyur.

Qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Milli Məclis aşağıdakı qərarlardan birini qəbul edir:

downloaded from KitabYurdu.az

1) layihə birinci oxunuşda qəbul edilsin və söylənmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilsin (bu qərar protokol qaydasında qəbul edilir);

2) layihə qəbul edilməsin;

3) layihə qəbul edilsin.

Milli Məclis birinci oxunuşda qəbul edilmiş qanun layihəsinin dərc olunması və ümumxalq müzakirəsinə çıxarılması haqqında qərar qəbul edə bilər.

Birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklifləri və iradları aparıcı daimi komissiya öyrənir və ümumiləşdirir. Aparıcı daimi komissiya layihəyə təklif olunan dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına uyğun olub-olmamasını müəyyənləşdirmək üçün müstəqil ekspertiza tə'yin edə bilər. Layihəyə təklif edilən dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına zidd olması müəyyənləşdirdikdə aparıcı daimi komissiya bu barədə dəyişikliyin müəllifinə xəbər verir. Dəyişiklik vermiş şəxslər müzakirə zamanı dəyişiklikləri dəqiqləşdirə və ya geri götürə bilərlər.

Layihənin ayrı-ayrı maddələri üzrə qruplaşdırılmış dəyişikliklərə aparıcı daimi komissiyanın iclasında baxılır və daimi komissiya dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Yenidən işlənmiş qanun layihəsi ikinci oxunuşda baxılmaq məqsədilə Milli Məclisin sədrinə göndərilir.

Milli Məclisdə ikinci oxunuşda baxılmasına azı 5 gün qalmış qanun layihəsi onun təşəbbüsçüsünə göndərilir.

Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkə-məsinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisinin müzakirəsinə verdikləri qanun layihələri təqdim olunmuş şəkildə müzakirəyə çıxarılmalı və

downloaded from KitabYurdu.az

səsə qoyulmalıdır. Belə qanun layihələrində dəyişikliklər yalnız həmin orqanların razılığı ilə edilə bilər.

II. Azərbaycan Respublikası Milli Məclisinin daxili Nizamnaməsinin 18-ci maddəsinə əsasən qanun layihəsinin *ikinci oxunuşunda* müzakirəsi aparıcı daimi komissiyanın nümayəndəsinin mə'ruzəsi ilə başlanır. Mə'ruzəçi daimi komissiyada layihəyə baxılmasının nəticələri haqqında mə'lumat verir.

Layihənin ikinci oxunuşunda müzakirəsi bir qayda olaraq, təşəbbüsçünün çıxışı ilə başlanır.

İkinci oxunuşda dövlət büdcəsi xərclərinin ümumi məbləği çərçivəsində dövlət büdcəsinin funksional təsnifatı üzrə xərclərin bölgüsü, Azərbaycan Respublikası subyektlərinə maliyyə yardımının həcmi (dotasiya), cari xərclər büdcəsi, dövlət məqsədli proqramlarının maliyyələşdirilməsi xərcləri, Azərbaycan Respublikasının dövlət xarici borclanması proqramı, Azərbaycan Respublikasının xarici dövlətlərə dövlət kreditinin verilməsi, gəlirlərin və xərclərin rüblər üzrə bölgüsü, dövlət büdcəsinin kəsiri və bir sıra digər məsələlər müzakirə edilir.

İkinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Qanun layihəsi əsas kimi qəbul olunduqdan sonra Milli Məclisin iclasına sədrlik edən deputatlardan qanun layihəsində edilmiş dəyişikliklərə e'tirazların olub-olmamasını öyrənir. Bu cür e'tirazlar olduqda onları qısaca əsaslandırmaq üçün hər deputata 3 dəqiqəyədək vaxt verilir. Mə'ruzəçi həmin e'tirazlara cavab verir və qanun layihəsi maddə-maddə müzakirə edilir.

downloaded from KitabYurdu.az

Bundan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilir. İkinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün daimi komissiyaya çatdırılır.

İş başa çatdıqdan sonra daimi komissiya üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsini Milli Məclisin sədrinə göndərir. Milli Məclisin sədri qanun layihəsinə üçüncü oxunuşda baxılmasının Milli Məclisin iclasının gündəliyinə salır.

III. Azərbaycan Respublikası Milli Məclisinin daxili Nizamnaməsinin 19-cu maddəsinə əsasən qanun layihəsinin *üçüncü oxunuşu* zamanı qanun layihəsi bütövlükdə səsə qoyulur. Qanun layihəsinin üçüncü oxunuşu zamanı onun mətnində dəyişikliklər edilə bilməz.

Müstəsna hallarda Milli Məclisin iclasında iştirak edən deputatların əksəriyyətinin tələbi ilə üçüncü oxunuşda olan qanun layihəsi ikinci oxunuşa qaytarıla bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin IV və V hissələ-rində nəzərdə tutulmuş hallar istisna olmaqla, bütün başqa hallarda Milli Məclisə təqdim edilmiş layihələrə 6 ay müddətində baxılır, müzakirə edilir və onlar barəsində qərar qəbul edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin V hissəsində sadalanan subyektlər qanun layihələrini Milli Məclisin sessiyasının işinin bitməsinə 20 gündən az qaldıqda göndərərsə Milli Məclisin sədri həmin layihələrə növbəti sessiyada baxılması haqqında vəsatət qaldıra bilər. Qanunvericilik təşəbbüsü hüququ subyektləri vəsatətə rədd cavab verərsə, Milli Məclisin işi bitənədək həmin layihələr barədə qərar qəbul edilir.

downloaded from KitabYurdu.az

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisində cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunla aşağıdakı əsas göstəricilər təsdiq olunur:

– gəlirlərin ümumi məbləği;

– vergilərin dərəcələri;

– mədaxil mənbələri üzrə gəlirlərin məbləği;

– mənbələr üzrə qrantlar və transfertlər;

– ayrı-ayrı gəlirlərin büdcələr arasında bölgüsü və ayırma normaları;

– funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində xərclərin məbləği;

– Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən dotasiyaların, subsidiyaların və subvensiyaların məbləği;

– digər büdcə ssudalarının ümumi məbləği və istiqamətləri,

– daxili və xarici dövlət borclarının faizləri və əsas məbləğləri üzrə ödənişlər;

– dövlətin üçüncü tərəf qarşısında öhdəliyinin yuxarı həddi;

– sair beynəlxalq öhdəliklərin məbləği;

– ehtiyat fondunun məbləği;

– Azərbaycan Respublikasının daxili və xarici borclanmasının həddi (il ərzində götürülə biləcək dövlət borcunun və cəlb ediləcək dövlət istiqrazlarının məbləği);

– xərclərin maliyyələşdirilmə ardıcıllığı;

– dövlət büdcəsinin müdafiə olunan xərc maddələri;

– büdcə kəsirinin yuxarı həddinin məbləği;

– təsdiq olunması zəruri hesab edilən digər göstəricilər.

downloaded from KitabYurdu.az

Növbəti büdcə ili üzrə dövlət büdcəsi təsdiq olunduqdan sonra müvafiq icra hakimiyyəti orqanı təşkilatlar üzrə büdcə təsnifatı əsasında xərclərin bölgüsünü aparır və təsdiq edir.

Müvafiq icra hakimiyyəti orqanı növbəti büdcə ili üzrə dövlət büdcəsinin təsdiq olunmuş göstəriciləri əsasında onun gəlirlərinin (mənbələr üzrə) və xərclərinin (büdcə təsnifatına uyğun olaraq) rüblük bölgüsünü müəyyən edir.

Təsdiq olunmuş dövlət büdcəsinin göstəriciləri, gəlir və xərclərin rüblük bölgüsü müvafiq icra hakimiyyəti orqanı tərəfindən bir ay müddətində idarə və təşkilatlara çatdırılır.

Dövlət büdcəsi xərclərinin – təşkilatlar üzrə bölgüsündə nəzərdə tutulmuş ayırmaların müəyyən olunmuş müddətdə idarə və təşkilatlara çatdırılmasına görə müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri Azərbaycan Respublikasının qanunvericiliklə müəyyən edilmiş qaydada məs'uliyyət daşıyırlar.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi müəyyən olunmuş müddət ərzində təsdiq olunmazsa, Respublika Prezidenti dövlət büdcəsi təsdiq olunanadək büdcədən maliyyələşmənin müvəqqəti qaydalarını müəyyən edir.

Büdcəni icra edən orqan keçən ilin büdcə xərclərinin 1/12 hissəsi həddində Azərbaycan Respublikasının büdcə xərclərinin funksional və təşkilatlar üzrə təsnifatların müvafiq bölmələri üzrə qanunvericiliklə müəyyən edilmiş məqsədlərə dövlət kontraktlarının, Azərbaycan Respublikasının büdcə sisteminin digər səviyyəli büdcələrinə maliyyə yardımı göstərilməsinə büdcə vəsaitlərinin maliyyələşməsini həyata keçirir.

Azərbaycan Respublikası büdcə sisteminin digər səviyyəli büdcələrin hesabına götürülən nizamlandırıcı

downloaded from KitabYurdu.az

vergilərin dərəcələri, mərkəzləşdirilmiş xərclərin maliyyələşməsi üçün Azərbaycan Respublikası büdcə sisteminin digər səviyyəli büdcələrin hesabına götürülən mərkəzləşdirilmiş gəlirlərin normativləri, büdcə haqqında qanun ilə müəyyən edilən sair tariflər və dərəcələr keçən maliyyə ilinin büdcəsi haqqında qanun ilə müəyyən edilmiş ölçülərdə və qaydalarda tətbiq edilir.

Azərbaycan Respublikası büdcə sisteminin digər səviyyəli büdcələrinə maliyyə yardımı göstərilməsinə vəsaitlərin bölüşdürülməsi qaydası keçən maliyyə ilinin büdcəsi haqqında qanunla müəyyən olunduğu kimi saxlanılır.

Əgər büdcə haqqında qanun maliyyə ili başlanandan 3 ay sonra qüvvəyə minmirsə, onda büdcəni icra edən orqan müəyyən olunmuş şərtlərə riayət etməklə xərcləri həyata keçirir, gəlirləri bölüşdürür və borc götürməni həyata keçirir.

XXVIII fəsil. BÜDCƏNİN İCRASININ TƏŞKİLİ

28.1. Büdcənin icrasının əsas prinsipləri

Büdcənin icra edilməsi – büdcə vəsaitlərinin yığılması və istifadəsi üzrə büdcə prosesinin mühüm mərhələsidir. Bu icra prosesində icra hakimiyyəti orqanları, maliyyə və vergi orqanları, kredit təşkilatları, hüquqi və fiziki şəxslər – vergi ödəyiciləri və büdcə vəsaiti alanlar iştirak edirlər.

Azərbaycan Respublikasında büdcələrin xəzinədarlıq vasitəsilə icra edilməsi müəyyənləşdirilmişdir. İcra hakimiyyəti orqanlarına büdcələrin icrasının təşkili və icra edilməsi, büdcə hesablarının və büdcə vəsaitlərinin idarə

downloaded from KitabYurdu.az

edilməsi həvalə edilir. Göstərilən orqanlar büdcə vəsaitlərini alanların və bütün sərəncamçıların xəzinədarları sayılırlar və büdcə idarələrinin tapşırığı ilə və adından büdcə vəsaitləri hesabına tə'diyyələri həyata keçirirlər.

Büdcənin icrası *xəzinənin vahidliyi prinsipinə* əsaslanır. Bu prinsip daxil olan gəlirlərin və büdcə kəsirinin maliyyələşməsi mənbələrindən daxilolmaların vahid büdcə hesabına götürülməsini və nəzərdə tutulan bütün xərclərin vahid büdcə hesabından həyata keçirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələri vahid xəzinə prinsipi əsasında icra edilir.

Xərclər üzrə büdcənin icrası xərclər siyahısı üzrə nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinin tə'min edilməsi deməkdir və bir-neçə mərhələdən ibarətdir:

1) Büdcə bölgüsünün tərtibi, təsdiqi və büdcə vəsaitlərinin sərəncamçılara çatdırılması.

Azərbaycan Respublikası büdcə sisteminin bütün səviyyəli büdcələrinin icra edilməsini müvəkkil icra orqanları büdcə bölgüsü əsasında həyata keçirirlər.

Büdcə bölgüsü üzrə büdcə vəsaitlərinin baş sərəncamçıları tərəfindən rüblərə bölünməklə Azərbaycan Respublikası büdcə xərclərinin funksional və iqtisadi təsnifatlarına uyğun təsdiq edilmiş büdcə əsasında sərəncamçılar və büdcədən vəsait alanlar üzrə tərtib edilir büdcənin tərtibinə məs'ul olan icra hakimiyyəti orqanına təqdim edilir.

Büdcə vəsaitlərinin baş sərəncamçılarının büdcə bölgüləri əsasında müvafiq büdcənin layihəsinin tərtib edilməsinə məs'ul olan orqan icmal büdcə bölgüsünü tərtib edir. İcmal büdcə bölgüsü müəyyən olunmuş qaydada həmin orqanın rəhbəri tərəfindən təsdiq edilir və büdcəni icra edən orqana göndərilir.

downloaded from KitabYurdu.az

2) Büdcə öhdəliklərinin limitləri haqqında bildirişlərin təsdiqi və onun sərəncamçılara və büdcə vəsaiti alanlara çatdırılması.

Büdcə öhdəliyi – büdcəni icra edən orqanın büdcə haqqında qanuna və icmal büdcə bölgüsünə uyğun yaranan, müəyyən edilmiş müddət ərzində müvafiq büdcə vəsaitlərinin xərclənməsini həyata keçirmək üzrə borcudur.

Büdcə öhdəlikləri limiti – büdcəni icra edən orqan tərəfindən sərəncamçılar və büdcədən vəsait alanlar üçün üç ay müddətinə müəyyən edilən və təsdiq edilən büdcə öhdəliklərinin həcmidir.

Sərəncamçılar və büdcədən vəsait alanlar üçün büdcə öhdəlikləri limitləri büdcəni icra edən orqan tərəfindən baş sərəncamçılar tərəfindən təsdiq edilən büdcə vəsaitlərinin bölgüsünün layihələri əsasında təsdiq edilir.

Büdcə öhdəlikləri limitləri büdcəni icra edən orqan tərəfindən onların qüvvədə olduğu müddət başlanana qədər bütün sərəncamçılara və büdcədən vəsait alanlara çatdırılır.

Bütün sərəncamçılar və büdcədən vəsait alanlar üzrə öhdəlikləri limitlərinin icmal reyestri müvəkkil icra orqanı tərəfindən qanunvericilik (nümayəndəli) orqan tərəfindən yaradılan nəzarət orqanına təqdim edilir.

3) Büdcə təxsisatları haqqında bildirişlərin təsdiqi, onun sərəncamçılara və büdcə vəsaitləri alanlara çatdırılması, büdcə idarələrinə gəlirlər və xərclər smetasının təsdiq edilməsi.

Büdcə təxsisatları haqqında bildiriş alındıqdan sonra büdcə idarəsi müəyyən olunmuş formada gəlirlər və xərclər smetasını tərtib və təsdiq olunmaq üçün yuxarı büdcə vəsaitləri sərəncamçısına təqdim etməlidirlər.

Büdcə vəsaitlərinin baş sərəncamçısı sayılan büdcə idarəsinin gəlirlər və xərclər smetası həmin sərəncamçı tərəfindən təsdiq edilir.

downloaded from KitabYurdu.az

Büdcə idarəsinin gəlirlər və xərclər smetası təsdiq edilən gündən sonra bir iş günü ərzində büdcə idarəsi tərəfindən büdcəni icra edən orqana verilir.

4) Büdcədən vəsait alanların xəzinə öhdəliklərinin qəbul edilməsi.

Büdcə vəsaitlərini alanlar onlara çatdırılmış büdcə öhdəlikləri limitləri, gəlirlər və xərclər smetaları hüdudunda xərclərin həyata keçirilməsi, xərclərin və tə'diyyələrin aparılması üçün lazım olan tə'diyyə və digər sənədlərin tərtib edilməsi yolu ilə tə'diyyələrin həyata keçirilməsi üzrə xəzinə öhdəliyi qəbul edirlər.

Ödəmə sənədlərinin formalarını Azərbaycan Respublikası Maliyyə Nazirliyi Milli Bank ilə razılaşdırılmaqla təsdiq edir.

5) Xəzinə öhdəliklərinin icra edilməsinin təsdiqi.

Büdcəni icra edən orqan xərclərin icra edilməsi üçün lazım olan ödəmə və digər sənədləri büdcə idarəsinin təsdiq edilmiş gəlirlər və xərclər smetasının və büdcə limitlərinin tələblərinə uyğunluğunu yoxladıqdan sonra büdcə vəsaitlərinin xərclənməsini aparır. Təqdim edilən sənədlərin siyahısı və formaları icra hakimiyyəti orqanının hüquqi aktı ilə təsdiq edilir.

Büdcəni icra edən orqan xəzinə öhdəliklərinin icrasını təsdiq edən mexanizmi həyata keçirir və ödəmə sənədləri təqdim edildikdən sonra yazılı icazə verir.

Büdcəni icra edən orqan xəzinə öhdəliklərinin qəbul edilməsindən aşağıdakı hallarda imtina edə bilər:

– qəbul edilmiş xəzinə öhdəlikləri tələblərə cavab vermədiyi zaman;

– qəbul edilmiş xəzinə öhdəliklərinin büdcə haqqında qanuna, çatdırılmış büdcə təxsisatlarına və büdcə öhdəlikləri limitlərinə uyğun gəldiyi zaman;

downloaded from KitabYurdu.az

– qəbul edilmiş büdcə öhdəliklərinin büdcə idarəsinin təsdiq edilmiş gəlirlər və xərclər smetasına uyğun gəlmədiyi zaman;

– xərclərin blokirovkası zamanı.

Büdcə vəsaitlərinin xərclənməsi büdcənin vahid hesabından təsdiq edilmiş büdcə öhdəliyindəki məbləğdə fiziki və hüquqi şəxslərin xeyrinə pul vəsaitlərinin silinməsi yolu ilə həyata keçirilir.

Xərclənmiş büdcə vəsaitlərinin həcmi təsdiq edilmiş xəzinə öhdəliklərinin həcminə uyğun olmalıdır.

Dövlət büdcəsinin icrası prosesində gəlirləri təsdiq olunmuş məbləğdən 20 faiz az yerinə yetirilərsə və bu, büdcə kəsirinin müəyyən olunmuş yuxarı həddinin keçməsinə səbəb olarsa, onda dövlət büdcəsinin müdafiə olunmuş müddəaları istisna olmaqla bütün xərclərin ilin qalan ayları üzrə proporsional ixtisarı mexanizmi (sekvestr) tətbiq olunur.

Dövlət büdcəsinin müdafiə olunan müddəalarının tərkibi növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunla müəyyən edilir.

Dövlət büdcəsinin icrası prosesində zərurət yarandıqda müvafiq icra hakimiyyəti orqanları büdcə təsnifatına uyğun olaraq təsdiq olunmuş xərc maddələri həddində dəyişiklik apara bilər.

Büdcə xərclərinin ixtisar edilməsi mexanizminin tətbiq edilməsi haqqında sərəncamçılar və büdcədən vəsait alanlar ixtisar mexanizmi tətbiq edilmədiyi gündən əvvəl xəbərdar edilir.

Büdcə xərclərinin ixtisar edilməsi mexanizminin ləğv edilməsi, büdcə xərclərinin ixtisar edilməsinin ölçülərinin dəyişdirilməsi bu mexanizmin tətbiq edilməsi haqqında qərar qəbul etmiş orqan tərəfindən aparılır.

downloaded from KitabYurdu.az

Büdcə xərclərinin blokirovkası – büdcə təxsisatları ilə müqayisədə büdcə öhdəlikləri limitlərinin ixtisar edilməsi və ya müəyyən olunmuş şərtlər yerinə yetirilmədikdə qəbul edilmiş büdcə öhdəliklərinin təsdiq edilməsindən imtina etməkdən ibarətdir.

Büdcə xərclərinin blokirovkası həmçinin büdcəni icra edən orqan tərəfindən və dövlət maliyyə nəzarətini həyata keçirən orqan tərəfindən büdcə vəsaitlərinin məqsədsiz istifadəsi faktları aşkar edildikdə həyata keçirilir.

Büdcə xərclərinin blokirovkası büdcənin icrasının hər hansı mərhələsində maliyyə orqanının rəhbərinin qərarı ilə həyata keçirilir.

Blokirovka aşağıdakı xərclərə aid edilə bilər:

– büdcə haqqında qanun ilə müəyyən edilən büdcə xərcləri;

– məqsədsiz istifadə faktları aşkar olunan büdcə xərcləri.

Dövlət büdcəsinin xəzinə icrası zamanı daxilolmaların qeydiyyatı, qəbul edilmiş büdcə öhdəliklərinin həcmlərinin və müddətlərinin nizamlanması, ayrılan büdcə öhdəlikləri limitləri çərçivəsində xərclərin həyata keçirilməsi hüququna yazılı icazələrin aparılması, dövlət büdcəsinin vəsaitini alanlar adından tə'diyyələrin həyata keçirilməsi Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığına həvalə edilir.

Dövlət büdcəsinin hesablarının açılması və bağlanması hüququ, onların recimlərinin müəyyən edilməsi Maliyyə Nazirliyinə məxsusdur. Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Xəzinədarlığının Milli Bankda və kredit təşkilatlarında hesabları Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq bağlanmış və icra edilən müqavilələr əsasında aparılır.

downloaded from KitabYurdu.az

Xəzinədarlığın büdcə prosesindəki funksiyaları aşağıdakılardan ibarətdir:

– Baş Dövlət Xəzinədarlığının hesabları üzrə əməliyyatları həyata keçirir və onların uçotunu təşkil edir;

– xəzinədarlığın cari hesabları ilə tranzit hesabları arasında hesablaşmaların həyata keçirilməsini Azərbaycan Respublikasının Milli Bankı ilə razılaşdırılmış qaydada tənzimləyir;

– müəyyən olunmuş qaydada mərkəzləşdirilmiş xərclərin, o cümlədən məqsədli büdcə fondlarının xərclərinin icrasını tə'min edir;

– dövlət büdcəsi ilə digər büdcələrin qarşılıqlı əlaqələrinin nizamlanmasını və qarşılıqlı hesablaşmaları həyata keçirir, o cümlədən müvafiq ilin dövlət büdcəsinə riayət olunmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetiini müəyyən etdiyi qaydada və hədlərdə dövlət büdcəsindən ssuda (borc) verir;

– büdcə qanunvericiliyinə uyğun olaraq mərkəzləşdirilmiş xərclərdən dəqiqləşdirmələr haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərişlərinin vaxtında icra olunmasını tə'min edir;

– Baş Dövlət Xəzinədarlığı ilə yerli xəzinədarlıq orqanları arasında hərəkət edən maliyyə resurslarının və pul vəsaitlərinin dövri üzləşdirilməsini həyata keçirir;

– dövlət büdcəsindən ayrılan vəsaitlərdən təyinatı üzrə istifadə olunmasına, büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin maliyyə orqanları ilə razılaşdırılmış qaydada təsdiq edilmiş smetaya uyğun istifadəsinə ümumi nəzarət edir;

– büdcə və büdcədənkənar (o cümlədən məqsədli büdcə fondları) gəlir və xərclərin icrasına dair hesabat

downloaded from KitabYurdu.az

mə'lumatlarının müvafiq büdcə təşkilatları ilə dövrü üzləşdirilməsini həyata keçirir;

– büdcə və büdcədənkənar (o cümlədən məqsədli büdcə fondları) gəlirlərin tə'diyyə növləri üzrə kassa icrasının, xərclərin isə büdcə təşkilatları üzrə kassa və faktiki icrasının uçotunu aparır;

– büdcə və büdcədənkənar (o cümlədən məqsədli büdcə fondları) vəsaitlərin icrası üzrə yerli xəzinədarlıq orqanları və büdcədən maliyyələşən nazirlik, komitə və şirkətlərdən alınan hesabatlar əsasında dövri hesabatları tərtib edir və müvafiq orqanlara göndərilmək üçün Nazirliyin rəhbərliyinə təqdim edir;

– müəyyən olunmuş qaydada dotasiyaların verilməsini tə'min edir;

– büdcənin icrasında yaranmış gərginliyi aradan qaldırmaq üçün «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş daxili və xarici maliyyələşmə mənbələrindən istifadə edir.

Gəlirlər üzrə dövlət büdcəsinin kassa icrası aşağıdakıları nəzərdə tutur:

- dövlət büdcəsi gəlirlərinin dövlət büdcəsinin vahid hesabına köçürülməsi;

- təsdiq edilmiş dövlət büdcəsinə uyğun olaraq nizamlayıcı vergilərin bölüş-dürülməsi;

– artıq ödənmiş vergilərin, daxilolmaların, maliyyə sanksiyalarının və faizlərin vergi ödəyicisinə qaytarılması;

– artıq ödənilmiş vergilərin, rüsumların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicilərinə qaytarılması;

- Azərbaycan Respublikasının büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsi gəlirlərinin uçotu və dövlət büdcəsinin gəlirləri haqqında hesabat.

downloaded from KitabYurdu.az

Dövlət büdcəsi xərclərinin icrası bu xərclərin sanksiyalaşdırmasını və maliyyələşdirilməsi üsullarının həyata keçirilməsini nəzərdə tutur. Dövlət büdcəsi xərclərinin sanksiyalaşdırılmasına aşağıdakılar daxildir:

- dövlət büdcəsi vəsaitləri sərəncamçılarına və büdcə vəsaiti alanlara büdcə təxsisatlarının təsdiq edilməsi və çatdırılması;
- dövlət büdcəsi sərəncamçılarına və alanlara büdcə öhdəlikləri limitlərinin təsdiq edilməsi və çatdırılması;
- dövlət büdcəsinin pul öhdəliklərinin təsdiq edilməsi.

Dövlət büdcəsi xərclərinin sanksiyalaşdırılmasının qaydalarını Azərbaycan Respublikası Maliyyə Nazirliyi müəyyən edir.

Dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsi üzrə aparılan əməliyyatlar aşağıdakıları özündə əks etdirir:

- ödəməni həyata keçirmək üçün icazə (sərəncam);
- ödəmənin həyata keçirilməsi.

Baş Dövlət Xəzinədarlığının xəzinəarası köçürmə sərəncamı ilə dövlət büdcəsinin vahid hesabından müvafiq büdcə təşkilatlarına maliyyələşmə verilir.

Büdcələrarası münasibətlər çərçivəsində dövlət büdcəsindən yerli büdcələrə vəsaitlərin köçürülməsi dekabrın 20-dək başa çatdırılmalıdır.

Baş Dövlət Xəzinədarlığı dövlət büdcəsinə daxil olan gəlirlərin və dövlət büdcəsi kəsirinin maliyyələşməsi mənbələrindən daxilolmaları, həmçinin dövlət büdcəsi xərclərinin sanksiyalaşdırılması və maliyyələşdirilməsi ilə əlaqədar bütün əməliyyatları Baş xəzinə kitabında qeydiyyatdan keçirir.

Dövlət xəzinədarlığı dövlət büdcəsi vəsaitləri alanların icmal reyestrini aparır. Dövlət büdcəsi vəsaitləri alanların

downloaded from KitabYurdu.az

qeydiyyatını və uçotu qaydasını Azərbaycan Respublikası Maliyyə Nazirliyi müəyyən edir.

Baş xəzinə kitabı Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən hesablar planı əsasında aparılır.

Baş xəzinə kitabında yazılışlar dövlət büdcəsinin icra edilməsi prosesində aparılan müvafiq əməliyyatların faktı üzrə həyata keçirilir.

Baş xəzinə kitabının mə'lumatları dövlət büdcəsinin icrası haqqında hesabatın formalaşdırılması üçün əsas sayılır.

Büdcə uçotu və hesabatı. Büdcənin bütün gəlirləri, büdcə kəsirinin maliyyələşmə mənbələri, büdcənin xərcləri, həmçinin büdcənin icrası prosesində həyata keçirilən əməliyyatlar vahid hesablar planına əsaslanmaqla büdcə uçotuna alınır.

Dövlət büdcəsinin bütün gəlirləri, dövlət büdcəsi kəsirinin maliyyələşmə mənbələrindən daxilolmalar, dövlət büdcəsinin xərcləri, dövlət büdcəsinin kəsiri, dövlət büdcəsinin artıqlığı, həmçinin dövlət büdcəsinin vəsaitləri ilə bütün əməliyyatlar Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı tərəfindən müvafiq uçot registrlərində əks etdirilir.

Büdcənin icra edilməsi barədə hesabat operativ, rüblük, yarımillik və illik tərtib edilir. Büdcənin icrası haqqında hesabatın yığılması, icmallaşdırılması, tərtib edilməsi və təqdim edilməsi müvəkkil icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Büdcənin icra edilməsi barədə hesabatın vahid metodologiyasını Azərbaycan Respublikasının hökuməti müəyyən edir və təsdiq edir.

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Prezidenti və ya onun tapşırığına əsasən Azərbaycan Respublikasının hökuməti dövlət büdcəsinin icrası haqqında rüblük və illik hesabatları Milli Məclisə təqdim edir. Bu hesabatların bir nüsxəsi Azərbaycan Respublikasının Hesablama Palatasına təqdim edilir.

Müvəkkil icra orqanı müəyyən olunmuş qaydada büdcənin icra edilməsi barədə rüblük, yarımillik və illik hesabatları nümayəndəli orqana və müvafiq nəzarət orqanına təqdim edir və həmin orqan tərəfindən təsdiq edilir.

Bələdiyyələr yerli büdcələrin icra edilməsi barədə mə'lumatı müəyyən olunmuş qaydada Dövlət Statistika Komitəsinə təqdim edirlər.

Dövlət büdcəsinin kassa icrası dekabrın 31-də başa çatır və büdcə öhdəliklərinin limitləri öz qüvvəsini itirir.

Dekabrın 31-dək Azərbaycan Respublikası Maliyyi nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı qəbul edilmiş və təsdiq edilmiş büdcə öhdəliklərini ödəməlidir.

Büdcə idarələri tərəfindən sahibkarlıq fəaliyyətindən alınan və dekabrın 31-i vəziyyətinə istifadə edilməyən vəsaitlər, həmin məbləğlərdə müvafiq büdcə idarəsinə yeni açılmış şəxsi hesaba götürülür.

Başa çatmış ildə qəbul edilmiş büdcə öhdəlikləri üzrə əməliyyatlar başa çatdırıldıqdan sonra dövlət büdcəsinin vahid hesabında olan vəsait qalığı daxil olan maliyyə ilinin dövlət büdcəsinin gəlirlərində vəsait qalığı kimi uçota alınır.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 20-ci maddəsində nəzərdə tutulduğu kimi, Azərbaycan Respublikasının dövlət büdcəsinin icrası barədə illik hesabat və müvafiq qanun layihəsi növbəti ilin may ayının 15-dən gec olmayaraq müvafiq icra hakimiyyəti

downloaded from KitabYurdu.az

orqanı tərəfindən təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunur.

Azərbaycan Respublikasının Milli Məclisi təqdim olunmuş sənədləri müzakirə edir və müvafiq hesabat ili üzrə dövlət büdcəsinin icrası barədə qanunu təsdiq edir.

Azərbaycan Respublikasının Milli Məclisi təqdim olunmuş sənədləri müzakirə edir və müvafiq hesabat ili üzrə dövlət büdcəsinin icrası barədə qanun təsdiq edir.

28.2. Büdcənin icrasında dövlət xəzinədarlığının rolu

Bazar iqtisadiyyatına keçid dövründə maliyyəsistemində aparılan başlıca islahatlardan biri dövlət büdcəsinin icrasında dövlət xəzinədarlığının tətbiqidir. Bu iqtisadiyyatın maliyyə, vergi və bank sektorlarında aparılan islahatların tərkib hissəsidir.

Xəzinə və dövlət xəzinədarlığı ayrı-ayrı ölkələrin iqtisadiyyatının inkişaf yolundan asılı olaraq tətbiq edilmiş və formalaşmışdır. Xəzinədarlıq öz inkişaf dövründən asılı olaraq müxtəlif funksiyaları yerinə yetirib. Belə ki, xəzinədarlıq əvvəllər dövlətin qızıl ehtiyatlarının, qiymətli daş və metalların, həmçinin kənd təsərrüfatı məhsullarının ehtiyat kimi qorunub saxlanılması və onların hesabının aparılmasında başlıca rol oynayıb. Müəyyən dövr keçdikdən sonra xəzinədarlıq dövlət səviyyəsində inkişaf etmiş və dövlətin maliyyə resurslarının idarə olunmasına tətbiq olunmuşdur.

Hazırda xəzinədarlıq dövlətin mərkəzləşdirilmiş vəsaitlərinin istifadəsində özünün müəyyən inkişaf yolunu keçmiş və bir çox dövlətlər tərəfindən maliyyə resurslarının idarə olunmasında başlıca alətlərdən biri kimi istifadə

downloaded from KitabYurdu.az

olunur. Yeni müstəqillik qazanmış respublikalarda beynəlxalq maliyyə institutları tərəfindən bu sistemin tətbiq olunması tövsiyyə olunmuş və müvafiq işlər görülmüşdür.

Son illərdə aparılmış islahatları nəzərə almasaq Azərbaycan Respublikasının maliyyə, vergi, bank sistemi planlı iqtisadiyyatın prinsiplərinə uyğun inkişaf yolu keçmişdi. Həmin dövrlərdə təşkilatlarda fərdi formada xəzinədarların fəaliyyət göstərməsinə baxmayaraq, dövlət büdcəsinin icrasına bu metodun tətbiq olunması nəzərdə tutulmamışdır. Tarixən Respublikamızda maliyyə vəsaitlərinin idarə olunması mərkəzləşdirilmiş aparılmış, yəni dövlət büdcəsinin gəlirlərinin formalaşdırılması, onların uçotu, büdcə vəsaitlərinin xərc istiqamətlərinin müəyyənləşdirilməsi və onlara nəzarət yuxarı orqanlar tərəfindən həyata keçirilmişdir. Bu sahədə həmin illərdə bir çox exsperimentlər aparılmış və respublikalarda büdcədən maliyyələşən təşkilatların tələbatları nəzərə alınmadan maliyyə vəsaitlərinin maksimum mərkəzləşdirilməsini təmin edən maliyyə planları təsdiq və icra olunurdu.

Dövlət büdcəsinin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət də uzun illər formalaşmış təcrübəyə əsasən həyata keçirilirdi. Bu zaman Respublikalar mərkəzdən daha çox vəsait almaq, yuxarı büdcələr isə öz növbəsində daha az vəsait vermək prinsipi əsasında öz münasibətlərini qururdular. Qeyd etmək lazımdır ki, həmin illərdə respublikalar ayrılmış büdcə vəsaitlərinin maksimum istifadə edilməsinə çalışırdılar.

Əvvəlki illərdə maliyyə sisteminin idarə olunmasının mənfi tərəfləri ilə yanaşı bir çox müsbət cəhətləri də var idi ki, bu da ilk növbədə büdcələrin vaxtında təsdiq olunması, ən başlıcası isə büdcələrin gəlir və xərclərinə vahid proqram əsasında nəzarət edilməsi idi. Hər il respublikaların

downloaded from KitabYurdu.az

büdcələrinin icrası mərkəzi orqanlar tərəfindən təftiş edilərək müvafiq tədbir lər görülürdü. Həmin illərin ən maraqlı hallarından biri də istifadə olunmamış büdcə vəsaitlərinə görə maliyyə orqanlarının rəhbərlərinə iradların tutulması idi. Bu da maliyyə orqanlarının rəhbərlərinə ayrılmış vəsaitlərin vaxtında və dolğun istifadə olunmasında daha da məsuliyyətli olmağı tələb edirdi.

Əgər büdcə təşkilatlarının büdcə ilində bu və ya digər sahələr üzrə istifadə olunmamış vəsait qalırdısa belə hallarda növbəti büdcə ilində həmin məbləğ qədər büdcədə azalma verilirdi. Maraqlı orasındadır ki, büdcə təşkilatları dövlət büdcəsinin vəsaitlərini istifadə etdikdən sonra onların özlərinin tabeçiliyində olan maliyyə nəzarət idarələri tərəfindən nəzarət işləri aparılırdı. Bu da büdcə vəsaitlərinin xərclənməsində yol verilmiş nöqsanların gizlədilməsinə və nəticədə büdcə vəsaitlərinin qeyri-səmərəli istifadə olunmasına şərait yaradırdı. Bir çox illərdə büdcələrin tərtibi, icrası və onlara nəzarət üzrə statistika göstəricilərini nəzərə almasaq keçən illərdə olduğu kimi təkrarlanırdı. Maliyyə orqanları isə büdcə vəsaitlərinin istifadəsinə nəzarəti müəyyn müddət keçdikdən sonra həyata keçirirdi, yəni nöqsanlar baş verən zaman maliyyə nəzarətinin aparılmasına imkan və şərait yox idi, eyni zamanda baş vermiş nöqsanların tam aradan qaldırılması mümkün olmurdu. Bu dövrdə maliyyə sisteminin təkmilləşdirilməsi sahəsində əsaslı islahatlar aparılmırdı, bazar prinsipləri ilə inkişaf etmiş dünya ölkələrinin təcrübəsi öyrənilmirdi.

Respublikamızın iqtisadiyyatında son illərdə aparılan islahatlar maliyyə sistemindən də yan keçməmişdir. Əvvəlki illərdən fərqli olaraq müstəqillik dövründə mövcud sistemin olduğu kimi qalması maliyyə vəsaitlərinin optimal idarə olunmasına maneçilik törədirdi. Eyni zamanda

downloaded from KitabYurdu.az

Respublikamızda beynəlxalq maliyyə institutlarının köməyi ilə iqtisadi imkanlar təhlil edilməklə onların idarəetmə strukturlarında da əsaslı dəyişikliklərin aparılması zəruriyyətinin mövcudluğu sübut edildi. Bu baxımdan dövlət büdcəsinin layihəsini və icrasını tənzimləyən «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, Dövlət büdcəsinin təsnifatının təkmilləşdirilməsi, dövlət büdcəsinin gəlir və xərclərinin makroiqtisadi göstəricilərə müvafiq proqnozlaşdırılması, vergi ödəyicilərinin vergi yükünün azaldılması, Vergi Məcəlləsinin və «Dövlət rüsumu haqqında» Qanununun qəbulu və tətbiqi, «Büdcə sistemi haqqında» Qanunun yeni variantda işlənib hazırlanması, büdcənin kassa icrasını həyata keçirən yeni strukturun xəzinədarlıq sisteminin tətbiq edilməsi və buna uyğun olaraq normativ sənədlərdə dəyişikliklər və onların yeni məzmunda hazırlanması aparılan islahatların bariz nümunəsidir.

Respublika Prezidentinin 4 oktyabr 1995-ci il tarixli «Azərbaycanda dövlət xəzinədarlığının yaradılması haqqında» Fərmanı ilə Respublikamızda Dövlət xəzinədarlığının yaranmasının hüquqi bazası və bünövrəsi qoyulmuşdur. Xəzinədarlığa keçid mürəkkəb bir sistem olduğu üçün mərhələli xarakter daşıyırdı. İlkin mərhələ xəzinədarlığa keçidin birinci və ən maraqlı mərhələsi sayılır. Xəzinədarlığa keçidin birinci mərhələsində büdcə təşkilatlarının bank hesabları mövcud banklarda saxlanılmışdı və əməliyyatlar həmin banklarda aparılırdı. Lakin onlar tərəfindən aparılan bütün bank əməliyyatları mərkəzi və yerli maliyyə orqalarında qeydiyyata düşdükdən, yəni təsdiq olunduqdan sonra bank əməliyyatlarının aparılmasına icazə verilirdi. Xərclərin aparılması üçün müvafiq sənədlərlə yanaşı büdcə təşkilatları maliyyə

downloaded from KitabYurdu.az

orqanlarına sifariş təqdim edirdi. Bununla yanaşı maliyyə orqanlarında gəlirlərin və xərclərin uçotu aparılırdı. Bu prosesin baş tutması üçün bütün bank qurumlarına müvafiq göstərişlər verilmişdi. Qeyd etmək lazımdır ki, maliyyə orqanları ancaq büdcədən açılmış vəsaitlərinin hərəkətinə nəzarət edirdi və onların uçotunu aparırdı. Bu mərhələnin bir çox maraqlı tərəfləri var idi. Belə ki, uzun müddət formalaşmış sənədləşmə ilə yanaşı büdcə təşkilatlarının rəhbərləri bu sistemin tətbiqini qəbul etmək istəmirdilər. Buna görə də bu mərhələdə bir sıra çətinliklər yaranmışdı, Bunun başlıca səbəbi Dövlət xəzinədarlığı barədə məlumatların az olması, daha doğrusu büdcə təşkilatlarının rəhbərlərinin məlumatlarının olmaması idi. Digər tərəfdən isə, büdcə təşkilatlarının rəhbərləri vəsaitlərin xərclənməsi sahəsində olan hüquqlarını itirmək istəmirdilər. Ona görə də hər vasitə ilə bunun tətbiqinə maneçiliklər törədirdilər. Bütün bu cəhdlərə baxmayaraq maliyyə işçilərinin yüksək səyi nəticəsində xəzinədarlığın birinci mərhələsi izahat işləri aparılmaqla müvəffəqiyyətlə həyata keçirilməyə başladı. Bu mərhələdə maliyyə orqanları dövlət büdcəsinin vəsaitlərinin istifadəsinə əvvəlcədən nəzarət funksiyasını həyata keçirməyə şərait yaratdı.

Dövlət maliyyəsinin rtərkib hissəsi kimi Dövlət xəzinədarlığı aşağıdakı funksiyaları yerinə yetirir:

1. Dövlət büdcəsinin vəsaitlərinin optimal idarə edilməsi;

2. Maliyyə nəzarətinin tərkib hissəsi kimi dövlət büdcəsinin vəsaitinin xərclənməsində əvvəlcədən nəzarət funksiyası;

3. Dövlət büdcəsində mərkəzləşdirilmiş vəsaitlərin yenidən bölgüsünün təmin edilməsi;

downloaded from KitabYurdu.az

4. Dövlət büdcəsinin icrasında vahid uçotun təmin edilməsi.

Dövlət xəzinədarlığının maliyyə sisteminə tətbiqi maliyyə funksiyalarının yerinə yetirilməsinə əlverişli şərait yaratdı.

Eyni zamanda maliyyə orqanları əvvəlki funksiyalarını yerinə yetirməklə yanaşı dövlət xəzinədarlığının birinci mərhələsi üzrə verilmiş göstrişləri icra edirdi. Təbii ki, bu zaman gəlir və xərclər üzrə müvafiq xəzinə hesab kitablarının və gündəlik bank sənədlərinin işlənməsində, bəzi əməliyyatların aparılmasında, mal material alışında və sair əməliyyatlarda müəyyən çatışmamazlıqlar yaranırdı. Bütün bunlara baxmayaraq maliyyə işçilərinin böyük səyi nəticəsində respublikamızda keçmiş ittifaq respublikalarından fərqli olaraq Dövlət xəzinədarlığına keçidin birinci mərhələsi müvəffəqiyyətlə həyata keçirildi.

Xəzinədarlığa hazırlıq mərhələsindən sonra Azərbaycan Respublikası Prezidentinin 16 may 1997-ci il tarixli «Azərbaycanda Dövlət xəzinədarlığının fəaliyyətinin tənzimlənməsi haqqında» Sərəncamı ilə dövlət büdcəsinin icrasına rəsmi dövlət xəzinədarlığının tətbiqi başlandı.

Dövlət xəzinədarlığının ikinci, yəni ən məsuliyyətli və çətin mərhələsi 1 iyun 1997-ci il tarixindən başlandı. Bu mərhələ xəzinədarlığın birinci mərhələsindən əsaslı surətdə fərqlənirdi. Belə ki, xəzinədarlığın bu mərhələsində bütün büdcə təşkilatlarının bank hesabları bağlanılmış, həmin hesablarda olan qalıqlar ərazi üzrə yeni açılmış xəzinədarlıq orqanlarının tranzit hesablarına köçürülmüşdü. Maliyyə orqanlarının strukturlarında müvafiq dəyişikliklər aparılaraq onların tabeçiliyində xəzinədarlığın funksiyasını həyata keçirən şöbələr yaradıldı. Bunula xəzinədarlığa

downloaded from KitabYurdu.az

keçidin ikinci mərhələsi başlandı. Dövlət xəzinədarlığının hazırlıq işləri olaraq ərazi üzrə yerləşən təşkilatlara xüsusi kitabların açılması və maliyyə orqanlarının texniki bazalarının gücləndirilməsi idi. Bu mərhələdə büdcə təşkilatlarının rayon (şəhər) və ya mərkəzi büdcədən maliyyələşdirilməsi tamamilə yerləşdirilmiş, dövlət büdcəsinin gəlirlərinin uçotu banklardan alınaraq xəzinə orqanlarına həvalə edilmiş, yeni seçilmiş Agent-Banklarda dövlət gəlirlərinin büdcəyə daxilolmasının operativliyi təmin olunmuş və həmin bankların tranzit hesablarında hər gün üzrə olan vəsaitlərin mərkəzi xəzinəyə köçürülməsi təmin edilmişdir. Mərkəzi və yerli xəzinədarlıq orqanları öz növbəsində açılmış vəsaitləri xərc maddələri üzrə həmin təşkilatların xəzinə hesab kitablarına kredit resursu kimi işləyirlər. Hər bir təşkilat üzrə açılmış kitablarda onların büdcə ili üzrə təsdiq olunmuş smetalarının göstəriciləri əks olunur və bu smetaya uyğun olaraq smetanın icrasına nəzarət həyata keçirilir.

Xəzinədarlığın başlıca vəzifələrindən biri də dövlət büdcəsinə daxil olmuş gəlirlərin uçotunun aparılmasıdır. Əvvəlki illərdən fərqli olaraq bank sənədləri birbaşa maliyyə idarələrinə daxil olur. Maliyyə idarəsinin xəzinə uçot işçiləri gəlirləri bank sənədləri əsasında üzləşdirdikdən sonra vergi idarəsi ilə birlikdə üzləşmə aktı tərib edir. Həmin sənədlər tədiyyəçilər üzrə uçotun qurulması üçün üzləşmə aktı ilə birlikdə vergi orqanlarına təqdim edilir.

Dövlət xəzinədarlığına keçidin sonrakı mərhələsi 1 avqust 2000-ci il tarixdən tətbiq olunmağa başlamışdır. Bu mərhələ krediti sərəncamçıları tərəfindən alınan malların, qəbul olunan iş və xidmətlərin xəzinə uçotunun aparılması işinin təşkil olunmasıdır. Xəzinə orqanları bu mərhələdə büdcə təşkilatlarına malların tam və vaxtında

downloaded from KitabYurdu.az

çatdırılmasına, iş və xidmətlərin yekunlaşdırılmasına nəzarəti həyata keçirirlər, yəni alışlar haqqında xəzinədarlıq tərəfindən qəbul edilməmiş və uçota alınmamış heç bir xərc maddəsi üzrə kassa icrası aparıla bilməz. Malların (iş və xidmətlərin) alışı sənədində xərc əməliyyatlarının məbləği öhdəlik sənədində əks olunmuş məbləğdən artıq ola bilməz, əks halda həmin əməliyyatlar uçota alınmadığı üçün kassa xərci aparılmır. Bu prosesdə xəzinə orqanları ilə yanaşı büdcə təşkilatları malların alınmasında, onun mədaxilində, iş və xidmətlərin görülməsində məsuliyyətləri daha da artır. Bu zaman malların (iş və xidmətlərin) alışı sənədi hər bir xərc maddəsi üzrə ayrılıqda uçota alınır. Bütün əməliyyatlar xəzinə hesab kitablarında öz əksini tapır.

Maliyyə sistemində dövlət xəzinədarlığının tətbiqi ilə əlqədar olaraq büdcənin icrasına nəzarət edilməsi prinsipləri də dəyişməlidir. Bu prinsiplər aşağıdakılardır:

– büdcənin təsdiq olunması və ona müvafiq büdcə təşkilatları arasında fərdi smetalar əsasında rüblər üzrə bölgüsünü müəyyənləşdirməklə xəzinə orqanlarına vaxtında təqdim olunması;

– büdcə və büdcədənkənar vəsaitlərin gəlirlərinin düzgün uçotunun aparılması;

– xəzinə əməliyyatlarının aparılması üçün zəruri sənədlərin düzgün rəsmiləşdirilməsi və buna müvafiq olaraq xərc əməliyyatlarının aparılması;

– aparılmış əməliyyatlar barədə büdcə təşkilatlarına xəzinə çıxarışlarının verilməsinin təmin olunması;

– xəzinə uçotunun düzgünlüyünün yoxlanılması, xəzinə hesab kitablarında xərc maddələri üzrə vəsaitlərin hərəkətinin düzgünlüyünün yoxlanılması.

Agent-Bank və mərkəzi xəzinədarlıqla vəsaitlərin hərəkətinin üzləşdirilməsin, artıq ödənilmiş vəsaitlərin

downloaded from KitabYurdu.az

qaytarılması prosesinin aparılması, dövlət öhdəliklərini və mal (iş və xidmət) alışını təsdiq edən sənədlərin düzgün rəsmiləşdirilməsin, ilin sonunda büdcə vəsaitinin və büdcədənkənar vəsaitlərin qalıqlarının mərkəzi büdcəyə köçürülməsi və təşkilatların kitablarına işlənilməsi, büdcə təşkilatlarının xüsusi vəsaitləri üzrə əlavə dəyər vergisinin düzgün hesablanması və büdcəyə köçürülməsi, xəzinəarası köçürmələrin düzgünlüyünün, maliyyələşmədə büdcə qalıqlarına uyğun forma 5 və xəzinə köçürmə sərəncamının yazılması, faktiki və kassa xərclərinin üzləşdirilməsi, büdcə və büdcədənkənar əməliyyatlar üzrə hesabatların mərkəzi xəzinəyə verilməsi və digər işlər büdcənin icra edilməsinin mühüm şərtlərindəndir.

Hal-hazırda dövlət xəzinədarlığının təkmilləşdirilməsi sahəsində müvafiq işlərin görülməsi davam etdirilir.

28.3. Dövlət büdcənin icrasına nəzarət

Dövlət büdcənin icrasına nəzarəti Azərbaycan Respublikasının Milli Məclisi və onun Hesablama Palatası həyata keçirir. Dövlət büdcənin icrasına cari nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

Büdcəyə nəzarətin iki forması mövcuddur: qanunvericilik və inzibati.

Qanunvericilik orqanı, yerli özünüidarəetmə orqanları maliyyə nəzarətinin aşağıdakı formalarını həyata keçirirlər:

– qabaqcadan nəzarət - büdcə haqqında qanun (qərar) layihəsinin və büdcə - maliyyə məsələləri üzrə digər qanun (qərar) layihəsinin müzakirəsinə və təsdiq edilməsinə;

– cari nəzarət - qanunvericilik (nümayəndəli) orqanlarının komitələrinin, komissiyalarının və işçi

downloaded from KitabYurdu.az

qruplarının iclaslarında büdcələrin icrası ilə bağlı ayrı-ayrı məsələlərin baxılmasına, yerli özünüidarəetmə orqanları tərəfindən deputat sorğuları ilə əlaqədar parlament dinləmələrinin gedişinə;

– sonrakı nəzarət - büdcələrin icrası haqqında hesabatların baxılması və təsdiq edilməsi gedişinə.

Qanunvericilik orqanının, yerli özünüidarəetmə orqanlarının aşağıdakı hüquqları vardır:

– büdcənin təsdiq edilməsi zamanı icra hakimiyyəti orqanlarından, yerli özünüidarəetmə orqanlarından lazım olan materialların alınması;

– büdcəni icra edən orqanlardan onun icrası haqqında operativ mə'lumatın alınması;

– büdcənin icrası haqqında hesabatın təsdiq edilməsi (təsdiq edilməməsi);

– büdcənin açıq auditini aparmaq üçün özünün nəzarət orqanlarının (Azərbaycan Respublikasının Hesablama Palatası, Naxçıvan Muxtar Respublikasının qanunvericilik orqanının, və yerli özünüidarəetmə nəzarət orqanları) yaradılması;

– büdcəni icra edən orqanın fəaliyyətinin qiymətləndirilməsi.

İcra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları Azərbaycan Respublikasının Konstitutsiyası və digər normativ hüquqi aktlar ilə nəzərdə tutulmuş büdcə məsələləri üzrə onların səlahiyyətləri çərçivəsində parlament nəzarətlərini həyata keçirmək üçün qanunvericilik orqanına, yerli özünüidarəetmə orqanlarına bütün mə'lumatları təqdim etməlidirlər.

İnzibati nəzarəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı, Naxçıvan Muxtar

downloaded from KitabYurdu.az

Respublikasının Maliyyə-İqtisadiyyat Nazirliyi və bələdiyyələrin maliyyə orqanları, büdcə təşkilatlarının baş mühasibləri həyata keçirirlər.

İnzibati nəzarət aşağıdakıları nəzərdə tutur:

– büdcə vəsaitlərinin baş sərəncamçısının və büdcə vəsaiti alanların yoxlama keçirmək hüququ;

– büdcə qanunvericiliyinə riayət olunmasına görə nəzarət üçün lazım olan informasiyanın alınması hüququ;

– büdcə qanunvericiliyinə pozulmasına görə aşkar olunmuş çatışmamazlıqların aradan qaldırılmasını tələb etmək hüququ;

– büdcə qanunvericiliyinin pozulmasına görə müvafiq sənədlərin tərtibinin həyata keçirilməsi üçün göstərişlər vermək hüququ.

1) Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı icra ediləcək büdcələr, büdcədənkənar dövlət fondlarının büdcələri üzrə aparılan bütün əməliyyatlara qabaqcadan və cari nəzarət həyata keçirir, bu nəzarəti həyata keçirdikdə digər hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə işləyir.

2) Azərbaycan Respublikası Maliyyə Nazirliyi büdcə vəsaitlərinin baş sərəncamçıları, sərəncamçıları və büdcə vəsaiti alanlar tərəfindən büdcə vəsaitlərindən istifadə edilməsinə daxili nəzarəti həyata keçirir.

Büdcənin mədaxil mənbələrinin imkanlarını aşkar etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi birlik, müəssisə təşkilatların maliyyə-təsərrüfat fəaliyyətini təhlil edir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Azərbaycan Respublikası zəmanətlərini, büdcə kreditlərini, büdcə ssudalarını və büdcə invesitisiyalarını alan hüquqi

downloaded from KitabYurdu.az

şəxslərin maliyyə nəzarətini, yoxlanılmasını və təftişini təşkil edir.

3) Büdcə vəsaitlərinin baş sərəncamçıları, sərəncamçıları tabeliklərində olan büdcə idarələri tərfindən büdcənin icrası haqqında hesabatların vaxtında təqdim edilməsinə nəzarət edirlər.

4) Büdcənin müstəqil icrası zamanı Naxçıvan Muxtar Respublikasının və bələdiyyələrin maliyyə orqanları büdcə vəsaitlərinin baş sərəncamçısının, sərəncamçılarının və büdcə vəsaiti alanların, kredit təşkilatlarının, büdcə prosesinin digər iştirakçılarının büdcə vəsaitələri ilə əməliyyatlarına, büdcə kreditlərinin, büdcə ssudalarının, dövlət və bələdiyyə zəmanətlərinin məqsədli istifadəsinə və qaytarılmasına maliyyə nəzarətini həyata keçirirlər.

Hər maliyyə ilinin sonunda Maliyyə Naziri ilin bağlanması və dövlət büdcəsinin ümumi və hər bir büdcədənkənar dövlət fondunun büdcəsinin ayrı-ayrılıqda icrası haqqında hesabatın hazırlanması barədə sərəncam verir.

Maliyyə Nazirinin sərəncamına əsasən büdcədən bütün vəsait alanlar gəlirlər və xərclər üzrə illik hesabatları hazırlayırlar.

Büdcə vəsaitlərinin baş sərəncamçısı onlara tabe olan büdcə idarələrinin hesabatlarını icmallaşdırırlar.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi büdcə vəsaitələrinin baş sərəncamçısı kimi subvensiya, büdcə kreditləri və büdcə ssudaları verilməsi yolu ilə həyata keçirilən xərclər üzrə dövlət büdcəsinin icmal hesabatını hazırlayır.

Dövlət sifarişçiləri, onlara dövlət büdcəsindən dövlət sifarişləri üzrə ayrılan vəsaitlərinin istifadə edilməsi haqqında icmal hesabat hazırlayırlar.

downloaded from KitabYurdu.az

Dövlət xəzinə müəssisələri illik və mühasibat hesabatları hazırlayırlar və büdcə vəsaitlərinin baş sərəncamçısına göndərirlər.

Dövlət büdcəsinin icrası haqqında hesabat, həmin ilə dövlət büdcəsi haqqında qanunun təsdiq edilməsi zamanı, büdcə strukturuna və təsnifatına uyğun tərtib edilməlidir.

Dövlət büdcəsinin icrası barədə rüblük hesabatlarda büdcənin gəlirləri üzrə faktiki daxilolmalar həmin dövr üçün təsdiq edilmiş göstəricilərdən 20 faiz az olduqda həmin hesabatlar Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komissiyalarında müzakirə edilir.

Dövlət büdcəsinin icrası prosesində büdcənin gəlirləri üzrə faktiki daxilolmalar ilin birinci yarısı üzrə nəzərdə tutalan göstəricilərdən 30 faiz az olduqda, müdafiə olunmuş xərc maddələrinin maliyyələşdirilməsi üçün vəsait çatmadıqda, büdcə kəsirinin nisbi göstəricisi təsdiq olunmuş səviyyəni keçdikdə və ilin sonunadək yuxarıda göstərilənləri aradan qaldırmaq barədə əsaslandırılmış təklif olmadıqda müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Milli Məclisi qarşısında oktyabr ayının 1-dən gec olmayaraq büdcə xərclərinin (müdafiə olunmuş maddələr istisna olmaqla) ilin qalan ayları üzrə proporsional ixtisarı mexanizminin tətbiqi (sekvestr) barədə məsələ qaldırır.

Cari ilin dəqiqləşmiş dövlət büdcəsi haqqında qanun layihəsini Azərbaycan Respublikasının Milli Məclisi oktyabr ayının 15-dən gec olmayaraq təsdiq edir.

Dövlət büdcəsinin icrası haqqında hesabat Milli Məclisə eyni zamanda aşağıdakı sənədlər və materiallar ilə təqdim edilir:

downloaded from KitabYurdu.az

- Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin ehtiyat fonlarının vəsaitlərinin xərənclənməsi haqqında hesabat;

- büdcə ssudalarının, büdcə kreditlərinin verilməsi və ödənilməsi haqqında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və digər müvəkkil orqanların hesabatı;

- dövlət zəmanətlərinin verilməsi haqqında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və digər müvəkkil orqanların hesabatı;

- borc götürmənin növləri üzrə Azərbaycan Respublikası daxili və xarici borc götürülmələri haqqında hesabat;

- dövlət əmlakının istifadə edilməsindən alının gəlirlər üzrə hesabat;

- dövlət və ya bələdiyyə xidmətinin göstərilməsi üzrə tapşırıqların yerinə yetirilməsi haqqında icmal hesabat;

- büdcə vəsaitlərinin baş sərəncamçıları üzrə büdcə idarəlirinin gəlirlərinin və xərclərinin hesabat smetaları;

- maliyyə ilinin ilk və son gününə dövlət mülkiyyətinin reyestri haqqında hesabat;

- maliyyə ilinin ilk və son gününə Azərbaycan Respublikasının xarici və daxili borclarının vəziyyəti haqqında hesabat;

- büdcə qanunvericiliyinin pozulmasına görə baxılmış işlər və qoyulmuş cərimələr haqqında hesabat.

Azərbaycan Respublikasının Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Milli Məclisi daimi komissiyalarının sorğuları əsasında Hesablama Palatasının maliyyə-büdcə ekspertizası keçirmək, rə'y hazırlamaq və təkliflər vermək səlahiyyəti vardır.

downloaded from KitabYurdu.az

Hesablama Palatası sorğu daxil olduqdan 3 gün müddətində sorğuya baxır və onun icrası haqqında qərar qəbul edir.

Hesablama Palatası dövlət büdcəsinin gəlirlərini və xərclərini təhlil edərkən zərurət yarandıqda müəssisə və təşkilatlarda audit apara bilər.

Maliyyə-büdcə ekspertizası ilə bağlı yoxlamalar aparılması və onların əsasında hesabatlar tərtib və təqdim edilməsi qaydaları Hesablama Palatasının Daxili Nizamnaməsi ilə tənzimlənir.

Hesablama Palatasının rə'yi və hesabatı yalnız maliyyə-büdcə ekspertizasının nəticələrini əks etdirir. Bu nəticələr Milli Məclisə təqdim edilən hesabatlarda öz əksini tapır və yoxlanılmış orqanların, müəssisələrin, idarələrin, təşkilatların rəhbərlərinə çatdırılır.

Dövlət büdcəsinin icrası haqqında hesabatın baxılması və Azərbaycan Respublikası Hesablama Palatasının rə'yinin nəticələri üzrə Milli Məclis müvafiq qərar qəbul edir.

28.4. Büdcənin icrasının təhlili

Büdcə ilinin gedişində və tsiklinin sona bitməsi üzrə maliyyə orqanları, başda Azərbaycan Respublikasının Maliyyə Nazirliyi olmaqla, büdcənin tərtibi və icrasının nəticələri üzrə analitik iş aparırlar. Dövlət büdcəsinin gəlirlərinin və xərclərinin auditi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən aparılır.

Büdcə təhlilinin məqsədi bunlardır:

downloaded from KitabYurdu.az

- büdcənin tərtibi və icrasının nəticələrinin qiymətləndirilməsi;
- hökumətin maliyyə-büdcə siyasətinin əsaslandırılması;
- büdcənin formalaşması zamanı göstəricilərin parametrlərinin əsaslandı-rılması;
- büdcənin plan göstəricilərinin yerinə yetirilməsinə mane olan amillərin və səbəblərin aşkarlanması;
- idarəetmə sahəsində hakimiyyət orqanlarının sərəncam və qərarlarının qəbul edilməsinin əsaslandırılması;
- büdcənin tərtibi və icrası zamanı ehtiyyatların aşkar edilməsi;
- büdcəyə gəlirlərin tam, vaxtında və stabil yığılmasının tə'min edilməsi;
- büdcədə nəzərdə tutulan maliyyə tədbirlərinin tam və vaxtında həyata keçirilməsinin tə'min edilməsi;
- büdcə vəsaitlərinin səmərəsiz və məqsədsiz istifadəsinə səbəb olan büdcə vəsaitlərini alanların fəaliyyətində çatışmamazlıqların aşkar edilməsi;
- büdcə xərclərinin iqtisadi və sosial səmərəliyinin müəyyən edilməsi;
- büdcənin tərtibi və icrası gedişində maliyyə orqanlarının işində çatışmamazlıqların aşkar edilməsi və bu çatışmamazlıqların aradan qaldırılması üçün təkliflərin hazırlanması;
- büdcə prosesinin və büdcələrarası münasibətlərin təkmilləşdirilməsi.

Qeyd etmək lazımdır ki, təcrübədə maliyyə orqanlarının işində *büdcə göstəricilərinin yerinə yetirilməsinin təhlili* tətbiq olunur. Büdcənin vəziyyətinin təhlili ilə əlaqədar olan məsələlər hələ kifayət qədər işlənib hazırlanmamışdır. Ölkə iqtisadiyyatının dirçəliş mərhələsinə

downloaded from KitabYurdu.az

qədəm qoyduğu bir vaxtda, sosial və iqtisadi problemlərin həlli istiqamətlərinin düzgün müəyyən edilməsində bu məsələlərin həlli aktual əhəmiyyət kəsb edir.

Büdcənin təhlilini həyata keçirmək üçün müəyyən üsul və vasitələrdən istifadə edilir.

Ən sadə üsul - *müqayisədir.* Hesabat dövrünün büdcə göstəriciləri ya plan və ya da əvvəlki ilin (bazis) göstəriciləri ilə müqayisə edilir. Bazis dövrünün göstəricilərinin müqayisəsi zamanı onlar tutuşdurulur, yə'ni göstəricilərin tərkib elementləri, iqtisadiyyatda inflyasiya prosesi, qiymətləndirmə üsulları nəzərə alınmaqla təhlil edilir.

Növbəti üsul – *qruplaşdırmadır.* Bu zaman göstəricilər qruplaşdırılır və cədvəl şəklinə salınır. Bu da öz növbəsində analitik hesablamalara imkan verir, ayrı-ayrı halların və onların qarşılıqlı əlaqəsinin inkişaf meylləri, göstəricilərin dəyişməsinə tə'sir edən amillər aşkar edilir.

Büdcə təhlilinin həyata keçirilməsi üçün *büdcə əmsalı* vasitəsindən istifadə olunur. Bir ərazinin maliyyə vəziyyəti göstəriciləri digər ərazinin anoloci göstəriciləri ilə müqayisə edilir. Bu zaman göstəricilərin dinamik inkişafı və ərazini maliyyə vəziyyətinin dəyişməsi meylləri aşkar edilir.

Büdcənin təhlili gəlirlər və xərclər üzrə ayrıca aparılır.

Büdcə təhlili üçün aşağıdakılardan istifadə edilir:

1. ***Üfiqi təhlil*** zamanı büdcənin cari göstəriciləri gələn dövrün müvafiq göstəriciləri ilə, eyni zamanda plan göstəriciləri faktiki göstəricilərlə müqayisə edilir;
2. ***Şaquli təhlil*** zamanı büdcənin strukturu, ümumi göstəricilərdə ayrı-ayrı büdcə göstəricilərinin xüsusi çəkisi və onların ümumi nəticələrə tə'siri müəyyən edilir;
3. ***Trend təhlildən*** büdcə göstəricilərinin dinamik olaraq dəyişməsi meyllərinin aşkar edilməsi üçün istifadə edilir. Bu təhlilin gedişi zamanı bir neçə illərin plan və

downloaded from KitabYurdu.az

hesabat göstəriciləri müqayisə edilir. Bunun əsasında gələcək dövr üçün büdcə göstəricilərini proqnozlaşdırmaq mümkün olur.

4. ***Faktorlu təhlil*** zamanı büdcə göstəricilərində ayrı-ayrı amillərin tə'siri müəyyən edilir (məsələn, sosial-mədəni tədbirlər üzrə xərclərin həcminə tə'sir edən büdcə təşkilatlarının sayı, bu təşkilatların fəaliyyət müddəti, qiymət səviyyəsi, inflyasiya indeksi və d. amillərin tə'siri).

Analitik təhlil zamanı büdcənin gəlir və xərclər üzrə göstəricilərindən, büdcə əmsallarından, büdcə muxtariyyətindən, xüsusi gəlirlərlə tə'minatdan, xüsusi və tənzimləyici gəlirlərin nisbətindən və d. istifadə edilir; büdcə göstəricilərinin inkişaf meylləri, büdcənin tərtibi və icrası prosesinə tə'sir edən ayrı-ayrı amillərin kəmiyyət və keyfiyyət tərəfləri aşkar edilir.

Xarici təcrübədən istifadə edib büdcə təhlilinin ***ərazi büdcəsi üzrə sabitlik təhlili üsuluna*** diqqət yetirək.

Ərazi büdcəsinin sabitlik səviyyəsi minumum büdcə xərcləri ilə tə'min olunmaq üçün zəruri olan vəsaitlərin həcmi ilə müəyyən edilə bilər. Bu vəsaitlər əhalinin sosial tə'minata ehtiyacı olan hissəsinin maliyyələşdirilməsinin həyata keçirilməsi üçün büdcədə nəzərdə tutulan hissəsidir. Bu vəsaitlər eyni zamanda ərazidə yerləşən büdcə təşkilatlarının, onların əhaliyə imtiyazlı xidmətlərinin həyata keçirilməsi üçün sərf edilir.

Büdcənin sabitliyi onun vəziyyətinin dörd tipi ilə xarakterizə edilir:

1) tam sabit;
2) normal;
3) qeyri-sabit;
4) krizis.

downloaded from KitabYurdu.az

Ərazi büdcəsinin sabitlik səviyyəsinin aşağıdakı üsulları tətbiq edilir:

1. Büdcənin *tam sabit* vəziyyəti belədir:

$$X_M < G_x + G_t$$

Burada X_m - büdcənin minumum xərcləri;
G_x - büdcənin xüsusi gəlirləri;
G_t - büdcənin tənzimləyici gəlirləri.

2. *Normal* vəziyyət belədir:

$$X_m = G_x + G_t$$

3. *Qeyri-sabit* vəziyyət belədir:

$$X_m = G_x + G_t + G_ə$$

burada Gə - cəlb edilmiş əlavə maliyyə vəsaiti (büdcə vəsaitlərinin sərbəst qalığı, büdcədənkənar vəsaitlər və s.).

4. *Krizis* vəziyyət belədir:

$$X_m > G_x + G_t$$

1. Büdcənin tam sabit vəziyyəti aşağıdakı şərtlərlə mümkündür:

$G_x : G = 60 - 70\%$
$G_t : G = 30 - 40\%$
$B : X = 10 - 15\%$

Burada G - büdcə gəlirlərinin ümumi məbləği;
X - büdcə xərclərinin ümumi məbləği;
B - büdcə borcları (büdcənin planlaşdırılmış xərclərinə %-lə)

2. Büdcənin normal vəziyəti:

downloaded from KitabYurdu.az

$G_x : G = 40 - 50\%$
$G_t : G = 50 - 60\%$
$B : X = 30 - 35\%$

3. Büdcənin qeyri-sabit vəziyyəti:

$G_x : G = 5\text{-}10\%$
$G_t : G = 90 - 95\%$
$B : X = 40 - 50\%$

Büdcənin təhlili üçün vasitə kimi *büdcə əmsallarından* istifadə edilə bilər. Onlar müxtəlif dövrlərdə büdcə göstəricilərini, ərazi büdcələrinin analoci göstəricilərinin müqayisəsinə imkan verir. Belə əmsallar büdcənin vəziyyətini normativi (kriteriyası) kimi istifadə oluna bilər. Bu kriteriyalar daha müvəffəqiyyətlə tərtib edilə və icra edilmiş büdcələr, ərazi əlamətinə və d. görə formalaşmış büdcə qrupları bazasında işlənib hazırlana bilərlər.

Büdcənin təhlili üçün aşağıdakı büdcə əmasallarından istifadə olunması tövsiyyə olunur:

1) Tənzimləyici və xüsusi büdcə gəlirlərinin müqayisəsi əmsalı:

$$Ə_{n.x.} = G_n : G_x$$

2) Muxtariyyət əmasalı:

$$Ə_m = G_x : G$$

3) Xüsusi gəlirlərlə minimum xərclərin tə'min olunması əmsalı:

$$Ə_{t.o.x.} = G_n : X_m$$

4) Büdcə ödəməsi (doldurulması) əmsalı:

$$Ə_{b.ö.} = G : X_m$$

downloaded from KitabYurdu.az

5) Büdcə borcları əmsalı:

$$Ə_{b.b.} = B : X$$

6) Ərazinin büdcə səmərəliliyi əmsalı:

$$Ə_{b.s.} = G_b : S_ə$$

7) Əhalinin büdcə tə'minatı əmsalı:

$$Ə_{b.t.} = X : S_ə$$

burada G - gəlirlər;
G_n - nizamlayıcı gəlirlər;
G_x - xüsusi gəlirlər;
X - xərclər;
X_m - minimum xərclər;
B - büdcə borcları;
G_b - bölgə büdcə gəlirləri;
$S_ə$ - əhalinin ərazi üzrə illik sayı.

Bu vasitələrlə ərazi büdcələrinin vəziyyətinin qiymətləndirilməsində obyektivlik əldə olunur, bu vəziyyətə tə'sir edən amillər aşkar edilir. Bu amillər haqqında mə'lumatın öyrənilməsi və onların büdcəyə tə'siri büdcə sferasında neqativ hadisələrin səbəblərinin aşkar edilməsinə və aradan qaldırmaq üçün tədbirlərin həyata keçirilməsinə imkan verir.

Büdcə təhlili nəticələrə görə tərtib və icra edilə bilər. *Büdcənin tərkibinin təhlili* tədqiqatın aşağıdakı istiqamətlərini nəzərdə tutur:

- maddi istehsal sahələrinin maliyyə vəziyyətinin təhlili;
- cari ilin gözlənilən büdcə icrasının təhlili;

downloaded from KitabYurdu.az

- icmal mənbələri üzrə büdcə layihəsinin gəlir hissəsinin təhlili;
- büdcə vəsaitlərinin xərclər hissəsi üzrə istifadəsinin təhlili.

Büdcənin icrasının təhlilinə daxildir:

– ayrı-ayrı mənbələr və xalq təsərrüfatının sahələri üzrə daxil olan gəlirlərin yerinə yetirilməsinin təhlili;

– maddi və qeyri-maddi istehsal sahələrinin maliyyələşdirilməsinin istiqamətləri üzrə xərclər planının yerinə yetirilməsinin təhlili;

– büdcə öhdəliklərinin yerinə yetirilməsinin təhlili;

– büdcənin kassa icrasının təhlili.

Büdcənin kompleks təhlilinin aparılması maliyyə siyasətinin həyata keççirilməsində icra hakimiyyəti orqanları tərəfindən müəyyən qərarların qəbul edilməsi üçün zəruri informasiyanın alınmasına, büdcədə əlavə vəsaitlərin aşkar edilməsinə, onlardan istifadənin səmərəliliyinin artırılmasına imkan verir.

28.5. Büdcə kəsiri və onun idarə edilməsi

Büdcə kəsiri dövlət büdcəsi xərclərinin gəlirlərindən artıq olmasını ifadə edir. Çox vaxt iqtisadi ədəbiyyatda büdcə kəsiri fövqəladə və qorxulu maliyyə hadisəsi kimi qiymətləndirilir və eyni zamanda buna dövlətin maliyyə vəziyyətinin ağırlaşması (pozulması) göstəricisi, ölkədə inflyasiya prosesinin inkişaf amili kimi baxılır.

Keçmiş sovet iqtisadçılarının bəziləri büdcə kəsirinin əsas səbəbini kapitalist təsərrüfat sisteminin qeyri-sabit inkişafında və onun daxili və xarici ziddiyyətlərinin güclənməsində görürdülər. Eyni zamanda ictimai

downloaded from KitabYurdu.az

mülkiyyətə və planlı sosialist təsərrüfat sisteminə əsaslanan ölkələrin dövlət büdcələrində büdcə kəsirinin qeyri-mümkünlüyünün əsaslandırılmasına cəhd göstərildi. Halbuki inzibati-amirlik metodları ilə idarə edilən planlı təsərrüfat sistemi dağıldıqdan dərhal sonra büdcənin gəlirləri və xərcləri arasındakı nisbət pozuldu, ölkənin iqtisadi sistemindəki dərin böhran və ziddiyyətlər aşkara çıxdı. Nəticədə keçmiş İttifaqdan ayrılmış və müstəqillik qazanmış bütün ölkələrin dövlət büdcələrindəki kəsirin həcmi artmağa başladı.

Büdcə kəsiri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əksəriyyətində baş verə bilən maliyyə hadisəsi olmaqla, ona heç də həmişə fövqəladə və qeyri-normal hal kimi baxmaq dücgün olmazdı. Çünki dünyanın elə bir ölkəsi yoxdur ki, onun inkişaf tarixinin bu və ya digər mərhələsində büdcə kəsirinə məruz qalmamış olsun. Ona görə də büdcə kəsirinin mahiyyəti, onun kəmiyyət və keyfiyyət əlamətləri, səbəb və nəticələri, hər hansı dövlətin müəyyən konkret dövrdə qarşısında duran məqsəd və vəzifələri baxımından xarakterizə edilməlidir.

Büdcə kəsirinin (defistinin) yaranma səbəbləri, əsasən aşağıdakı kimi izah edilə bilər:

1. Qabaqcadan nəzərə alına bilməyən və qəflətən baş verən fövqəladə hadisələrin (məsələn, müharibənin, böyük dağıntılara səbəb olan geniş miqyaslı təbii fəlakətlərin və s.) baş verməsi. Bu halda ölkənin mövcud maddi və maliyyə ehtiyatı fondları əmələ gələn disproporsiyaları aradan qaldırmağa, təxirəsalınmaz bir sıra zəruri sosial iqtisadi xərcləri ödəməyə kifayət etmir və ona görə də digər xüsusi mənbələrdən, eləcə də büdcə vəsaitindən istifadə etmək zərurəti meydana çıxır.

downloaded from KitabYurdu.az

2. Ölkənin iqtisadi-sosial sistemində dərin böhranın baş verməsi, onun maliyyə-kredit sisteminin sarsılması, pul tədavülünün pozulması və nəticədə maliyyə vəziyyətinin tənzimlənməsinə dövlətin nəzarət etmək etmək qabiliyyətinin olmaması. Belə bir vəziyyətdə büdcə kəsirinin baş verməsi labüd olmaqla yanaşı, həm də qorxuludur və bu halda nəinki təcili olaraq təsirli iqtisadi tədbirlər görünməlidir, eləcə də müvafiq operativ siyasi qərarlar qəbul etmək lazımdır.

3. Büdcə kəsiri ölkənin iqtisadiyyatına böyük məbləğdə dövlətin investisiya qoyuluşu ilə də əlaqədar ola bilər. Belə ki, ölkənin iqtisadi konyukturunu tənzimləmək, onun ictimai istehsal sistemində daha mütərəqqi və strateci əhəmiyyətli struktur dəyişikliyi aparmaq üçün dövlətin nəhəng maliyyə vəsaiti sərf etməsi nəticəsində büdcə kəsiri əmələ gələ bilər ki, bu da onun iqtisadiyyatının böhranlı olması ilə əlaqədar deyildir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin tarixi inkişaf təcrübəsində və müasir dövrdə də bu cür hallar olmuşdur və bu vəziyyəti normal hal kimi qiymətləndirmək lazımdır.

Deməli, ölkənin sabit inkişaf etdiyi və səmərəli beynəlxalq iqtisadi münasibətləri olduğu şəraitdə mümkün həddi dairəsində büdcə kəsirinin olmasına qeyri-normal hal kimi baxmaq olmaz. Lakin büdcə kəsirinin həddini elə səviyyədə saxlamaq lazımdır ki, onun kəmiyyəti əks keyfiyyətə çevrilməsin, yəni ölkəni daim borclu vəziyyətdə saxlamasın və gələcəkdə əhalinin sosial ehtiyaclarının ödənilməsinə mənfi təsir göstərməsin. Dünya ölkələrinin təcrübəsindən məlum olduğu kimi, büdcə kəsirinin yol verilən həddi ümumi daxili məhsulun 2-3 faizindən artıq olmamalıdır. Əgər büdcə kəsiri göstərilən həddən yuxarı

downloaded from KitabYurdu.az

olarsa, onun ixtisar edilməsi üçün zəruri tədbirlərin görülməsi vacibdir.

Azərbaycan Respublikasının Dövlət büdcəsi də kəsirli olmuş və hazırda kəsirin ixtisar edilməsi və minimum həddə endirilməsi üçün tədbirlər görülür. Müstəqillik qazanmış Azərbaycan Respublikası Dövlət büdcəsinin kəsirli olmasının başlıca səbəbləri aşağıdakılardan ibarətdir:

1. Keçmiş Sovet İttifaqının tərkib hissəsi olmuş Azərbaycanın müstəqillik əldə etməsi və mövcud təsərrüfat əlaqələrinin qırılması şəraitində dərin iqtisadi böhrana düşməsi, maliyyə-pul-kredit sisteminin sarsılması;

2. Ermənistanın Azərbaycan Respublikasına təcavüzü və ərazimizin 20 %-ə qədərinin işğalı, 1 milyon nəfərə qədər vətəndaşın qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur olması şəraitində dövlət büdcəsinin xərclərinin artması;

3. Respublikada ictimai-siyasi sabitliyin pozulması və tez-tez hakimiyyət dəyişikliyi şəraitində maliyyə-büdcə siyasətinin düzgün qurulmaması.

1991-1994-cü illərdə Azərbaycan Respublikasında gedən ictimai-siyasi proseslər və dərin iqtisadi böhran şəraitində keçmiş inzibati-amirlik sistemindən miras qalmış qeyri-çevik maliyyə mexanizminin daha da pozulması nəticəsində dövlət büdcəsinin gəlirləri kəskin surətdə azalmağa və xərcləri isə böyük miqyasda artmağa başladı. Bütün bunlar büdcə kəsirinin görünməmiş səviyyəyə çatmasına səbəb oldu. Büdcə kəsiri ÜDM-a nisbətən 1994-cü ildə ən yüksək həddə çatmış, yəni 10,3 % təşkil etmişdir.

Qeyd etməliyik ki, Respublika dövlət hakimiyyətinin gördüyü səmərəli siyasi-iqtisadi tədbirlər nəticəsində 1995-ci ildən etibarən büdcə kəsiri aşağı düşməyə meyl etməyə balamışdır və 2001-ci ildə 2 % nəzərdə tutulmuşdur. Dünya

downloaded from KitabYurdu.az

təcrübəsinin göstərdiyi kimi, büdcə kəsirinin kəskin surətdə artması ölkədə inflyasiya prosesinin geniş miqyas almasına səbəb olur, çünki kəsirin ödənilməsi üçün hökumət mütəmadi olaraq pul-kredit emissiyasından istifadə etməli olur. İnflyasiyanın genişlənməsi əmtəə və xidmətlərə olan qiymətlərin surətlə yüksəlməsində (buna görünən inflyasiya deyilir) və təmin olunmayan tədiyyə qabiliyyətinin kəskin artmasında (buna gizli inflyasiya deyilir) özünü büruzə verir. İnflyasiya prosesinin artması eyni zamanda əhalinin həyat səviyyəsinin olduqca aşağı düşməsinə və ölkədə sosial gərginliyin kəskinləşməsinə gətirib çıxarır.

90-cı illərin əvvəllərində Azərbaycan Respublikasının milli valyutasının dəyəri ildən-ilə kəskin surətdə azalırdı. Belə ki, 1992-ci ildə Azərbaycan manatı dövriyyəyə buraxılanda 1 ABŞ dolları 15 manata, 10 rus rublu 1 manata bərabər tutulurdusa, 1993-1994-cü illərdə 1 dollar 4470 manata qalxmışdı və nəticədə Respublikada inflyasiya 1994-cü ildə 1800 faizə çatmışdı.

Azərbaycan Respublikasının prezidenti H.Əliyevin rəhbərliyi altında ölkədə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində 90-cı illərin əvvəllərində iqtisadiyyatda xroniki xarakter almış geriləmə prosesinin qarşısı alındı, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin möhkəm təməli qoyulmağa başlandı. Əldə edilən makroiqtisadi sabitlik, sənaye və digər təsərrüfat sahələrində iqtisadi göstəricilərin artımı və həyata keçirilən iqtisadi islahatlar nəticəsində 1995-1996-cı illərdən başlayaraq milli daxili məhsulun artımı əldə edildi. Nəticədə, ölkədə inflyasiyanın səviyyəsi 1995-ci ildə 83 faizə, 1996-cı ildə 8 faizə, 1997-ci ildə 0,4 faizə enmişdir və 1998-ci ildə 1,5-2 faizə qədər təşkil etmişdir. Bütün bunlarla yanaşı büdcə kəsirinin azalma meyli də güclənməyə başlamışdır.

downloaded from KitabYurdu.az

Cədvəl 31. Büdcə kəsirinin ÜDM-a olan nisbəti, %-lə

	1996	*1997*	*1998*	*1999*	*2000*	*2001*	*2002*	*2003*
ÜDM	**100**	**100**	**100**	**100**	**100**	**100**	**100**	**100**
ÜDM-a nisbətən büdcə kəsiri	0,7	2,6	1,9	2,8	0,9	2,8	1,2	1,0

Son dərəcə mənfi maliyyə, iqtisadi və sosial nəticələrə gətirib çıxaran böyük həcmdə büdcə kəsirini aradan qaldırmaq üçün siyasi-iqtisadi tədbirlər sistemi həyata keçirilməsini, fəal maliyyə siyasəti yeridilməsini, dünya təcrübəsində qəbul ecidmiş metodlarla mübarizə aparılmasını tələb edir. Dövlət büdcəsinin balanslaşdırılması yolu ilə onun gəlirləri və xərclərinin tarazlaşdırılmasına (bərabərləşdirilməsinə) nail olmağa doğru edilən cəhdlər hazırda qarşıda duran ən başlıca vəzifələrdən biridir.

Lakin büdcə kəsiri ilə mübarizə strategiyası və tədbirləri işlənib hazırlanarkən aşağıdakı mühüm prinsipləri nəzərə almaq vacibdir:

Birincisi, büdcənin gəlirləri və xərcləri arasında tarazlığın yaradılması və hətta gəlirlərin xərclərdən artıq olması heç də həmişə sağlam və dinamik inkişaf edən iqtisadiyyatdan xəbər vermir. Xünya təcrübəsindən məlumdur ki, bu və ya digər ölkənin müəyyən inkişaf mərhələlərində, onun inkişaf xüsusiyyətlərnidən və şəraitindən asılı olaraq büdcə kəsirinə yol verilir.

İkincisi, büdcə kəsiri arzuolunmaz və ölkənin iqtisadiyyatı və maliyyə sistemi üçün daha böyük bəla olmaqla, onun aradan qaldırılmasına xalis riyazi metodla yanaşdıqda, bu nəinki iqtisadiyyatı stimullaşdırmağa, hətta

downloaded from KitabYurdu.az

onun vəziyyətini daha da ağırlaşdırmağa səbəb olur, yəni iqtisadiyyatı «müalicə» etmək əvəzinə onu daha da ağır «xəstəliyə» düçar edir.

Üçüncüsü, büdcə kəsiri dünya təcrübəsində sübut olunduğu kimi, yol verilən həddən, yəni ümumi daxili məhsula nisbətən 2-3 faizdən artıq olmamalıdır. Əgər büdcə kəsiri göstərilən həddən yüksək olarsa, onda dövlət ciddi iqtisadi və siyasi tədbirlər görməklə, onun ixtisar olunmasına çalışmalıdır.

Dördüncüsü, büdcə kəsirini azaltmaq və aradan qaldırmaq üçün hər şeydən əvvəl iqtisadiyyatın özünü dirçəltmək və sağlamlaşdırmaq lazımdır. Hər hansı mütərəqqi maliyyə tədbiri görülməsinə baxmayaraq, ölkə iqtisadiyyatını inkişaf etdirmədən maliyyə sabitliyinə və eləcə də büdcə kəsirini aradan qaldırmağa nail olmaq mükün deyildir.

Beşincisi, büdcə kəsirini aradan qaldırmaq üçün müxtəlif maliyyə metodlarından, o cümlədən daxili və xarici dövlət borclarından istifadə etmək olar. Lakin çox vaxt təcrübədə büdcə kəsirini ləğv etmək asan yol kimi pulun emissiyasından istifadə edilir ki, bu da pul tədavülü qanununa zidd olmaqla, sonradan büdcəni daha ağır vəziyyətə salır, yəni onun kəsiri növbəti mərhələdə daha artır, ona görə də büdcə kəsirinin aradan qaldırılması üçün maliyyə bazarında dövlətin qiymətli kağızlarını yerləşdirməklə, yalnız borc əsasında örtmək məqsədəuyğundur.

Büdcə kəsirini aşağı salmaq və onu idarə etmək sahəsində konkret tədbirlər proqramı işlənib hazırlanarkən, ölkənin inkişaf xüsusiyyətləri, siyasi, iqtisadi sosial şəraiti nəzərə alınmaqla, yuxarıda göstərilən prinsiplər mütləq həyata keçirilməlidir.

downloaded from KitabYurdu.az

Büdcə kəsirini azaltmaq üzrə konkret tədbirlər proqramına elə məsələləri daxil etmək və ardıcıl həyata keçirmək lazımdır ki, bunlar bir tərəfdən, ölkənin Dövlət büdcəsinə daxil olan gəlirlərini artırmağa stimul yaratsın, digər tərəfdən isə büdcə xərclərini ixtisar etməyə köməklik göstərsin. Bu cür tədbirlərə xüsusilə aşağıdakılar aid edilməlidir:

- özəlləşdirmə proqramının həyata keçirilməsi və özəlləşdirilən əmlakdan gələn gəlirlərin büdcəyə daxil edilməsi%
- dövlət bölməsində olan təsərrüfat sahələrinin məhdudlaşdırılması və dövlət maliyyələşdirilməsinin azaldılması;
- istehsalın dirçəlməsinə və inkişafına stimul yaradan maliyyə güzəştlərinin və sanksiyaların geniş tətbiq edilməsi;
- büdcə vəsaitindən səmərəli istifadə etmək və onun maliyyə faydasını artırmaq məqsədilə büdcədən xalq təsərrüfatına investisiya qoyuluşunun istiqamətini dəyişdirmək;
- sülh və xarici təhlükəsizlik şəraitində büdcədən hərbi xərclərə təsisatı ixtisar etmək;
- ölkənin iqtisadiyyatını sürətlə inkişaf etdirmək məqsədilə xarici investisiyanın cəlb olunmasını genişləndirmək, yəni kapital idxalını artırmaq və s.
- Beləliklə, ölkənin iqtisadi-sosial inkişafına nail olmaq məqsədilə digər tədbirlərlə yanaşı, büdcənin gəlirlərini artırmağa, onun xərclərini ixtisar etməyə və eləcə də büdcə kəsirini nizamlaşdırmağa və səmərəli idarə etməyə yönəldilən kompleks tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi Azərbaycan Respublikasının bazar iqtisadiyyatının istiqamətində inamla irəliləyişinə imkan verəcəkdir.

downloaded from KitabYurdu.az

V BÖLMƏ

MALİYYƏ VƏ VERGİ ORQANLARININ BÜDCƏNİN İCRASI ÜZRƏ NƏZARƏT İŞİ

XXIX fəsil. Büdcənin icrası üzrə maliyyə və vergi nəzarəti

29.1. Dövlət büdcəsinin icrasına maliyyə nəzarəti

Maliyyə nəzarəti cəmiyyətin iqtisadi həyatının müxtəlif sahələrində və təsərrüfatın ayrı-ayrı səviyyələrində irəli sürülən tələblərə uyğun idarə edilməsini təşkil etmək məqsədilə həyata keçirilən nəzarət formasıdır.

Maliyyə nəzarətinin həyata keçirildiyi obyektdən asılı olaraq, dövlət, ictimai, təsərrüfatdaxili və müstəqil (auditor) maliyyə nəzarəti kimi fərqlənirlər.

Maliyyə nəzarəti keçirilmə formasına görə ilkin, cari və sonrakı nəzarətdən ibarətdir.

İlkin maliyyə nəzarəti müəssisələrin maliyyə planlarının, idarə və təşkilatların gəlir və xərc smetalarının, büdcə layihələrinin, müqavilə şərtlərinin və s. sənədlərin tərtib edilməsi və təsdiqi zamanı həyata keçirilir.

Cari maliyyə nəzarəti – maliyyə planının icrası prosesində, maliyyə-təsərrüfat əməliyyatları keçirildikdə, pul vəsaitlərinin və əmtəə-material qiymətlilərinin sərfinin norma və normativlərə uyğun olması yoxlanıldıqda, əvvəlcədən verilmiş vəsaitlərin istifadəsi, vəsaitlərin xərc planlarına uyğun buraxılması zamanı həyata keçirilir.

Sonrakı maliyyə nəzarəti hesabat dövrünün və maliyyə ilinin bütövlükdə başa çatmasından sonra həyata keçirilir. Dövlət büdcəsinin, büdcə idarələrinin smetalarının, müəssisə və təşkilatların maliyyə

downloaded from KitabYurdu.az

planlarının icrası zamanı pul vəsaitlərinin düzgün, məqsədəuyğun və səmərəli xərclənməsi yoxlanılır. Keçirilmiş tədbirlərə qiymət verilməsi, maliyyə, əmək və material ehtiyatlarının qanunauyğun istifadə olunması, mühasibat hesabatrı və məxaric sənədləri, maliyyə-təsərrüfat əməliyyatlarının yoxlanması əsasında aparılmış son maliyyə nəticələrinin təhlil edilməsi ilə həyata keçirilir. Sonrakı maliyyə nəzarəti ilkin nəzarətlə qarşılıqlı əlaqədə aparılır.

Maliyyə nəzarəti zamanı aşağıdakılar müəyyən edilir:

- iqtisadi və hüquqi qanunların tələblərinə riayət olunması, milli gəlirin və ictimai əmtəəlik məhsulun dəyərinin bölüşdürülməsinin və yenidən bölüşdürülməsinin əlverişli və uyğun olması;
- büdcənin düzgün tərtibi və icra edilməsı;
- müəssisə və təşkilatlarda, büdcə idarələrində maliyyə vəziyyəti, əmək, material və maliyyə resurslarından səmərəli istifadə olunması, vergilərin düzgün hesablanması, ödənilməsi və s.

Maliyyə nəzarəti qarşısında aşağıdakı vəzifələr durur:

- maliyyə resurslarına olan tələb ilə gəlirlərin məbləği əsasında tarazlığı təmin etmək;
- dövlət büdcəsi qarşısındakı maliyyə öhdəliklərinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək;
- istehsaldaxili maliyyə ehtiyatlarını aşkara çıxartmaq, xərclərin azaldılması imkanlarını müəyyən etmək;
- müəssisələrdə, büdcə idarə və təşkilatlarında material qiymətlilərindən və pul vəsaitindən səmərəli istifadə olunmasına, həmçinin uçot və hesabatların düzgün aparılmasına kömək etmək;

downloaded from KitabYurdu.az

- qüvvədə olan qanunvericilik və normativ aktlara riayət olunması, o cümlədən təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrin vergiyə cəlb olunması sahəsində nəzarəti həyata keçirmək;

- müəssisələrin xarici-iqtisadi fəaliyyəti, o cümlədən valyuta və s. əməliyyatları üzrə yüksək faydalılığa nail olmağa köməklik etmək.

Büdcə vəsaitinin səfərbər edilməsi və istifadə olunması üzərində nəzarət başdıca olaraq maliyyə orqanları tərəfindən həyata keçirilir. Ona görə də maliyyə nəzarətinin bu növü büdcə nəzarəti adlanır. Büdcə nəzarəti iqtisadiyyatın inkişafına və dövlət büdcəsinə daxil olan vəsaitin maksimum atırılmasına və optimal maliyyə-büdcə siyasətinin işlənib hazırlanmasına şərait yaradır.

Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Baş İdarəsi maliyyə nəzarətini təftiş və yoxlamalar aparmaq yolu ilə həyata keçirir. Dövlət Maliyyə Nəzarəti Baş İdarəsi dövlət büdcəsi vəsaitinin düzgün, səmərəli və təyinatına uyğun xərclənməsini müəyyən etmək üçün respublikada büdcədən maliyyələşən bütün nazirlik, idarə və təşkilatlarda təftiş işinin təşkilinə cavabdehdir.

Təftişin aparılmasında əsas məqsəd yerli maliyyə orqanlarında gəlir və xərc planının tərtibi, təsdiqi və icrasını, büdcə vəsaitindən məqsədyönlü və səmərəli istifadə vəziyyətini, habelə maliyyələşmənin aparılmasının düzgünlüyünü müəyyən etmək, xəzinədarlığın tətbiqi prosesində müəyyənləşdirilmiş prinsiplərin icrası vəziyyətinə, bu sahədəki işlərin səmərə və keyfiyyətinə nəzarət etmək, bu işlərin təkmilləşdirilməsində büdcə təşkilatlarının işçilərinə əməli köməklik göstərmək, büdcə idarələrinin smetalarında nəzərdə tutulmuş təyinatların əsaslı olmasını, büdcədən ayrılan və büdcədənkənar vəsailərin öz təyinatı üzrə

downloaded from KitabYurdu.az

xərclənməsini, pul vəsaiti və material qiymətlilərinin qorunub saxlanmasını, mühasibat uçotunun düzgün aparılması və hesabat məlumatlarının doğruluğunu müəyyənləşdirməkdir.

Yerli maliyyə orqanında təftiş aparılan zaman aşağıdakı əsas məsələlər yoxlanılmalıdır:

downloaded from KitabYurdu.az

1. Gəlir və xərclərin tərtibi üzrə büdcə proqnozlarının düzgünlüyü, proqnoz rəqəmlərinə qarşı gəlirlər və xərclərin necə planlaşdırıldığı, onlar planlaşdırılarkən müəyyən haqq-hesablarla əsaslandırılması, ötən ildə gəlirlər planının faktiki yerinə yetirilməsi və ilin əvvəlinə qalığın nəzərə alınması;

- Maliyyə Nazirliyi tərəfindən göndərilmiş vergi tədiyyələri proqnozlarının xəzinə orqanlarından alınmış faktiki daxilolmalar üzrə rəqəmlələ, vergi orqanının proqnoz və faktiki rəqəmləri ilə uyğunluğu;

- dövlət büdcəsinin gəlirləri üzrə ehtiyatları, habelə əlavə vergi mənbələrini aşkar etmək məqsədi ilə rayon ərazisində pərakəndə ticarət, ictimai iaşə, habelə digər sahələrdə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərdən alınan və büdcəyə ödənilən tədiyələrin düzgünlüyü;

- icra orqanlarının yerli təşkilatlarından dövlət büdcəsinin gəlir proqnozlarında tədiyyələrin reallığının müəyyən edilməsi ilə əlaqədar müvafiq arayış və göstəricilər alınmalı, birdəfəlik rüsum haqlarının büdcəyə cəlb edilməsi ilə əlaqədar bazarlarda, yarmarkalarda və xüsusi olaraq satış üçün ayrılmış digər yerlərdə malların, məmulatların və kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən fiziki şəxslərdən alınan birdəfəlik rüsum məbləğinin düzgünlüyü araşdırılmalıdır;

downloaded from KitabYurdu.az

- dövlət rüsumlarının, habelə qeyri-vergi tədiyyələrinin idarə və təşkilatlar tərəfindən düzgün tutulması və büdcəyə ödənilməsi, müəssisələrdə, büdcə idarə və təşkilatlarında fiziki şəxslərdən tutulan gəlir vergisinin, qanunvericilikdə nəzərdə tutulmuş digər vergi və tədiyyələrin düzgünlüyünün yoxlanması təmin edilməlidir.

2. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq büdcələrin tərtibi, baxılması və təsdiqi qaydalarına əməl olunması, ayrı-ayrı büdcələr arasında gəlirlərin və xərclərin düzgün bölünməsi, vergi və gəlirlərdən, həmçinin yerli gəlirlərə aid edilməli olan digər mədaxillərdən ayırma, həmçinin gəlir və xərc məbləğlərinin təyin edilməsi və hesablanması, yerli gəlirlərə aid olunmuş tədiyələrin tamamilə büdcəyə daxil olması, ayrı-ayrı tədiyələrin mədaxilinin mövsümi olmasının nəzərə alınmasına və yerli gəlirlərə daxil olan vəsaitin nəzərdə tutulmuş normalara uyğun büdcələr arasında bölüşdürülməsinin təmin edilməsinə riayət olunması;

- büdcədən maliyyələşən müəssisə və təşkilatların maliyyə vəsaitinə olan ehtiyaclarının öyrənilməsi, onların xərcləri üzrə müvafiq proqnozların alınması və icmallaşdırılması işinin təşkili səviyyəsinin vəziyyəti;

- büdcə idarələrinin smetalarının (fərdi və icmal smetaların) düzgün və tam həcmdə tərtibi, bu smetalarda maddələr üzrə hesablaşmaların və literlərin yazılıb-yazılmaması, fərdi smetaların yekunlarının büdcə icmalı ilə uyğunluğu;

- ayrı-ayrı icra nümayəndəliklərinin ərazisində olan büdcə idarələrinin xərclərinin həmin nümayəndəliklərin gəlirlərinə daxil edilməsinin düzgünlüyü, büdcənin mədaxil və məxaric üzrə icmal rəqəmlərin icra hakimiyyəti və

downloaded from KitabYurdu.az

müvafiq nümayəndəlik orqanının büdcənin təsdiqinə dair qərarlarındakı (protokoldan çıxarış) rəqəmlərə uyğunluğu;

3. Yerli xərclərin icrası zamanı gəlir və xərclər üzrə təyinata qarşı fərq olarsa, bu hal aydınlaşdırılmalı, icra ərəfəsində, həmçinin, ayrı-ayrı gəlirlər və xərclər üzrə dəyişikliklərin uçotunun aparılmasının düzgünlüyünə xüsusi fikir verilməklə bütün dəyişikliklər barəsində rayon icra hakimiyyətinin qərarlarının (sərəncamlarının və Maliyyə Nazirliyinin məktublarının) varlığı, əlavə gəlirlərin istifadə olunması üzrə müəyyən edilmiş qaydalara əməl edilməsi, əmək haqqı və ona bərabər tutulmuş zəruri xərclərin ödənişi üzrə borcların olub-olmaması, maliyyələşmə mənbəyi olmadan xərclərin aparılması halları araşdırılmalıdır.

Vəsaitlərin büdcədən qaytarılması halları sənədlər əsasında başdan-başa yoxlanılmalıdır:

4. Ərazi nümayəndəliklərində büdcə qanununa riayət olunması, onlara mənsub olan gəlirlərin vaxtında yığılması, büdcə təyinatından əlavə xərclərin edilməsi kimi faktların olub-olmamasına xüsusi diqqət yetirilməli, həmçinin Maliyyə İdarəsi tərəfindən kənd nümayəndəliklərinə nə kimi əməli köməklik göstərilməsi yoxlanılmalıdır;

- Yerli maliyyə orqanı tərəfindən fərdi və icmal xərc smetalarının, büdcə idarələri işçilərinin tarifləşmə siyahılarının yoxlanılması vəziyyəti şərh edilməlidir;

- Yerli maliyyə orqanında iqtisadi nəzarət işlərinin təşkili, büdcə idarələrindən hesabatların qəbulu, hesabat məlumatlarının düzgünlüyü yoxlanılmalıdır;

- Yerli xərclər üzrə ilin əvvəlinə yaranmış azad büdcə vəsaiti qalığının bölüşdürülməsi və istifadəsi, 01 yanvar tarixinə yaranmış büdcə qalığının dövlət büdcəsi layihəsində nəzərdə tutulmuş ehtiyat fonduna köçürülməsi, habelə xüsusi vəsaitlərin büdcədənkənar fondların yaradılması və

downloaded from KitabYurdu.az

istifadəsinin bu sahədə mövcud olan təlimat və göstərişlərə uyğun icrası vəziyyəti araşdırılmalıdır.

5. Büdcə vəsaitinin öz təyinatına üyğun tam və səmərəli xərclənməsinin düzgünlüyü yoxlanılarkən maliyyə orqanları tərəfindən büdcə idarə və təşkilatlarının müəyyən edilmiş qaydada maliyyələşdirilməsi düzgün araşdırılmalıdır. Bu zaman büdcələrin mütənasib bölgüsü və maliyyələşmənin bu bölgüyə müvafiq olaraq aparılması vəziyyətinə xüsusi diqqət yetirilməlidir.

Büdcə təşkilatlarının maliyyələşdirilməsi üçün tərtib edilmiş rüblük xərc cədvəllərinin icrası zamanı təyinatdan artıq vəsaitin köçürülməsinə yol verilməsi halları açıqlanmalı və araşdırılmalıdır. Sərəncam olmadan maliyyələşmə açılmışsa, bunun səbəbləri aydınlaşdırılmalıdır.

Büdcə idarələrində mal-material qiymətlilərinin normalan artıq ehtiyatlarının, cari maliyyələşdirmə hesabına qarşılıqlı əvəzləşmənin düzgün aparılmasına və maliyyələşmədə nəzərə alınmasına xüsusi fikir verilməlidir.

Büdcə təşkilatlarında şəbəkə, ştat və kontingent göstəricilərinin təhlilini aparmalı və bu göstəricilər üzrə artım varsa, bunun səbəbləri araşdırılmalıdır.

Büdcənin rüblük və illik icrası yekunları haqqında rayon icra hakimiyyətinə qərar layihələrinin verilib-verilməməsi, icra hakimiyyətində müzakirə edilərək müvafiq qərar qəbul edilib-edilməməsi və eləcə də Maliyyə Nazirliyi və digər orqanlardan daxil olmuş məktubların, idarəyə daxil olmuş ərizə və şikayətlərin, həmçinin Maliyyə Nazirliyinin əmr və göstərişlərinin icra vəziyyəti yoxlanılmalıdır.

Büdcə təşkilatlarında təftiş aparılarkən aşağıdakılar yoxlanılmalıdır:

downloaded from KitabYurdu.az

1. Smeta təyinatlarının düzgünlüyü, mühasibat uçotunun düzgün aparılması, hesabatların tərtibi və uçot məlumatları ilə hesabat məlumatlarının uyğunluğu, şəbəkə, ştat və kontingent planlarının yerinə yetirilməsi və xərclərin həmin göstəricilərə uyğunluğu, pul vəsaitləri və mal-material qiymətlilərin qorunub saxlanılması və onlardan qənaətlə istifadə olunması, əsaslı təmirə çəkilən xərclərin səmərəliliyi, avadanlıq və inventar alınması, mal-material qiymətlilərin silinməsi normalarına riayət olunması, uşaqlı ailələrin və işləyən pensiyaçıların sosial müdafiəsi üçün komissiyalar tərəfindən az təminatlı ailələrə təyin edilən müavinətlərin, həmçinin işləyən pensiyaçılara ödənilən pensiyaların düzgünlüyü, əmək haqqı fondunun düzgün xərclənməsi, büdcədənkənar (xüsusi vəsait) fondların yaradılması və onların xərclənməsi, debitor və kreditor borcların vəziyyəti, onların reallığı və yaranma səbəbləri, təhtəl-hesab şəxslərlə hesablaşmalar, pul vəsaitləri və mal-material qiymətlilərin inventarizasiyalarının aparılması barədə qüvvədə olan qaydalara riayət olunması, əsas vəsaitlərin yenidən qiymətləndirilməsinin vəziyyəti, əvvəlki təftişlə aşkar olunmuş faktların aradan qaldırılması vəziyyəti və bu məqsədlə görülmüş tədbirlər.

2. Büdcə təşkilatlarında büdcə vəsaitinin xərclənməsinin düzgünlüyü yoxlanılarkən təsərrüfat xərclərinə ayrılan vəsailər hesabına dövlət və qeyri-dövlət müəssisələrindən nəğd qaydada və köçürmə ilə mal alışı, habelə dərman və sarğı materiallarının, ərzaq məhsulları alınarkən onların qiymətlərinin təsdiq edilmiş qiymətlər səviyyəsinə uyğunluğunun, alışa dair təsdiqedicri sənədlərin olması və mühasibatlıqda mədaxil edilməsi vəziyyəti araşdırılmalı, xəzinədarlığın bu sahədəki nəzarət funksiyalarının yerinə yetirib-yetirilməməsi yoxlanılmalıdır.

downloaded from KitabYurdu.az

3. Büdcə təşkilatlarında cari büdcə ili üçün nəzərdə tutulmuş vəsaitlərin təyinatı üzrə xərclənməsini yoxlamaqla bərabər, həmin vəsaitlər hesabına keçmiş illərdən qalmış kreditor borcların ödənilməsi hallarına yol verilməsi müəyyən edilməli, dövlət öhdəçiliyi olmayan və müəyyən edilmiş limitlərdən artıq kreditor borcların yaradılması halları araşdırılmalı və bu barədə aktda qeydlər edilməlidir.

4. Təftiş olunan büdcə idarələrində (təhsil, səhiyyə, mədəniyyət şöbələrində, ərazi nümayəndəliklərində) Respublika Prezidentinin Fərmanları ilə əmək haqlarının, digər yardımların artırılmasının tətbiq edilməsinin düzgünlüyünü yoxlamaq.

Yoxlama gedişində yoxlayıcı proqramda göstərilən suallarla kifayətlənməməli, büdcə vəsaitlərindən səmərəli istifadə, maliyyələşmənin düzgün icra olunması və xəzinədarlıq sisteminin həyata keçirilməsində müəyyənləşdirilmiş büiün prinsiplərin gözlənilməsinə xüsusi fikir verməli, habelə lazım gəldikdə ortaya çıxan digər məsələləri də araşdırmalıdır.

Təftiş üçün müəyyən edilmiş vaxtdan səmərəli istifadə etmək məqsədi ilə əsas istiqaməti yoxlanılan təşkilatın daha vacib sahələrinə yönəltmək lazımdır.

Aparılan yoxlamanın nəticələri üzrə akt tərtib olunmalıdır. Aktda yerli maliyyə və xəzinədarlıq orqanında yoxlanılan məsələlərə dair müəyyən olunmuş nöqsan və çatışmamazlıqlar öz əksini tapmalı, onların aradan qaldırılması məqsədilə təkliflər verilməlidir.

Təftişin nəticələri təftiş olunan büdcə təşkilatlarında müzakirə edilməli, yerli büdcənin tərtibi və icrası üzrə aparılmış təftişlərin ümumi nəticələrinin Rayon İcra Hakimiyyəti başçısının Şura iclasında müzakirə olunması üçün qərar layihəsi təqdim edilməlidir.

downloaded from KitabYurdu.az

Təftiş və yoxlamalarda cinayət xarakterili faktlar aşkar edildikdə, bu barədə nazirliyin rəhbərliyinə məlumat verilməli, dövlətə dəymiş zərərin bərpa olunması məqsədilə materiallar hüquq-mühafizə orqanlarına göndərilməlidir.

29.2. Vergi nəzarətinin təşkili formaları və yoxlama üsulları

Azərbaycan Respublikasında vergi nəzarətinin forma və üsulları Azərbaycan Respublikasının «Vergi Məcəlləsi» ilə müəyyən edilir.

Vergi nəzarəti Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin səlahiyyətləri çərçivəsindədir. Bundan başqa, nəzarət funksiyasını informasiyanın düzgünlüyünü yoxlayan və bunları mühasibat və vergi hesabatlarında əks etdirən auditorlar yerinə yetirir.

Vergilərin bütün səviyyəli büdcələrə tam və vaxtında yığılması, vergitutma obyektlərinin uçotu, habelə vergi qanunvericiliyinə riayəi olunması üzərində nəzarət Azərbaycan Respublikası Vergilər Nazirliyinə həvalə edilmişdir.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Azərbaycan Respublikasının dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyinə riayət olunmasına nəzarət etmək;

downloaded from KitabYurdu.az

- vergi qanunvericiliyi ilə bağlı vergi ödəyicilərinə məlumatların verilməsini, vergilərin hesablanması və ödənilməsi barədə onlara əvəzsiz olaraq izahatların verilməsini təmin etmək;

- vergi sahəsində hüquq pozuntularını doğuran səbəbləri araşdırmaq və belə halların aradan qaldırılması üçün öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər həyata keçirmək;

- vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasını təmin etmək;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Vergi ödəyicilərində vergi yoxlaması onların fəaliyyətinə dövlət nəzarətinin əsas üsuludur. Vergi yoxlaması vergi ödəyicilərinin ilkin mühasibat və digər sənədlər əsasında verginin düzgün və vaxtında hesablanması və büdcəyə ödənilməsini müəyyən etmək üçün həyata keçirilir. Vergi yoxlamasının əsas məqsədi vergi ödəyicisinin vergi hesabat-
larının mə'lumatları ilə vergi orqanlarının aldığı mə'lumatların tutuşdurulmasıdır.

Vergi yoxlamalarının subyektləri aşağıdakılardır:

downloaded from KitabYurdu.az

- Nazirliklər, komitələr, idarələr, dövlət müəssisə və təşkilatları;

- mülkiyyət formasından asılı olmayaraq kommersiya təşkilatları və müəssisələri;

downloaded from KitabYurdu.az

- yerli və xarici hüquqi şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələr;

- qeyri-dövlət və qeyri-kommersiya idarə və təşkilatları;

- Azərbaycan Respublikasının vətəndaşları, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər.

Vergi yoxlaması zamanı vergi ödəyicisinin digər şəxslərlə bağlı fəaliyyəti haqqında mə'lumat alınması zərurəti yaranarsa, vergi orqanı həmin şəxslərdən yoxlanılan vergi ödəyicisinin fəaliyyətinə aid olan sənədləri tələb edə bilər. Bu hərəkət üçün vergi orqanının qərarı olmalıdır. Vergi praktikasında bu qarşılıqlı yoxlama adlanır.

Vergi qanunvericiliyi ilə vergi yoxlamasının iki növü müəyyən edilmişdir:

- kameral yoxlama;

- səyyar yoxlama.

Kameral yoxlamalar vergi idarələrində hesabat sənədləri vergi ödəyicilərindən qəbul edilən zaman aparılır, başqa sözlə, belə yoxlama vergi orqanında aparılır. Bu zaman hesabat formalarının doldurulmasının, vergilərin hesablanmasının düzgünlüyü və hər hansı bir güzəştdən istifadə etmənin qanunauyğunluğu yoxlanılır. Kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər.

Kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması (vergi məbləğinin az və ya artıq göstərilməsi) aşkar edildikdə, vergi gdəyicisinə 5 gün

downloaded from KitabYurdu.az

müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergilərin hesablanmasına dair bildiriş göndərilir.

Vergi ödəyicisindən xronometrac metodu ilə yeni müşahidə keçirilmçsi müraciət daxil olan dövrədək xronometrac metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər.

Səyyar vergi yoxlaması, adından göründüyü kimi, vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən bilavasitə vergi ödəyicisinin yerləşdiyi yerdə həyata keçirilir. Kameral yoxlamadan fərqli olaraq, səyyar vergi yoxlaması vergi orqanının qərarına əsasən həyata keçirilir.

Səyyar vergi yoxlaması növbəti və növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və bir aydan artıq davam edə bilməz. Müstəsna hallarda onun müddəti 3 aya qədər uzadıla bilər. Növbəti səyyar vergi yoxlaması keçirildikdə vergi orqanı tərəfindən vergi ödəyicisinə yoxlama başlananadək 15 gündən gec olmayaraq yazılı bildiriş göndərilir.

Növbədənkənar səyyar vergi yoxlaması aşağıdakı hallarda keçirilə bilər:

- verginin hesablanması və ödənilməsi üçün zəruri olan hesabat sənədləri müəyyən edilmiş müddətdə vergi orqanına təqdim edilmədikdə;

- vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;

- ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə. Bu halda

downloaded from KitabYurdu.az

növbədənkənar vergi yoxlaması yalnız vergi ödəyicisinin ƏDV-nə cəlb edilən əməliyyatları üzrə aparıla bilər;

- artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə vergi vergi ödəyicisinin ərizəsi daxil olduqda;
- vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin gizlədildiyi (azaldıldığı) aşkar edildikdə;
- cinayət prosesual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərar olduqda.

Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsləri vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazisinə və ya binasına (yaşayış binaları (sahələri) istisna olmaqla) bilavasitə daxil ola bilərlər. Bu zaman onlar öz xidməti vəsiqələrini, vergi orqanının həmin vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarını və ya məhkəmənin qərarını təqdim etməlidirlər.

Vergi orqanının vergi yoxlamasını keçirən vəzifəli şəxsləri yoxlamanın dolğun və obyektiv keçirilməsi üçün bütün halların ayırd edilməsi məqsədi ilə əsaslandırılmış qərar əsasında vergi ödəyicisinin ərazilərinin, binalarının, habelə sənədlərin və əşyaların baxışını keçirmək hüququ vardır. Baxışın keçirilməsi barədə protokol tərtib olunur.

Səyyar vergi yoxlamasının keçirilməsi zamanı vergi orqanının vəzifəli şəxsləri tərəfindən yoxlama üçün zəruri

downloaded from KitabYurdu.az

olan sənədlər müəyyən edilmiş qaydada tələb edilir. Həmin sənədlər 5 gün müddətində vergi orqanına təqdim edilmədikdə və ya həmin sənədlərin onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə, vergi orqanının vəzifəli şəxsləri tərəfindən müvafiq akt tərtib olunur. Tələb olunan sənədləri və ya surətlərini səyyar vergi yoxlamasının keçirildiyi müddətdə digər mənbələrdən əldə etmək mümkün olmadıqda, həmin akta əsasən vergi orqanının ödənilməli olan vergi məbləğlərini vergi ödəyicisi haqqında özündə olan mə'lumatlar və ya analogiya üzrə müəyyənləşdirmək hüququ vardır.

Vergi ödəyicisi tərəfindən sənədlərin təqdim edilməsindən imtina edildikdə, vergi orqanının vəzifəli şəxsi müəyyən edilmiş qaydada sənədlərin götürülməsini həyata keçirə bilər.

Səyyar vergi yoxlamasının keçirilməsi zamanı ortaya çıxan məsələlərin izah olunması üçün xüsusi biliklər tələb olunduğu hallarda ekspert, vergi orqanının fəaliyyət dairəsinə aid olmayan sahələr üzrə xüsusi bilik və təcrübə tələb olunduqda isə mütəxəssis dəvət olunur. Bu hərəkətlərin aparılması üçün vergi orqanının əsaslandırılmış qərarı olmalıdır.

Səyyar vergi yoxlamasının nəticələri üzrə vergi orqanının səlahiyyətli şəxsləri tərəfindən müəyyən edilmiş formada akt tərtib edilir. Vergi qanunveri-ciliyinin pozulubpozulmaması hallarının aşkar edilməsindən asılı olmayaraq aktda aşağıdakılar əks etdirilir: müəssisənin adı, yoxlamanın tarixi, yoxlanılan məsələlərin siyahısı, yoxlamanın əhatə etdiyi dövr.

Əgər yoxlama zamanı vergi qanunvericiliyinin pozulması halları aşkar edilərsə aktda aşağıdakılar əks

downloaded from KitabYurdu.az

olunmalıdır: vergi qanunvericiliyinə əməl edilmə-sində aşkar olunmuş pozuntular haqqında konkret faktlar, yoxlanılan dövr ərzində mühasibat hesabatları-nın, pul əməliyyatlarının, gəlir və xərclərin uçotunun düzgün aparılması nəticəsində vergi qanunvericiliyinin pozulmasına gətirib çıxarmış faktlar, vergi orqanlarına təqdim edilmə qaydalarındakı pozuntular və s.

Səyyar vergi yoxlaması aktı yoxlamanı aparan vergi orqanının səlahiyyətli şəxsi, yoxlama aparılan müəssisənin rəhbəri və baş mühasibi tərəfindən imzalanır.

Vergi ödəyicisi yoxlama aktına öz qeydlərini edə bilər, onu imzalamaqdan imtina edə bilər. Bu zaman bu barədə aktda müvafiq qeyd aparılır.

Səyyar vergi yoxlamasının nəticələri vergi orqanının yoxlamanı aparan səlahiyyətli nümayəndəsi vergi orqanına gəldikdən bir gün sonra xüsusi curnalda qeyd olunur.

Qeyd etmək lazımdır ki, vergi orqanının səlahiyyətli nümayəndəsi tərəfindən aktın tərtib edilməsi heç də avtomatik surətdə vergi ödəyicisinin məs'uliyyətə cəlb edilməsi demək deyildir. Çünki yoxlama aktı aşkar edilmiş qanun pozuntularının bir növ siyahısıdır. Orada şərh edilmiş hallar vergi orqanının rəhbərinin müəssisəyə uyğun sanksiyaları tətbiq etmək qərarının qəbul edilməsi üçün əsasdır. Vergi orqanının rəhbəri aktı aldıqdan sonra səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə 10 gün müddətində aşağıdakı qərarlardan birini çıxarır:

-vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilsin;

downloaded from KitabYurdu.az

-vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina edilsin;

-əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında qərar qəbul edilsin.

XXX fəsil. BÜDCƏ SİSTEMİNDƏ İNFORMASİYA AXININ AVTOMATLAŞDIRILMASI

30.1. Büdcə prosesində informasiya texnologiyasının rolu

Büdcə sistemi, ekspertlərin məlumatına görə artan surətlə hərəkətdə olan informasiya axınlarının kəsişmə mərkəzidir. Ölkə üçün böyük həcmli və strateci əhəmiyyət daşıyan informasiyanın müvəffəqiyyətlə təşkili üçün idarəetmə və büdcə sisteminin təşkilinin bütün mərhələlərində geniş müdaxilə problemini həll etmək lazımdır.

Bu problemin sosial-iqtisadi əhəmiyyətinin dərk edilməsi Azərbaycanın hökumət orqanları səviyyəsində irəli sürülür və bununla əlaqədar olaraq Azərbaycanın vahid informasiya məkanının formalaşması və inkişafı prosesinə başlanmışdır. Həyata keçirilən bu tədbir milli informasiya potensialının əlaqələndirilmiş inkişafı əsasında cəmiyyətin avtomatlaşdırılmasını nəzərdə tutur. İnformasiya və

downloaded from KitabYurdu.az

telekommunikasiya texnologiyasının inkişafı və səmərəli istifadəsi probleminin həlli Azərbaycanın dövlət informatizasiya siyasətinin tərkib hissəsidir və bunun da əsas mahiyyəti informatizasiyanın instrumental vasitələrinin prioritet inkişafından informasiya resurslarının koordinasiyası və inteqrasiyasına əsaslı dönüşünü nəzərdə tutur. Bu cəhət özünü itəkcə iqtisadi islahatların səmərəli strategiyasına deyil, həmçinin ölkədə gələcəkdə informatizasiya sisteminin inkişafına öz təsirini göstərəcəkdir.

İnkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, informasiya texnologiyaları potensialının büdcə prosesinə tətbiqi bu ölkələrə iqtisadi və sosial sabitlik gətirir.

Azərbaycana gəldikdə isə hüquqi demokratik dövlət quruluşu və bazar iqtisadiyyatında keçid şəraitində büdcə informasiyası inkişafın ən zəruri amilinə çevrilir ki, dövlət və yerli idarəetmə orqanlarının qarşılıqlı fəaliyyəti prosesində özünü büruzə verir.

Qeyd etmək lazımdır ki, cəmiyyətin idarəetmə strukturunun müasir inkişafı üçün yerli və bələdiyyə idarəetmə orqanlarının hüquq və vəzifələrinin durmadan artmaqda olan rolu üçün xarakterikdir. Yerli büdcələrin yaradılması və səmərəli istifadəsi, regional proqram və layihələrin işlənməsi və həyata keçirilməsi, sosial-iqtisadi sahədə tədbirlərin həyata keçirilməsi, bütün bunlar məqsədyönlü informasiya şəbəkəsinin, müasir informasiya texnologiyasının tətbiqini tələb edir.

Büdcə prosesinə uyğun müasir proqressiv informasiya texnologiyasının əsasını personal hesablama, kompüter kommunikasiyası, korporativ standartlar təşkil edir.

Büdcə prosesinə uyğun informasiya texnologiyasının inkişafı və tətbiqinin aktuallığı *qlobal miqyaslı ərazi*

downloaded from KitabYurdu.az

informasiya – bölgü sisteminin yaradılmasının zəruriliyi ilə əlaqədardır. Belə sistemlər ölkənin informasiya tələbatını təmin etməyə və konkret regionların abonentləri arasında informasiya kommunikasiyasının təmin edilməsi, həmçinin iqtisadi, hüquqi və sosial informasiyalara malik informasiya bazasının əldə edilməsinə yardım edilməsi məqsədini daşıyan şəhər, respublika miqyaslı inteqrasiya edilmiş regional tnformasiya – telekommunikasiya şəbəkəsinin yaradılmasına xidmət edir.

Bununla belə, informasiya texnologiyasını təkcə büdcə prosesini informasiya mühitinin təşkilinin səmərəli, vasitəsi kimi deyil, həmçinin onun gələcəkdə inkişafının katalizatoru kimi baxmaq lazımdır.

Büdcə prosesinə uyğun informasiya sistemləri (BPİS) müasir korporativ informasiya sistemlərinə daxildir. Bu səviyyəsinə görə ərazi üzrə bölüşdürülmüş, həyat təminatlı komponentlərə malik olan, açıq sistem prinsipi əsasında fəaliyyət göstərən çoxprofilli, büdcə prosesi sistemidir.

Bu o deməkdir ki, operativ və taktiki tənzimləmə tədbirinin həyata keçirilməsi büdcə sisteminin tərkibinə daxil olan bölmələrin səlahiyyəti çərçivəsindədir.

Büdcə prosesinin sabitliyinin artırılmasına, onun tamlığının möhkəmləndirilməsinə yardım edən hər şey nəzərə alınmalıdır. Bu dövlət hakimiyyəti orqanlarından yerli idarəetmə orqanlarınadək şaquli surətdə qarşılıqlı təsirdə olan subyektlərin cəmlənməsidir, bu hakimiyyətin müxtəlif qanadlarının qarşılıqlı təsir konstuktivliyidir, bu maliyyənin idarə edilməsinin təkmilləşdirilməsi, sabit inkişafın və bank strukturlarının təhlükəsizliyinin artırılması hesabına ümumi məhsul istehsalının böhransız inkişafıdır.

Konfliktli və böhranlı sosial-iqtisadi vəziyyətin aradan qaldırılması, yaranmış vəziyyətdən daha səmərəli

downloaded from KitabYurdu.az

çıxış yolunun axtarılması, qəbul olunmuş qərarların mümkün nəticələrinin qiymətləndirilməsi, maliyyə vəziyyətinin inkişafının qanunauyğunluğunun və meyllərinin aşkar edilməsi, büdcənin icrasının səmərəliliyinin qiymətləndirilməsi və ona əhəmiyyətli nəzarətin həyata keçirilməsi, sosial-iqtisadi ssenarilərin «araşdırılması» və qurulması, iri korporasiyaların qarşılıqlı əlaqəsi və bu kimi bir sıra digər problemlər büdcə prosesi ilə razılaşdırılması tələb olunan dövlət idarəçiliyi problemlərinə aiddir.

Bu problemlər aşağıdakılarla xarakterizə olunur:

- informasiya açıqlığı və qəbul edilmiş qərarların sərhədlərinin qeyri-müəyyənliyi;
- məsələnin qoyuluşu zamanı metodik köməkliyin zəruriliyi;
- hər bir vəziyyətin və onlara qarşı qəbul edilmiş qərarın unikallığı;
- informasiyanın bir-birinə zidd və natamamlığı zamanı qəbul edilmiş qərarın operativliyinə tələbin yüksəkliyi;
- stereotip qərarların çərçivəsindən çıxmağın və az ehtimallı alternativ variantların baxılmasınınzəruriliyi;
- qeyri-ənənəvi modelləşdirmə metodlarının və analitik fəaliyyətdə informasiya texnologiyalarının qəbul edilməsini tələb edən xarici mühitin xaotikliyi. Bunula belə büdcə sisteminin sabitliyinin artırılması üçün informasiya-analitik texnologiyadan istifadə problemini başa düşmək lazımdır.

Bu sahədə irəliyə getmək üçün informasiya-analitik intelektual texnologiyanın tətbiqi ilə əlaqədar yeni yanaşmalar və metodikalar lazımdır. Bu məqsədlə 1991-ci ildən etibarən reqression-statistik təhlilə, ekspert sistemlərin və bilik bazasının yaradılmasına, neyron texnologiyaya,

downloaded from KitabYurdu.az

genetik alqoritmlərə, ehtimal hesablamalara əsaslanan layihələndirmə sisteminə başlanmışdır. Bütün bunlar ümumi tematika olan yumşaq hesablamalar (Soft Computinq) adı altında birləşmişdir.

Dövlət idarəetmə orqanlarında intelektual informasiya texnologiyalarından yeni istifadə edilməyə başlanmışdır.

BPİS layihələndirmə metodologiyasına yeni baxış aşağıdakı fərqli xüsusiyyətlərə malikdir:

- müxtəlif lokal kompleks məsələlərin avtomatlaşdırılmasından birbaşa idarəetmə şəraitindəki son maliyyə nəticələrinə, işgüzar proseslərə keçid;
- bölüşdürücü hesabatların müdafiə edilməsi;
- açıq köçürülə bilən və miqyaslaşdırılmış əlavələrin mövcudluğu;
- yeni tərtib olunmuş əlavələrin və fəaliyyətdə olan məlumatlar bazasının inteqrasiyası;
- informasiyalaşdırmaya sərf edilən xərclərin azaldılması əsasında informasiya emalının iqtisadi səmərəliliyinin artırılması;
- büdcə sistemində qərarların qəbul edilməsi mərkəzi üçün vaxtında və düzgün informasiyanın təqdim edilməsi.

Korporativ standartlar sisteminin quruluşunun səmərəliliyi büdcə sisteminin tərkibində yeni sistemyaradıcı elementdən ibarətdir.

BP İS-nin layihələşdirilməsi zamanı avtomatizasiya proseslərinin təşkilati və texnoloci əsaslarına xidmət edən korporativ standartlardan aktiv olaraq istifadə etmək lazımdır. Bununla belə əsas kimi sahəvi, milli və beynəlxalq standartlar götürülür.

Beləliklə, BP İS-nin tərtibatı zamanı kombinə edilmiş yanaşma inkişaf etməyə başlayır və bunu qarşılıqlı hərəkət

downloaded from KitabYurdu.az

kimi xarakterizə etmək olar: kompüter infrastrukturası və sistem funksionallıq elə əlaqələndirilməlidir ki, maksimum dərəcədə büdcə prosesinin tətbiqi funksional səviyyəsində dəyişkənliyə və ardıcıllığı təmin etmək mümkün olsun. BP İS-nin layihələndirilməsi zamanı metodologiyanın və professional mədəniyyətin özəyini təşkil edən məsələlərə kompleks baxış informasiya axınlarının və korporativ şəbəkənin idarə edilməsinin standartlaşdırılması şəraitində yormalaşır.

Belə bir miqyaslı sistemin layihələşdirilməsi Azərbaycanın təcrübəsində tətbiqi həyata keçirilmədiyindən Azərbaycan Respublikasının maliyyə sistemində tətbiq edilməyə başlanılmış informasiyalaşdırmanın ayrı-ayrı istiqamətlərinə nəzər salaq.

30.2. Maliyyənin idarə edilməsində informasiya sisteminin rolu

Azərbaycan Respublikasında maliyyənin idarə edilməsinin yeni sistemi yaradılır. Maliyyənin idarə edilməsinin ilk növbədə Ali Dövlət Hakimiyyət və idarəetmə orqanı olan Prezident və Milli məclis həyata keçirir. Bu cür idarəetmə dövlət büdcəsi layihəsinə baxılması və təsdiqi, həmçinin icrasının təsdiqi zamanı həyata keçirilir.

Dövlətin maliyyə sistemi – bilavasitə dövlətin maliyyə fəaliyyətini həyata keçirən dövlət orqanlarının, maliyyə və kredit təşkilatlarının məcmusudur. Maliyyə orqanlarının sisteminə icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Maliyyə Nazirliyi başçılıq edir. Maliyyə Nazirliyi Azərbaycanda vahid maliyyə, büdcə, vergi və valyuta siyasətini təmin edir və icraedici hakimiyyət

downloaded from KitabYurdu.az

orqanlarının bu sahədə fəaliyyətini əlaqələndirir. Maliyyəni idarə edərkən bu orqanlar öz səlahiyyətləri çərçivəsində vahid dövlət maliyə siyasətini həyata keçirirlər.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin fəaliyyəti bütün maliyyə sistemi həlqələrinə şamil edilir. Dövlət büdcəsinə büdcədənkənar fondlar, dövlət kreditinə, pul tədavülünə, büdcə vəsaitlərinin istifadəsinə nəzarət onun bilavasitə səlahiyyətlərinə daxildir.

Nazirlikdə iqtisadi proseslərin idarə edilməsi, problemlərin mümkün variantlarının hazırlanması və təhlili ilə əlaqədar olaraq daima analitik iş aparılır.

Hazıda Maliyyə Nazirliyində bəzi funksional proseslərin avtomatlaşdırılmasını həyata keçirən ayrı-ayrı informasiya sistemi komponentləri tətbiqi olunmuşdur.

Büdcənin formalaşması və icrası prosesini informasiyalaşdırılmış təminatını təkmilləşdirmək vəzifələri bütövlükdə müasir informasiya texnologiyası və hesablama texnikası vasitələrindən istifadə etməklə maliyyə hesablamalarının kompleks avtomatlaşdırılmış informasiya sisteminin yaradılması yolu ilə mümkündür.

«Maliyyə» AİS – bütün maliyyə sistemi həlqələrində dövlət büdcəsinin tərtibi və icrası proseslərinin təkmilləşdirilməsi məqsədi ilə mütəxəssisləri (mərkəzi aparatda və yerli orqanlarda çalışan iştirakçıları) və texniki vasitələri (kompüter, faks, telekommunikasiya və b.) birləşdirən sistemdir.

«Maliyyə» AİS maliyyə orqanlarının ayrılmaz hissəsidir, onun strukturuna inteqrasiya olunub. AİS maliyyə informasiyasının yığılması, emalı, ümumiləşdirilməsi və təhlili rabitə kanalları vasitəsilə, həmçinin dövlət ilarətmə icra hakimiyyəti orqanları və başqa fəaliyyətdə olan orqanlar və sistemlər vasitəsilə onun

downloaded from KitabYurdu.az

ötürülməsi prosesində operativliyi və işin keyfiyyətini təmin edir.

AİS-in tətbiqi büdcənin planlaşdırılmasına və proqnozlaşdırılmasına, dövlət büdcəsinin gəlirlərinin və xərclərinin idarə edilməsinin optimallaşdırılmasına imkan verir, dövlət vəsaitlərinin daxil olmasına və məqsədli istifadəsinə nəzarəti gücləndirir, dövlət proqramlarının maliyyələşdirilməsinin operativliyini və Nazirliyin struktur bölmələrinin qarşılıqlı əlaqəsini artırır.

«Maliyyə» AİS-in ayrı-ayrı sistemaltı elementlərinin inteqrasiyalı informasiya sisteminin tərkib komponentləri kimi baxılmalıdır və bunlar ölkədə maliyyə vəziyyətinin tam bir şərtini əks etdirməli, kompleks təhlili təmin etməli, proqnoz qiymətləndirmənin təmin edilməsinə yardım etməli, kollektiv və fərdi qərarların qəbul edilməsi prosesinə yardım etməlidirlər.

«Maliyyə» AİS ərazi-bölgü informasiya sistemi olmaqla mərkəzi apparat, xəzinədarlıq, yerli maliyyə idarələri də daxil edilməklə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin əməkdaşlarının informasiya tələbatını ödəməyə xidmət edir. Bundan başqa, «Maliyyə» AİS-i abonent şəbəkəsi birbaşa büdcə vəsaiti alanlarda yerləşdirilir. «Maliyyə» AİS-i dövlət hakimiyyət və idarəetmə orqanlarının qarşılıqlı informasiya sistemləri ilə əlaqədədir.

«Maliyyə» AİS-in yaradılması və tətbiqi nəticəsində aşağıdakılara nail olmaq olar:

- informasiyanın işlənməsi, işlənmiş informasiyanın ümumi axınının sürətli artımı, onların tam və dolğun təmin edilməsi zamanı sənəd dövriyyəsinin və əl əməyinin azaldılması;

downloaded from KitabYurdu.az

- maliyyə sisteminin müxtəlif səviyyələrinə daxil olan informasiyanın operativ işlənməsinin artırılması;

- vahid qarşılıqlı əlaqəli sistem kimi maliyyə informasiyasının vahidliyini təmin etmək üçün informasiya bazasının (normativ-məlumatlandırma və hüquqi informasiya, daxili və xarici sənədləşdirilmə, informasiya obyektlərinin siyahıya alınması, nəticələrin təqdim edilməsi və s.) standartlaşdırılması;

- büdcə vəsaitlərinin uçotu üzrə göstəricilərin dolğunluğunun artırılması, onların alınması və istifadəsi zamanı səmərəli nəzarətin həyata keçirilməsi;

- vergilərin daxil olması dinamikasının əsaslı avtomatlaşdırılmış təhlili və bu dinamikanın proqnozunun mümkünlüyü;

- xarici sistemlərlə – dövlət və təsərrüfat idarəetmə orqanları, bank sistemi, vergi orqanları, gömrük orqanları və s. ilə informasiya mübadiləsinin operativliyinin və bütövlüyünün artırılması;

- konkret gün üçün büdcənin gəlirləri və xərcləri haqqında məlumatların alınmasının tamlığının və operativliyinin artırılması;

- büdcənin icrasının hər hansı bir ierarxik səviyyəsində büdcənin gəlir və xərc dinamikasının analitik təhlilinin dərinləşdirilməsi;

- büdcənin icrasının müxtəlif ierarxik səviyyələri arasında büdcənin gəlir və xərcləri haqqında informasiyanın (metodik və təlimatlandırıcı materiallar – yuxarıdan aşağı, hesabat və analitik informasiyalar – aşağıdan yuxarı) operativ ötürülməsi.

«Maliyyə» AİS-nin fəaliyyəti müəyyənləşdirilmiş real tələbat əsasında büdcə proseslərini daha səmərəli və seçimli optimallaşdırmağa, maliyyələşdirmədə ciddi «kəsir»

downloaded from KitabYurdu.az

ehtimalını azaltmağa, büdcənin icrası prosesini daha ararlı olmağa imkan verir.

30.3. Vergi sistemində proqressiv informasiya texnologiyaları

Pul vəsaitlərinin dövlət büdcəsinə yığılması ilə məşğul olan ən mühüm orqan vergi xidməti orqanıdır ki, bu da Azərbaycan Respublikası Vergilər Nazirliyindən, 12 Ərazi Vergilər İdarəsitndən, işğal altında olan şəhər və rayon vergi şöbələrindən, Naxçıvan MR Vergilər Nazirliyindən, Bakı şəhəri Vergilər Departamentindən və onun Bakı şəhəri üzrə 3 filialından ibarətdir.

Dünya təcrübəsi göstərir ki, informasiya texnologiyalarının nailiyyətlərinin tətbiqi vergi orqanlarının işində ən perspektiv və iqtisadi səmərəlik istiqamətidir. Vergi informasiyasının emalının təşkili üsulları vergilərin tam yığılmasına daha ciddi təsir edir. Buna görə də əsas məsələ vergi xidmətinin fəaliyyətinin əsas istiqamətləri üzrə informasiyanın vaxtında tətbiqi, işlənməsi (emalı), saxlanması və ötürülməsindən ibarətdir. Vergi orqanlarının əməkdaşlarının gündəlik işlərinin həcmi böyük və mürəkkəb olduğundan bu işləri kompleks qaydada işləmək üçün vahid məlumat şəbəkəsinin yaradılması zəruridir.

Vahid məlumat şəbəkə sisteminin yaradılmasının tərkib hissəsindən biri korporativ telekommunikasiya şəbəkəsidir. Bu şəbəkənin əsas məqsədi vergi sisteminin bütün struktur bölmələri arasında etibarlı və fasiləsiz əlaqə yaratmaqla informasiyanın ötürülməsinin keyfiyyətinin təmin edilməsçindən ibarətdir.

downloaded from KitabYurdu.az

Korporativ telekommunikasiya şəbəkəsinin yaradılması mərhələləri aşağıdakı kimidir:

1. Yerlərdə infrastruktura və telekommunikasiyanın imkanlarının öyrənilməsi məqsədilə vergi orqanlarının mövcud infrastrukturunun araşdırılması;

2. Korporativ telekommunikasiya şəbəkəsi üçün optimal topologiyanın seçilməsi;

3. Məlumatların ötürülməsi üçün texniki vasitələrin müəyyən edilməsi:

a) məlumatların kabel xətti ilə ötürülməsi;

b) məlumatların optik lifli xətlərlə ötürülməsi;

v) məlumatların radio xətti ilə ötürülməsi;

q) məlumatların sputnik kanalı ilə ötürülməsi.

4. Telekommunikasiya sisteminin təhlükəsizliyi ilə bağlı məsələlərin həlli;

5. Vergi sisteminin bütün səviyyələrində istifadə olunacaq tətbiqi proqram təminatının hazırlanması:

a) vergi ödəyicilərinin qeydiyyatı;

b) çoxölçülü məlumat bazasının yaradılması;

v) reqlament olunmuş hesabat işlərinin aparılması;

q) təhlilin aparılması;

d) vergi bəyannamələrinin və mühasibat hesabatlarının kameral yoxlamasının həyata keçirilməsi;

e) vergi ödəyicilərinin şəxsi hesabat vərəqələrinin tətbiqi;

c) vergi ödəyicilərinin maliyyə vəziyyətinin təhlili və onların müxtəlif kriteriyalara görə qruplaşdırılması;

i) inzibati cərimələrin tətbiqi;

k) tədiyə borcları ilə işin aparılması;

l) vergi orqanlarının xəzinədarlıq ilə əlaqəsinin təşkili;

downloaded from KitabYurdu.az

m) sənədli yoxlamalrın həyata keçirilməsi;

n) proqnozlaşdırmanın həyata keçirilməsi;

o) kartoqrafik görünüşün yaradılması.

6. Vergi sistemində texniki avadanlıqlara olan tələbatın müəyyən edilməsi;

7. Vahid məlumat şəbəkə sisteminin yaradılması ilə bağlı təşkilati məsələlərin həlli;

8. Vahid məlumat şəbəkə sistemindən istifadə etmək üçün tədris kurslarının təşkil edilməsi.

Vergi orqanlarında informasiyalaşdırmanın texniki əsasını İBM PC tipli personal kompüterlər bazasında lokal hesablama şəbəkəsi təşkil edir.

Vergi orqanlarında informasiya texnologiyalarından istifadə edilməsi aşağıdakı problemlərin həllinə imkan verir:

- ödəniş və hesabat vergi sənədlərinin daxil edilməsi və saxlanması;

- vahid normativ-sorğu informasiyasının fəaliyyət göstərməsi;

- vergi xidmətləri subyektləri arasında informasiya mübadiləsi üçün nəzərdə tutulan kodlaşdırılmış standartlaşdırma sisteminin yaradılması;

- vergitutma üzrə informasiyaların eyniləşdirilməsi;

- sanksiyalaşdırılmamış iştirakçılardan informasiyanın mübadiləsi məqsədilə əlavə tədbirlərin həyata keçirilməsi;

- informasiyanın qorunmasını və təhlükəsiz saxlanmasını təmin etmək məqsədilə əlavə vasitələrin cəlb edilməsi;

- vergitutma üzrə məlumatların arxivləşdirilməsi və bu məlumatlar əsasında proqnoz hesabatın tərtibinin mümkünlüyü;

downloaded from KitabYurdu.az

- arxiv-sorğu sisteminin tətbiqi, informasiya bazasına, hesabat formalarına və digər başqa sənədlərə sorğunun nəticələrinin işlənməsi;

- giriş interfeys formalarının, çıxış hesabat formalarının, sorğu kitabxanasının, istifadəçilərin şəxsi kartotekalarının modifikasiyası;

- istifadəçilərin iş seansı və informasiya bazasının müxtəlif hissələrinin təhlilinin intensivliyi, müxtəlif sistemaltı proqramlara girişin fəallığı haqqında statistik informasiyanın yığılması və işlənməsi.

Yuxarıda qeyd olunan problemlərin həlli hal-hazırda Vergilər Nazirliyində tətbiqi nəzərdə tutulan Vahid məlumat şəbəkəsi sistemi sayəsində reallaşa bilər.

Azərbaycan Respublikasının vergi sistemində Vahid məlumat şəbəkə sisteminin yaradılması kimi mürəkkəb bir işin ixtisaslı mütəxəssislər, ən əsası isə belə bir sistem yaratmaq təcrübəsi olan təşkilat tərəfindən həyata keçirilməsi məqsədə uyğundur.

Bu təşkilat Vahid məlumat şəbəkə sisteminin yaradılması layihəsinin hazırlanması, tətbiqi, proqram təminatının yazılması, əməkdaşların məlumatlandırılması, sistemin texniki müşayiət edilməsi və s. mərhələlərdə Vergilər Nazirliyinin İnformasiya texnologiyası və resursları şöbəsi ilə birlikdə fəaliyyət göstərməlidir. Belə olduqda şöbənin əməkdaşları layihənin yerinə yetirilməsinin bərabər hüquqlu iştirakçılarına çevriləcəklər. Bu isə öz növbəsində gələcəkdə sistemin təkmilləşməsi istiqamətində zəruri dəyişikliklərin şöbənin əməkdaşları tərəfindən yerinə yetirilməsini təmin edəcəkdir.

Vahid məlumat şəbəkə sisteminin yaradılması və tətbiqi prosesində Nazirliyin İnformasiya texnologiyası və resursları şöbəsi aşağıdakı məsələləri həyata keçirməlidir:

downloaded from KitabYurdu.az

1. Müasir informasiya texnologiyaları haqqında məlumatların, yaradılacaq sistemin konsepsiyası, məqsəd və vəzifələri, strukturu və iş texnologiyasının onun tətbiq olunduğu dövrdə mənimsənilməsi;

2. Vergi sistemində vahid məlumat şəbəkə sisteminin yaradılması üzrə məsələnin qoyuluşunun işlənilməsi və yaradılacaq sistemə ümumi texniki tələblərin hazırlanması;

3. Layihənin ayrı-ayrı komponentlərinin hazırlanması və ya adaptasiya proseslərində icraçı ilə birgə fəaliyyət göstərməsi;

4. Gələcəkdə vergi sisteminin işçilərinin öyrədilməsi və sistemin müşaiyəti məqsədilə tətbiq olunacaq şəbəkə sisteminin və proqram təminatının ilkin kodlarının öyrənilməsi;

5. Açıq rabitə kanalı vasitəsilə ötürülən informasiyanın məxfiliyinin qorunması işlərinin mənimsənilməsi;

6. Yerli və ərazi vergi orqanları səviyyəsində məlumat-ların qorunmasının inkişaf etdirilməsi.

Müasir hesablama texnikasından, məlumat sistemlərin-dən və telekommunikasiya vasitələrindən istifadə etməklə vergi sistemində görülən cari işlərin keyfiyyətini artırmağa nail olmaq mümkündür ki, bu da vergi orqanlarının bütün sahələrdə fəaliyyətinə müsbət təsir göstərəcəkdir.

Vergi sistemində avtomatlaşdırılmanın həyata keçirilməsi üçün çox mühüm komponentlərdən biri onun texniki təminatıdır. Vergi orqanlarında olan kompüter, çap qurğuları, server və şəbəkə avadanlıqlarının texniki tərkibinin spektri çox rəngarəngdir. Belə ki, mənəvi cəhətdən köhnəlmiş AT 386-dan tutmuş müasir Pentiumlara qədər bütün növ kompüterlərdən istifadə olunur.

downloaded from KitabYurdu.az

Bütünlükdə vergi sistemində 11 ədəd AT 386, 75 ədəd Pentium markalı kompüterlər istismardadır.

Vergi sistemində həmçinin, şəbəkənin qurulması üçün 23 ədəd NT server, 2 ədəd UNİX server vardır.

Bundan başqa, vergi sistemində 268 ədəd çap qurğusundan istifadə edilir. Onlardan 176-sı lazer tipli, qalanı isə matris tiplidir.

Son vaxtlaradək vergi orqanlarının texniki avadanlıqlarla təchiz olunmasında bir nizamsızlıq olmuşdur. Bu istiqamətdə məqsədyönlü iş Dünya Bankının vəsaiti hesabına maliyyələşən layihə hazırlanan zaman görülmüşdür. Ancaq bu layihə üzrə ayrılmış maliyyənin məhdud olması səbəbindən vergi sistemini texniki avadanlıqlarla tam təchiz etmək mümkün olmamışdır.

İnformasiya texnologiyalarından istifadə etməklə hazırlanan tətbiqi proqramlar vergi sisteminin təkmilləşdirilməsi üçün zəruri komponentlərdəndir. Vergi orqanlarının fəaliyyətinin avtomatlaşdırılması istiqamətində bir sıra proqramlar hazırlanaraq tətbiq edilmişdir.

İlk növbədə vergi ödəyiciləri uçota götürülərək onlara Azərbaycan Respublikasının bütün ərazisində vahid olan eyniləşdirmə nömrəsi verilir. Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi 1) unikal və fərdidir, yəni bir VÖEN bir vergi ödəyicisinə verilə bilər; 2) dəyişməzdir, belə ki, vergi ödəyicisinin ilkin qeydiyyat məlumatları dəyişdikdə, (məsələn, vergi ödəyicisi bu rayondan digərinə keçdikdə) VÖEN dəyişməz qalır; 3) VÖEN etibarlıdır, hər dəfə yoxlanılaraq xüsusi alqoritm əsasında verilir.

Vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi proqram təminatının tətbiqi ilə vergi ödəyicilərinin uçotdan yayınma hallarının qarşısı alınmaqla bərabər, həm də onların dövlət qeydiyyatı haqqında, fəaliyyət növləri və

downloaded from KitabYurdu.az

bank hesabları barədə və s. məlumatlarından ibarət çox geniş informasiya bazası yaradılmışdır.

Vergi sistemində bütün hesabatların (daxilolma, qalıq, icmal daxilolma, icmal qalıq və s.) kompüterdə aparılmasını təmin edən proqramlardan müvəffəqiyyətlə istifadə olunur.

Yuxarıda qeyd olunan bütün tətbiqi proqramlar vergi ödəyiciləri ilə birbaşa təmasda olan yerli vergi orqanlarında istismar olunur və məlumatlar burada toplanır.

Yerli vergi orqanlarında vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi, vergi və ödənişlərin uçotu və hesabatlar üzrə məlumatlar toplusu ayda 1 dəfə disket vasitəsilə mərkəzi aparata verilir və burada həmin məlumatlar respublika üzrə icmallaşdırılır.

Vergilər Nazirliyi ilə digər dövlət qurumları arasında da mütəmadi məlumatlar mübadiləsi aparılır. Belə ki, ayda bir dəfə Dövlət Gömrük Komitəsindən idxal-ixrac əməliyyatları barədə məlumatlar disket vasitəsilə alınır və xüsusi hazırlanmış proqram vasitəsilə bu məlumatlar rayonlar üzrə qruplaşdırılır və istifadə üçün yerli vergi orqanlarına təqdim edilir.

Yuxarıda sadalananlardan göründüyü kimi, hələlik Vergilər Nazirliyi sistemində, həm sistemin öz daxili qurumları arasında, həm də kənar təşkilatlarla məlumatlar mübadiləsi bəsit yolla, yəni disket vasitəsilə aparılır.

Vergilər Nazirliyində aparılmış struktur islahatları, yəni Bakı şəhəri Vergilər Departamentinin, Ərazi Vergi İdarələrinin, Vergilər Nazirliyi nədində vergi ödəyicilərinə xidmət İdarəsini yaradılması ötürülən informasiyanın sürətinin artırılmasını tələb edir ki, bu sahədə Vergilr Nazirliyində əsaslı işlər görülür. İlk addımlardan biri kimi Vergilər Nazirliyinin http://taxes.gov.az saytı yaradılmışdır.

downloaded from KitabYurdu.az

Ə D Ə B İ Y Y AT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2000
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi.
4. Hərbi qanunvericilik. Bakı, 1998
5. «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
6. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002
7. «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002
8. «Vətəndaşların pensiya təminiatı haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1993

downloaded from KitabYurdu.az

9. «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997
10. «Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
11. «Tibbi sığota haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
12. «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
13. «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992
14. «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
15. «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
16. «Bələdiyyələrin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
17. «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı,1999
18. «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1993
19. «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
20. «Əlillərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1998
21. «Pensiya haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı,
22. «Dövlət borcu haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992

downloaded from KitabYurdu.az

23. «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002
24. «2002-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
25. «2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu
26. «Birdəfəlik rüsum haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995
27. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə. Bakı, 2000
28. Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə. Bakı, 2001
29. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı haqqında Əsasnamə. Bakı, 2000
30. «Məcburi dövlət sosial sığorta ödəmələrinin hesablanması və ödənilməsi haqqında Əsasnamə. Bakı, 1998
31. Azərbaycan Respublikası dövlət büdcəsinin təsnifatı. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Bakı, 1998
32. Azərbaycanın statistik göstəriciləri, 2002
33. Azərbaycanın iqtisadi icmalı, 1996-2002
34. Bödcetnıy Kodeks RF. Moskva, 1998
35. Abbasov Ə.M., Sadıqov M.M. Azərbaycan Respublikasının regionları: maliyyə və vergi potensialının proqnozlaşdırılması problemləri. Bakı, 2002
36. Bədəlov Ş.Ş. Azərbaycan Respublikasının büdcə kəsiri və onun aradan qaldırılması yolları. İqtisad elmləri: nəzəriyyə və praktika. № 1, 2. Bakı, 1999

downloaded from KitabYurdu.az

37. Bədəlov Ş.Ş. Yeni şəraitdə büdcə tənzimlənməsinin təşkili və təkmilləşdirilməsi istiqamətləri. «Audit» № 4. Bakı, 2000.
38. Bədəlov Ş.Ş. Sosial sığorta və sosial təminatın məzmunu və təşkili prinsipləri. İqtisad elmləri: nəzəriyyə və praktika. № 1,2 Bakı, 2000
39. Baqirov D.A. Naloqovaə proverka. Baku, 1997
40. Əliyev A., Qasımov Ə., ZeynalovV., Cəfərov Z. Bələdiyyələrə elmi-metodik kömək. Bakı, 2002
41. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002
42. Qurbanov F.Ə. Dövlət xəzinədarlığı büdcənin gəlir və xərclərinə nəzarətin başlıca formasıdır. Curnal «Maliyyə-uçot», N2, 2002
43. Qraçeva E.Ö., Sokolova G.D. Finansovoe pravo. Uçebnik. Moskva, 2000
44. Nağıyev Z.A. Təhsil işçilərinin hüquqi məsələləri üzrə məlumat kitabı. Bakı, 1999
45. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. Bakı, 2002
46. Musayev A.F., Rzayev Z.H., Süleymanov Q.S., Vergi sistemi (dərs vəsaiti). Bakı, 1998
47. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev Z.H., KəlbiyevY.A. Vergitutmanın nəzəri və metodoloci əsasları (dərslik). Bakı, 2001
48. Maliyyə (dərslik). Bakı, 2001
49. Məmmədov S.M. Maliyyə (dərslik). Bakı, 1997
50. Məhərrəmov R.B. Tarixi keçmişimizin vergi və mükəlləfiyyət sistemindən. Sosial bilgilər № 4, 2000
51. Mestnoe samoupravlenie. Uçebnoe i praktiçeskoe posobie /Pod red. Vasilğeva V.İ. Moskva, 1999

downloaded from KitabYurdu.az

52. Polək Q.B. Bödcetnaə sistema Rossii. Uçebnik. Moskva, 1999
53. Postovoy N.V. Muniüipalğnoe pravo Rossii. Moskva, 1998
54. Sadıqov M.M. Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri. Bakı, 2001
55. Sadıqov M.M., Zeynalov V.Z., Sadıqova Q.M., Aliev V.F. Rınoçnaə gkonomika: finansı i naloqi. Baku, 2001
56. Finansı. Uçebnik. /Pod red. V.M.Rodionovoy. Moskva, 1999
57. Finansı. Uçebnik. /Pod red. L.A.Drobozinoy. Moskva, 2000
58. Finansı, denğqi, kredit: Uçebnik /Pod red. O.V.Sokolovoy. Moskva, 2001
59. Finansı, denecnoe obrahenie i kredit: Uçebnik Romanovskiy M.V. i dr. /Pod red. M.V. Romanov-skoqo i O.V.Veriblevskoy. Moskva, 2001
60. Finansovo-kreditnıy slovarğ. V 3-x tomax. Moskva, 1994, 1996, 1998
61. Xankişiyev B.A. Maliyyə nəzarəti (dərs vəsaiti). Bakı,2002
62. Xəlilov S.S. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı, 1999
63. Hacıyev R. Təftiş və nəzarət (dərslik). Bakı, 1999
64. Həsənli M.X. Vergilər. Bakı, 1998
65. Şəkərəliyev A.Ş. Keçid iqtisadiyyatı və dövlət. Bakı, 2000
66. Ötkina T.F. Naloqovedenie. Moskva, 1999

BƏDƏLOV ŞAKİR ŞAHPUR oğlu
MƏHƏRRƏMOV RAMİZ BULUT oğlu

downloaded from KitabYurdu.az

QURBANOV FİRSƏND ƏLİHEYDƏR oğlu

BÜDCƏ SİSTEMİ
(dərslik)

Nəşriyyatın direktoru:

Redaktor:

Korrektor:

Operator:

Kompütet tərtibatçıları:
Sadıqova Aytən Oqtay qızı
İsgəndərova Kəmalə Tahir qızı
Oruczadə Məhsəti Cümşüd qızı
Qasımova İlahə Bəkir qızı

downloaded from KitabYurdu.az

downloaded from KitabYurdu.az